**BAY:** Türk dillərində işlənən *"bay"* (bəy) sözü *"Orxon-Yenisey" abidələrində, "Divan"da, "Kutatqu bilik"də, əski Uyğur dilində, Qıpçaq türkcəsində, "Kitabi-Dədə Qorqud"* dastanında "zəngin" mənasında istifadə edilmişdir. *Yunus Əmrə* şeirlərindən birində belə ifadə edir: *Bana gelsin yoksul olan, bay olan.*

Avşarlar arasında artıq unudulmağa üz tutsa da, eyni mənada istifadə edilməkdədir. Dadaloğlu *"Yara-yara bir kavgaya girmedik"* şeirində belə deyir:

*Birden kapıştılar kulunu tayı*

*Kanı garrah oldu yoksulu bayı [5].*

Dastan leksikamızda da "bəy" sözünə sıxlıqla rast gəlirik.

*Yenə saldın məni ahu vaylara*

*Yoxsul olan qulluq edər baylara,*

*Qolu bağlı atdırırdın çaylara,*

*Mən dəlini tutan günlər necə oldu? [8]*

**BAYAK:** Əvvəllər tez-tez istifadə edilən sözlərdən biri idi. *"Bir az öncə"* mənasında çox türk dillərində unutulsa da, dilimizdə hələ də *"bayaq"* formasında işlənməkdədir. "*Divan"da, əski Uyğur dilində, "Kitabi-Dədə Qorqud"* dastanında "baya" şəklində istifadə edilən bu söz *"az öncə", "əvvəlcə"* mənasında istifadə edilmişdir.

Şeirlərinin dili xalq danışığına yaxın olan Yunus Əmrə əsərlərində də bu ifadəyə rast gəlirik.

*Aşk aldı elim benim gösterdi doğru yolum*

*Hakk'a şükür kim hâlim bayağıdan hoş oldu [10].*

**BİBİ:** Fars dilindən türk dillərinə keçən bu söz *"xanım, "xatun", "hala"* mənasında işlənməkdədir. Avşarlarda atanın bacısına *"bibi"* deyirlər. Müasir Türkiyə türkcəsində bu söz "hala" şəklində işlənir.

*Asbabı goluma atın*

*Gapı gapı geziciyim*

*Ben bibimin gadasını*

*Özne gınam eziciyim [11].*

**BILDIR:** Hazırda dilimizdə *"bildir"* şəklində işlənən bu söz *"keçən il"* mənasına gəlməkdədir. *"Divani-lüğət-it-türk"*də də işlənən bu söz keçən il mənasında Avşarlarda olduğu kimi bir çox türkdilli xalqlarda istifadə edilməkdədir. Dadaloğlu şeirində:

*Dadaloğlu'm bu nasıl haldir?*

*Seneler sayılmaz kaç tane bıldır [5].*

**HAÇAN:** Əski türkcədə *"kaçan"* formasında işlənən bu söz *"Divan"da, "Kutatqu bilik"də, əski Uyğur dilində, Qıpçaq türkcəsində, "Kitabi-Dədə Qorqud"* dastanında *"nə zaman"* mənasında işlənməkdədir. Haçan dedikdə ağlımıza ilk olaraq Qara dəniz türkləri

gəlir. Çünki hələ də Qara dəniz bölgələrində bu söz istifadə olunmaqdadır. Yunus Əmrə şeirində: *Kaçan kim ben beni bildim yakîn bil kim Hakk'ı buldum.*

Dadaloğlunun *"Yükseklerde şahin gibi süzülür"* şeirində:

*Haçan dostu ansa gönlüm üzülür*

*Şimdi döndüm düzen tutmaz tele ben [5].*

**KAKMAK/KAKINÇ:** *"Divan"*da *"kakmak"* (qaxmaq) feili *"astaca vurmaq"* mənasında işlənməkdədir. *"Dədə Qorqud"* hekayələrində də eyni mənada rast gəlinməkdədir. *"Kakmak"* feili vasitəsilə yaranan *"kakınç"* (qaxanc) sözü *"başa vurulan eyib"* mənasındadır. Dilimizdə də "qaxanc" şəklində işlənməkdədir. Avşarlar arasında hələ də istifadə olunmaqdadır.

*Sesimi kimse duymasın*
*Sonra kakarlar başıma*
*Obalara yaz gelirken*
*Bizi yaktın ataşına [11].*

**OĞORLAMAK:** Əski türkcədə işlənən "ogrı" sözündən yaranmışdır. *"Divan"da, "Kutatqu bilik"də, əski Uyğur dilində, Qıpçaq türkcəsində, "Kitabi-Dədə Qorqud"* dastanında bu söz *"nəyisə gizlicə götürmək"* mənasında işlənməkdədir. Əski Anadolu türkləri də bu sözdən istifadə etmişdir. Müasir Azərbaycan dilində fonetik dəyişmə ilə *"oğurlamaq"* formasında istifadə olunur.

**YAZI:** İlk yazılı mənbələrimizdən olan *"Orxon-Yenisey" abidələrində, "Divan"da, "Kutatqu bilik"də, əski Uyğur dilində, "Kitabi-Dədə Qorqud"* dastanında *"oba"* mənasında işlənən bu söz, *Qıpçaq türkcəsində "çəmən"* mənasında işlənməkdədir. Avşar türklərində *"oba", "tarla"* mənasında bu söz intensiv şəkildə istifadə edilməkdədir.

*El yazıya, el yazıya*

*Duman çökmüş gölyazıya*

*Kurban olam, kurban olam*

*Beşikte yatan kuzuya vay [11].*

**SAYRI:** Əski türkcədə *"xəstə"* mənasına gəlirdi. *"Dədə Qorqud"* hekayələrində keçən bu sözün Avşarlarda da eyni mənada işlənməsi məlumdur. Avşarlarda yanlış söz və davranış sərgiləyən insanlara xəbərdarlıq etmək üçün də *"sayrumusan?"* (xəstəsən?) şəklində istifadə olunur. Qədim yazılı mənbələrimizdə fonetik dəyişmə ilə *"sayru"* formasında da rast gəlirik.

## NƏTİCƏ

Dillərdəki bəzi sözlərin zamanla bugünkü türkcədə istifadədən çıxsa da, dialektlərə yapışaraq yaşamağa davam etdiyi görülür. Bəzi ədəbi janrlarda saxlanılan sözlərin məna və qrammatik strukturlarında dəyişikliklərin davam etməsinin səbəbləri bunlardır:

1. Atalar sözləri və deyimlərdə tutunma onların mənasının daralması və genişlənməsi bugünkü türkcədə işlənməsinin səbəbidir.
2. "Tutunmuş sözlər"in şeir və xalq mahnılarında, şeir və nəğmələrdə həyatı həm ədəbi janr, həm də musiqişünaslıq baxımından geniş yayılmış və əbədiləşdirilmişdir.
3. "Tutunmuş sözlər" dialektlərdə işlədildiyi üçün həmin formada ilk növbədə xalq mahnıları və bədii mətnlərə daxil olaraq o formada qalıblar.

**ƏDƏBİYYAT**

1. Adnan Menderes Kaya. Avşar ağıt ve türkülüerinin derlenme meselesi. 2016
2. Adnan Menderes Kaya. Avşar yörelerinde söz varlığı. 2015
3. Ayşe Aydın. Anadolu ağızlarında ünlemler ve bir sınıflandırma denemesi. 2018
4. Arzu Yıkılmaz. Türkçede tutunmuş sözler ve ekler. 2022
5. Dadaloğlu şeirləri. Kültür ve sanat. 2004. 44 səh.
6. Kaşqari M. Divani-lüğət-it-türk. I-IV cild. Bakı, "Ozan", 2006. 751 səh.
7. "Kitabi-Dədə Qorqud" ensiklopediyası. I cild. Bakı, "Yeni nəşrlər evi", 2000. 622 səh.
8. "Koroğlu" dastanı. Bakı, "Lider", 2005. 552 səh.
9. Özhan Öztürk. Akrabalık terminolojisi. 2017
10. Yunus Əmrə şeirləri. Ötüken. 2022. 121 səh.
11. https://www.turkudostlari.net/soz.asp?turku=25657

## ULUSAL VE YÖRESEL TÜRK RESMİNDE GÖÇEBE AVŞARLAR VE PLASTİSİTESİ

**Arif Esen BAYKURT**

İnönü University, Institute of Social Sciences,

Painting ASD. (Main Art Major),

Competence in Art/Ph.D. Student, TÜRKİYE

e.baykurt@gmail.com

*0000-0002-1438-1276,* 0-555-0811186

**ABSTRACT**

According to the Oghuz mythology, the Avşars (Afşars) come from Avşar, the name of Yıldız's eldest son, one of the eldest sons of Oguz Kagan called Bozoks. According to Kaşgarlı Mahmut, it was used in the sense of Afshar (meaning the one who does his work quickly), and the Arab historian Makrizi was the first to use this word as a village name. In the Ottoman Empire, Avşars were settled in Anatolia, Raqqa, Aleppo, and Cyprus. The settlements in Anatolia were around Kütahya-Aydin, Konya-Karaman, İçel Teke, Ankara-

Nevşehir (Kırşehir, Kayseri), Sivas, Çukurova, Diyarbakır-Malatya regions. Duran Karaca, Ali Demir, Mustafa Pilevneli, Ruzin Gerçin, Hüseyin Bilişik, Neşet Günal, Mehmet Pesen, and Nuri İyem, who paint traditionally, produced outstanding works that embrace the nomadic Anatolian people in the wide portal. However, when this general trend and Avşar women's clothes are examined carefully; they consist of pul patches (metal akçe coins), fez wraps, fistan, işlik (embroidered vest), garment belts, shalwar, waistcoat, cepkens/vests, and Yemeni (light traditional shoes). After the head is carefully tied, the fez is put on. The fez is covered with akçe coins, and tied at the top. When the works of artists who fit these dress codes are examined, the works of artists such as Halil Dikmen, Turgut Atalay, Turgut Zaim, Oya Katoğlu, Eşref Üren are encountered. The purpose of the research; to examine the potential existence of Avşars in Turkish Painting and analyze their cultural contributions to Turkish painting, which progressed parallel to Western influences and interaction. The importance of research; is to reveal awareness of the potential of Avşars folklore and cultural clothing in the plastic arts. The research is built on the problem statement, "What is the aesthetic context of Avşars in Turkish plastic arts?" The research was carried out with the qualitative research method, and in order to reach the data, literature and the internet were searched, folkloric designs were analyzed, and universal interpretations were made. In the research, only Avşars, among the nomads, were considered, and their effects on plastic arts were limited to being examined. As a result of the research, in order to see the effect of Avşars in Turkish painting, it has been concluded that a more reliable classification can be made based on local Avshar clothing. Also, it was concluded that artists such as Halil Dikmen, Turgut Atalay, Turgut Zaim, Oya Katoğlu, and Eşref Üren focused more carefully on the nomads and avşars in their works.

**Keywords:** Avşars, Afşars, Yoruks, Turkish Painting, Nomads, Bozoks, Turgut Zaim.

**ÖZET**

Oğuz efsanesine göre Avşarlar (Afşarlar), Bozoklar denilen Oğuz Kağa'nın büyük oğullarından Yıldız'ın en büyük oğlunun adı olan Avşar'dan gelmektedir. Kaşgarlı Mamut'a göre Afşar (işlerini çabuk yapan) anlamında kullanılmış olup bu kelimeyi bir köy adı olarak ilk kullanan Arap tarihçisi Makrizi'dir. Osmanlıda Avşarlar, Anadolu, Rakka Halep ve Kıbrısa yerleştirildiler. Anadoludaki yerleşim yerleri ise Kütahya-Aydın, Konya-Karaman, İçel Teke, Ankara-Nevşehir (Kırşehir, Kayseri), Sivas, Çukurova, Diyarbakır-Malatya yöreleri civarlarıdır. Geleneksel tavırla resim yapan Duran Karaca, Ali Demir, Mustafa Pilevneli, Ruzin Gerçin, Hüseyin Bilişik, Neşet Günal, Mehmet Pesen ve Nuri İyem geniş çerçevede yörük anadolu insanlarını da kucaklayan seçkin eserler üretmişlerdir. Fakat bu genel akıma dikkatli bakıldığında ve Avşar kadın kıyafetleri incelendiğinde; pullu yamalı, fes dolama, fistan, işlik (gömlek), kuşak, şalvar, önlük, cepken/yelek ve yemeniden oluşmaktadır. Baş özenle bağlandıktan sonra fes konulur. Fes üzeri pullu yazmayla kapatılarak tepede bağlanır. Bu kıyafetlere uygulayan ressamlar incelendiğinde Halil Dikmen , Turgut Atalay, Turgut Zaim, Oya Katoğlu, Eşref Üren gibi sanatçıların eserlerine rastlanır. Araştırmanın amacı; Avşarların Türk Resmindeki potansiyel varlığını irdelemek ve Batı etkileşimine paralel ilerleyen Türk resmine olan kültürel katkılarını analiz etmektir. Araştırmanın önemi; Avşarlar folklörü ve kültürel kıyafetlerinin plastik sanatlardaki

potansiyelliğinin farkındalığını açığa çikartmaktır. Araştırma “Avşarların Türk plastik sanatlarındaki estetik bağlamı nedir?” problem cümlesi üzerine inşa edilmiştir. Araştırma nitel araştırma yöntemi ile yapılmış olup verilere ulaşmak amacıyla literatür, internet taraması yapılmış ve folklorik tasarımları analiz edilerek tümel yorumlara gidilmiştir. Araştırmada yörük ve konargöçerlerden sadece Avşarlar ele alınarak plastik sanatlardaki etkileri irdelenmek üzere sınırlandırılmıştır. Araştırmanın sonucunda ise; Türk resminde avşarların etkisini görebilmek için yöresel avşar kıyafetlerden yola çıkılarak daha güvenilir bir sınıflama yapılabileceği kanısına varılmıştır. Ayrıca, Halil Dikmen , Turgut Atalay, Turgut Zaim, Oya Katoğlu, Eşref Üren gibi sanatçıların yörükler ve avşarları daha dikkatle odaklanarak eserlerinde işledikleri yargısına varılmıştır.

**Anahtar Kelimeler:** Avşarlar, Afşarlar, Yörük, Türk Resmi, Göçebeler**,** Bozoklar, Turgut Zaim.

## АВШАРЫ И ИХ ДРЕВНЯЯ ИСТОРИЯ

**Бадалова Айнур Захировна**

**ПРЕПОДАВАТЕЛЬ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА**

**Резюме**

Авшар один из из древних племен участвующих в родословной азербайджанского народа. Авшары были тюркскими кочевым племенем с древней историей. Они вели кочевой образ жизни, проходя через большие территории. Когда авшары были в Средней Азии, они жили в Сыр-Дарьинской области, которая в эпосе о Деде Горгуде называется Огузели. В статье рассказывается об истории, культуре, местах обитания племени авшар, а также о танцах авшаров. Иранские и азербайджанские авшары (афшары) в источниках всегда именуются афшарами. Уже было видно, что авшары основали княжество в провинции Хузистан в Иране в 16 веке под властью сына Арслана Якуба, Шумлы и их сыновей. Сегодня авшары играют важную роль в общественно-политической жизни нашей страны. Они живут во многих уголках Азербайджана и компактно в Агджабединском районе. Авшары живут своими историческими качествами лояльности к государству и защиты его и сегодня. Они участвовали в выборах штата и голосовали за нашего президента.

По мере того, как наша история изучается памятник за памятником, регион за регионом, племя за племенем, наши знания о прошлом увеличиваются и становятся полными. Национальная гордость, рожденная нашим героическим прошлым, укрепляет гражданскую солидарность и политико-культурное единство.

Ключевые слова: Авшары, племя, история, источник, место жительства.

**Xülasə**

Avşar Azərbaycan xalqının nəsil şəcərəsində iştirak edən qədim tayfalardan biridir. Avşarlar qədim tarixə malik türk köçəri tayfası idi. Onlar böyük ərazilərdən keçərək köçəri həyat sürmüşlər. Avşarlar Orta Asiyada olarkən baba Qorqud haqqında dastanda Oğuzəli

adlanan Sır-Dərya bölgəsində yaşayırdılar. Məqalədə Avşar tayfasının tarixindən, mədəniyyətindən, yaşayış yerlərindən, eləcə də avşarların rəqslərindən bəhs edilir. İran və Azərbaycan avşarları (əfşarları) mənbələrdə həmişə əfşarlar kimi qeyd edilir. Avşarların XVI əsrdə İranın Xuzistan vilayətində Arslanın oğlu Yaqub, Şumla və onların oğullarının hakimiyyəti altında bəylik qurduqları artıq görünüb. Bu gün avşarlar ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Azərbaycanın bir çox yerlərində, kompakt şəkildə Ağcabədi rayonunda yaşayırlar. Avşarlar bu gün dövlətə, onun himayəsinə öz tarixi sədaqət keyfiyyətləri ilə yaşayırlar. Onlar ştat seçkilərində iştirak edib, prezidentimizə səs veriblər.

**Açar sözlər:** avşarlar, tayfa, tarix, mənbə, yaşayış

**Summary**

Avshar is one of the ancient tribes participating in the genealogy of the Azerbaijani people. The Avshars were a Turkic nomadic tribe with an ancient history. They lived a nomadic life through large territories. When the Avshars were in Central Asia, they lived in the Syr-Darya region, which is called Oguzeli in the saga of Grandfather Gorgud. The article talks about the history, culture, places of residence of the Avshar tribe, as well as the dances of the Avshars. Iranian and Azerbaijani avshars (afshars) are always mentioned as afshars in the sources. It has already been seen that the Avshars established a principality in the Khuzistan province of Iran in the 16th century under the rule of Arslan's son Yaqub, Shumla and their sons. Today, avshars play an important role in the social and political life of our country. They live in many parts of Azerbaijan, compactly in Agjabedi district. Avshars live today with their historical qualities of loyalty to the state and its patronage. They participated in state elections and voted for our president.

**Key words:** Avshars, tribe, history, source, residence

Авшар один из из древних племен участвующих в родословной азербайджанского народа. Авшары были тюркскими кочевым племенем с древней историей. Они вели кочевой образ жизни, проходя через большие территории. Когда авшары были в Средней Азии, они жили в Сыр-Дарьинской области, которая в эпосе о Деде Горгуде называется Огузели. Как группа людей, пришедших в Анадолу через Ирак, Сирию и Армению вместе с Великим переселением народов, они в настоящее время проживают на территориях Азербайджана, Афганистана, Ирана и Турции. Имя Авшар звучит по-разному в зависимости от мест и регионов. Есть такие произношения и варианты написания, как Авшар, овшар, афшар. Первоначальное и точное название это - авшар. Несомненно, что это название произошло от этнонима турецко-азербайджанского происхождения под названием авшар. Авшары были этнической группой, сыгравшей ключевую роль в формировании азербайджанского народа и языка и активно участвовавшей в создании десятков одноименных топонимов на территории Азербайджана. Имя этого племени неоднократно упоминается в памятниках тюркских народов.

Некоторые историки отмечают, что тюркские племена, гаджары и афшары, пришли из Средней Азии с монгольскими захватчиками. Поселение этого племени в Азербайджане связано с приходом Амира Теймура и Мираншаха Мирзы. На самом деле заселение авшаров в Азербайджане восходит к давним временам. Известно, что Надир-шах, находившийся у власти в Иране в 1736-1747 г. происходил из племени авшар. Талантливый художник-миниатюрист Садик Бей Авшар одна из самых ярких звезд азербайджанского народа. Как великий художник Садык-бей Авшар испытал свои неиссякаемые способности не только в изобразительном искусстве, но и в каллиграфии (имя его упоминается среди каллиграфов во дворце Шаха Аббаса), в музыке, в области поэзии и прозы, в исторических хроник и тезкирной письменности, добился творческих успехов. Известно, что в течение столетий межплеменной борьбы и переселений некоторые тюркские роды вошли в число других тюркских родов и забыли название основного племени и стали называться по имени племени, к которому они принадлежали. Иногда в результате слияния племен образовывались новые племена. Авшары тоже были из таких племен. Это тюркское племя, участвовавшее в этногенезе азербайджанцев. Согласно историческим источникам: «В период Сефевидов значительная часть авшаров была переселена из Азербайджана, в том числе и из Карабаха, и расселена в различных провинциях Ирана. Шах Исмаил I переселил племя кирхли в провинции Абивард и Марв Хорасан. Кырхли поселились в Кубагане, Мияб Сарчешме, вокруг Абиварда».(3)

Отражая все традиции и религию тюрков, исламские ценности у авшаров были тяжелые дни и тяжелые годы. Они формировались в трудные века. Это факт, что после битвы при Малазгирте в 1071 году авшары, ставшие тюркской родиной в Анадолу, стояли на первом месте, как и некоторые другие племена. После битвы при Малазгирте авшары, переселившиеся в Анадолу вместе с туркменами, поселились в отдаленных районах Анатолийское государства сельджуков. Один из них попал в Анадолу через Ирак и Сирию. В целом среди поселений Анадолу название Авшар стоит на втором месте после Кайылара. Эти топонимы, такие как Кайылар и Кыныклар, показывают, что авшары сыграли ключевую роль в завоевании и заселении анатолийской географии.

Так как авшары это только одно племя в тюркской нации, но очень многочисленное, там, где есть турецкое единство, есть и авшары. Мы можем разделить авшаров на три части: анатолийские авшары, иранские и азербайджанские авшары, оставшиеся в Средней Азии. В одном из источников упоминается: «В период Сефевидов, по оценкам, часть афшарских кланов в Персии и Хузестане пришла в Азербайджан, особенно в Урмию. Афшары являются одним из 7 тюркских племен, основавших Сефевидский Надир-шах, принадлежавший к роду Кирхли афшаров в Хорасане, сыграл очень важную роль в истории Азербайджана». (2)

Иранские и азербайджанские авшары в источниках всегда именуются афшарами. Уже было видно, что авшары основали княжество в провинции Хузистан в Иране в 16 веке под властью сына Арслана Якуба, Шумлы и их сыновей. После этого, ближе к концу 15 века, в этой стране вновь обнаруживаются авшары, пришедшие из Анатолии в результате нашествия Аггоюнлу. После создания

государства Сефевидов в 1501 году в Иран пришли новые племена авшаров. Эти племена авшаров из Анатолии создали большое присутствие авшаров в Иране. Эти авшары жили в разных регионах и находились под властью разных родов. В основном это связано с их миграцией в Иран в разное время. Согласно приведенным мнениям: «Тикаб является одним из районов наиболее компактного проживания авшаров. В историко-географической литературе Тикаб называется Тикаб-Афшар, Авшар-Тикаб. В некоторых источниках он упоминается как Такаб. о районе написано: «Такаб, Сарас, Караагач с севера, Мираншах с юга, Граничит с Ангураном на востоке и Сайингалой на западе. Территория района гористая».(2)

В период правления Османов упоминается об образе жизни авшаров: «Авшары, жившие на территории Османского государства, были насильно вынуждены осесть. Авшары, жившие в сельской местности, не способных терпеть поселение и осесть они жестоко над ними издевались».(1. стр 298 )

Существует вид танца, связанный с именем авшаров. Этот танец называется «Авшари». Домашняя обезьяна использовалась в древней танцевальной форме «Авшари». По мнению специалистов, этот «Авшари» считался военным танцем. Азербайджан начинается с широкой инструментальной прелюдии в настроении любви, веселой и игривой. Саз играется на основе слова «цыган». Это основа мугама. Стихотворный текст «Афшари» в форме двустишия есть куплет.

Авшар эли выделялся среди огузского народа своей культурой. Это также было связано с их сильным чувством происхождения. Они не хвалили других и не ругали себя. Они сделали единство и целостность политикой. Авшары считали свое внутреннее пространство раем, а внешнее адом. Благодаря их союзу они добились процветания и богатства. Интересно, что авшары стремятся к искусству не из-за бедности, а из-за богатства. Авшары были заклейменным институтом. Они ставили свою печать на созданные ими произведения, официальные документы, флаги, войлок, а иногда и на надгробия.

Сегодня авшары играют важную роль в общественно-политической жизни нашей страны. Они живут во многих уголках Азербайджана и компактно в Агджабединском районе. Авшары живут своими историческими качествами лояльности к государству и защиты его и сегодня. Они участвовали в выборах штата и голосовали за нашего президента.

**Литература**

1. А. Чингизоглу, А. Авшар. Авшары. Баку, 2008 г.

2. https://az.wikipedia.org/wiki/%C6%8Ff%C5%9Far_boyu

3.https://az.wikisource.org/wiki/Av%C5%9Farlar/Av%C5%9Far_elinin_tarixi_rolu,_co%C4%9Frafiyas%C4%B1_v%C9%99_yay%C4%B1lma_areal%C4%B1

# AZƏRBAYCAN XAQLININ ETNOGENEZİSİNİN FORMALAŞMASI PROSESİNDƏ İŞTİRAK ETMİŞ QƏDİM OĞUZ BOYLARINDAN OLAN AVŞARLAR: TARİX, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT GÜZGÜSÜNDƏ

**Aysel Balasultan qızı Şeydayeva**

**ADPU-nun Quba filialı, Sosial və humanitar məsələlər üzrə direktor müavini**

**Pedaqogika üzrə fəlsəfə doktoru, Qabaqcıl təhsil işçisi**

**turan.sheydayev@mail.ru**

**Xülasə**

Avşarlar qədim oğuz boylarındandır. Tarixi mənbələrdən məlum olduğu kimi Azərbaycan xalqının etnogenezisinin formalaşması prosesində fəal iştirak etmişlər. Avşarlar tarixboyu yaranmış dövlətlərdə qulluq etmiş nümayəndələri ilə, mədəniyyətilə, ədəbiyyatları ilə böyük rol oynayıblar. Necə deyərlər:

Avşar oğulları qurdla yatıb, quşla oyanıblar.

Avşar oğulları çayı dəhnədən, payı təhnədən götürüblər.

Avşar oğlu qırım günü öndə durub, birinci vurub.

Oğuz boyları içində adıyla, mənzilə çatanda atıyla tanınıb. Avşar oğulları savaş günü yağı üstünə gedəndə bağlı qapılar açardılar, qalalara, qüllələrə bayraqlar sancardılar. Bir sözlə, avşarların cəsarəti, mərdliyi tarixin bütün mərhələlərində özünü əyani şəkildə sübut edib. Azərbaycanda bu tayfanın yerləşməsi isə Əmir Teymur və Miranşahın gəlişilə bağlıdır. Hazırda hər kəsə bu elin adı ilə bağlı bir çox mədəniyyət nümunələri də bəllidir. Bu özünü həm musiqidə, ədəbiyyat nümunələrində, həm rəqsdə, həm də digər mədəniyyət və incəsənət sahələrində göstərir.

Adını sevdiyim Avşar bəyləri

Avşar bəyi dələr bizə əzəldən

Sizə bir vəzirlik yakışıb durur

Bülbül yuva yapmış qəzəldən..

Avşar eli Oğuz ulusunun içində mədəniyyəti ilə seçilirdi. Bu da onların güclü soy duyğusu ilə bağlı idi. Avşarlar soy-köklərinə hörmətlə yanaşırdılar. Onlar ac doyurub, yalavac dolandırıblar. Hay deyənə havar, pay deyənə davar verərdilər. Avşarlar birliyi, bütövlüyü siyasət halına gətirmişdilər. Məlumdur ki, avşarlar sənətə zənginliklərinə görə meyl edirdilər. Avşarlar damğalı bir qurum idi. Onlar öz damğalarını yaratdıqları bütün əsərlərə, rəsmi sənədlərə, bayraqlarına, mal-qaralarına, atlarına vururdular. Avşar damğalarına xalı-xalçalarda, qab-qacaqlarda, geyim-kecimlərdə, bəzən də məzar daşlarında rast gəlinir. Bildiyimiz kimi bu gün də avşarlar ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Onlar Azərbaycanın çox yerində, əsasən kompakt şəkildə Ağcabədi rayonunda yaşayırlar. Avşarlar dövlətə sədaqətli olmaq, onu qorumaq kimi tarixi

keyfiyyətlərini bu gün də yaşadırlar. Tarixdən bugünə kimi Avşarlar ilkin adlarını yaşatmış yeganə oğuz boyu, həmçinin tariximizdə ən davamlı rol oynamış bir boydur.

**Açar sözlər:** Avşar, xalq, mədəniyyət, ədəbiyyat, Nadir şah, Oğuz boyu

**Summary**

The Avshars are one of the ancient Oghuz clans, which participated in the process of the formation of the ethnogenesis of the Azerbaijani people. The Avshars have served in the established states throughout history, with their culture, ability, etc. they played a big role. As they say:

The sons of Avshar slept with the worm and woke up with the bird.

The sons of Avshar took the river from the millet and the share from the millet.

Avshar oglu stood in front on the Crimean Day and scored first.

Avshar's hand was a head when he went to the square, and a hand that brought food when he went to the kitchen. Oguz was recognized by his name among his peers, and by his horse when he arrived at the apartment. When the sons of Avshar went to war, they would open closed doors and put flags on the forts and towers. In short, the bravery and bravery of the Avshars have clearly proven themselves at all stages of history. The location of this tribe in Azerbaijan is connected with the arrival of Amir Teymur and Miranshah. At present, many cultural examples related to the name of this hand are known to everyone. This manifests itself both in music and dance, as well as in other areas of culture, literature and art:

Avshar gentlemen, whose name I love

They call us Mr. Avshar from time immemorial

A ministry suits you

From the gazelle that made a nightingale nest..

The Avshar clan was distinguished by its culture among the Oguz nation. This was also related to their strong sense of lineage. The Avshars respected their ancestry. They did not praise others and did not curse themselves. They made unity and integrity a policy. Thanks to their union, they achieved prosperity and wealth. It is interesting that the Avshars were inclined to art not because of poverty, but because of wealth. The Avshars were a stigmatized institution. They put their stamp on the works they created, official documents, flags, cattle, cattle, and horses. Avshar stamps can be found on carpets, tableware, clothes, felts, and sometimes on tombstones. Even today, avshars play an important role in the social and political life of our country. They live in many parts of Azerbaijan, and compactly in Agjabedi district. Avshars live their historical qualities of being loyal to the state and protecting it even today. The Avshars are the only Oguz family whose original name has survived to our time

**Key words:** Avshar, people, culture, literature, Nadir Shah, Oghuz Bo

# ƏFŞARLARIN MƏNŞƏYİ VƏ NADİR ŞAH ƏFŞARIN MİLLİ KİMLİK MƏSƏLƏSİ

# ПРОИСХОЖДЕНИЕ АФШАРОВ И ПРОБЛЕМА НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ НАДИР ШАХА АФШАРА

# THE ORİGİN OF THE AFSHARS AND THE İSSUE OF NADİR SHAH AFSHAR'S NATİONAL İDENTİTY

**Yeganə Qürbət qızı Qəhrəmanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Email: yegane.qehremanova.1976@mail.ru
**https://orcid.org/0000-0003-3730-7674**

**Резуме**

На сегодняшний день одним из наиболее дискуссионных вопросов, нуждающихся в исследовании, является происхождение афшаров, их первой родины, а также национальное самосознание Надир-шаха Афшара. Многие исследователи утверждают, что афшары пришли из Средней Азии, они пришли во многие области, в том числе и в Азербайджан, и что Надир-шах Афшар был персом по национальности, став жертвой целенаправленно проводимой на протяжении многих лет политики исторической фальсификации. Исторические факты доказывают, что родиной афшаров является Южный Азербайджан, а Надир Шах Афшар – тюрк. Существуют десятки английских, турецких, азербайджанских и других источников, подтверждающих эти факты.

Причина, по которой великий правитель и полководец Надир Шах Афшар считается персом, заключается в том, что его военные походы были написаны армянским католикосом Абрамом Текирдагли (Абрам Кретаси). Армяне пытались запечатлеть этот этап нашей истории, как и всю историю Азербайджана.

Ключевые слова: Афшар, тюрк, Надир-шах, огуз.

Abstract

Today, one of the most controversial issues in need of research is the origin of the Afshars, their first motherland, as well as the national identity of Nadir Shah Afshar. Many researchers claim that the Afshars came from Central Asia, they came to many areas, including Azerbaijan, and that Nadir Shah Afshar was Persian by nationality, having become a victim of the policy of historical falsification carried out on purpose for many years. Historical facts prove that the homeland of the Afshars is South Azerbaijan, and Nadir Shah Afshar is a Turk. There are dozens of English, Turkish, Azerbaijani and other sources that confirm these facts.

The reason why the great ruler and general Nadir Shah Afshar is considered a Persian is that his military campaigns were written by the Armenian Catholicos Abram Tekirdağli (Abram Cretasi). Armenians tried to record this stage of our history as well as the entire history of Azerbaijan.

Key words: Afshar, Turk, Nadir Shah, Oghuz

Bu gün ən çox tədqiqata ehtiyacı olan, mübahisəli məsələlərdən biri də əfşarların mənşəyi, onların ilk ana vətəni, eləcə də Nadir şah Əfşarın milli kimlik məsələsidir. Tədqiqatçıların çoxunun uzun illər boyunca sovet dövründə məqsədli şəkildə aparılan tarixi saxtalaşdırma siyasətinin “qurbanına çevrilərək” əfşarların Orta Asiyadan gəldiyini, Dədə Qorqud dastanında Oğuzeli deyilən Sırdərya bölgəsində yaşadıqlarını, bir çox ərazilərə, o cümlədən Azərbaycana gəlmə olduqlarını iddia etməsi bu qədim türk tayfası, eləcə də Azərbaycanın böyük tarixi şəxsiyyətlərindən olan Nadir şah Əfşar haqqında tarixi həqiqətlərin üzə çıxarılmasına mane olmuşdur. Bu azmış kimi cəmi iki-üç əsr bizdən uzaqda olan hadisələrə aid həqiqətləri gizlədərək hərbi nailiyyətlərinə görə “Şərqin Napoleonu” və “İkinci Makedoniyalı İsgəndər” adlandırılan, Azərbaycan, Türküstan, eləcə də Hindistanın şahı (1736–1747), türksoylu yeni Əfşarlar sülaləsinin banisi, Nadirqulu bəy və Təhmasibqulu xan adları ilə də tanınan Nadir şah Əfşarı fars hesab edənlər də olmuşdur. Tarixi həqiqətlər isə əfşarların eramızdan əvvəlki dövrlərdə Güney Azərbaycan ərazisində tarix səhnəsinə gəldiyini sübut edir. Hətta Əfşar imperiyasının sonuncu ən böyük imperatoru Nadir şahın öz soy-kökünün Azərbaycan torpaqlarında olduğuna əmin olması barədə məlumatlar da vardır. Göstərilir ki, Nadir şah Əfşar 1730-cu ildə Urmiya gölünün güney sahilində və Marağanın güneyində yerləşən əfşar tayfasını - öz tayfasının "ana yurdunu" tapdığına görə çox şad olmuşdu". Tədqiqatçı-alim Z.Əliyev yazır ki, “Nadir şahın öz soy-kökünün Azərbaycan torpaqlarında olduğuna əmin olması ilə bağlı “Tadhkirat al-mulūk. A manual of Ṣafavid administration, circa 1137/1725. Persian text in facsimile-B.M. Or. 9496. Translated and explained by V. Minorsky” əsərinin 164-cü səhifəsində yazılır: “Əfşar tayfası bütöv İran üzrə səpələnib, lakin burada mətnimiz [Təzkirətül-mülük] tayfanın Urmiya gölünün güney sahilində və Marağadan güneydə məskunlaşan hissəsini nəzərdə tutur. Nadir Şah 1730-cu ildə burada öz tayfasının "ana yurdunu" tapdığına şad olmuşdu". Türkiyəli tədqiqatçı A.Kaya “Əfşar türkmənləri” əsərində də bu fikri təsdiq edir”.

Məlumdur ki, Rəşidəddindən üzü bəri əfşarların Oğuz xanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın adından gəldiyi göstərilir. Əfşarların 24 oğuz boyundan biri, müasir əfşarlar isə azərbaycanlıların subetnosu Mahmud Qaşğarlıya görə, "Divani Lüğət-it-Türk"dəki iyirmi iki oğuz boyundan altıncısı, Səfəvi dövlətini quran 7 türk qəbiləsindən biridir. Tədqiqatçılardan V. Minorski “Tadhkirat al-mulūk. A manual of Ṣafavid administration, circa 1137/1725”, Türkiyəli tədqiqatçı A.Kaya isə “Əfşar türkmənləri” adlı əsərində də bu fikirləri təsdiq edirlər. Nadir şahın türk soylu olduğunu isə sübut edən onlarla ingilis, türk, Azərbaycan və digər xalqlara aid tarixi mənbələr vardır.

Nadir şahın mənşəyindən danışanlar onun "qılıncdan yarandığını”, sadə kəndli ailəsində dünyaya gəlmiş, öz qabiliyyəti ilə yüksəlmiş Nadir şah fars deyildi, onun farsa heç bir aidiyyəti yoxdur. Nadir şahın “fars” kimi təqdim edilməsi tarixi saxtalaşdırmaqdan başqa bir şey deyildir.

Nadir şahın Oğuz-türkmən soylu əfşar boyundan olmasını Mirzə Mehdi Astarabadi, Məhəmməd Kazım Mərvi, A.A.Bakıxanov, L.Lokkart, K.Bosvort, Stenli Len-Pul, V.Minorski, E.Şmidt, S.R.Kişmişev, Ə.Kəsrəvi, S.Nəfisi, M.R.Arunova, P.Q.Butkov, eyni zamanda, bir çox müasir tədqiqatçılar da yazıblar. İngilis müəllifi K.Bosvort, M.Aksvorti,

L.Lokkart yazırlar ki, Nadir şahın təmsilçisi olduğu əfşar – Oğuz-türkmən soylu əfşar tayfasıdır.

Tədqiqatçı-alim Z.Əliyev göstərir ki, Nadir şah şəxsən Osmanlı dövləti sədrəzəmi Əli Paşa Həkimoğluna məktubunda yazırdı:

"Mənim cəddim müqəddimə Çingiz xurucunda Ruma gedən ali-Osmanın cəddi Ərtoğrulun qarındaşı olub, babaları Süleyman şah suya qərq olduqda mənim cəddim İrana getmiş idi".

Nadir şahın sarayında yaşamış, şəxsi səlnaməçisi olmuş Mirzə Mehdi xan da bu barədə yazırdı ki, Nadir şah türkmənlərin əfşar boyundandır.

Alim "Bəs Nadir şahın niyə bu qədər qələbələri ola-ola, onlar farsın ayağına bağlanır?" sualına isə belə cavab verir: "Cavab sadədir: Nadir şah Əfşarın hərbi yürüşlərini erməni katalikosu Abram Tekirdağlı (Abram Kretasi) qələmə almışdır".

Deməli, hər yerdə olduğu kimi, bu böyük tarixi şəxsiyyətlə bağlı məlumatların saxtalaşdırılmasında da ermənilərin rolu olmuşdur. Lakin Nadir şahın türksoylu olmasını təsdiqləyən faktlar çoxdur. AMEA Əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimov Əbdürrəhim Şirvaninin Tehranın Məclis kitabxanasında saxlanan Əfşarlar dövrünə aid türk dilinin leksika və qrammatikasından bəhs edən "Kitabi-məzhər əttürki" əsərinin surətini əldə etmişdir. Şirazda yazılmış 80 vərəqlik, müqəddimə, 4 fəsil və nəticədən ibarət olan bu kitabda Azərbaycan, Osmanlı, özbək dillərinin xüsusiyyətləri araşdırlır, farsdilli əhaliyə bu dillər barədə məlumat verilir. Müəllif ayrı-ayrı sözlərin mənasını, leksik, morfoloji xüsusiyyətlərini izah edərkən Nəvai, Füzuli və başqa şairlərin əsərlərindən nümunə kimi istifadə etmişdir. Alim Nadir şahın türk dilinə qayğısını, bu dilin öyrənilməsi və tədrisi olunması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Ədalət Tahirzadə "Azərbaycan imperatorları" əsərində Nadir şahdan bəhs edərkən yazır: "Miladdan öncə VII yüzildə Alp Ər Tonqa ilə başlayan türk cahangirləri silsiləsi 2500 il sonra Nadir şahda bitir. Onun tarixi xalqımızın və Vətənimizin əbədi çağlayan coşğun qürur qaynağıdır. Nadir şah, ömrünün ən azı 37 ilini eyni zamanda həm xarici işğalçılarla, həm də ölkə içindəki satqınlarla 120-dən artıq müharibədə keçirib. O, Səfəvilərin son çağlarında dağılmaqda olan dövləti yenidən bərpa etdi, bütün işğalçıları ölkədən qovdu, daxili qiyamları yatırdı, ölkə torpaqlarını iki dəfə genişləndirərək qüdrətli bir Əfşar imperiyası yaratdı" (5.s. 149).

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Nigar Gözəlovanın və Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Bağırovun həmmüəllifi olduqları "XVIII əsrin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri" adlı kitablarda** Nadir şahın Bağdad yürüşləri və XVIII əsrin birinci yarısında Şərq dövlətləri arasındakı münasibətlər müstəvisində Əfşar-Osmanlı əlaqələri araşdırılır. Nadir şahın diplomatiyası və dini islahat cəhdləri ikitərəfli münasibətlərin dostluq müstəvisinə keçməsi ilə nəticələnməsə də, bu iki türk dövlətinin yaxınlaşmasında ilk və mühüm addım kimi dəyərləndirilir (1.s.47).

Müəlliflər XVIII əsrin başlanğıcında Səfəvi dövləti zəiflədiyi bir dönəmdə ölkənin qonşuluqda olan dövlətlər tərəfindən hücuma məruz qalması, əfqanların tərəfindən qaldırılan üsyan, Azərbaycanın Osmanlı və Rusiya dövlətləri arasında bölüşdürülməsi,

siyasi vəziyyətin bununla daha da kəskinləşməsi haqqında məlumat verərək yazırlar: "Belə bir zamanda Xorasana köçürülmüş qızılbaş-türk əfşar sülaləsindən olan Nadir öz sərkərdəlik məharətini göstərərək, Səfəvi dövlətinin ərazi bütövlüyü uğrunda mübarizəyə başladı. Beş il ərzində əfqanları, rusları, türkləri ölkə sərhəddindən uzaqlaşdırdı. Nüfuzunu itirmiş Səfəvi dövlətinə son qoyaraq Əfşarlar dövlətinin əsasını qoydu". Müəlliflər Roma papası tərəfindən Nadir şaha yazılan iki məktubdan, Nadir şahın Hindistanda olduğu müddətdə oğlu Rzaqulu tərəfindəbn xristianlara müəyyən imtiyazlar verilməsindən də bəhs etmiş, Nadir şahın dini ishahatlar keçirməklə İslamdakı məzhəb ayrılığına son qoymağa çalışması, hətta Osmanlı imperiyasına bu məqsədlə elçi göndərməsi, eləcə də bütün dinlərə aid müqəddəs kitabları fars dilinə tərcümə etdirməsi barədə karmelitlərin məlumatları barədə də məlumatlar təqdim etmişlər (1.s.57).

Göründüyü kimi, əfşarların Azərbaycandan başlayan qədim tarixi olmuş, Nadir şah Əfşar da mənşəcə həmin türk boyundan olmuşdur. Müxtəlif mənbələrdə Nadir şahın fars olması haqqında məlumatlar isə uyğdurmadır və tamamilə siyasi məqsədlərlə ortaya atılmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. **Gözəlova N, Bağırov Ə, G "XVIII əsrin 30-40-cı illərində Nadir şah. Bakı, 2019**
2. Mamedova, R. "Politika Nadir şaxa в отношении религиозных меншинств". Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası, №4, 2011, 152-160.
3. Pilipçuk, Y. V. "Nadir –şax i Qruziya". İranname. №4, 2018, 238-271.
4. Məlikzadə, S. Nadir Şah Əfşar "Karmelitlərin Xronikası"nda Yıl 2019, Cilt: 6 Sayı: 5 – Akademik tarih ve düşünce dergisi.
5. Prof. Dr. Yagub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı/, 210 - 230, 30.12.2019
6. Tahirzadə, Ə. Nadir şah Əfşar (tərcümeyi-hal oçerki) İkinci nəşr "Çıraq" nəşriyyatı. Bakı – 2005

## AŞURBƏYOVLAR NƏSLİNİN AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ TARİXİNƏ BƏXŞ ETDİYİ TÖHFƏLƏR
## CONTRİBUTİONS OF THE ASHURBEYOV GENERATİON TO THE CULTURE AND HİSTORY OF AZERBAİJAN

**Aytən Heybətova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi,
ƏTT kafedrası Müəllimi
Ayten.heybetova@adpu.edu.az
ORCID ID 0000-0001-5338-7550

Qədim türk tayfalarından olan Əfşarlar Kiçik və Orta Asiya ərazisində, hətta Avropanın bir sıra bölgələrində məskunlaşmışlar. Yaşadıqları ərazinin yerli əhalisi ilə qaynayıb qarışmış, uzun müddət yaşadıqları yerləri öz vətənləri saymış, bununla belə assimlyasiya olmamış, öz nəsil şəcərələrini qoruyub saxlamışlar. Məlum olduğu kimi Əfşarların Azərbaycan ərazisində məskunlaşmasının tarixi qədim dövrlərə gedib çıxır. Lakin Bakıda Əfşar tayfalarının daimi olaraq məskən salması Nadir xan Əfşarın adı ilə

bağlıdır. Nadir xan bu əraziləri ələ keçirərkən mövqeyini burada möhkəmləndirmək məqsədi ilə özünün də mənsub olduğu Əfşar tayfalarını Bakının bir sıra ərazilərinə köçürür. Bununla da Əfşarların Azərbaycanın, o cümlədən Bakının ictimai-siyasi, elmi və sosial həyatında fəaliyyəti başlamış olur.

XIX- XX əsrlər Azərbaycan tarixində mühüm bir mərhələdir. Çar Rusiyasının müstəmləkə siyasəti, Azərbaycanın müstəqillik mübarizəsi, bu mübarizədən qazandığı uğurlar və Sovet imperiyasının qurulması ilə qəhrəmanlıqla qazanılmış müstəqilliyin itirilməsi, qurulan yeni rejimin xalqımızın başına gətirdiyi bəlalar- bunların hamısı tariximizin bu mürəkkəb dövründə baş vermişdi. 1828-ci ildə Rusiyanın Şimali Azərbaycanı işğal etməsindən sonra yüksək zümrəyə qarşı münasibət dəyişir. Bəylərin və xanların hüququ məhdudlaşdırılır, üzərlərinə müxtəlif vəzifə borcları qoyulur. Lakin kütləvi narazılıqlar çarizmin bir qədər geri çəkilməsinə səbəb olur. Ali təbəqənin iqtisadi və hüquqi vəziyyətinin tənzimlənməsi qərarı alınır. Bu səbəbdən həmin təbəqəni digər xalq nümayəndələrindən ayırmaq üçün onlar rus təbəəliyinə qəbul edilirdilər. Bu onların soyadına russayağı "ov" sonluğunun artırılması ilə nəticələnir. Həmin proseslərin nəticəsi olaraq Aşurbəylilər nəslinin nümayəndələri Aşurbəyov soyadını daşımalı oldu.

Aşurbəyovların Bakının ictimai sosial həyatında mühüm rol oynayan nəsillərdən olmuş və bu fəaliyyət indi də davam etməkdədir. İstər ADR dövründə, istərsə də ondan sonra yurdumuza qarşı olan istilaların qarşısının alınmasında bu nəslin nümayəndələrinin fiziki və mənəvi rolu böyük olmuşdur. "... Onun dalınca kürsüyə qoçu Aşurbəyov qalxdı və bircə söz dedi: "4000 tüfəng, 200 qutu paton mən verirəm..."(Manaf Süleymanov)Bunların müqabilində isə çətin və keşməkeşli həyat yaşamağa məcbur olmuşlar.

Burada vaxt azlığını nəzərə alaraq həmin nəslin bir çox nümayəndələrinin yalnız adlarını sadalamaqla kifayətlənəcəyik.

Bir çox maarifpərvər insanın, o cümlədən Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminlinin təhsil almasında böyük rolu olan, eyni zamanda özü də ədəbi yaradıcılıqla məşğul olan Bəşir bəy Aşurbəyov, çarizmin müstəmləkə siyasətinə qarşı fəaliyyət göstərən və bu yolda olan silahdaşlarına maddi və mənəvi dəstək göstərən İsa bəy Aşurbəyov, indi də Bakını bəzəyən memarlıq abidələrindən olan Əjdər bəy məscidini tikdirən Əjdər bəy Aşurbəyov, Təzə pir məscidini özünə verilən başlıq pulu ilə inşa etdirən, Bakıya su çəkilməsi təşəbbüsündə yaxından iştirak edən xeyirxah Nabat xanım və bu nəslin daha neçə neçə əməli saleh nümayəndələrinin adını xalqımız unutmur onları daim ehtiramla yad edir.

Sara xanım Balabəy qızı Aşurbəyli Azərbaycan elminin ilk qadın tarixçisi, yaşadığı həyatı və taleyi ötən əsrin, mürəkkəb və ziddiyyətli, faciəli və böyük əsrin bütün təlatümlərini əks etdirən əfsanəvi qadındır. Aşurbəyovların qədim əsilzadə ailəsinin nümayəndəsi Sara xanım mükəmməl təhsil və tərbiyə almışdı: inqilabdan əvvəlki Bakıda gimnaziya, sonra İstanbulda Jan D'Ark Kolleci, yenə Bakıda - Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin tarix bölməsi...Bir neçə Avropa və Şərq dillərini bilməsi tarixçi alimə mənbələri orijinaldan oxmuaq imkanı verirdi. Aşurbəyli görkəmli tarixçi olmaqla yanaşı həm də peşəkar rəssam və müəllim idi. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Sara xanımın uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışması bu gün biz gənc əməkdaşlar üçün qürurverici bir faktdır. Sara xanım fəaliyyət

göstərdiyi bu şərəfli peşələrin hamısında təkrarolunmaz izlər qoymuş bir fenomen idi. Yaratdığı rəsm əsərləri bu gün bir sıra dünya ölkələrinin muzeyini bəzəyir.

O, səkkiz dildə səlis danışırdı, qeyri-adi dərəcədə savadlı idi və deyilənlərə görə incə davranışları və sırf qadın cazibəsi vardı. Özünəməxsus möhtəşəmlik və yumor hissi taleyin hazırladığı bütün çətinliklərə tab gətirməyə kömək etmişdi, təbii cazibəsi, ağlı, xeyirxahlığı və ədəbliliyi ziyalı, istedadlı insanların onun ətrafından əskik olmamasına səbəb olmuşdu.

Tale ona uzun, maraqlı və eyni zamanda çox çətin, ağır sınaqlar və acı itkilərlə dolu bir həyat hazırlamışdı.

Çar Rusiyasında anadan olub, inqilabdan, sovetləşmədən, mühacirətdən və vətənə qayıtmaqdan, atasını və əmisinindən məhrum edən 30-cu illərin dəhşətli repressiyalarından və yeganə qardaşını əlindən alan uzunmüddətli dəhşətli müharibədən sağ çıxan Aşurbəyli son nəfəsinədək layiqli vətəndaş rolunu yerinə yetirdi. Doğmalarının sarsıdıcı itkisi azmış kimi səkkiz il yolunu gözlədiyi həyat yoldaşı sürgündən qayıdarkən başqa bir xanımla gəlir.

Tanınmış neft maqnatının qızı, irsi zadəgan, sovet dönəminin yetmiş ilinin hamısını yaşayıb, tənəzzülə uğrayan illərdə bütün həyatını tarixinin öyrənilməsinə həsr etdiyi doğma Azərbaycanın azadlığını və müstəqilliyini sevinc və qürurla qarşıladı.

Doğma şəhərinin, doğma yurdunun tarixini yazmaq heç də asan iş deyildi. Təkcə ona görə yox ki, problem geniş araşdırılmamışdı. Bəzən keçilməz görünən başqa cür çətinliklər də var idi. Ona tarix elmi ilə məşğul olmağı qadağan etmişdilər. Burjua ailəsinin nümayəndəsi tarix yaza bilməz bəhanəsi uydurmuşdular. Əslində bu anlaşılan idi. Rejim bu cür istedada malik insanın fəaliyyət göstərməsini istəmirdi, çünki bu tarixi unutdurmaq ideologiyasına mane olurdu. Elmi fəaliyyətinə görə düz beş dəfə işdən uzaqlaşdırılan Sara xanım bu maneələrə rəğmən qələmini yerə qoymadı. Azərbaycan tarixinin ən mühüm səhifələrindən olan Şirvanşahlar dövrünü ilk dəfə çox yüksək elmi səviyyədə dəlil və sübutlarla tədqiq etdi. Həm də özündən əvvəlki əsassız fikirləri darmadağın edərək. Millətimizin etnogenezində İran ünsürlərini qabardanlara qarşı sübutlarla çıxdı. Üstəlik sovet rejiminin qoyduğu tələbləri rədd edərək yazdığı əsərləri ilə elmimizə çox böyük töhfə bəxş etdi. Rejimin tələblərinə görə yazılan elmi əsərlərdə mütləq Marksizmə, Leninizmə istinad edilməli idi. Sara xanım cəsarətlə bütün bu süniliklərdən imtina etdi: “Stepan Razinin Abşeronda olması faktı hamıya məlumdur. Amma məlum oldu ki, o, burada dəhşətli vəhşiliklər edib. 60-cı illərdə bu haqda açıq yazmaq böyük cəsarət və cəsarət tələb edirdi, çünki bu, Stepan Razinin başçılığı ilə müharibə haqqında hamı tərəfindən qəbul edilmiş, təsdiq edilmiş və yuxarıdan təsdiq edilmiş nöqteyi-nəzərdən uzaqlaşmaq idi.Bu tədqiqat üçün Sara xanım çox əziyyət çəkdi. O, marksist-leninist metodologiyadan uzaqlaşmaqda ittiham olunurdu. Amma bütün bu ittihamlara baxmayaraq, o, prinsiplərini dəyişməyib, seçdiyi xətti davam etdirib.” (Hacı Hacıyev)Təsadüfi deyildi ki, akademik Ziya Bünyadov onu “Napoleon xarakterli balaca xanım” adlandırırdı. Beş monoqrafiya, yüzdən çox məqaləni Sara xanım bu cəsarət və zəhmətlə ərsəyə gətirmişdi.

Azərbaycan müstəqillik qazandıqdan sonra Sara xanımın xidmətləri dövlət səviyyəsində qiymətləndirildi. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Opera və Balet Teatrında Sara xanımın təntənəli yubiley mərasimi keçirildi. Heydər Əliyevin təbrik məktubunda Sara xanımın elm və mədəniyyət yolunda

xidmətləri yüksək qiymətləndirilirdi. Yubiley mərasimində Sara xanım AR Prezidentinin sərəncamı ilə ən yüksək mükafat – “Şöhrət” ordeni ilə təltif edildi.

Azərbaycan orta əsrlər dövrünü tədqiq edən ilk tarixçi alim kimi tarixə düşmək böyük zəhmətlər hesabına ərsəyə gəlmişdi.

Milli-mənəvi və maddi sərvətlərimizin işğalçılar tərəfindən mənimsənilmə təhlükəsi zaman-zaman özünü göstərir və bu bəzən sərvətlərimizin itirilməsinə səbəb olur. Sara xanımın tədqiqatları yalançı iddialar irəli sürmək istəyən millətlərə qarşı elmi cavabın verilməsində ən qiymətli mənbələrdəndir. Böyük alimin və onun kimi bir çox şəxsiyyətlərin gənc nəsilə tanıdılması, onların şəxsi həyatlarını unudub xalq millət üçün elm fədakarlığı göstərməsinin nümunə olaraq çəkilməsi günümüz üçün aktual səslənən məsələlərdəndir.

**Xülasə**

Məqalədə Azərbaycanın ən qədim sakinlərindən sayılan Əfşarlar sülaləsinin görkəmli nümayəndələrindən bir neçəsinin həyatına qısa nəzər salınır onların xidmətləri sadalanır. 24 oğuz boyundan biri olan Əfşarlar dünyanın çox geniş arealına yayılmış türk tayfalarındandır. Əfşarlar Balkanlardan Hindistan yarımadasına qədər böyük ərazidə yaşayış məskənləri salan qeyri-türk dövlətlərinin ərazisində kompakt şəkildə indi də yaşamaqdadırlar. Onların məskunlaşdığı ərazilərdən biri Azərbaycan torpaqlarıdır. Mahmud Kaşğarinin “Divani lüğət it türk” əsərində bu boyun adı Avşarlar kimi xatırlanır və onlar 22 oğuz boyundan altıncısı hesab olunurlar. Müasir dövrümüzdə də Türkiyə İraq və Əfqanıstan ərazisində bu tayfanın yadigarları Avşarlar adı ilə yaşayır. Məlumdur ki, Səfəvilər dövlətinin süqutundan sonra Əfşarlar öz dövlətlərini yaratmaq uğrunda hərəkətə keçdilər. Bunun nəticəsində indiki Cənubi Azərbaycan ərazisində Əfşarlar dövləti yarandı və getdikcə ərazisini genişləndirməyə müvəffəq oldu. Nadir xan Əfşar hakimiyyətini gücləndirmək məqsədi ilə Bakı ətrafına da Əfşarlar qəbiləsinin nümayəndələrini köçürür. Bundan sonra Əfşarların bir hissəsinin vətəni Bakı şəhəri sayılır. Azərbaycan tarixinin çox dəyərli tədqiqatçılarından biri olan Sara Aşurbəylinin adını çəkmək kifayət edir ki, bu nəslin vətənimizin elmi və mədəni mühitindəki nüfuzu haqqında təsəvvür formalaşsın. Yaşadığı keşməkeşli həyat yollarında məsləkindən geri çəkilməyən bu mübariz qadın Azərbaycan tarixində mühüm dövrü əhatə edən Şirvanşahlar dövlətinin tarixini ən mükəmməl araşdıran alim kimi tarixdə iz qoymuşdur. Bundan əlavə, Bakı və Bakıətrafı ərazilərdə Daş dövründə insan məskənlərinin olmasına dair əsaslı və sübutlu fikirləri ilə tariximizin dərinliklərini tədqiq edən araşdırmaçı alim Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olmasını dünyaya öz qiymətli əsərləri ilə çatdırmışdır.

Dövrün amansız sınaqları onun həyatında çox dərin izlər buraxmış, bütün bunlara baxmayaraq o ümidini itirməmiş, rejimin ona tarixçi olaraq xidmət göstərməmək qadağası qoymasına rəğmən ömrünün sonuna qədər bu şərəfli işini davam etdirmişdir. Aldığı yüksək təhsil, fəaliyyət göstərdiyi elm və mədəniyyət sahələrində də özünün peşəkar izlərini qoymuş Sara xanım Əfşarlar sülaləsinin günümüzə qədər Azərbaycan elminə və incəsənətinə bəxş etdiyi çox dəyərli şəxsiyyətlərdəndir.

http://sara-ashurbeyli.info/pages/svetlyj-put

Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. AD Nəşriyyatı, Bakı: 1987, 249 səh.

Açar sözlər: türk, nəsil, Əfşarlar, tarix, vətən.

Гаджи Гаджиев. Газета "Кто есть кто", №3 (28), спецвыпуск, посвященный 90-летнему юбилею Сары ханум Ашурбейли

Abstract

The article gives a brief look at the lives of some of the prominent representatives of the Afshar dynasty, which is considered one of the oldest inhabitants of Azerbaijan, and lists their services. The Afshars is one of the 24 Oghuz branch. They are a Turkic tribe spread over a wide area of the world. The Afshars still live compactly in the territory of non-Turkic states that have settled in a large area from the Balkans to the Indian Peninsula. One of the territories where they live is the lands of Azerbaijan. In Mahmud Kashgari's work "Diwan lughat al Turk", the name of this tribe is mentioned as the Avshars, and they are considered the sixth of the 22 Oghuz branchs. In modern times, the relics of this tribe live in the territory of Turkey, Iraq and Afghanistan under the name of Avshars. It is known that after the fall of the Safavid state, the Afshars took action to create their own state. As a result of this, the Afshar state was established in the territory of present-day South Azerbaijan and gradually managed to expand its territory. In order to strengthen the power of Afshar, Nadir Khan moved the representatives of the Afshar tribe to the vicinity of Baku. After that, the city of Baku is considered the homeland of a part of the Afshars. It is enough to mention the name of Sara Ashurbeyli, one of the most valuable researchers of the history of Azerbaijan, to form an idea about the influence of this generation in the scientific and cultural environment of our country. This warrior woman, who did not back down from her vocation in the tumultuous paths of her life, has left her mark in history as a scientist who most perfectly researched the history of the Shirvanshahs state, covering an important period in the history of Azerbaijan. In addition, the research scientist who explored the depths of our history with his fundamental and proven ideas about the existence of human settlements in the Stone Age in Baku and the surrounding areas, conveyed the fact that Azerbaijan is one of the oldest settlements to the world with his valuable works.

The merciless trials of the regime left deep traces in his life, despite all this, he did not lose hope and continued this honorable work until the end of his life, despite the regime banning him from serving as a historian. Sara khanum, who has left her professional mark in the fields of science and culture she has received, is one of the most valuable personalities that the Afshar dynasty has given to the science and art of Azerbaijan until today.

Keywords: Turkish, generation, Afshars, history, homeland.

# AZƏRBAYCANDA AVŞAR TAYFALARININ MƏSKUNLAŞMASI PROSESİ

# SETTLEMENT PROCESS OF AVSHAR TRIBES IN AZERBAIJAN

**Aytən Nəriman qızı Qurbanova**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

**filologiya üzrə fəlsəfə doktoru**

**E-mail: filoloq86@mail.ru**

**Xülasə**

Avşar tayfaları əsrlərlə müxtəlif tarixi, siyasi proseslərdə adın çəkilən 24 oğuz boyundan biridir. Bu haqda ən vacib məlumatlar "Oğuz Kağan" dastanı və Mahmud Kaşğarlının "Divanü Lüğət-it Türk"ündə verilmişdi. Həmin qaynaqlarda Avşarlar müvafiq olaraq 24 və 22 oğuz boyundan biri kimi təqdim edilmişdir. Lakin qeyd etmək lazımdır ki, Avşar adına daha qədim zamana aid mənbələrdə rast gəlinir.

***Açar sözlər***: *türk, türk soyları, Avşar tayfaları, Nadir şah və s.*

**Резюме**

The Avshar tribes are one of the 24 Oguz clans that have been mentioned in various historical and political processes over the centuries. The most important information about this was given in the epic "Oguz Kagan" and Mahmud Kashgarli's "Divanü Luğat-it Türk". In those sources, the Avshars were presented as one of the 24 and 22 Oguz clans, respectively. However, it should be noted that the name Avshar is found in older sources.

Key words: Turkish, Turkish tribes, Avshar tribes, Nadir Shah, etc.

Bəzi mənbələrdə qeyd olunduğuna əsasən, dünyada ən geniş yayılmış və çoxluq təşkil edən Türklərin oğuz qolu, oğuzların ən çoxluq təşkil edən boyu isə Avşarlardır. Avşar adına hələ miladdan öncə 500-cü illərdə Artvində Avşar adlı bir qəsəbə və bir kənd adı kimi rastlanır. Avşar tayfalarının Anadolu ərazisinə Səlcuqlar dövründə gəldiyi məlumdur. Səlcuqlu sultanı Alparslanın və Məlikşahın sərkərdələri Aksunqur atabəyliyini qurmuşdur. Həmin illərdə başqa bölgədə bir başqa Avşar dövlətini Aydoğdu bəy yaratdı. Səlcuq dövləti süqut edəndə Avşarlar sülaləsindən bir çox bəyliklər yarandı. Ən güclü bəylik isə yenə avşar tayfalarının qurduğu Qaramanoğlu bəyliyi idi. Həmin bəylik türkcəni rəsmi dil edən ilk bəylikdir. Son türk cahangiri olan Nadir şah Avşar da məhz bu türk nəslindən idi.

Müxtəlif türk dövlətlərinin tədqiqatlarını araşdırdıqda məlum olur ki, istər Anadolu türkləri, istərsə də orta Asiya, eləcə də Azərbaycanda müxtəlif mənbələrdə Avşarların türk soyuna məxsus olan olan etnos kimi indiki Azərbaycan, İranın geniş bir hissəsində və Əfqanıstanda yayılmışlar. Bu boy Türklərin Boz oğuzlarının sağ qolundan, Oğuz Xaqanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın soyundan gəlir.

Bu mövzuda jurnalist tədqiqatçılar Ənvər Çingizoğlu və Aydın Avşarın hazırladığı "Avşarlar" adlı əsər tam mənada bu etnosun qədim oğuz tayfalardından olduğunu və Azərbaycan türklərinin böyük bir qisminin bu soydan gəldiyini təsdiqləyən mühüm mənbələrdən biridir. Müəlliflərin avşarların yayıldığı əraziləri oba-oba, oymaq-oymaq gəzməsi və mühüm materiallar toplayaraq tutarlı bir mənbə hazırlaması əslində daima Azərbaycanın milli-mənəvi dəyərlərinə, tarixinə, mədəniyyətinə, abidələrinə və s. göz dikən qonşu dövlətlərə, avşarları qeyri-türk etnos sayanlara verilən tutarlı cavab kimi qiymətlidir.

Avşarlar orta Asiyada "Kitabi-Dədə Qorqudda oğuz eli deyə adı keçən Sırdərya bölgəsində yaşamışlar. Böyük Köç yolu ilə birgə böyük Xuzistan yolu ilə bir qrup Suriya, İraq və Anadoluya gəlmişdir. Bu arada İran, İraq, Suriya, Ermənistan, Əfqanıstan və Azərbaycana da yayılmışıardır. Avşarlar oğuzların digər nəvələri Qınıqlar və Qayılar kimi dövlət qurmuş, böyük hökmdarlar və sülalələr yetişdirmişdir. Türk boyları içində islamiyyətdən öncə də, islamiyyətdən sonra da siyasi üstünlük Qınıq, Qayıq və Avşarlarda olmuşdur. Avşar adının mənasına gəlincə müxtəlif araşdırmaların şahidi oluruq. "Alp" və "Şarf" sözlərıdən ibarət olub "kükrəyən alp" mənasını verir. Bəzi qaynaqlarda isə çevik ovuna həvəsli anlamındadır. Avşarların da bir çox digər türk soyları kimi simvolu yırtıcı quşdur. Bu məqam Avşar tayfalarının adının məhz "ov-av" sözündən qaynaqlandığını irəli sürən müddəaları daha da əsaslandırır.

Avşarların ilk məskəni Sırdərya çayının Oqızəli adlanan sahilləri olmuşdur. Oğuz türklərinin böyük köçü zamanı Avşar boyları Anadolu, Azərbaycan, Əfqanıstan, İraq ərazilərində məskunlaşmışlar. Avşarlar Böyük Səlcuqlu və Səfəvi imperiyalarının, Atabəylər, Qaraköylü və Akköylü dövlətlərinin qüdrətinə töhfə vermişlər.

Avşarlar Səfəvilər sülaləsindən sonra Səfəvi imperiyasını idarə edən ikinci türk tayfası idi. Anadoludakı avşarlar XIX əsrin sonlarına qədər köçəri həyat tərzi sürmüşlər. Avşarlar hazırda Türkiyə Respublikasının Kayseri bölgəsində yaşayırlar. İranda yaşayan Nadirşahın ölümündən sonra minlərlə avşar Anadoluya gəldi.

Bəzi tarixi mənbələrdə Avşarların bir hissəsinin Osmanlı İmperiyası dövründə Balkanlara köçdüyünə dair məlumatlar var. Hal-hazırda Bolqarıstan, Yunanıstan, Makedoniya və Kosovo əyalətlərində də müəyyən qisim Avşar türkü yaşayır. Avşar dili, türk dilinin oğuz-salar dili qrupuna, və dini isə islam dininə tabedir [446].

Avşarlar Səfəvi dövlətini quran 7 türk boyundan biridir. Səfəvi dövlətindən sonra İranı idarə edən ikinci türk boyudur. Səfəvi hakimiyyətinə son verən Nadir şah Qafqaz, Əfqanıstan, Türküstan, Hindistana səfər etdi və bu ərazilərdə hökmdarlığını bərqərar etdi.

Azərbaycan ərazisində Avşarlar çox geniş ərazidə yayılıblar. Belə ki, Ağcabədi rayonu ərazisində Avşar kəndinin olması, Bu ərazidən başqa Abşeron yarmadası, şimalda Quba ərazisində də Avşar tayfalalrının geniş yayılması dediyimiz fikrin sübutu ola bilər. Türkiyə tədqiqatlarından bəzilərində hətta Abşeron yarımadasının adını da Avşar tayfalarının adı ilə əlaqələndirirək qeyd edirlər ki, "Avşar-an" yəni "avşarlar" mənasını verir. Bu da deyilmiş fikirləri bir daha təsdiqləyir.

“Azerbaycan'dan Anadolu'ya gelmiş Afşar obalanının varlığını biliyoruz. Bunlardan Civanşirler, Genceli Avşarını, Akdamlı Avşarını sayabiliriz. 1750 yıllarda Arran'da (Karabağ) yaşayan Avşarlardan bir bölük göç ederek Anadolu'ya gelmiş ve Çukurova'ya meskun olmuşlardır. Günümüzde Osmaniye'de yaşayan Azeriler, bundan 250 yıl önce Arran'dan gelen Avşarlardır.

Burada bir meseleye de değinmek istiyoruz. Bu mesele Karabağ meselesidir. 1828 Türkmen-Çay Anlaşması ile Karabağ Hanlığını ele geçiren Ruslar, burada günümüze kadar gelen bir sorun yaratmışlardır. Karabağ'ı işgal eden Ruslar, önceleri burayı eski sistemle yönettiler. Daha sonra yeni bir idari sistem kurarak Karabağ'ı, Şuşa, Cevanşir, Cebrail ve Zengenzur kazalanna ayırmış, önce Bakü'ye 1868'de ise Gence vilayetine bağlamışlardır.

Nüfusunun az bir kısmı Ermenilerden oluşan Karabağ'da 1905'ten itibaren Azeri-Ermeni çatışmaları çıkmıştır. 1917 Rus ihtilali zamanında Ermeniler Karabağ'in kendilerine ait olduğunu iddia etmişlerdir. Mondros Mütarekesi gereği Ingilizlerce işgal edilen bölge, nüfusuna bakılarak Azerbaycan'a bırakılmış, 1920 Sovyet işgali sırasında ise Karabağ ve Nahçıvan Ermenilere verilmiştir. Ancak 1921 yılında yapılan Türk-Sovyet anlaşması çerçevesinde Zengenzur Ermenilerde kalmak koşuluyla Karabağ ve Nahçıvan Azerbaycan'a iade edilmiştir. 1923 yılında merkezi Hankendi olan Dağlık Karabağ adında muhtar bir Ermeni vilayeti teşkil edilerek Karabağ'ın 4'ü Azerbaycan'dan koparılarak Ermenilere verilmeye çalışılmıştır. Bilindiği gibi bu sorun hala devam ediyor. Yüce Türk Milletinin aynılmaz bir parçası ve kanayan bir yarası olan Karabağ meselesi, Afşarları da derinden etkilemekte ve ilgilendirmektedir. Tarihi bir Türk yurdu ve Afşar yurtluğu olan Karabağ için aşiretimizin sesini yükseltmesi gerekmektedir.”(5)

Deməli, Qarabağ ərazisi də Avşarların qədim zamanlardan geniş yayılıb-yaşadıqları torpaqlardır. Bu torpaqlar Cavanşir nəslinin Sarıcallı boyuna mənsubdur. Bölgədəki varlıqları islamdan əvvələ dayanır. 1748-ci il Qarabağ xanlığı da bu sülalə tərəfindən qurulmuşdur. Avşarlar oturaq və yarı köçəri olmaqla qruplaşırdılar.

Avşarlar bu gün İran,İraq,ermənistan,Azərbaycan,Əfqanıstan,Kıbrısda varlıqlarını sürdürürlər.

Ədəbiyyat

1. Bakıxanov A. “Gülistani İrəm”.Bakı Xatun 2010.
2. Фейзиев Жаваншир. ТУРК ӘЛЕМІ / Алматы Принт, 2019 ISBN 978-601-7148-11-9
3. Çingizoğlu Ə, Aydın Avşar. Avşarlar. Bakı 2008
4. https://az.wikipedia.org/wiki/%C6%8Ff%C5%9Far_boyu
5. https://wwwavsarobasi.com/diger-avsarlar/azerbaycan-avsarlari.html

# AVŞAR ELİNİN TARİXİ VƏ MƏDƏNİYYƏTİ

**Baxış İslam oğlu Ələsgərov,dosent, t.ü.f.d.,**

**elesgerovl963@mail.ru,**

**Araz Boran oğlu Əliyev, b/m.,**

**ani.eliyev.95@bk.ru,**

**ADPU- nun Ağcabədi filialı,**

**Xülasə:** 22 oğuz tayfalarından biri olan Avşar tayfasının Azərbaycan tarixində və ömumilikdə türk xalqlarının siyasi tarixində müstəsna əhəmiyyəti olduğu bir sıra tarixi faktlarla sübuta yetirilmişdir.

Avşar eli oğuz ulsunun tərkibində öz mədəniyyətləri ilə seçilirdi. Bu da onların güclü soy duyğusu ilə bağlı idi.

**Açar sözlər:** Türk, Oğuz, Avşar, etnos, oymaq

**Summary:** The Avshar tribe, one of the 22 Oghuz tribes, has been proved by a number of historical facts to be of exceptional importance in the history of Azerbaijan and the political history of Turkic peoples in general.

The Avshar tribe was distinguished by its culture within the Oguz nation. This was also related to their strong sense of lineage.

**Key words:** Turkish, Oghuz, Avshar, ethnos, carving

Fəzlullah Rəşidəddin ("Cəmiəttəvarix"), Yazıçıoğlu Əli ("Səlcuqnamə") və Əbülqazi Bahadır Xan Xivəliyə ("Şəcəreitərakimə") görə Avşar adının anlamı "işlərini cəld görən və ova həvəsli"dir. K.Vamberi bu adı əsərinin bir yerində "toplayıcı", digər yerində isə "əfsər, zabit" kimi açıqlayır. K.Nemət isə Avşar adının "avs" feilindən törəndiyini qeyd edib, "itaətli" mənasında olduğunu təsdiqləyir.

Məşhur türkoloq M.Kaşğari (XI əsr) məlum "Divani-Lügət-ittürk" əsərində 22 oğuz tayfalarından biri Əfşar (Avşar) tayfasının adını qeyd etmişdir.

Fəzlullah Rəşidəddin oğuzların boyları, damğası, geneologiyası haqqında daha dəqiq və geniş təsnifatını vermişdir. F.Rəşidəddinə görə oğuzların boyları Boz-ok və üç-ok deyə iki qrupa ayrılır. Avşarboyu Boz-ok qrupuna mənsub olub Ulduz xanın oğlu kimi təsvir olunmuşdur. O, yazır: "Avşar, çevik və vəhşi heyvan ovuna həvəsli".(F. Rəşidəddin, Oğuznamə, Bakı, 1987.səh.65)

Əli bəy Yazıçıoğlu, Əbülqazi Bahadır xan Xivəli də oğuz tayfalarını 24 boya bölmüş, Avşar tayfasının da adını qeyd etmişlər.

M.Kaşğaridən, F.Mübarəkşahdan (əfşar) fərqli olaraq Fəzlullah Rəşidəddin və Əbülqazi xan Xivəlidə bu söz "avşar" formasında işlənmişdir.

Avşar adı yerlərə, yörələrə görə, müxtəlif cür səslənir. Avşar, ovşar, əfşar kimi deyiliş və yazılış biçimləri mövcuddur. Bu elin ilkin və dəqiq adı avşardır.

Bu adın Avşar adlı türk-Azərbaycan mənşəli etnonimdən törəməsi şübhə doğurmur. Avşarlar Azərbaycan xalqı və dilinin formalaşmasında əsas rol oynayan və Azərbaycan ərazisində onlarca eyni adlı toponimlərin yaranmasında fəal iştirak edən etnos olmuşlar. Türk xalqlarının abidələrində bu tayfanın adı dönə-dönə çəkilir. (F. Sümər, Oğuzlar, Bakı, 1992, səh. 163)

Bəzi tarixçilər qeyd edirlər ki, türk tayfaları olan qacar və afşarlar monqol istilaçıları ilə birlikdə Orta Asiyadan gəlmişlər. Azərbaycanda isə bu tayfanın yerləşməsi Əmir Teymur və Miranşah Mirzənin gəlişi ilə bağlıdır. Əslində avşarların Azərbaycanda yerləşməsi çox-çox əvvəllərə aiddir.

Məlumdur ki, avşar tayfasından 1736-1747-ci illərdə İranda hakimiyyətdə olmuş Nadir Şah çıxmışdır.

İstedadlı miniatür rəssamı Sadıq bəy Avşar Azərbaycan xalqının ən parlaq ulduzlarından biridir. Böyük bir sənətçi kimi Sadiq bəy Avşar öz tükənməz qabiliyyətini yalnız təsviri sənətdə deyil, xəttatlıqda (onun adı şah Abbasın sarayındakı xəttatlar sırasında xatırlanır), musiqidə, şeir və nəsr sahələrində, tarixi salnamə və təzkirəçilikdə də sınamış və yaradıcılıq uğurları qazanmışdır.

Avşar eli və nümayəndələri Səfəvilər dövlətinin qurulmasında, yayılmasında, idarə olunmasında fəal iştirak etmişlər. (Ə.Z.V. Toğan, Azərbaycan, Bakı, 2007, səh.52)

Məşhur türkoloq Faruq Şümər Avşar elinin bir qolu olan Qızılbaş tayfası haqqında yazır: "Səfəvi dövlətini quran ünsür tamamilə türklərdən ibarətdir. Şah İsmayıl Ərzincan yaxınlığında Anadolu türklərini başına yığaraq, buradan Azərbaycana yüyürərək öz dövlətini qurmuşdur. Bu halət Səfəvi dövlətinin başlıca dayağı olan boy və obaların yurdlarının bilinməsi ilə daha düzgün anlaşılmaqdadır. Qızılbaş ulusunu təşkil edən birinci dərəcəli oymaqlar bunlardır: ustacalı-ustahacalı (Səfəvi dövründə ustaclı), rumlu, təkəli, zülqədər, şamlı, əfşar, qacar".

Avşar eli meydana gedəndə baş, mətbəxə gedəndə aş gətirən bir qurum olub. Oğuz boyları içində adıyla, mənzilə çatanda atıyla tanınıb. (Mirzə Rəşid Ədibüşşüara. Tarixi Əfşar, Təbriz, "Şəfəq", 1346 hicri şəmsi, səh.86-87)

Avşarlar "dad" deyiləndə səf bağlayar, "mədəd" deyiləndə əl saxlayardılar. Yoldan gələnə çörək, eldən gələnə kömək, beldən gələnə dəstək verərdilər. Qol ucuyla, qılınc gücüylə özlərinə ad, süfrələrinə dad qazanardılar. Vurduğunu yıxar, verdiyini doyurardılar. Sultana vermədiyini mehmana verərdi afşarlar.

Avşar oğlu çay çevirib, dağ devirərdi. Hirsi tutanda sözündən dönməz, dediyini etməyincə sönməzdi. Qılıncı əlində, atının belində ömür sürərdi. Yatağa yan, yağıya can verməzdi. Gecə başının altına nəzir qoyardı ki, sabah dava olsun. Hücumuna səngər, həmləsinə sipər dayanmazdı.

Avşar ataları qızlarını otaqlıya yox, papaqlıya veriblər. Biliblər ki, ərdirsə kol dibində arvad saxlayacaq.

Avşar ataları qızlarını dəvəliyə verməyiblər. Duyublar ki, dəvəsi gedəcək, dəlisi qalacaq.

Avşar oğulları çayı dəhnədən, payı təhnədən götürüblər. Bolluq, bostanlıq gördüklərindən comərd xislətlidirlər. Hay deyənə havar, pay deyənə davar verərdilər. Səxavəti ibadətdən üstün bilərdilər. Doğalıdan dövlətli, olandan səxavətliydilər.

Avşar oğlu heç zaman kökünü söyməyib, düşmənini öyməyib.

Çomağını daşa yavaş, başa bərk vurardı avşar oğlu. Qonşusuna bəlgəmi basma, başın yarılmasın, qolun qırılmasın – deyərdi. Qapısına doğruluqla gələnin köləsi, əyriliklə gələnin bəlası olardı.

Atına qardaş deyərdi. Yolçunu yolda qoymazdı. Çaya gələnə çay, paya gələnə pay verərdi.

Avşar dağ aşar- deyiblər.

Avşar oğlu heç zaman dayıya arxalanmayıb. Güvənci göydə Tanrı, yerdə özü olub. Kürəyini elinə söykəyib, biləyinə, diləyinə güvənib.

Avşar eli oğuz ulsunun içində mədəniyyəti ilə seçilirdi. Bu da onların güclü soy duyğusu ilə bağlı idi. Onlar özgəni öyməz, özlərini söyməzdilər. Birliyi, bütövlüyü siyasət halına gətirmişdilər. Avşarlar içlərini cənnət, çöllərini cəhənnəm sayırdılar. Birlikləri sayəsində rifah və zənginliyə qovuşmuşdular. Maraqlıdır ki, avşarlar sənətə kasıblıqdan yox, zənginlikdən meyl edirlər.

Avşarlar damğalı bir qurum idi. Onlar öz damğalarını yaratdıqları əsərlərə, rəsmi sənədlərə, bayraqlarına, keçəyə, bəzən də məzar daşlarına vururdular.

Avşarların qurşadığı xəncər "ovşarı" adlanırdı. Qədim bir bayatıda deyilir:

**Əzizim Ovşarı var,**

**Ovçunun ovşarı var,**

**Gözlərindən tanıram**

**Yarıma oxşarı var.**

Avşarların daşıdıqları qılınc "Kirmani" adlanırdı. Bu qılıncın avşarların German qrupu tərəfindən hazırlandığı güman olunur:

**Belimizdə qılıncımız kirmani,**

**Daşı dələr mizvağımın dəmrəni…**

Azərbaycanda "Kürd-ovşarı", "Əfşarı" adlı muğam şöbələri, "Əfşari" adlı saz havası var. Türkiyənin Yozqat, Qırşəhir yörənlərində "Avşar bozlağı" adlı bir türkü oxunur.

Avşarların adı ilə bağlı rəqs növü də var. Bu rəqs "Avşarı" adlanır. Qədim rəqs növü olan "Avşarı" da əhliləşdirilmiş meymundan istifadə olunurdu. Mütəxəssislərin fikrincə bu "Avşarı" hərbi rəqs sayılırdı. Ensiklopediyada yazılır: "Hərbi muğam, məqam əsası şüştər,

musiqi ölçüsü 2/4-dir. Azərbaycan aşıq havası, şux oynaq xarakterli geniş instrumental müqəddimə ilə başlayır. Sazda "Qaraçı" kökündə ifa olunur. Muğam əsası şurdur. "Əfşari" nin poetik mətni qoşmadır.

Oğuz türkləri olan avşarlar türk tarixində silinməz izlər buraxmışlar. Milli, eyni zamanda çox səciyyəvi olan, həmişə qorxmazlıqları, qoçaqlıqları, döyüşkənlikləri ilə ad çıxaran avşarlar hazırda Azərbaycanda, İranda, Türkiyədə, Əfqanıstanda əsasən icma şəklində yaşayar özəl xüsusiyyətlərini bu günə qədər qoruyub saxlaya bilmişlər. Onlar yaşadıqları məkanda daima ictimai, siyasi aləmdə yaxından iştirak edir, öz haqq, ədalət səslərini hər zaman ucadan deməyi bacarırlar. (J.Junior, Unudulmuş qəhrəmanlar, 2004, səh.259)

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. F. Rəşidəddin. Oğuznamə, Bakı, 1987.səh.65
2. F. Sümər. Oğuzlar, Bakı, 1992. səh.163
3. Ə. Z. V. Toğan, Azərbaycan. Bakı, 2007. səh.52
4. Mirzə Rəşid Ədibüşşüara. Tarixi Əfşar, Təbriz, "Şəfəq", 1346 hicri şəmsi, səh.86-87.
5. J.Junior, Unudulmuş qəhrəmanlar, 2004, səh.259

**UOT 94(470.67)**

## NADİR ŞAH ƏFŞAR – TÜRK DÜNYASININ GÖRKƏMLİ SƏRKƏRDƏSİ

**Mətanət Bəhrəmova**

**AMEA A.A. Bakıxanov adına Tatix İnstitutu**

**Ümumi tarix şöbəsi b.e.i.**

**bahramova60@gmail.com**

**ORCID: 0000-0001-7531-3157**

**Xülasə**

Şərqin dahi sərkərdəsi Nadir şah Əfşar Azərbaycan torpaqlarının bir hakimiyyət altında birləşdirilməsi uğrunda daim mübarizə aparmışdır. Bu məqsədinə nail olmaq üçün o, Osmanlı İmperiyası Rusiya ilə mütəmadi mübarizə və müharibələr aparmışdır. Lakin, İmperiya ərazisindəki narazılıqlar, Nadir şaha qarşı baş verən üsyanlar, agır vergi sistemi onun bu böyük planlarının həyata keçməsinə maneə oldu. Nadir şah Əfşar 1747-ci ilin iyun ayının 19-dan 20-ə keçən gecə sui-qəsd nəticəsində öldürülürdü. Onun ölümü ilə uzun mübarizə verərək, qılınc gücünə yatardığı vahid Azərbaycan dövləti təəssüf ki, yenidən parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı.

***Açar sözlər:*** *Nadir şah Əfşar, Səfəvilər dövləti, Rusiya və Osmanlı İmperiyası, vahid idarəçilik*

**Резюме**

Выдающийся полководец Востока Надир-шах Афшар стремился объединить азербайджанские земли под единой властью. Ради достижения этой цели он боролся с Османской и Российской імперями. Но недовольство внутри страны, восстание против Надир шаха, жесткая налоговая система, помешало ему завершит великое дело. Надир-шах Афшар был убит в результате заговора в ночь 19-20 июня 1747 года. К сожалению, созданное им единое Азербайджанское государство столкнулось с угрозой раскола.

***Ключевые слова:*** *Надир Шах Афшар, Сефевидиды, Россия и Османская империя, единое управление*

**Summary**

The outstanding commander of the East Nadir Shah Afshar sought to unite the Azerbaijani lands under a single authority. In order to achieve this goal, he fought with the Ottoman and Russian empires. But discontent inside the country, the uprising against Nadir Shah, a rigid tax system, prevented him from completing a great cause. Nadir Shah Afshar was killed in a conspiracy on June 19-20, 1747. Unfortunately, the single Azerbaijani state created by him faced the threat of a split.

***Key worlds:*** *Nadir Shah Afshar, Safavids, Russia and the Ottoman Empire, unified management*

XVIII əsrin əvvəllərində Azərbaycanda, Qafqazda, nisbi sabitlikdən sonra siyasi vəziyyət tədricən gərginləşməyə başladı. Bunun əsas səbəblərindən biri mərkəzi Səfəvi dövlət aparatının zəifləməsi, hakim sülalə içərisindəki ətalət və didişmələr, imperiyanın iqtisadi və siyasi cəhətdən tənəzzülü, xeyli qüdrətlənmiş yerli əyanların özbaşnaliqları olmuşdur. Məhsuldar qüvvələrin çox ləng inkişafı feodal istismarının güclənməsi, həm də iqtisadi əsasların dağılmasına səbəb olmuş və bu durğunluq ictimai həyatın bütün sahələrinə sirayət etmişdi [5, s.16-17]. Belə bir şəraitdə xarici düşmənlərin fəallaşması, şimal qonşu Moskva knyazlığının bölgədə baş verən hadisələrə qaba müdaxiləsi, qəsbkar mövqeyi də vəziyyəti gərginləşdirən səbəblərdən idi. Elə daxili vəziyyət də ürəkaçan deyildi. Belə ki, 1707-ci ildə baş vermiş Car-Balakən üsyanı, 1709-cu ildə və 1711-ci ildə carlıların yeni üsyanları Səfəvi dövlətində siyasi vəziyyətin son gərgin həddə çatmasına təsir göstərdi. Üsyana qalxan əhali Şirvanın ətraf torpaqlarını keçərək Şamaxı, Gəncə, Qazax, Akstafa, Zəyəm, Şəmkir, Bərdə, Şəkiyə oradan isə Quba və Dərbəndə hücum etmişdilər. Bu barədə Moskva elçisi və canişini A.P.Volınski məlumat verir ki, “Azərbaycanda nadir yerlər qalmışdır ki, orada üsyanlar baş verməsin” [4, s.240; 21, s.54-56; 24, s.54].

Bölgədə öz mənafeləri uğrunda mübarizə aparan dövlətlər onsuz da gərgin olan vəziyyəti daha da gərginləşdirirdilər. Əsas mübarizə Moskva knyazlıgı və Osmanlı arasında gedirdi. Moskva knyazlıgı və Osmanlı sultanı mümkün daxilində daha çox əraziləri zəbt etmək, Səfəvi dövləti isə bu ərazilərdəki mövqeyini qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Döğrudur Rusiya hökuməti Səfəvi dövləti ilə mehriban münasibətlər saxlamağa

çalışırdı. Çünki, Cənubi Qafqazda Osmanlı İmperiyasına qarşı bölgədə sözdə də olsa müttəfiqi olmalı idi. Digər tərəfdən isə Rusiya İmperiyası Cənubi Qafqazın bütünlükdə şərqini ələ keçirmək planlarını reallaşdırmaqdan ötrü zəmin yaradırdı. Belə ki, Xəzər dənizi Rusiya hökümətinin Qafqaz siyasətinin əsas dayaq nöqtəsi idi. Çünki, Xəzər dənizi Rusiyanın sərbəst çıxışı olan yeganə dəniz idi.

XVII əsrin sonunda hakimiyyətə gələn I Pyotr (1682 -1725) Şimal müharibəsini (1700-1721) 1721-ci il sülh müqaviləsi bağlanması ilə sona çatdırdıqdan sonra onun Qafqaz siyasətinin güclənməsinə bu bölgələri öyrənmək istəyi onun istilaçı xarici siyasət maraqlarından irəli gəlirdi. Iqtisadi qüdrəti tədricən artan, işğalçılıq iştahı isə durmadan güclənən və hərbi cəhətdən qüclənən Rusiya Qafqazı, o cümlədən Azərbaycanı işğal etmək üçün planlar qururdu və öz manufakturaları üçün xammal bazaları, malları üçün bazar axtarır və bununla əlaqədar Şərq ölkələri ilə ticarət və iqtisadi əlaqələrini genişləndirmək üçün dəridən-qabıqdan çıxırdı. Şimal müharibəsinin zəfərlə başa çatması bu prosesi daha da sürətləndirdi və hərbi-diplomatik hazırlıqlardan sonra I Pyotr bütün səylərini Qafqazda əsas məqsədinə çatmağa yönəltdi: məqsəd isə Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyini, Qara və Xəzər dənizlərinə onun çıxışını təmin etmək idi. [26, s 9]. I Pyotr hökuməti Xəzəri Rusiya İmperiyasının "daxili gölünə" çevirərək, ticarətdən gələn bütün gəliri mənimsəmək, həmçinin Xəzər sahillərinə yalnız iqtisadi maraqlar [32, s.65-66,101] prizmasından yanaşmayaraq, həmin əyalətləri Rusiyaya birləşdirmək, Asiya və Avropanı birləşdirən tranzit ticarət kanallarını ələ keçirmək məqsədlərini qarşıya qoymuşdu [5, s.18]. I Pyotr Xəzərin qərb əyalətlərinin ətraflı öyrənilməsi, ən əsası gələcək hərbi yürüşlər üçün casus məlumatları toplamaq məqsədilə Səfəvilər dövlətinə hələ 1716-cı ildə A.P.Volınskinin başçılığı ilə xüsusi nümayəndə heyəti-səfarət göndərmiş və ona bölgədəki vəziyyətin "dərindən öyrənilməsini" tapşırmışdı [16 s.96].

Hər iki cəbhə ilə mübarizə aparmaq istəməyən I Pyotr 1723-cü il 12(23) sentyabrında Səfəvi dövlətinin buradakı səfiri İsmayıl bəylə 5 bənddən ibarət olan müqavilə bağlanmasına nail olmuşdu [32, s.37-39]. Həmin müqaviləyə görə, Rusiya Səfəvi dövlətinə hərbi yardım vəd edir, əvəzində "Dərbənd, Bakı şəhərlərinin və Gilan, Mazandaran və Astrabad ərazilərinin həmişəlik Rusiyaya verilməsi" nəzərdə tutulurdu [1, s.157; 31, s.83; 34, s.247]. Lakin, həmin müqavilə Səfəvi Şahı II Təhmasib tərəfindən qəbul olunmadı. [28, s.51-52; 6, s.28]

Rusiya İmperiyası ilə yanaşı Osmanlı da bu bölgə ilə bağlı planlarından əl çəkmək niyyətində deyildi. Osmanlı hököməti Dərbənd daxil olmaqla Azərbaycanın digər şəhərlərini ələ keçirmək planını yerinə yetirirdi. 1723-cü ilin yazında Osmanlı ordusu Cənubi Qafqaza yürüş edir. Yenə də Azərbaycan torpaqları uğrunda iki böyük dövlət qarşı-qarşıya gəlir. I Pyotr bu münaqişəni həll etmək üçün fransız dipılomatlarının vasitəçiliydən istifadə edir. Aparılan danışıqların əsas müzakirə obyekti Azərbaycan torpaqları idi. Rusiya tərəfi Xəzərboyu ərazilərin özündə qalmasını, Ərdəbil, Sultaniyyə və Təbriz şəhərinin Səfəvilərə verilməsini tələb edirdi. Osmanlı isə öz növbəsində Rusiyanın Dərbənd və Bakıdan imtina etməsini tələb edirdi [13, s.40].

1724-cü il iyun ayının 12-də (24) uzun müzakirələrdən sonra tərəflər arasında "İstanbul" sülh müqaviləsi imzalanır [8, s.20; 17, s.78]. Müqavilənin şərtlərinə əsasən

Azərbaycanın qərb və cənub-qərb əraziləri osmanlılara verilir, Dərbənd, Bakı daxil olmaqla Xəzərboyu ərazilər Rusiyanın idarəçiliyində qalırdı [32, s.101].

Lakin görünür İstanbul müqaviləsinin şərtləri Osmanlı tərəfini qane etməmişdir [17, s.78-79]. Çünki elə həmin ildə Qafqaza yeni yürüş təşkil etmiş Osmanlı sultanı və Rusiya imperatoru arasında Azərbaycanın yenidən bölüşdürülməsi barədə danışıqlar başlamışdır. Danışıqlarda Rusiyanın Dərbənddən Astrabada kimi ərazilərdən geri çəkilməsi tələb olunurdu. Tərəflər arasında müzakirələr 1724-cü ilin ortalarına kimi davam etmişdir [28, s.79].

Bütün bunlar baş verərkən Səfəvilərin daxili vəziyyəti gərginləşməkdə davam edirdi. XVII əsrin sonu XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin iqtisadi və siyasi tənəzzül yaşadığı dövrdə ölkə ərazisində ciddi narazılıqlar baş qaldırmaqda idi. Səfəvi şahı Sultan Hüseynin hakimiyyəti illərində, daha dəqiq desək 1722-ci ildə Mir Mahmudun başçılığı ilə baş qaldırmış üsyan həmin ilin oktyabrında sona çatmış və Mir Mahmudun şah elan olunması ilə nəticələnmişdir. Bu hadisələrdən xəbərdar olan Təhmasib Mirzə Qəzvində özünü Səfəvi taxtının varisi kimi II Təhmasib adı ilə şah elan etmişdi [5, s.21].

Səfəvilərin belə ağır vəziyyətində fürsətdən istifadə edərək bir tərəfdən Rusiya İmperiyası, digər tərəfdən isə Osmanlı Türkiyəsi Azərbaycan torpaqlarına hərbi hücümlarını daha da genişləndirir və bu dövlətə məxsus torpaqların çox böyük hissəsini ələ keçirərək öz aralarında bölüşdürürdülər [8, s.71]. Nəticə etibarilə 1725-ci ildə Azəbaycan torpaqlarının işğalı başa çatdırılır [5, s.18; 11, s.56]. Səfəvi dövlətinin ərazilərinin bir qisminin Rusiya, digərinin əfqan qəbilələri, digər bir qisminin isə osmanlılar tərəfindən işğal edildiyi bir vəziyyətdə Şah II Təhmasib işğalçılara qarşı mübarizədə daxili birləşmənin vacib olduğunu anlayırdı.

XVIII əsrin II rübündə Azərbaycanın və Səfəvi dövlətinin həyatında yeni bir mərhələ başlandı. Həmin əsrin 20-ci illərinin sonu - 30-cu illərin əvvəllərində Azərbaycan türk Əfşar tayfasından olan Nadirqulu xanın (1689-1747) dövlət işlərinə ciddi qarışması sayəsində Səfəvi dövləti tədricən dirçəlməyə başladı [14, s.52]. Səfəvi şahı əfqanlara qarşı mübarizəni Nadir xan Əfşara həvalə edir. 1726-cı ildə Şah II Təhmasibin yanında qulluğa girən Nadir xan Əfşar bu vəzifənin öhdəsindən layiqincə gəlir və hətta daha da irəli gedərək Herat şəhərini tutur. Nadir xan əfqanlara qarşı mübarizəsində əldə etdiyi uğurla saraydakı mövqeyini bir qədər də möhkəmlədir. Bundan sonrakı vəzifə isə Azərbaycan torpaqlarını vahid idarəçilik altında birləşdirmək idi. XVIII əsrin 30-cu illərində Səfəvilərin, süquta doğru getməsinə baxmayaraq, bəzi ərazilərin geri qaytarılması ilə dövlət öz gücünü müəyyən dərəcədə bərpa etmiş oldu. Əfqan tayfalarını ölkədən qovaraq, Səfəvi hakimiyyətini yenidən bərpa edən Nadir bütün keçmiş Səfəvi ərazilərini qaytarmağa çalışırdı [5, s.22].

Osmanlı hökümdarı III Əhmədin hakimiyyət illərindən Səfəvilər ilə münasibətlər gərgin idi. Şahzadə Mahmudun taxta çıxması ilə bu mübarizə yeni dövrə qədəm qoymuşdur. Səfəvi şahı II Təhmasib hökuməti öz torpaqlarının azad edilməsi üçün osmanlılara qarşı müharibəyə hazırlaşırdı. 1730-ci ilin sentyabrında Nadir xanın qoşunu Ərdəbil və Təbrizi osmanlılardan azad etdi. Nadir xanın bu istiqamətdəki uğurları, təəssüf ki, yarımçıq qalır: belə ki, Xorasandan gələn qiyam xəbəri Nadir xanı Xorasana yollanmağa məcbur edir. Nadir xanın yoxluğundan istifadə edən osmanlılar Əhməd paşa və Həkimoğlu Əli paşanın başçılığı ilə

Səfəvilər üzərinə yürüşə keçir. Osmanlılar Nadir xanla mübarizədə itirdikləri əraziləri yenidən öz təsirləri altına salmaqdan ötrü Təbriz üzərinə irəliləmək qərarına gəlirlər. Qazıqumuklu Surxay xan bu yürüşdə osmanlılarla birgə iştirak etmək niyyəti ilə və 1731-ci ilin aprelin 24 də Osmanlı ordusu ilə birləşmək üçün Təbriz yaxınlığına gəlir. Osmanlı və Səfəvi orduları arasındakı növbəti toqquşmada II Təhmasib məğlub olaraq Qəzvin şəhərinə çəkilir. Buna baxmayaraq osmanlılara qarşı xalq müqaviməti, üsyanları davam edirdi [34, s.259]. Osmanlı ordusuna başçılıq edən Əhməd paşa mərkəzi əyalətrlərə doğru irəliləmək fikrini dəstəkləmir və qəsb edilmiş ərazilər ilə kifayətlənməli olur. Ancaq osmanlılar 1731-ci ilin iyul ayının 30-da Kirmanşahı ələ keçirdilər. 15 sentyabrda Kürican səhrasında səfəvilərlə osmanlı qarşı-qarşıya gəlmiş və Səfəvi ordusu məğlubiyyətə uğramışdır. Daha sonra Urmiya və Təbriz yenidən osmanlılar tərəfindən işğal edilmişdi. Son nəticədə Səfəvilər uğursuzluqla üzləşib 1732-ci ilin yanvar ayının 16-da Kirmanşahda Osmanlı ilə əlverişsiz bir sülh imzalamaq məcburiyyətində qalmışdılar. Sülhün şərtlərinə görə Araz çayı sərhəd qəbul edilir. İrəvan, Gəncə, Tiflis, Kartli, Kaxeti, Naxçıvan, Bitlis, Şirvan və Dağıstan osmanlılarda qalır, Təbriz, Kirmanşah, Həmədan, Luristan və Erdəlan əyalətləri Səfəvilərə qaytarıldı [10, s.51]. Burada qeyd etmək lazımdır ki, müxtəlif səbəblər üzündən bu sülh osmanlılar üçün də vacib idi. Ona görə etiraz etmədən bu sənədin imzalanmasını qəbul etmişdilər [35, s.57].

Öz yoxluğunda belə bir sülhün imzalanmasından xəbər tutan Nadir xan, Xorasan səfərindən geri qayıdan kimi Kirmanşah sülhünü tanımadığını elan etmişdir. Səfəvilər üçün ağır şərtlər olan həmin müqavilələrin nəticələrinin aradan qaldırılmasında məhz Türk dünyasının siyasi görkəmli sərkərdəsi Nadir Şah Əfşar əsas rol oynayır. Əslində siyasi fəaliyyətə II Təhmasibin yanında Nadirqulu xan kimi başlayan Nadir Şah Əfşar özünün şəxsi keyfiyyətlərinə görə qısa müddətdə 1726-1732- ci illərdə xeyli nüfuz sahibi olur. II Təhmasibin səbatsız idarəçiliyi parçalanmış Səfəvi xanədanının siyasi vəziyyətini daha ağırlaşdırır. Şah II Təhmasib isə özünün imzaladığı sülhün tanınmasını tələb edirdi. Nadir xan isə bu səbatsız şahın tələblərinə əməl etmək fikrində olmayıb bütün vətən torpaqlarını yadellilərdən azad etməyə, səfəvilərin qüdrətli çağdaş bütün ərazilərini vahid mərkəzi dövlətdə birləşdirməyə çalışırdı.

Hadisələrin sonrakı gedişatına Rusiya da müdaxilə edir. Belə ki, I Pyoturun ölümündən sonra daxili vəziyyətin qarışıqlığı, Xəzəryanı ərazilərdə rus qarnizonlarının saxlanılmasının maddi çətinliyi, Səfəvilərin Osmanlı ilə imzaladığı Kirmanşah sülhü Rusiyanın bu ərazidəki durumunda ciddi problemlər yaradırdı. Rusiya işğal etdiyi Xəzərsahili torpaqlardan könüllü imtina etməli olur [8, s.71]. Nəticədə Səfəvi–Osmanlı müharibələrində görkəmli Azərbaycan hərbi və siyasi xadimi, çox istedadlı sərkərdə Nadir xanın qələbələrinin təsiri və Nadirin qəti tələblərinin təzyiqi altında Rusiya işğalçıları tədricən geri çəkilmək zorunda qalmışdılar. Nadir xanın tələbi ilə Rusiya nümayəndələri 1732-ci ilin yanvar ayının 21-də Rəşt müqaviləsi imzalamalı olurlar [14, s.52]. Bu müqavilənin şərtlərinə görə, Səfəvilər osmanlıların Xəzəryanı bölgələrə buraxılmayacağı zəmanətini verir [26, s.96]. Rusiya isə Xəzərsahili ərazilərdən öz qoşunlarını tədricən, mərhələli şəkildə geri çəkməli idi.

Nadir xanın əsas məqsədi Azərbaycan torpaqlarını vahid idarəçilikdə birləşdirmək idi. Onun hərbi-diplomatik fəaliyyəti nəticəsində Dərbənd şəhəri ruslardan azad edilərək yenidən Səfəvilərin hakimiyyətinə qaytarılır. Nadir xan yerli əyanların yardımı ilə II Təhmasibi taxtdan endirərək onun 8 aylıq oğlu Abbası III Şah Abbas adı ilə taxta çıxarır [1, s.162] və

ən əsası özünü onun qəyyumu elan edir [10, s.55; 35, s.63]. 1732-ci ildə Nadir xan özünü qəyyum elan etməklə Səfəvilərin hakimiyyətinə faktiki şəkildə son qoyur [22, s.63].

Nadir xan Əfşar qarşısına qoyduğu məqsədlərə bir-bir çatırdı. Belə ki, Nadir xanın əsas məqsədi hələ 1723-cü ildə Osmanlı İmperiyası tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarının yenidən qeyd-şərtsiz geri qaytarmaq idi. Məhz buna görə də ilk növbədə Nadir xan 1732-ci ildə imzalanmış "Girmanşah" müqaviləsini ləğv edir [10, s.60]. II Təhmasib isə onun bu istəklərinə qarşı çıxdığı üçün Nadir başda olmaqla digər saray əyanlarının da birgə təxribatları nəticəsində taxtdan uzaqlaşdırılır. 1733-cü ildə məğlub olan osmanlılar Bağdad yaxınlığında Nadir xanla sülh müqaviləsi imzalamalı olur. Bu sülhün şərtləri Türkiyə tərəfi üçün ağır olur. Belə ki, Türkiyə son 10 il ərzində ələ keçirdiyi bütün torpaqları geri qaytarmalı idi. Əslində Osmanlının da daixli vəziyyəti bu ərazilərdə hərbi yürüşlərin keçirilməsi üçün artıq əlverişli deyildi. Belə olan təqdirdə osmanlı ordusunun Azərbaycan torpaqlarından çıxarılması prosesi başlayır.

Osmanlı problemini həll edən Nadir xan Rusiya ilə münasibətlərinin aydınlaşdırılmasına başlayır. 1734-cü ildə Nadir xan Əfşar İsfahanda Osmanlı elçisi ilə danışıqlarını bitirdikdən sonra onun hüzuruna knyaz S.D.Qolitsinin başçılığı ilə Rusiya dövlətinin nümayəndə heyəti gəldi. Rusiya rəsmiləri ilə razılığa gələ bilməyən Nadir xan Əfşar Dərbənd və Bakı şəhərlərinin Rusiya tərəfindən hələ də qaytarılmamasına öz narazılığını bildirmiş, bunu "Rusiya ilə bağlanmış Rəşt müqaviləsi şərtlərinin yerinə yetirilməməsi" kimi qiymətləndirmişdi [25, s.100; 18, s.257].

Əslində, Nadir Şah Əfşar şəxsiyyəti haqqında çox müxtəlif fikirlər var. Belə ki, onu həm Səfəvi xanədanına son qoymuş bir hakimiyyət hərisi, həm də Azərbaycanın parçalanmış torpaqlarının vahid hakimiyyət altında birləşdirən görkəmli sərkərdə kimi qiymətləndirirlər. Hər halda uzun müddətli parçalanmadan və işğalçı müharibələrdən sonra Azərbaycan torpaqlarını vahid idarəetmə sistemi altında birləşdirməyə nail olmuş Nadir Şah Əfşarın Azərbaycan dövlətçilik tarixində xüsusi yeri var.

Nadir xanın Rusiya ilə imzaladığı müqaviləni əslində onun uzaqgörən siyasətinin nəticəsi kimi dəyərləndirmək olar. Belə ki, öz qüvvələrini real qiymətləndirən Nadir xan, bu müqavilədən sonra Cənubi Qafqazın tamamilə ələ keçirilməsi işini davam etdirə bilərdi. Türklərin bu ərazilərdən çıxarılması və Azərbaycan torpaqlarının vahid hakimiyyət altında birləşdirilməsi onun əsas qayələrindən biri idi. Azərbaycan torpaqlarının siyasi cəhətdən birləşdirilməsinə nail olan Nadir xan tarixi şəxsiyyət kimi yalnız özünü şah elan etməklə kifayətlənməmişdi. Onun türk – müsəlman dünyasının görkəmli tarixi şəxsiyyəti kimi səciyyələndirililməsinin əsas səbəblərindən biri də islamı parçalayan siyasi qüvvələrə qarşı apardığı mübarizəsi olmudur. Nadir Əfşarın dövləti dünyəvi dövlət idi. Belə ki, cəmiyyətin idarə olunmasında dini normalar heç də əsas tutulmurdu [2, s.74]. O, Səfəvilər kimi şiəliyə əsaslanan deyil, müsəlmanların birliyinə əsaslanan bir dövlət yaratmağa çalışırdı [2, s.17-18; 15, s.8; 9, s.38-39]. Hətta türk sultanına həmin məqsədlə məktublarla müraciət etmişdi.

1734-cü ilin yayında Nadir xan Azərbaycanın şimal torpaqlarına yürüşə çıxır. Yürüşün əsas məqsədi Surxay xanın Şirvanı tərk etməsinə nail olmaq idi. Nadir xan Əfşar 1734-cü ilin avqust ayının 21-də Kür çayına yaxınlaşır, Şamaxını ələ keçirir. 1734-cü ilin oktyabrında Gəncə qalası mühasirəyə alınır. Mühasirənin uzun çəkməsi, qışın gəlməsi və

digər səbəbləri nəzərə alaraq Nadir xan Xəzəryanı böləgələrlə bağlı Rusiya ilə apardığı danışıqları sonlandırmaq qərarına gəlir. Belə ki, təcrübəli sərkərdə iki cəbhədə mübarizə aparmağın çətinliyini dərk edirdi və Rusiya ilə münasibətləri yoluna qoymaqda maraqlı idi. 1734-cü ilin oktyabr ayında Dağıstandakı rus qoşunlarının komandanı, general Levaşova Dərbənd mahalından Bakıya kimi olan əraziləri boşaltmaq əmrini verdi. Bu rus generalına Dərbənd şəhərinin də boşaldılmasına hazırlaşmaq tapşırıldı [28, s.195-196; 25, s.102-103]. Nadir şah 1734-cü ilin dekabrın 5-də öz səfiri Hüseyn xanı diplomatik missiya ilə Peterburqa göndərir. Hər iki tərəf arasında razılıq əldə olunduqdan sonra 1735-ci il 10 mart tarixində Gəncə yaxınlığında Rusiya ilə Səfəvilər arasında müqavilə imzalanır [2, 86]. Knyaz S.Qolıtsin başda olmaqla Rusiya tərəfi öz qoşunlarını Xəzərboyu vilayətlərdən çıxmağa razılıq verir. Bakı, Dərbənd, Niyazabad, Müşkür və Şabran geri qaytarılır [12, s.62; 7, s.37 ]. Qarşı tərəf isə öz növbəsində bu vilayətlərin əhalisinin Rusiya ilə ticarət əlaqələrinin davam etdirilməsinə mane olmayacağı öhdəçiliyini götürür. Bu müddəalar tərəflər arasında bağlanmış “Gəncə” müqaviləsində də (10-21.III.1735) rəsmiləşdirildi. Rusiya tərəfi “Bakını 15 günə, Dərbəndi isə 2 ay müddətində boşaltmağı” rəsmi şəkildə qəbul etdi [12, s.63; 2, s.86]. Rus qoşunları Dərbənd şəhərini razılaşdırılmış vaxt ərzində tərk etdilər. Səfəvilər üçün ağır şərtlər olan həmin müqavilələrin nəticələrinin aradan qaldırılmasında məhz Türk dünyasının siyasi görkəmli sərkərdəsi Nadir Şah Əfşar əsas rol oynayır. Beləliklə, Rusiyanın 13 il davam etmiş rejiminə son qoyuldu [25, s.105-106; 29, s.123].

Nadir iki il ərzində bir-birinin ardınca qazandığı parlaq qələbələrlə bütün Azərbaycanı və Şərqi Gürcüstanı osmanlılardan təmizləyir. Osmanlı ilə Nadir xanın ordusu 1735-ci ilin iyununda Eşmiədzin yaxınlığında qarşı-qarşıya gəlir və bu döyüşdə Nadir xan qələbə çalır. Məğlubiyyətdən sonra türk ordusu bütünlükdə Cənubi Qafqazı tərk edir. Osmanlı - Rusiya qarşıdurmasından istifadə edən Nadir şah 1735-ci ilin sonuna tamamilə Cənubi Qafqazı ələ keçirir [20, s. 99; 23, s.320].

Nadir xan Xəzəryanı torpaqların da azad edilməsi ilə Azərbaycan torpaqlarını vahid hakimiyyət altında birləşdirir. Uzun illər apardığı mübarizənin nəticəsi kimi, Nadir xan 1736-cı ilin fevral ayında Muğanda topladığı qurultayda özünün şah elan olunmasına nail olur [35, s.96]. Bu onun uzun illərdir apardığı mübarizəsinin əsas nəticəsi idi. Belə ki, özünü şah elan edərək Nadir şah Səfəvilər dövlətinin (1501-1736) mövcudluğuna rəsmən son qoydu [11, s.56]. Şirvan ərazisi, o cümlədən Dərbənd şəhəri onun yaratdığı böyük imperiyanın tərkibinə daxil oldu [27, s.155].

Azərbaycanda və Dağıstandakı feodal pərakəndəliyindən istifadə edən Nadir xan böyük itkilər hesabına da olsa buradakı hakimiyyətini qismən möhkəmləndirir [27, s.156]. Daha sonra qışlamaq üçün Muğana çəkilir və burada III Şah Abbasın qəfil ölümündən istifadə edərək özünün şah elan olunmasına nail olur. Nadir xan Əfşarın özünü “Şah” elan etməsi Azərbaycan feodallarının bir qismini xeyli narahat edirdi. Onun şah seçilməsindən narazı olan yerli tayfa başçılarından olan Gəncə xanı Ziyadoğlu, habelə Kəbirli və Cavanşir tayfa başçıları ailələri ilə birlikdə Xorasana sürgün edildi [10, s.110; 3, s.100]. Nadir Şah Əfşar bölgədəki mövqeyini möhkəmlətməyə səy göstərdi və ona qarşı çıxmış dağlılarla mübarizəni davam etdirdi. Həmin ildə o, Şamaxıdan-Altıağac və Dərəkəndi səmtindən yürüş edərək Qubanın Buduq və Xınalıq kəndlərini keçir və Dağıstandan gəlmiş qaçqınların tutulmasına nail olur. Sonra o, Gilyar səmtindən Dərbəndin şimalına hərəkət edərək burada düşərgə salır.

Nadir şah yeni vəzifələrə öz yaxın adamlarını təyin edir. Nadir şahın atdığı mühüm addımlardan biri köhnə inzibati ərazi bölgüsünü dəyişdirmək oldu. Belə ki, o, Qarabağ, Şirvan, Təbriz və Çuxur-Səəd bəylərbəyliklərini ləğv edərək, mərkəzi Təbriz şəhəri olan vahid Azərbaycan inzibati bölgüsünü yaratdı, başına isə qardaşı İbrahimi təyin etdi. Nadir şah 1736-cı ildə baş vermiş həyəcanları yatırdıqdan sonra Nəcəf sultanı Dərbənd hakimi təyin etdi. [19, s.128, 197].

Nadir 1741-ci ildə Dağıstan üzərinə yerüs edir. Məsələ burasında idi ki, Nadir Hindistanda ikən dağlılar tabeçilikdən çıxmışdılar. Üstəlik onların dəstələri tez-tez Dərbənd və Şamaxı, Kaxetiya və Car-Balakən vilayətləri üzərinə hücuma keçirdilər. 1738-ci ildə Manik kəndi yaxınlığındakı döyüşdə Nadir şahın qardaşı İbrahim xanın qoşunları dağlıların birləşmiş orduları tərəfindən məğlubiyyətə uğradılmış, İbrahim xan və Gəncə bəylərbəyi Uğurlu xan Qacar öldürülmüşdü.

Hakimiyyətin həqiqi sahibi olandan sonra da Nadir şah öz mövqeyini müharibələrlə möhkəmləndirir. Nadir şah orta əsrlər hərb tarixinin ən parlaq simalarından biridir. Yer üzündə onun qədər parlaq hərbi qələbələr qazanmış sərkərdələri barmaqla saymaq olar. Nadir şah yürüşlərə çıxmaqla həm də ölkənin iqtisadiyyatını dirçəltmək məqsədi güdürdü. 1737-ci ildə Nadir şah üsyana qalxmış əfqanlara qarşı çıxış edir və həm Heratı, həm də Qəndəharı tutur. Sonra o, qaçqın əfqanlara sığınacaq verən Hindistana hücum edir və 1739-cu ilin 24 fevralında Böyük Moğol sülaləsindən Məhəmməd şahın ordusunu darmadağın edərək, martın 20-də Dehlini tutur [10, s.93]. Hindistanı tutduqdan sonra Nadir şah Orta Asiyaya yürüş edir. Həmin dövrdə Rusiya dövləti Türkistanı, Buxaranı və ətraf əraziləri ələ keçirtmək niyyətində idi. Tezliklə bütün Orta Asiyanı Nadir öz imperiyasına qata bildi. Rus qoşunlarının bura girməsinin qarşısını aldı.

11 illik (1736-1747- ci illər) şahlıq dövründə ölkə daxilindəki narazılıqlar, Nadir şaha qarşı qalxan üsyanlar, ağır vergi sistemi, I,II,III Sam Mirzə üsyanları böyük sərkərdənin Azərbaycan torpaqlarını vahid idarəçilikdə birləşdirmək ideyalarını həyata keçirməyə imkan vermədi. İmperiya ərazisində baş verən üsyanlara, Rus imperiyası, Osmanlılara qarşı mübarizə aparmış Nadir şah Əfşar 1747-ci ilin iyun ayının 19-dan 20-ə keçən gecə sui-qəsd nəticəsində öldürülürdü. Onun ölümü ilə uzun mübarizə edərək, qılınc gücünə yatardığı vahid Azərbaycan dövləti təəssüf ki, yenidən parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı.

**İstifadə edilən ədəbiyyat**

1. Bakıxanov, A.A. "Gülüstani - İrəm". / A.A.Bakıxanov. – Bakı: "Möminin" nəşriyyatı, - 2001. - 287 s.

2. Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti (Nadir şahın 325 və443 Əfşar dövlətinin 280 illiyinə həsr edilir). Bakı: - 2014. - 256 s.

3. Çağlayan, Erhan. Agqoyunlu – Osmanlı münasibətləri Şərəf Xan Bidlisinin "Şərəfnamə" əsərində. / Bakı: Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri, - c. 81. – 2020. - 188 s.

4. Əliyev, N. Böyük Dərbənd Ensiklopediyası. // N.Əliyev - Bakı: "AFPoliqrAF", - 2018. – 782 s.

5. Əlizadə, O.T. XVIII əsrin I yarısında Osmanlı - Səfəvi münasibətləri // Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. - Bakı: Elm, - 2008. - 25 s.

6. Əzizova, M. Ə. Dərbənd tarixi Qafqaz Arxeoqrafiya Komissiyasnın Aktları əsasında. f. d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı. -2021.

7. Hacıyev, A.A. Dərbənd XIX - XX əsrin əvvəllərində. (tariixi – demoqrafik tədqiqat): / A.A.Hacıyev. - Bakı: Turxan NPB, - 2017. - 244 s.

8. Həsənov, H.İ. XVIII əsrin 70 -80 - ci illərində Rusiya - İran münasibətlərində Azərbaycanın yeri / - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri, – c. 38. - 2011. - 497 s.

9. Həsənzadə, T. XVIIrI-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər (Mehdi Bamdadin "Tarixi-ricali-İran" əsəri əsasında). // T.Həsənzadə. – Bakı: "Nurlan", - 2007. – 320 s.

10. Hüseynov, E.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. / E.İ.Hüseynov. - Bakı: Elm, - 2013. - 224 s

11. Hüseynov, E.İ. Nadir şahın Azərbaycan dövlətçiliyi tarixində rolu. / - Bakı: "Azərbaycan Dövlətçilik ənənələri tarixi" Beynəlxalq Simpoziumu, - 2008. 86 s.

12. Mustafayev, T.T. XVIII əsrin I yarısında Azərbaycanda Rusiyaya meyilin güclənməsi. / T.T.Mustafayev. - Bakı: "Elm", - 1986. - 88 s.

13. Mustafazadə, T.T. Azərbaycan - Rusiya münasibətləri XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərində. / T.T.Mustafazadə. - Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, - 2013. - 528 s.

14. Mustafazadə, T.T. XVII yüzildə Türkiyə - Azərbaycan münasibətlərinin başlıca mərhələləri // Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri. – c. 19. – 2007. - 158 s.

15. Mustafazadə, T.T. XVIII əsrdə Azərbaycan dövlətçiliyni yaratmaq uğrunda mübarizə "Azərbaycan Dövlətçilik ənənələri tarixi" Beynəlxalq Simpoziumu. - Bakı: "Victory" çap evi - 2008. – 86 s.

16. Nəcəfli, G.C. I Pyotrun erməniləri Azərbaycanın Xəzəryanı bölgələrinə köçürmək planları // Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitututnun Elmi Əsərləri. – c. 33. – 2010. - 487 s.

17. Piriyev, V.Z. Azərbaycanın tarixi - siyasi coğrafiyası. / V.Z.Piriyev. - Bakı: "Müəllim", - 2006. - 148 s.

18. Süleymanov, M. Nadir şah. / Tehran. – 2010. – 741s.

Rus dilində

19. Алиев, Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века. / Ф.М.Алиев. - Баку: Элм, – 1975. – 231 с.

20. Алиева, С.И. Азербайджан и народы Северного Кавказа (XVIII - начало XXI вв.). / С.И Алиева. - Баку: Изд. дом - «Şərq - Qərb», - 2010. - 620 с

21. Алкадари, Г.Э. Асари. Дагестан. Исторические сведения о Дагестана. // Пер. и примеч. А.Г.Гасанова. – Махачкала: изд. Даг. НИИ, - 1929. – 184 с.

22. Арунова, М.Р., Ашрафян, К.З. Государство Надир - шаха Афшара. // Очерки общественных отношений в Иране в 30 - 40 гг. XVIII в. - Москва: Изд - во восточ. лит - ры, - 1956. - 283 с.

23. «История Ирана с древнейших времен до конца XVIII века». / Авторы: Н.В.Пиргулевская, А.Ю.Якубовский., И.П.Петрушевский, Л.В.Строева, А.М.Беленицкий. - Ленинград: Издательство Ленинградского университета, - 1958. – 390 с.

24. Кидирниязов, Д.С. Дагестан в Кавказской политике России и Турции в период упадка Сефевидского государства (1707 - 1721 гг.) // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitututnun Elmi Əsərləri. - "Azərbaycan Respublikası Azərbaycan Xalq Cumhuriyyətinin varisidir" mövzusunda beynəlxalq elmi konfransın materialları. - № 38. - Bakı: - 2011. - 497 s.

25. Локкарт, Л. Надир Шах Критическое исследование на основе первоисточников (Лондон - 1938). – Баку: Изд - во QANUN, - 2004. - 395 с. (переведено с английского Гезаловой Н.Р.).

26. Магарамов Ш.А., Чекулаев Н.Д., Иноземцева Е.И. История Дербентского гарнизона Российской императорской армии (1722–1735). – Махачкала: Издательство «Лотос», - 2021. – 200 с.: ил.

27. Мишиев, Я.И. Дербенд и мировая цивлизация. / Я.И.Мишиев. - Ростов-на-Дону: - 2005. - 280 с.

28. Мустафазаде, Т.Т. Азербайджан и русско - турецкие отношения в первой трети XVIII века. / Т.Т.Мустафазаде. - Баку: Элм, - 1993. - 240 с.

29. Назаралиев, О.К. К истории образования Дербендского ханства // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitututnun Elmi Əsərləri, – 2010. - с. 33 - 485 s.

30. Султанов, С.А. Дербент история возникновения и развития. / С.А.Султанов. - Дербент: Типография, - № 3, - 2003. - 178 с.

31. Чекулаев, Н.Д. Российские войска в Дагестане в контексте Кавказской политики России (1722 - 1735 гг.). / Н.Д.Чекулаев. - Махачкала: Тип. ДНЦ РАН, - 2008 - 208 с.

32. Шишов, А.В. Схватка за Кавказ: XVI - XIX века. / А.В.Шишов. - Москва:, изд - во «Вече», - 2007. - 480 с.: ил. - (Военные тайны России).

İngilis dilində

33. Durand M. Nadir Shah. London: Archibald const. and Co., LTD, 1908, 352 p.

34. Lockhart, L. The fall of the Safavi dynasti and the afqan occupation of Persia. / L.Lockhart. - Cambridge: at the University Press, - 1958. - 584 p.

35. Lockhart,L. Nadir Shah. A critical study based mainly upon contemporary sources. / London: Luzac Co., - 1938. – 313 p.

## ƏFŞARLARIN MƏNŞƏYİ VƏ NADİR ŞAH ƏFŞARIN MİLLİ KİMLİK MƏSƏLƏSİ

## AVRASYA AVŞARLARINDA İLETİŞİM: SEMBOLLER

## COMMUNICATION IN EURASIAN AVSARS: SYMBOLS

Dr. Lect. Nurgül ERGÜL GÜVENDİ,

Sivas Cumhuriyet University,

nurgulergul@gmail.com,

ORCID ID: 0000-0002-9473-1474,

**ÖZET**

Halk kültürü, bir toplumun yaşam tarzını, inançlarını ve değerlerini yansıtan kendine özgü bir kültürdür. Semboller, sözcükler, mitler ve ritüeller halk kültürünü oluşturan temel unsurlardır. Bu semboller, toplumun tarihini, kültürünü ve inançlarını yansıtır. Semiotik, sembolik ve kültürel antropoloji açısından semboller, bir toplumda var olan kültür ve inanç sistemlerinin tanınması için gereklidir. Folklorik semboller, toplumun inançları, ritüelleri, tarihi, tabuları, korku ve umutları gibi birçok özellik taşır. Semiyotik yaklaşım, sembollerin inşası ve sembolik etkileşim süreçleri, tüm bu toplumsal özelliklerin anlaşılması açısından oldukça önemlidir. Halk kültüründe sembol kullanımı, sözsüz iletişim aracıdır. Kültürün taşıyıcısı olarak işlev görür ve toplumun kültürel kimliğinin oluşmasında önemli rol oynar. Bunlar, bir toplumun belirli bir zaman diliminde nasıl ve ne şekilde yaşadığına ilişkin (yaşam biçimi-kültür) emsalsiz bir bakış sunabilir ve bu bakış açısı, toplumların kültür ve inanç sistemlerinin çözümlenmesinde hayati rol oynar. Bu araştırmada Avrasya Avşarlarının sosyokültürel özelliklerini yansıtan iletişim biçimleri, halk arasında kullanılan semboller bağlamında incelenmiştir. Bulgularımız Avrasya Avşarlarının güç sembolleri olarak kurt, at, üç kartal, geyik gibi hayvan sembollerini; edebiyat ve sanat alanlarında ise rubai, destan ve şiir gibi türlere ağırlık verdiklerini göstermektedir. Bu şiirlerde, yalnız kalmak, yolculuk yapmak, özgürlüğe kavuşmak gibi temalar dikkat çekmektedir. Sonuç olarak kullanılan sembollerin ortak noktası güç, cesaret, zafer, sadakat, özgürlük, zarafet,

savaşçılık, avcılık, göçebelik, doğa sevgisi gibi özelliklerdir. Bu özelliklerin Avrasya Avşarlarının temel karakteristik özellikleri olduğu kanaatindeyiz.

**Anahtar Kelimeler:** İletişim Sosyolojisi, Kültürel Çalışmalar, Avrasya Avşarları, Sembolik Etkileşimcilik

**ABSTRACT**

Folk culture is a distinctive culture that reflects the lifestyle, beliefs and values of a society. Symbols, words, myths and rituals are the basic elements that make up folk culture. These symbols reflect the history, culture and beliefs of the society. In terms of semiotic, symbolic and cultural anthropology, symbols are necessary for the recognition of the existing culture and belief systems in a society. Folkloric symbols carry many features such as the beliefs, rituals, history, taboos, fears and hopes of the society. The semiotic approach, the construction of symbols and the processes of symbolic interaction are very important in understanding all these social characteristics. The use of symbols in folk culture is a nonverbal communication tool. It functions as the carrier of culture and plays an important role in the formation of the cultural identity of the society. They can offer a unique view of how and in what way a society lived in a given time period (lifestyle-culture), and this perspective plays a vital role in analyzing the culture and belief systems of societies. In this research, the forms of communication reflecting the socio-cultural characteristics of the Eurasian Avşars were examined in the context of the symbols used among the people. Our findings include animal symbols such as wolf, horse, three eagles and deer as power symbols of Eurasian Avshars; In the fields of literature and art, it shows that they give weight to genres such as rubai, epic and poetry. In these poems, themes such as being alone, traveling and attaining freedom draw attention. As a result, the common point of the symbols used is strength, courage, victory, loyalty, freedom, grace, warrior, hunting, nomadism, love of nature. We believe that these features are the main characteristics of Eurasian Avşars.

**Keywords:** Sociology of Communication, Cultural Studies, Eurasian Avshars, Symbolic Interactionism

Bu gün ən çox tədqiqata ehtiyacı olan, mübahisəli məsələlərdən biri də əfşarların mənşəyi, onların ilk ana vətəni, eləcə də Nadir şah Əfşarın milli kimlik məsələsidir. Tədqiqatçıların çoxunun uzun illər boyunca məqsədli şəkildə aparılan tarixi saxtalaşdırma siyasətinin "qurbanına çevrilərək" əfşarların Orta Asiyadan gəldiyini, bir çox ərazilərə o cümlədən Azərbaycana gəlmə olduqlarını iddia edirlər. Bu azmış kimi cəmi iki-üç əsr bizdən uzaqda olan hadisələrə aid həqiqətləri gizlədərək hərbi nailiyyətlərinə görə "Şərqin Napoleonu" və "İkinci Makedoniyalı İsgəndər" adlandırılan Nadir şaf Əfşarı fars hesab edənlər də var. Tarixi həqiqətlər isə əfşarların Güney Azərbaycan ərazisində tarix səhnəsinə gəldiyini sübut edir. Hətta Əfşar imperiyasının sonuncu ən böyük imperatoru Nadir şahın öz soy-kökünün Azərbaycan torpaqlarında olduğuna əmin olması barədə məlumatlar da vardır. Göstərilir ki, Nadir şah Əfşar 1730-cu ildə Urmiya gölünün güney

sahilində və Marağanın güneyində yerləşən əfşar tayfasını - öz tayfasının "ana yurdunu" tapdığına görə çox şad olmuşdu".

Rəşidəddindən üzü bəri əfşarların Oğuz xanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın adından gəldiyi göstərilir. Əfşarların 24 oğuz boyundan biri, müasir əfşarlar isə azərbaycanlıların subetnosu Mahmud Qaşğarlıya görə, "Divani Lüğət-it-Türk"dəki iyirmi iki oğuz boyundan altıncısı, Səfəvi dövlətini quran 7 türk qəbiləsindən biridır. Tədqiqatçılardan V. Minorski “Tadhkirat al-mulūk. A manual of Ṣafavid administration, circa 1137/1725”, Türkiyəli tədqiqatçı A.Kaya isə “Əfşar türkmənləri” adlı əsərində də bu fikirləri təsdiq edirlər. Nadir şahın türk soylu olduğunu isə sübut edən onlarla ingilis, türk, Azərbaycan və digər xalqlara aid tarixi mənbələr vardır. Tədqiqatçı-alim Z.Əliyev göstərir ki, Nadir şah şəxsən Osmanlı dövləti sədrəzəmi Əli Paşa Həkimoğluna məktubunda yazırdı:

“Mənim cəddim müqəddimə Çingiz xurucunda Ruma gedən ali-Osmanın cəddi Ərtoğrulun qarındaşı olub, babaları Süleyman şah suya qərq olduqda mənim cəddim İrana getmiş idi”.

Alim “Bəs Nadir şahın niyə bu qədər qələbələri ola-ola, onlar farsın ayağına bağlanır?” sualına isə belə cavab verir: “Cavab sadədir: Nadir şah Əfşarın hərbi yürüşlərini erməni katalikosu Abram Tekirdağlı (Abram Kretasi) qələmə almışdır”.

**Açar sözlər:** afşar, türk, Nadir şah, oğuz

## Abstract

The origin of the Afshars and the issue of Nadir Shah Afshar's national identity

Today, one of the most controversial issues in need of research is the origin of the Afshars, their first motherland, as well as the national identity of Nadir Shah Afshar. Many researchers claim that the Afshars came from Central Asia, they came to many areas, including Azerbaijan, and that Nadir Shah Afshar was Persian by nationality, having become a victim of the policy of historical falsification carried out on purpose for many years. Historical facts prove that the homeland of the Afshars is South Azerbaijan, and Nadir Shah Afshar is a Turk. There are dozens of English, Turkish, Azerbaijani and other sources that confirm these facts.

The reason why the great ruler and general Nadir Shah Afshar is considered a Persian is that his military campaigns were written by the Armenian Catholicos Abram Tekirdağli (Abram Cretasi). Armenians tried to record this stage of our history as well as the entire history of Azerbaijan.

**Key words:** Afshar, Turk, Nadir Shah, Oghuz

# BORÇALI VƏ QAZAX BÖLGƏLƏRİNİN NADİR ŞAH ƏFŞAR TƏRƏFİNDƏN GÜRCÜSTAN HAKİMLƏRİNİN İDARƏÇİLİYİNƏ VERİLMƏSİNƏ DAİR FİKİRLƏR

**Mürvət Əliyev**

**Orcid id: 0000-0002-4493-7204**

murvet.eliyev@quba.adpu.edu.az

XVI əsrin əvvəllərində Azərbaycan Səfəvilər imperiyası yarandı və bu imperiyanın əsas hissəsini məhz Azərbaycan torpaqları təşkil edirdi. 200 ildən çox bir dövrdə öz geostrateji mövqeyi, zəngin sərvətləri olan ölkəmiz Səfəvi və Osmanlı imperiyaları arasında mübarizə meydanına çevrildi. Belə ki, dəfələrlə əldən-ələ keçən Azərbaycan torpaqları böyük dağıntılara məruz qalmış, əhalisi bir yerdən başqa yerə köçürülmüşdür. Səfəvilər imperiyasının ərazisinə tarixinin böyük bir hissəsində Gürcüstan torpaqlarının şərq hissəsi və tarixi Azərbaycan torpaqları olan Borçalı, Qazax və Şəmşəddil də daxil idi. Həmin dövrün mənbələrini araşdırarkən bu əraziləri məhz Səfəvi xanədanının rəhbərləri tərəfindən təyin edilmiş hakimlər idarə etmiş və Borçalı, Qazax və Şəmşəddil bölgələrinin əhalisinin tamamını Azərbaycan türkləri təşkil etmişdir.

Səfəvilər dövləti 1736-cı ildə Nadir Şah Əfşar imperiyası ilə əvəz olunduqdan sonra da tarixi Azərbaycan torpaqları məhz bu imperiyanın tərkibində olmuş və əsas siyasi, iqtisadi, mədəni mərkəz kimi öz rolunu oynamışdır. Lakin Nadir şah hökümdar seçkiləri üçün topladığı Muğan qurultayında ona müxalif olan bir sıra türkmən tayfalarını cəzalandırmaq qərarına gəlmişdir. Bu hadisələr zamanı bir sıra tayfalar Cənubi Azərbaycana və İranın mərkəzinə, o cümlədən Xorasana köçürülmüşdür. Bir sıra tayfaların isə hakimiyyətləri altında olan ərazilərin idarəetməsində dəyişiklik edərək onların nüfuzunu azaltmağa çalışmışdır. Belə ərazilərdən biri də idarəetməsi Ziyadoğlu tayfa rəhbərlərindən alınaraq Gürcü hakimlərinə verilən Borçalı və Qazax bölgələridir. Bu məsələyə Azərbaycan tarixçiləri müxtəlif istiqamətlərdən yanaşaraq hadisəni tariximiz üçün faciə də adlandıran olub, sadəcə bir hakimiyyət dəyişikliyi olduğu qənaətinə gələn də olub. Məqalədə məhz bu hadisəyə diqqət ayrılaraq dövrün hadisələri fonunda hadisənin mahiyyəti açılmağa çalışılmışdır.

**Açar sözlər:** Avşar, Azərbaycan, Mənbə, Qafqaz, Nadir Şah

**Summary**

At the beginning of the 16th century, the Safavid empire of Azerbaijan was established, and the main part of this empire was the lands of Azerbaijan. In a period of more than 200 years, our country, with its geostrategic position and rich resources, became a battleground between the Safavid and Ottoman empires. Thus, the lands of Azerbaijan, which have passed from hand to hand many times, have been subjected to great destruction, and the population has been moved from one place to another. For a large part of its history, the territory of the Safavid empire included the eastern part of the Georgian lands and the historical Azerbaijani lands of Borchali, Gazakh and Shamshaddil. When

researching the sources of that period, these areas were ruled by judges appointed by the leaders of the Safavid dynasty, and the entire population of Borchali, Gazakh and Shamshaddil regions was made up of Azerbaijani Turks.

Even after the Safavid state was replaced by the Nadir Shah Afshar empire in 1736, the historical lands of Azerbaijan were part of this empire and played their role as the main political, economic and cultural center. However, Nadir Shah decided to punish a number of Turkmen tribes who opposed him in the Mugan congress he convened for the election of the ruler. During these events, a number of tribes were moved to South Azerbaijan and central Iran, including Khorasan. A number of tribes tried to reduce their authority by changing the management of the territories under their authority. One such area is the Borchali and Gazakh regions, whose administration was taken from the Ziyadoglu tribal leaders and given to Georgian judges. Azerbaijani historians have approached this issue from different directions, calling the event a tragedy for our history, and others have come to the conclusion that it was just a change of power. In the article, attention was paid to this event and the essence of the event was tried to be revealed against the background of the events of the time.

**Keywords:** Avshar, Azerbaijan, Source, Caucasus, Nadir Shah

**Giriş**

Hələ XVI-XVII əsrlərdə Cənubi Qafqaz ərazisi Səfəvilərlə Osmanlılar arasında bölünmüşdü və ənənəvi olaraq Şərqi Gürcüstan (Kartli, Kaxetiya və Mesxiya) Səfəvilərin, Qərbi Gürcüstan (Quriya, İmeretiya və Minqreliya) isə Osmanlıların hakimiyyəti altında olmuşdur. Nadir şahın dövründə (1736-1747) də Şərqi Gürcüstan Əfşarlar tərəfindən idarə olunmuşdur

1736-cı ildə keçirilmiş Muğan yığıncağında Nadir xan Əfşarın şah taxtına çıxması mərasimində Gəncə bəylərbəyi yalnız Səfəvi sülalələrindən olan şəxsin şahlıq taxtına oturması uğrunda mübarizə aparırdı. Gəncə-Qarabağ Ziyadoğluları bəylərbəyi səlahiyyətindən başqa digər səlahiyyətlərə də sahib idilər və bəzi vaxtlarda hətta Tiflis əhalisi onların hökmünə tabe olmuşdur. A.A.Bakıxanovun məlumatına görə, Gəncə Ziyadoğluları Xudafərin körpüsündən başlayaraq Sınıq körpüdən Şüləver kəndinə qədər olan bütün ərazidə də hökmranlıq etmişdilər [10, s.219]. N.F.Axundov “Qarabağnamələr”ə istinadən Muğan yığıncağında Cavanşir, Kəbirli, “Otuz iki”, “İyirmi dörd” və b. tayfaların başçılarının da Nadirqulu xanın namizədliyinin əleyhinə çıxdıqlarını qeyd edir.

Muğan yığıncağında iştirak edən II Uğurlu xan Ziyadoğlu da Nadirqulu xanın şahlıq taxtına namizəd verilməsinə etiraz etmişdi. Həmin yığıncaqda iştirak edən gürcü və erməni feodalları isə əksinə, Nadirqulu xanın namizədliyini dəstəkləmişdilər. Nadir şah Ziyadoğluların əzəli şöhrətini nəzərə alıb, onlara ağır cəza verilməsini lazım bilməmiş, Qazax və Borçalı ellərini Gəncə bəylərbəyinin tabeçiliyindən çıxararaq Gürcüstan əmirlərinin idarəçiliyinə tapşırmışdı. Bundan başqa Nadir şah Gəncə (Qarabağ) bəylərbəyiliyinə daxil olan beş məlikliyi, habelə Mil-Qarabağ düzənliyini Ziyadoğluların əlindən almış və Gəncə bölgəsinin yerli əhalisinin çoxunu Xorasana sürgün etmişdi. Bundan sonra ziyadoğlular xeyli zəifləyərək, yalnız Gəncə ətrafının hökmranlığı ilə

kifayətlənirdilər.

**Nadir şahın Gürcüstan siyasəti**

Hələ 1735-ci ildə Nadirqulu xan İrəvan ətrafında gürcü feodalları ilə baş tutan ilk görüşündə Gürcüstanda öz hökmranlığını bərqərar etmək niyyətində olduğunu bildirmişdir. Bu görüş Gürcüstan taxt-tacına Teymurazın yaxın qohumu olan Əli Mirzənin təyin olunmasına hesablanmışdır. Teymuraz müsəlmanlığı qəbul etmədiyinə görə Kaxetiya taxt-tacını əldə edə bilməmiş və öz ailəsi ilə birlikdə Pşaviyaya gedərək gürcü-dağlıların himayəsinə sığınmışdır. 1736-cı ilin əvvəlində Teymuraz buradan elçi vasitəsilə birbaşa Rusiyaya müraciət edərək, Kaxetiya əhalisi adından əfşarların həmlələrindən müdafiə olunmaq üçün kömək istəmişdir. Kömək gəlməyəcəyi təqdirdə isə Teymuraz ona Rusiyaya köçməyə icazə verilməsi barədə xahiş ilə müraciət etmişdir. Lakin həmin vaxt 1735-1739-cu illər Rusiya-Osmanlı müharibəsinin getməsi ucbatından bu xahiş yerinə yetirilməmişdir. Teymurazın qardaşı Konstantinin osmanlılar tərəfindən öldürülməsindən sonra da Rusiyaya getmək üçün şəraitin yaradılması barədə xahiş etmişdir [20, s. 124].

1743-cü ildə Nadir şahın uğursuz Dağıstan səfərindən sonra, habelə elə həmin vaxt Rusiya-Əfşar münasibətlərinin gərginləşdiyi bir vaxtda Kartlidə və Şirvanda dağıstanlıların iştirakı, həmçinin Osmanlı səltənətinin köməyi ilə Nadir şahın əleyhinə iri üsyanlardan biri baş vermişdir. Üsyançıların rəhbəri olan Givi Amilaxvariyə Ahalsıxdan artilleriya, barıt və güllə köməyi də göndərilmişdir. Qars tərəfdən isə Şirvana çoxlu sayda əsgərlər, eləcə də dağıstanlılara pul yollanmışdır. Lakin bu üsyan məğlubiyyətə uğramışdır. Üsyançı Kartli feodalları Rusiyada yaşayan Bakarı yenidən Kartli taxt-tacına çıxarmağa çalışsalar da, bu məsələdə Rusiya tərəfindən onlara heç bir dəstək göstərilməmişdir [20, s.125].

1743-cü ildə Kaxetiya hakimi Teymuraz Şirvanda yalançı Sam Mirzənin başçılığı ilə Nadir şaha qarşı yönəlmiş üsyanın yatırılmasında iştirakına görə Nadir şah onu Kaxetiya çarı təyin etmiş, üstəlik Borçalı və Qazax mahallarının idarə olunması işini də ona həvalə etmişdir [9, s. 82]; II Uğurlu xan Ziyadoğlu Şəmşəddil, Qazax və Borçalı bölgələrindən vergi yığmaq hüququndan məhrum edilmiş və bu imtiyaz Teymurazın ixtiyarına keçmişdir [17, s.124]. 1744-cü ildə Teymurazın oğlu II İrakli Nadir şah tərəfindən Kaxetiya çarı təyin edilmiş, Teymurazın özü isə Kartli çarı kimi Borçalı torpaqlarını idarə etməyə başlamışdır [13, s. 173]. Elə həmin il Ahıska paşası Usub tərəfindən Borçalı ərazisinə müdaxilə edilsə də, II İrakli bu hücumu dəf edə bilmişdir [16, s.22].

Qeyd edək ki, hələ 1744-cü ildə Teymuraz və onun oğlu II İrakli son 100 il ərzində ilk dəfə olaraq heç bir məcburiyyət olmadan müsəlmanlığı qəbul etmişdilər [20, s.125]. Beləliklə, Aleksandr Baqrationun Kartli-Kaxetiya çarı kimi hakimiyyətinə son qoyulmuş, Kartli çarlığı onun dayısı Teymuraza, Kaxetiya çarlığı isə Teymurazın oğlu II İrakliyə verilmişdir [14, s. 344].

Məqalədə qeyd edilən məsələlərin izahını vermək üçün tarixi mənbələr əsasında Qazax, Şəmşəddil və Borçalı bölgələrinin tarixinə nəzər salmaq doğru olardı

**Qazax bölgəsi XVII-XVIII əsrlərdə**

Rusiya hərb tarixçisi N.F.Dubrovin guya ki, hansısa arxivdə saxlanılan sənədlərdə

qazaxlıların, guya ki, hələ qədim zamanlardan Gürcüstanda yerləşməsi və gürcü knyazları tərəfindən idarə olunması barədə məlumatlar olduğunu iddia edirdi. O, yazırdı: *"...qazaxlılar Gürcüstana hələ I Şah Abbasın dövründən də əvvəl, ən qədim zamanlardan köçmüşdülər. Bu xalqın Gürcüstanda yerləşməsi tarixini müəyyənləşdirmək çətindir. Onlar gürcü çarlarına vergi ödəyir, öz yüzbaşıları ilə yanaşı gürcü knyazları tərəfindən də idarə olunurdular. Nadir şah qazaxlıları birdəfəlik olaraq II İraklinin hökmranlığına vermiş, o isə öz növbəsində qazaxlıların idarə olunması işini Çavçavadzenin nəslinə mənsub olan knyazlara həvalə etmişdir*" [19, s.498].

Lakin İ.P.Petruşevskinin qeyd etdiyi kimi, hələ XVI əsr mənbələrində adı çəkilən və qızılbaş tayfalarına mənsub olan qazax, başqa cür desək, qazaxlı və ya qazaxlar tayfasının yaşadığı ərazi Azərbaycanın şimal-qərb hissəsini, Ağstafa çayının ətrafını əhatə edirdi. Həmin vaxt Qazax bölgəsi Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibinə daxil idi. XVI əsrin 80-ci illərində Osmanlı qoşunlarının gözlənilən hücumları ilə əlaqədar olaraq qızılbaş qoşunlarının Azərbaycanı tərk etdiyi zaman qacar, qaramanlı, bayat və digər tayfalardan fərqli olaraq, qazaxlı tayfası öz ərazisindən köçüb getməmişdir. Tayfa başçısı Nəzər xan Qazaxlı Osmanlı hakimiyyətini qəbul edərək, öz ərazisini qoruyub saxlaya bilmişdir. Hətta ölkə ərazisi ikinci dəfə Səfəvilər dövlətinin hakimiyyəti altına keçsə də, Nəzər xan yenə də öz ərazisindəki hakimliyində qalmışdır. 1605-ci ildə I Şah Abbas Nəzər xanın varisi olan Şəmsəddin xan Qazaxlıya xan titulu və qazaxlar tayfasının yaşadığı yuxarıda göstərilən irsi vilayətinə əlavə olaraq Şirvan əyalətində də müəyyən bir ərazi vermişdir. İ.P.Petruşevski Şəmsəddin xan Qazaxlının 1628-ci ildə hələ də sağ olduğunu qeyd edirdi [21, s. 134].

XVIII əsrin birinci rübündə Qazax bölgəsi Osmanlı dövlətinin əlinə keçmiş və Tiflis əyalətinin tərkibinə qatılmışdır. "Liva" ("sancaq") statusuna malik olan Qazax bölgəsi İncə, Çavar, Axstav və Türk nahiyələrini əhatə etmişdir. Nadir şah hakimiyyətə gəldikdən sonra bu torpaqları öz hakimiyyəti altına qaytara bilmişdir. XVIII əsrin ikinci yarısında Qazax sultanlığı Şəmşəddil ilə birlikdə Qazax-Şəmşəddil sultanlığı adlandırılmışdır [5, s.106]. Gəncə xanlığının qərbində yerləşən Qazax sultanlığı şimalda Gürcüstanla həmsərhəd idi və ərazisi 69 kəndi birləşdirən 3200 kv.verst təşkil edirdi [10, s.26].

İ.P.Petruşevskinin verdiyi məlumatlar qazaxlıların qədim zamanlardan Azərbaycanda yaşadıqlarını isbat edir. Bir çox tarixi qaynaqlar sübut edir ki, XVI əsrdən xeyli əvvəllər Qazax ərazisi, qazaxlılar Azərbaycan Albaniyası, Salarilər, Atabəylər, Cəlairi, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdular.

Bundan başqa belə bir fakt da var ki, 1729-ci ildə Gürcüstan ərazisi Osmanlı dövlətinin əyalətinə çevrildiyi vaxta qədər Səfəvilər dövlətinin əyaləti kimi mövcud olmuşdur [2, s. 57]. 1642-ci ildə II Şah Abbas 10 yaşında Səfəvi taxtına çıxdıqdan sonra Gürcüstana yürüş etmiş və itaət etməyənlərin çoxunu sərt şəkildə cəzalandırmışdır [10, s. 156]. Həmçinin Kartli-Kaxetiyanı uzun müddət Əfşar hakimləri, daha sonra isə Azərbaycan hökmdarları tərəfindən təyin edilən, müsəlmanlığı qəbul etmiş çarlar idarə etmişdilər (V Baqrat (1616-1619), I İrakli (Nəzərəli xan) (1664-1706), David (İmamqulu xan) (1706-1722), Konstantin (Məmmədqulu xan) (1723-1729)).Həmin dövrlərdə Kartli-Kaxetiya əhalisinin əksər hissəsi – azərbaycanlılar, osmanlılar, Şimali Qafqazın müxtəlif xalqları islam dininə etiqad edirdilər [2, s. 61]. Hətta belə bir fakt da var ki, II İrakli öz

tituluna Şəmsəddin, Qax, Şəki, Şirvan, Gəncə, İrəvan və digər yerlərin hakimi və valisi rütbələrini də əlavə etmişdir [7, s.143].

**Şəmşəddil bölgəsi XVII-XVIII əsrlərdə**

Şəmşəddil bölgəsinə gəldikdə, hələ I Şah İsmayılın dövründə Zəyəm mahalı və ondan qərbdəki ərazilər şəmsəddinli tayfasının irsi vilayəti hesab olunurdu. Sonralar yaranmış Şəmşəddil dairəsi öz adını bu tayfadan götürmüşdür. Şəmsəddinli tayfası zülqədər tayfasının bir qolunu təşkil edirdi [21, s. 134-135]. Bu tayfa Osmanlı hökmdarı Sultan I Səlimin hakimiyyəti illərində (1512-1520), daha dəqiq desək, Çaldıran döyüşündən sonra Osmanlı Türkiyəsindən Azərbaycana gəlmişdi. Tayfa başçısı Əlaüddövlə, I Sultan Səlim və I Şah İsmayıl ilə hesablaşmadığı üçün şəmsəddinli tayfası Osmanlı sultanı tərəfindən imperiya ərazisindən çıxarılmışdı [4, s. 120]. A.A.Bakıxanov öz əsərində şəmsəddinli tayfası haqqında yazırdı: "*Bu tayfa Hülaku xanın Türküstandan köçürüb Şirazda yerləşdirdiyi türkmənlərdəndir. Bunlar orada Diyarbəkirə və Mosula gələrək cəlal və iqtidar sahibi olduqdan sonra qonşu vilayətlərə təcavüz edirdilər. Bunların on nəfəri, yüz otuz səkkiz il o ölkədə hökmranlıq etmişlər. Bunların sonuncusu olan Əlaüddövlə, bir dərəcəyə çatdı ki, bir-biri ilə vuruşmaqda olan Misir və Şam valilərinin hər ikisi onun köməyinə möhtac oldu*" [4, s. 120-121].

Yuxarıda qeyd olunduğu kimi, 1605-ci ildə I Şah Abbas tərəfindən Əli sultan Şəmsəddinli Zülqədərə öz irsi vilayətindən əlavə olaraq Şirvan əyalətində də müəyyən bir ərazi verilmişdir. 1622-1623-cü illərdə əvvəllər Osmanlı dövlətinin hakimiyyəti altında olan və indiki Gürcüstan Respublikasının cənub-qərb tərəfində yerləşən Ahalsıx qalasının şah qoşunları tərəfindən ələ keçirilməsindən sonra, Əli sultan Şəmsəddinli Zülqədərin varisi olan Səlim xan Şəmsəddinli Zülqədər bu qalanı da öz hökmranlığı altına almış və Ahalsıxın hakimi kimi tanınmışdır [21, s. 135].

E.T.Babayev öz əsərində Gəncə xanlığının tərkibində olan Qazax və Şəmşəddil sultanlıqlarının yerli irsi sülalənin nümayəndələri olan sultanlar tərəfindən idarə olunduğunu və onların öz mahalları üzərində, demək olar ki, tam məhkəmə və inzibati hakimiyyətinə malik olduqlarını, xanın nəzərinə yalnız xarici siyasətə dair məlumatların çatdırılması barədə məlumat verir [15, s. 135]. Bu məlumata əsasən belə bir fikir yürütmək olur ki, Qazax və Şəmşəddil bölgələri Nadir şah və II Uğurlu xan tərəfindən Gürcüstan hakimlərinin idarəçiliyinə tabe etdirilsə də, həmin bölgələr əslində Gəncə xanı tərəfindən idarə olunurdu.

**Borçalı bölgəsi XVII-XVIII əsrlərdə**

Borçalı sultanlığının ərazisi Qazax bölgəsindəki Sınıq körpüdən başlayıb, Şərqi Anadolunun sərhədində qurtarırdı [5, s.12]. Sultanlıq qərbdə Osmanlı dövləti ilə həmsərhəd idi və onun ərazisi təxminən 8 min kv. verst təşkil edirdi [22, s. 267]. M.Abbasova öz əsərində XVIII əsrin birinci yarısında Borçalının Gürcüstana tabe etdirilməsi zamanı onun ərazisinin təxminən 10 min kv.km-dən ibarət olduğunu qeyd edir [12, s. 18]. Borçalı sultanlığına müasir dövrdəki Gürcüstan ərazisinə daxil olan Qarayazı (indiki Qardabani), Qaraçöp (indiki Sığnaq), Sarvan (indiki Marneuli), Ağbulaq (indiki Petriskaro), Boluslu (indiki Bolnisi), Başkeçid (indiki Dmanisi) bölgələri və müasir

dövrdəki Ermənistan ərazisinə daxil olan Allahverdi (indiki Tumanyan), Cəlaloğlu (indiki Stepanavan), Hamamlı (indiki Spitak), Barana (indiki Noyemberyan), Voronsovka (indiki Taşir) bölgələri daxil idi [6, s. 12]. M.Abbasova öz əsərində haqlı olaraq indiki Ermənistan Respublikasının digər türk torpaqları ilə bərabər olaraq, həm də keçmiş Borçalı torpaqları əsasında da yaradıldığını qeyd edir [12, s. 82].

1780-ci ildə Borçalı torpaqları Kvemo Kartli, daha dəqiq desək, Aşağı Kartli adı altında Kartli çarlığının tərkibinə daxil edilmişdir. Bir qədər irəli gedərək qeyd edək ki, Gəncə xanı Cavad xanın hakimiyyəti illərində (1785-1804) Borçalı sultanlığı yenidən Gəncə xanlığının tərkibinə qatılmışdır [12, s. 96, 406].

Nadir şahın idarəçiliyi dövründə də Borçalı mahalı sakinləri ağır şəraitdə yaşamaqda davam etmiş və yaşayış məntəqələri arasında sıx iqtisadi əlaqələr mövcud olmamışdır. Bu dövrdə bir çox Azərbaycan türkləri öz əzəli yurdlarını tərk edib, Gürcüstanın cənub-şərq rayonlarına – Saqareco, Laqodexi, Karel və Kaspi rayonlarına, bəziləri isə Osmanlı Türkiyəsinə sığınmağa məcbur olmuşdular [23, s. 316]. Ümumilikdə götürdükdə isə Nadir şahın idarəçiliyi dövründə Gürcüstanda da əfşarlarda mövcud olan qayda-qanunlar tətbiq olunmuşdur. Həmin vaxt dağıstanlıların tez-tez Gürcüstana hücumları baş verdiyindən, Nadir şah hər il həmin əraziyə öz qoşunları ilə birlikdə sərdarı göndərirdi [14, s. 344-345].

Nadir şahın ölümündən sonra özünü Təbriz şahı elan edən III Sam Mirzə ilə gürcü şahzadəsi Arçil (və ya Abdulla bəy) arasında Borçalı torpaqları uğrunda mübarizə başladı. Bu zaman II İraklinin əmri ilə Qazax və Borçalı bölgələrinin kəndxudalarının uşaqları girov qismində ələ keçirildi. Bu, baş qaldıra biləcək azadlıq hərəkatının qarşısını almaq üçün atılan xəbərdarlıq addımı idi. II İraklinin əmri ilə Borçalı və Qazax sultanları öz dəstələri ilə birlikdə Əfşar qoşunlarının köməyinə gəldilər. Həmin vaxt Abdulla bəy Borçalı torpaqlarının naibi vəzifəsinə təyin edilmişdir [18, s. 205].

Qeyd edək ki, hələ Nadir şahın hakimiyyəti illərində İshaq paşa tərəfindən müsəlmanlaşdırılan Kartli çarı İesenin oğlu Abdulla bəy (Arçil) Teymuraz tərəfindən Somxetiyanın (Trialeti və Borçalı – M.Ə.) rəisi təyin edilmişdir. Lakin Abdulla bəy Teymuraza qarşı çıxmış və Əmir Aslan xanın köməyi ilə Kartli çarlığına sahib olmaq niyyətində olmuşdur. II İrakli Abdulla bəyi Tiflisdən və Somxetiyadan qovmuş və hakimiyyəti həmin vaxt İrandan qayıtmış atası Teymuraza vermişdir [6, s. 125].

Borçalı mahalının əvvəlcə Kartli çarlığının idarəçiliyinə verilməsi, daha sonra isə xanlıqlar arasında daxili müharibələr meydanına çevrilməsi yerli əhalinin buradan köçməsinə səbəb olan amillərdən idi. Bu proses 1747-ci ildən sonra daha da güclənmişdir [8, s. 65]. Məsələn, 1757-ci ildə Borçalı və Qazax bölgələri əhalisi yenidən gürcü hakimlərinə qarşı etiraz etmiş və onların bir çoxu Pəmbək bölgəsinə qaçmışdır. Bundan sonra II İrakli Kaxetiya qoşunları ilə birlikdə Pəmbəkə gələrək, qaçmış əhalini geri qaytarmaqla bərabər eyni zamanda xeyli mal-qara da ələ keçirmişdir [12, s. 84]. Borçalı elatlarının Kartli-Kaxetiya çarlığının həyatında vacib rol oynamaları II İraklini bu addımı atmağa sövq etmişdir [16, s. 23]. Hətta o, mükəlləfiyyətə cəlb olunmuş Azərbaycan kəndlərinin kəndxudalarına bölgəni tərk etməmək xahişi ilə müraciət də etmişdir. Lakin çoxlu sayda ailələr öz doğma yurdlarını tərk edib, Osmanlı imperiyasına və İranın hüdudlarına köçürdülər [15, s. 23].

Azərbaycanlılar Borçalı bölgəsinin ictimai-siyasi həyatında o qədər vacib rol oynayırdılar ki, Kartli-Kaxetiya hakimləri onlarla hesablaşmağa məcbur olurdular. Məsələn, II İrakli azərbaycanlı Hacı Məhəmmədəli bəyi öz vəzirlərindən biri təyin etmiş, daha bir azərbaycanlı olan Mirzə Rəbini isə dövlət işlərinin idarə olunması və Kartli-Kaxetiya çarlarının vəziri vəzifələrinə qoymuşdur [63, s. 23]. Bundan başqa II İrakli vaxtı ilə Nadir şah tərəfindən Kaxetiyaya birləşdirilən Salahlı elinə Məhəmmədşərif adlı azərbaycanlını ağsaqqal təyin etmiş, daha sonra isə onun oğlu Pənah ağanı həm Salahlıya, həm də Qazax mahalına vəkil göndərmişdir [5, s.4]. Elə Pənah ağanın zamanında da, daha dəqiq desək, 1759-cu ildə gürcü hakimlərinin özbaşınalığından təngə gəlmiş Qaraçorlu, Cinli, Salahlı, Dəmirçi Həsənli, Qızılhacılı, Qaraqoyunlu, Alpout, Səfikürd, Boyəhmədli, Kəngərli, Xəlfəli və digər elatlar Qarabağ bölgəsinə köçüb getmişdilər [2, s. 191].

XVIII əsrin ortalarına qədər Kartli və Kaxetiya Nadir şahın vassallığında olan knyazlıqlar kimi mövcud olsa da, onun ölümündən sonra həmin knyazlıqlar İrandakı siyasi çaxnaşmalardan istifadə edərək öz müstəqilliklərini qazana bilmişdilər [12, s. 74]. 1762-ci ildə çar Teymurazın Peterburqda ölməsindən istifadə edən II İrakli Kartli və Kaxetiya çarlığını öz hakimiyyəti altında birləşdirə bilmişdi [2, s. 16].

Tarixçi alim T.T.Mustafazadənin də əsərindəki məlumatı nəzərdən keçirərkən məlum olur ki, Borçalı sultanlığı Kartli-Kaxetiya çarlığının tərkibində yox, ondan yalnız vassal asılılığında mövcud olmuşdur. Professor T.T.Mustafazadə bu barədə yazır: "*1773-cü il noyabrın sonu – dekabrın əvvəllərində Şəki, Avar, Qarabağ xanlıqlarının və Qubaya düşmən digər feodal hakimlərinin birləşmiş qüvvələri Şamaxı üzərinə yeridilər. Maraqlıdır ki, Avar xanı daim Kartli-Kaxetiya ərazisinə basqınlar etdiyi halda indi II İrakli avarların öz ərazisindən keçib Şamaxıya hücum etmələrinə razı olmuşdu. Hətta II İrakli ondan asılı olan borçalılardan, qazaxlılardan Avar xanına kömək də vermişdi*" [7, s.122].

Lakin gürcü çarları yerli müsəlman hökmdarlarına o qədər də etibar etmirdilər. Elə buna görə də 1765-ci ildə müsəlman əyalətlərinin əsas etibarilə xristianlardan ibarət olan murovlar (canişinlər) tərəfindən idarə olunmasına dair çarın yeni fərmanı imzalanmışdı. Murovlar xırda məhkəmə işləri ilə məşğul olaraq, yerlərdə gürcü çarlarını təmsil edir, həmçinin kəndlilərdən vergilərin toplanılması işinə də nəzarət edirdilər [12, s.84-85].

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsindən sonra Küçük Qaynarca müqaviləsinə əsasən Gürcüstan Rusiyanın maraq dairələrinə daxil edildi.1783-cü il Georgiyevsk müqaviləsinə görə Şərqi Gürcüstanın Rusiyaya tabe etdirilməsindən sonra burada rus qoşunları yerləşdirildi və bundan etibarən borçalıların əsas etibarilə Osmanlı və Azərbaycan ərazisinə miqrasiya prosesləri başladı [50, s.84-85]. Bundan başqa hələ adı yuxarıda çəkilən müharibə dövründə rus qoşunlarının Kartli-Kaxetiya çarlığına daxil olduğu zaman, Şəmşəddil sultanlığından 1770-1773-cü illər ərzində 26 kəndin 1900 ailədən ibarət olan əhalisi Gəncə xanlığının ərazisinə köçmüşdü [22, s.244].

**Azərbaycan tarixşünaslığında Borçalı və Qazax bölgələrinin idarəçiliyinin dəyişdirilməsi məsələsi**

Azərbaycan tarixşünaslığında Borçalı və Qazax bölgələrinin Nadir şah tərəfindən Gürcüstan əmirlərinin idarəçiliyinə verilməsinə dair müxtəlif fikirlər var. Məsələn,

V.U.Umudlu öz əsərində Nadir şah tərəfindən Borçalı və Qazax torpaqlarının Gürcüstanın idarəçiliyinə verilməsini dövlət daxilində ərazi dəyişikliyi kimi səciyyələndirsə də, bunun mənfi qarşılandığını və Nadir şahın bu hərəkətinin Azərbaycanı böyük bir ərazidən məhrum etdiyini qeyd edir [10, s. 8, 116]. M.Q.Abdullayev isə bu məsələyə digər bir prizmadan yanaşır. Müəllif öz məqalələrindən birində bəhs olunan dövrdə Kartli və Kaxetiyanın müstəqil dövlət olmadığını, Nadir şahın imperiyasına tabe olduğunu, onun hökm və fərmanları ilə idarə olunduğunu bildirir. Müəllif həmçinin Nadirin bir şah kimi ona aid olan mahalları istədiyi şəkildə Gəncədən və ya Tiflisdən idarə etmək hüququnun olduğunu da qeyd edir [1, s.23-24]. M.Q.Abdullayev onu da bildirir ki, II İrakli Nadir şahın hökmü ilə Kaxetiya çarı təyin olunduğunu heç vaxt unutmamışdır. II İraklinin hakimiyyəti illərində (1744-1798) imzalanmış əksər fərmanların, təliqə və hökmlərin üzərinə vurulmuş möhürlərdəki yazılarda gürcü çarının Nadir şaha ehtiramı da əks olunurdu. II İraklinin vəfat etməsindən sonra onu əvəz etmiş oğlu XII Georgi isə möhürünü dəyşdirərək onun üzərində David nəslindən olduğunu qabartmışdır. Gürcü hakimlərinin hökm və fərmanlarının fars dilində olması da M.Q.Abdullayev tərəfindən xüsusi qeyd olunur [1, s. 25].

Azərbaycan tarixi III cilddə rəsmi olaraq qeyd edilmişdir ki, Nadir şah onun hökümdar seçilməsinə qarşı olan Ziaydoğluları cəzalandıraraq Gürcü çarlarına tabe etdi, digər tayfa başçılarını isə ailələri ilə birlikdə Xorasana sürgün etdi [3, s. 277].

Mehman Süleymanov isə Nadir şah əsərində Nadirin şah seçilməsini dəstəkləməyən Ziyadoğluları ciddi şəkildə cəzalandırdığını və xanlığa daxil olan Borçalı, Qazax mahalları xanlıqdan qoparılaraq Kartli hakiminin ixtiyarına verilməsini qeyd edir. Son iki məlumata nəzərən demək olar ki, qeyd olunan bu hadisənin Azərbaycan tarixi üçün faciəvi olduğu diqqətə çatdırılır [11, s. 304].

**Nəticə**

Beləliklə, bütün əvvəlki tarixi dövrlər, o cümlədən də XVIII əsr Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi həyatında olduqca ağır və kəşməkəşli bir tarixi mərhələ olmuşdur. Əvvəlcə Nadir şahın daxili siyasətinin ağır nəticələrinə məruz qalan bu mahallar, Gürcüstan hakimlərinin idarəçiliyinə tabe etdiriləndən sonra sultanlıqlara çevrilmiş və xanlıqlar arasında gedən daxili mübarizənin ciddi maraq nöqtələrindən biri kimi mövcud olmuşdur. Bu proseslər nəticəsində Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarında baş verən miqrasiya prosesləri yerli əhalinin sosial-iqtisadi vəziyyətinə olduqca ağır, mənfi təsir göstərmişdir. Nadir şahın Borçalı və Qazax bölgələrini, gəncəli II Uğurlu xanın isə Şəmşəddil bölgəsini Gürcüstan hakimlərinin idarəçiliyinə verməsləri, həmin bölgələrin siyasi və iqtisadi həyatının bəzi gürcü çarlarından da asılı olmasına, yerli əhalinin malik olduqları bəzi, bir sıra imtiyazların itirilməsinə gətirib çıxartmışdır.

Son olaraq belə bir nəticəyə gəlmək olar ki, ümumiyyətlə Nadir Şah Əfşar dövründə baş vermiş hadisələri bu günün aspektindən dəyərləndirmək doğru olmazdı. Çünki Nadir bir şah kimi ona aid olan mahalları istədiyi şəkildə Gəncədən və ya Tiflisdən idarə etmək hüququna sahib idi və istənilən əmirinə bu idarəetmə hüququnu verə bilərdi. Nadir şah üçün bu gün hər bir azərbaycanlının düşündüyü kimi Azərbaycan məfhumu yox, Əfşar imperiyası anlayışı var idi. Bu imperiyaya daxil olan bütün ərazi hakimləri də sadəcə onun

əmirlərini icra edən vilayət hakimləri idilər. Hadisəni faciə adlandırmaq isə tarixi hadisələrin gedişini bilməmək kimi qiymətləndirilə bilər ki, tezliklə də bu tendensiyanın tarixşünaslığımızdan çıxacağına inanırıq.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Abdullayev, M.Q. Qazax, Şəmşəddil və Borçalı sultanlıqları rus işğalınadək olan dövrdə (XVIII əsrin ortaları – XIX əsrin 40-cı illəri // – Tbilisi: Qarapapaqlar, 2014, may, №5, s. 23-29.

2. Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr – XXI əsrin əvvəlləri). – Bakı: Şərq-Qərb Nəşriyyat Evi, – 2013. – 392 s.

3. Azərbaycan tarixi. Yeddi cildd. III cild. – Bakı. “Elm”. 2007.- 592 s. + 56 səh illustraiya.

4. Bakıxanov, A.A. Gülüstani-İrəm / A.A.Bakıxanov. – Bakı: Kitab Klubu MMC, – 2016. – 320 s.

5. İsayev, Ə.İ. Azərbaycanda inzibati idarəçilik (XIX-XX əsrin əvvəlləri) / Ə.İsayev. – Bakı: Mütərcim, – 2015. – 128 s.

6. Molla Məhəmməd Əl-Cari. Car salnaməsi / M.M.Əl-Cari. – Bakı: “Səda” nəşriyyatı, – 1997. – 146 s.

7. Mustafazadə, T.T. Quba xanlığı / T.T.Mustafazadə. – Bakı: Elm, – 2005. – 480 s. + 1 xəritə.

8. Ömərli, V. Qarayazı. Gürcüstanda türklər / V.Ömərli. – Bakı: Çaşıoğlu, – I hissə – 2001. – 760 s.

9. Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: “Müəllim” nəşriyyatı, – 2006. – 148 s.

10. Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə / V.U.Umudlu. – Bakı: Elm, – 2004. – 184 s.

11. Süleymanov, M. Nadir şah / M. Süleymanov. – 714 s.

12. Аббасова, М.А. История Борчалинского махала (XIX – начало XX вв.) / М.А.Аббасова. – Баку: Сабах, – 2006. – 460 с.

13. Авалов, З.Д. Присоединение Грузии к России / З.Д.Авалов. – Санкт-Петербург: Тип. Монтвида, – 1906. – 312 с.

14. Акты, собранные Кавказской Археографической Комиссией: [в 12 томах]. – Тифлис: Типография Главного Управления Наместника Кавказского, – т. I. – 1866. – 827 с.

15. Бабаев, Э.Т. Из истории Гянджинского ханства / Э.Т.Бабаев. – Баку: Nurlan, – 2003. – 234 с.

16. Байрамова, Н.Ш. Наша независимость и наша история: о Борчалинском султанстве // – Баку: Труды Института Истории НАН Азербайджана, – 2010. Том 34-35, – с. 21-26.

утков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год / П.Г.Бутков. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – часть вторая, – 1869. – 602 с.

18. Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии: [в 2-х томах] / с 1709 по 1801 год / под редакцией Цагарели А.А. – Санкт-Петербург: Тип. В.Ф.Киршбаума, – том II, выпуск II, – 1902. – 382 с.

19. Дубровин, Н.Ф. История войны и владычества русских на Кавказе: [в 6-и томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Типография П.Н.Скороходова, – Том III. – 1886. – 557 с.

20. Меликишвили, Г.А. К истории древней Грузии / Г.А.Меликишвили. – Тбилиси: Издательство Академии Наук Грузинской ССР, – 1959. – 507 с.

21. Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. / И.П.Петрушевский. – Ленинград: Издательство Ленинградского Государственного Ордена Ленина Университета имени А.А.Жданова, – 1949. – 384 с.

22. Сафаров, Р.Ф. Гянджа в период русского завоевания Кавказа // Qafqaz tarixinin aktual məsələləri. Beynəlxalq konfrans. 15-16 oktyabr 2015. – Gəncə: II hissə, – 2015, – s. 243-247.

23. ქართულ-სპარსული ისტორიული საბუთები. თბილისი: 1976, ქართულ-სპარსული ისტორიული დოკუმენტები. ტექსტი მოამზადა და თარგმანით და შენიშვნებით მოამზადა ვ.ს. ფუთურიძემ. თბილისი. 1955 წ (Gürcü-fars tarixi sənədləri. Tbilisi: 1976, gürcü-fars tarixi sənədləri. Mətn tərcümə və qeydlərlə tamamladı V.S. Futuridze. Tbilisi. 1955)

## TARİX ELMİNƏ TÖHVƏ VERMİŞ AVŞAR BOYUNA MƏNSUB TARİXÇİ ALİMLƏR

## HISTORICAL SCIENTISTS BELONGING TO THE AVSHAR AGE WHO HAVE CONTRIBUTED TO THE SCIENCE OF HISTORY

**Əliyeva Təhminə**

Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı

tehmine.eliyeva@quba.adpu.edu.az

**Xülasə**

Oğuz Kağan dastanına görə oğuzların 24 tayfasından biri, Mahmud Kaşğariyə görə Divan-ı Lüqati't-Türkdəki iyirmi iki oğuz bölgüsündən altıncı olaraq təyin etdiyi Avşar

boyu, bu boyların Bozoklar qolundan (sağ qolu) Oğuz Xaqanın oğlu Uldız xanın dörd oğlunun ən böyüyü Avşardan gəlir.

Böyük Səlcuqlar dövləti yaranmazdan əvvəl digər oğuz tayfaları ilə birlikdə Qıpçaq səhrasında yaşamışlar. 1135-1136-cı illərdə başçıları Arslanoğlu Yaqub bəyin tabeliyinə keçərək Xuzistanda yerləşdilər. Yaqubdan sonra Aydoğdu bin Küşdoğan Avşarların başçısı oldu. Şumla adı ilə tanınan bu bəy Böyük Səlcuqlu Dövlətinin zəifləməsindən istifadə edərək Xuzistanda Səlcuqlu hökmranlığına son qoydu, lakin 1159-cu ildə İraq Səlcuqlu Sultanı Məlikşah gəlib Xuzistana yenidən hakim oldu. Digər tərəfdən, Malazgirt döyüşündən sonra türkmənlərlə birlikdə Anadoluya köç edən Əfşarlar Səlcuqlu Dövlətinin kənarlarına yerləşdirildi. Beləliklə anadolu, İran və Qafqaz ərazilərinə yayılan Avşar boyu yerləşdikləri ərazidə bütün sahələrdə hörmət qazanan nümayəndələri ilə tanınırlar.

Avşar boyuna mənsub tarix elminə tövhələr alimlərdə vardır. Bunların bir qismi aşağıdakı şəxslərdir:

Mahmud Avşar, İrəc Avşar, İsmayıl Avşar, Mirzə Rəşid Mahmudlu, Əli Avşar, Əbazər Musavat, Qulam Hüseyn Sədri, Sara Aççurbəyli, Rzaqulu Hidayət, Mirzə Camal Cavanşir, Rzaqulu bəy Vəzirov Hüseyn Dəlili, Pərviz xan Şəhabəddin, Cahangir Hüseyn və d.

Məqalədə Avçar soyuna mənsub tarixçi limlərin tarix elminə verdikləri tövhələr, yazdıqları fundamental əsərlər yer almışdır.

**Açar söz**: Türk, Avşar, tarix, boy, oğuz, elm

One of the 24 tribes of the Oghuz according to the Oghuz Khagan saga, the Avshar tribe, which according to Mahmud Kashgari is the sixth of the twenty-two Oghuz divisions in the Divan-ı Luqati't-Türk, the Bozoklar branch (right branch) of these tribes comes from Avshar, the eldest of the four sons of Uldiz Khan, the son of the Oghuz Khagan.

Before the establishment of the Great Seljuk state, they lived in the Kipchak desert together with other Oghuz tribes. In 1135-1136, their leader Arslanoglu Yagub Bey settled in Khuzistan. After Yaqub, Aydogdu bin Kushdogan became the head of the Avshars. This gentleman, known as Shumla, took advantage of the weakening of the Great Seljuk State to end the Seljuk rule in Khuzistan, but in 1159, Malik Shah, the Seljuk Sultan of Iraq, came and ruled Khuzistan again. On the other hand, after the Battle of Malazgirt, the Afshars, who migrated to Anatolia with the Turkmens, were placed on the outskirts of the Seljuk State. Thus, they are known for their representatives who are respected in all fields in their area throughout Avshar, which spreads to Anatolia, Iran and the Caucasus.

Scholars have contributions to the science of history belonging to the Avshar era. Some of them are the following people:

Mahmud Avshar, Irej Avshar, Ismayil Avshar, Mirza Rashid Mahmudlu, Ali Avshar, Abazar Musavat, Gulam Huseyn Sadri, Sara Achchurbeyli, Rzagulu Hidayat, Mirza Jamal Javanshir, Rzagulu Bey Vazirov Huseyn Dalili, Parviz Khan Shahabaddin, Jahangir Huseyn and others.

In the article, the contributions of historians belonging to the Avchar lineage to the science of history and the fundamental works written by them are included.

**Key words:** Turkish, Avshar, history, height, Oghuz, science

Mahmud Avşar Avşar elinin məşhur tarixçilərindən biri də Mahmuddur. Mahmud Məhəmmədsadıq oğlu 1893-cü ildə Yəzd şəhərində anadan olub. Paniranizmin banisidir. Paniranizm ilk dəfə 1920-ci illərdə, Türk Avşar-əsilli və Avropa-təhsilli İran siyasi alimi olan,

Dr. Mahmud Avşar Yəzdi (1893-1983) tərəfindən Türkcülüyə və Panərəbizmə qarşı sürülən bir İran milli birlik düşüncəsi kimi irəli sürülmüşdür.

Mirzə Rəşid Mahmudlu-Avşar Mirzə Mahmud Mirzə Məhəmmədşəfi oğlu Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Dövrünün tanınmış alimi Məhəmmədrza Məftidən dərs almışdı. Şair və tarixçi idi. Türkcə və farsca şeirləri var. Rəşid təxəllüsü, Ədibəşşüara ləqəbi ilə tanınırdı. Mirzə Rəşid Avşar elinin başçılarının evlərinə gedər,

onların söhbətlərinə qulaq asar, kitabxanalarından istifadə edirdi.

Əli Avşar Urmiya şəhərində dünyaya pənah gətirmişdi. Məşhur tarixçidir. «Tarixi-Avşar», «Tarixi-Urmiya» adlı tarixi əsərləri var. Hacı Ağa bəy Avşar Nadir şah sərkərdərindən olan Hacı Ağa bəy Avşar həmin ordu sıralarında Kərim xan Zəndlə birlikdə xidmət etmiş və möhkəm dostluq əlaqəsi yaratmışdılar.

Hazırda Azərbaycanın Şuşa vilayətinin Ağcabədi rayonunda əfşarlar yaşayır. Burada Afşar adlı kənd də var. Bundan başqa, əfşarlara Bakıda da daxil olmaqla bir çox yerlərdə rast gəlinir. Bundan əlavə, paytaxt Bakının yerləşdiyi yarımada Abşeron adlanır ki, bu da Avşar-an, yəni Avşarlar deməkdir. Azərbaycanın Kuba şəhərində Usalı və Araşlı əfşarları var. Qaramandan sürgün edilən əfşarlar da Azərbaycandadır. Qaraman ətrafındakı kənd adları ilə Azərbaycanda bir bölgədəki yer adları eyni adlara malikdir. Yer adları araşdırıldığında Anadoluda türkmən boylarına və əfşar boylarına aid bir çox adla qarşılaşa bilərik. Məsələn, Gəncənin Qaramusalı kəndi Avşarın Qara Musalıdan köçməsi ilə yaranıb.

Azərbaycandan Anadoluya gələn əfşar tayfalarının varlığını bilirik. Bunların arasında Civanşir, Gəncəli Avşar, Akdamlı Avşarı saymaq olar. 1750-ci illərdə Arranda (Qarabağ) yaşayan bir qrup Avşar Anadoluya köçərək Çukurovada məskunlaşdı. Bu gün Osmaniyedə yaşayan azərilər 250 il əvvəl Arrandan gəlmiş Avşarlardır.

Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu 1773-cü ildə Hacılı icmasın-da, Gecəgözlü obasında anadan olmuşdu. Mirzə Camal bəy Cavanşir Qarabaği tarixçi idi. 1815-ci ildə "İran tarixi haqqında qısa icmal" adlı tarixi əsər qələmə almışdı. 1847-ci ildə isə Qarabağın siyasi olaylarından bəhs edən "Qarabağ tarixi" adlı tarixi əsər yazmışdı. Tarixçi Mir Mehdi Xəzani bu barədə yazırdı: "Çün mərhum Mirzə Camal qalabəyi Məhəmmədxan bəy oğlu Cavanşir-Dizaği əlli il qədri mərhumeyi-İbrahim xan və Mehdiqulu xan xidmətlərində mirzəlik edib və Qarabağ vilayətində dəxi vəzarət əmrində olub və xanların hökumət əyyamı münqəzi olandan sonra müddəti-mütamadi yenə Rusiya dövlətində xidmətkar və kargüzar olub qocalmışdı

Rzaqulu bəy Mirzə Camal bəy oğlu1814-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Əslən Cavanşir-Dizaq mahalının Hacılı camaatındandır. Rzaqulu bəy Vəzirov Azərbaycan tarixini və ədəbiyyatını gözəl bilirdi. Bu sahələrdə qələmini işlətmişdi. Bioqraf kimi də çalışmışdı. Onun qələmindən "Dəftərə vəqaye və keyfiyyəte hökumət və istiqlale xəvanin məğfurun, mərhumun Pənah xan, İbrahim xan dər vilayəte Qərabağ" adlı tarixi əsər, "Müqəddimati keyfiyyəti bəzi əhvalat və sərgüzəştü Axund Molla Əlipənah Vaqif təxəllüs" və Müqəddimati-sərgüzəştü Qasım bəy Zakir təxəllüs" adlı bioqrafik əsərlər çıxıb.

Rzaqulu bəy Vəzirovun tarixi dərindən bilməsində təəccüblü heç nə yoxdur. Onun ilkin mənbəyi görkəmli tarixçi olan atası Mirzə Camal Cavanşir idi. Qocaman tarixçi oğlunu bu sahədə qələm çalmağa həvəsləndirirdi. Rzaqulu bəy atasının "İran tarixi" adlı əsərini redaktə etmiş, üzünü köçürmək üçün katiblərə təqdim etmişdi.

Aşurbəyli Sara Balabəy qızı  Azərbaycan alimi, tarixçisi və şərqşünası, tarix elmləri doktoru (1966), Azərbaycan SSR əməkdar elm xadimidir. Avşarlar şəcərəsini yazan alim olmuş. Azərbaycan tarix elminə əvvəzsiz tövhələr vermişdir.

İbrahim Mükrimin Halil Yinanç Türk Tarix Qurumunun qurucularından biridir. Tarixçidir. Anadolu, türk və türk tarixinə dair əsərlər yazıb. 1924-cü ildə Anadolu jurnalı və Türk Tarixi Komitəsi jurnalında dərc olunmağa başlayan yazısında Osmanlı İmperatorluğuna aid bəzi sənədləri tənqid edən Yinançın yazıları öz sahəsində uğurlu olmuşdur. Fatih Sultan Mehmedin tarixçi vəziri Karamani Nişancı Mehmed Paşanın yazdığı əsəri tərcümə etmişdir. Tarixçilərdən Ənvərinin əsərlərini çap etdirmişdir. Yinanç müəllif hüquqları ilə qorunan bir əsər olaraq 1015-1085-ci illərdə türklər haqqında Anadolu prosesini izah etdiyi Türkiyə Tarixi, I Səlcuqlular Dövrü, Anadolunun fəthi əsərini hazırlamışdır..

## AVŞAR TÜRKLƏRİNİN AZƏRBAYCAN TARİXİNDƏ YERİ

**The place of Avshar Turks in the history of Azerbaijan**

**Aytən ƏSƏDOVA**

**Sumqayıt Dövlət Universiteti**

***asadova_ayten@bk.ru***

***Orcid-0000-0002-5067-1393***

**Abstract**

The Avshar Turks belong to the Oghuz tribe, which left a great mark in Turkish history. They established states in Azerbaijan, Iran, Iraq, and Syria at different times and wrote their names in golden letters in history. The most powerful state built by the Avshars was the state founded by Nadir Shah Avshar. The Avshars established atabayliks in Mosul and Aleppo, and played a special role in the conquest of Anatolia and the spread of Islam.

The Avshar Turks are descendants of the eldest son of Ulduz Khan from the Oghuz clan and belong to the Bozuk branch. It should be noted that the Oghuz clan was formed

from the six sons and grandsons of Oghuz Khan. Avshars, like all Turks, accepted Islam from the 10th century. The name of Avshar can be found even before the 10th century. They lived around Seyhun. Later, their migration to Central Asia, Azerbaijan, Iran, Iraq, and Syria began. Avshar Turks can be found in the territory of Azerbaijan even before the migration. This is the Sarjalu dynasty of the Javanshir tribe in Karabakh. Their presence in these areas coincides long before Islam. During the period of the Jalali state (1336-1432), the Avshars had relations with the Garagoyunlu belonging to the Baharli tribe and the Aggoyunlu belonging to the Bayandir tribe. More migration of Avshars to Azerbaijan can be observed in the 13th century and during the campaigns of Aggoyunlu ruler Uzun Hasan in the 15th century. During this period, the largest migration of Avshars from Anatolia took place. With the establishment of the Safavid state in 1501, new Avshar tribes were formed in Azerbaijan and Iran. during the Safavid era, they were among the most reliable generals. Avshar Turks, like other Turkic tribes, played a special role in the establishment of the Safavid state. One of the closest people of Uzun Hasan, the ruler of Aggoyunlu state of Azerbaijan, was Avshar Mansur Bey (governor of Kul-Gülya). Later, in 1505, Mansur Bey became the governor of Persia by submitting his obedience to Shah Ismail. Mansur Bey, who accepted the Qizilbash crown, ruled the governorship until the time of Shah Abbas. During the reign of Shah Tahmasib (1524-1576) in Khorasan, Esfuzar region, Ferah region in the south of Herat were ruled by Avshar beys. One of Tahmasib's closest people was Avshar Sevindik Bey and Aslan Bey. They used to join the Shah on trips. In 1590, Mansur Bey's grandson was killed by Hasan Khan, a relative of Shah Gulu Khan. After this period, Mansur Bey and his compatriots went to Khorasan and Umuaya. Until this period, Avshars lived in Persia, Khuzistan, Kerman, Isvahan, Luristan, Khorasan and surrounding areas. Until the 1590s, in the Safavid state, avshars were appointed as heads of governorates and provinces. Avshars had a special place in the ranks of the Safavid army.

With the arrival of Nadir Shah in the political arena, we are watching the rise of the Avshars again. During this period, the Avshars lived more densely in the areas of Selmas and Ushniyya in the west of Lake Urmia, in the city of Urmia. With the establishment of the empire of Nadir Shah Avshar (1736-1804), the Avshars once again wrote their names in the history of the statehood of Azerbaijan. The mark left by Nadir Shah, the founder of the empire, is not only the pride of the Avshar Turks, but also of the Turks in general. Nadir Shah, who was from the Kirklar tribe of the Avshars, declared himself king with the fall of the Safavid state. Throughout his politics, Nadir Shah put the feeling of Turkishness above all else. He even gave historical Turkish names to his son and all the boys around him. Avshars, who left a special mark on the history of Turks, Central Asia, Azerbaijan, and Iran, have been the object of research by world historians. Nadir Shah's greatest role in the history of Azerbaijan is to prevent Azerbaijan from falling into the hands of the Russian, Ottoman, and Afghan states. After the death of Nadir Shah in 1747, the state collapsed. The Avshar dynasty was completely overthrown in 1796 by Agha Muhammad Khan Qajar. In 1804, full power in Iran passed into the hands of the Qajars.

In 1747, the Karabakh khanate was established in Azerbaijan. As we mentioned above, Ulduz oglu Afshar, son of Oghuz Khan in the line of the Karabakh khans, is from the Sarijali dynasty of the Javanshir tribe. 1370-1404) was sent to Karabakh. The dynasty's

earlier settlement in Karabakh dates back to before Islam. As a result of the Russo-Iranian war, the Karabakh Khanate was occupied.

The founders of the Ardabil Khanate were the Avshar Turks from Saruhanbey. At the same time, the Avshars participated in the establishment of the Urmiya Khanate in Urmiya, which went down in history as an Avshar city.

Thus, the place of Afshar Turks in the history of Azerbaijan is great and undeniable. The fact that this topic is a field of research is very important in terms of both Azerbaijan and Turkish-Islamic history in general

**Key words:** Afshar, Turk, state, beylik, migration, Azerbaijan

**Xülasə:**

Avşar türkləri Türk tarixində böyük iz buraxmış Oğuz boylarındandır.Azərbaycanda, İranda, İraqda, Suriyada müxtəlif dövrlərdə dövlətlər quraraq adlarını tarixə qızıl hərflərlə yazmışdılar.Avşarların qurduğu ən qüdrətli dövlət – Nadir Şah Avşarın qurduğu dövlət idi. Avşarlar Mosul və Hələbdə atabəyliklər qurmuş, Anadolunun fəthində və İslam dininin yayılmasında xüsusi rol oynamışdırlar.

Avşar türkləri Oğuz boylarından olan Ulduz xanın böyük oğlunun törəməsi və Bozuk qoluna mənsubdurlar.Qeyd etmək lazımdır ki, Oğuz boyları Oğuz xanın altı oğlundan və nəvələrindən meydana gəlmişdi. Avşarlar bütün türklər kimi İslamı X-əsrdən etibarən qəbul etmişdilər. Avşarların adına X-əsrdən öncə də rast gəlinir. Onlar Seyhun ətrafında yaşayırdılar. Sonradan onların Orta Asiyaya , Azərbaycana , İrana, İraqa, Suriyaya köçləri başlamışdır.Bu köç Xl-Xll -əsrləri əhatə edir. Azərbaycan ərazisində hələ köçdən əvvəldə Avşar türklərinə rast gəlinir.Bu Qarabağda Cavanşir tayfasının Sarcalu sülaləsidir.Onların bu ərazilərdə olması isə İslamdan çox- çox əvvələ təsadüf edir. Cəlalilər dövlətinin ( 1336-1432-cı illər ) dövründə avşarların Baharlı boyuna mənsub Qaraqoyunlu və Bayandır boyuna mənsub Ağqoyunlularla əlaqələri vardır. Azərbaycana daha çox avşar köçü Xll -əsrdə və XV- əsrdə Ağqoyunlu hökmdarı Uzun Həsənin yürüşləri dövründə izlənilir.Bu dövrdə Avşarların Anadoludan ən böyük köçü olmuşdu.1501- ci ildə Səfəvi dövlətinin qurulması ilə Azərbaycanda və İranda yeni avşar oymaqları meydana gəldi.Avşarlar həm Ağqoyunlu dövləti dövründə , həmdə Səfəvilər dövründə ən etibarlı sərkərdələr sırasında olmuşdular. Səfəvi dövlətinin qurulmasında digər türk tayfaları kimi avşar türklərinin də xüsusi rolu olmuşdur. Azərbaycan Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin ən yaxın adamlarından biri məhz Avşar Mənsur Bəy ( Kül-Gülüya valisi ) idi. Daha sonra 1505-ci ildə Mansur Bəy Şah İsmayıla itaətini ərzedərək Fars valisi olmuşdur.Bu dövrdə avşarların bir qismi şiə mənsəbini də qəbul etmişdilər. Qızılbaş tacını qəbul edən Mansur bəy Şah Abbasın dövrünə qədər valilik idarə etmişdi. Şah Təhmasibin dövründə ( 1524-1576-cı illər ) Xorasanda,Heratın cənubunda Esfüzar bölgəsi,Ferah bölgəsi avşar bəyləri tərəfindən idarə edilirdi. Təhmasibin ən yaxın adamlarından biri Avşar Sevindik Bəy və Aslan Bəy idi. Onlar səfərlərədə şahla bir qatılırdılar.1590 –cə ildə Mansur bəyin nəvəsi Şah qulu Xan qohumu Həsən xan tərəfindən öldürüldü. Bu dövrdən sonra Mansur Bəy və soydaşları Xorasan və Umuyaya getdilər. Bu dövrə qədər

avşarlar Farsda, Xuzistanda, Kirmanda,İsvahanda, Luristan ,Xorasanda və ətraf ərazilərdə yaşayırdılar. 1590- cı illərə qədər Səfəvi dövlətində avşarlar daha çox valilik və əyalətlərə başçı qoyulurdulur. Səfəvilərin ordu sıralarında da avşarların xüsusi yeri vardı.

Nadir Şahın siyasi arenaya gəlişi ilə avşarları yenidən yüksəlişini izləyirik. Bu dövrdə avşarlar daha sıx şəkildə Urmiya gölünün qərbində Səlmas və Uşniyə ərazilərində , Urmiya şəhərində yaşayırdılar. Nadir Şah Avşarın imperiyasının qurulması ilə ( 1736-1804-cı illər) avşarlar Azərbaycanın dövlətçilik tarixinə öz adlarını bir daha yazdılar. İmperiyanın qurucusu olan Nadir Şahın tarixdə qoyduğu iz nəinki Avşar türklərinin,ümumilikdə Türklərin qürurudur.Avşarların Kirklar oymağından olan Nadir Şah Səfəvi dövlətinin süqutu ilə özünü şah elan etdi.Türkçülük hissini son dərəcə üstün tutan Şah Əfşar Osmanlı hənədanına ən müqəddəs yer kimi baxmışdı. Nadir Şah siyasəti boyu türklük hissini hər şeydən üstün tutmuşdu. O, hətta oğluna, ətrafında olan bütün oğlan uşaqlarına tarixi türk adları qoyurdu. Türk,Orta Asiya, Azərbaycan ,İran tarixində xüsusi iz qoyan avşarlar dünya tarixçilərinin tədqiqat obyekti olmuşdu.Nadir Şahın Azərbaycan tarixində ən böyük rolu- Azərbaycanın Rus,Osmanlı,Əfqan dövlətlərinin əlinə keçməsinin qarşısının alınmasıdır. 1747-ci ildə Nadir şahın ölümündən sonra dövlət süqut etdi. Avşar hənədanı 1796- cı ildə Ağa Məhəmməd xan Qacar tərəfindən tamamilə devrilmişdir. 1804 cü ildə tamamilə hakimiyyət İranda Qacarların əlinə keçdi.

1747 –ci ildə Azərbaycanda Qarabağ xanlığı yarandı.Yuxarıda da qeyd etdiyimiz kimi Qarabağ xanlarının soyuda Oğuz xanın üşüncü oğlu olan Ulduzun oğlu Afşarın nəvələrindən Cavanşirin tayfasının Sarıcalı sülaləsindəndir.Bu sülalə Hülaki xanın dövründə ( 1258-1265-cı illər ) Anadoluya, Əmr Teymurun dövründə ( 1370-1404 ) isə Qarabağa göndərilmişdir. Sülalənin Qarabağda daha əvvəl məskunlaşma dövrü isə İslamdan daha öncələrə təsadüf edir. Rus- İran müharibəsi nəticəsində Qarabağ xanlığı işğal edilir.

Ərdəbil xanlığının qurucularıda məhz Saruhanbəyli Avşar türkləri olmuşdur .Eyni zamanda tarixə avşar şəhəri kimi düşən Urmiyada - Urmiya xanlığınında qurulmasında avşarlar iştrak etmişdi.

Beləliklə afşar türklərinin Azərbaycan tarixində yeri böyük və danılmazdır. Bu mövzunun tədqiqat sahəsi olması həm Azərbaycan,həm ümum Türk- İslam tarixi baxımından çox önəmlidir.

**Açar sözlər:** Afşar, türk, dövlət, bəylik, köç, Azərbaycan

# AVŞARLAR'DA DOĞUM İLE İLGİLİ İNANÇ VE UYGULAMALARIN KÜLTÜRLER ARASI HEMŞİRELİK BAĞLAMINDA DEĞERLENDİRİLMESİ

# THE EVALUATION OF BIRTH RELATED BELIEFS AND PRACTICES IN THE CONTEXT OF INTERCULTURAL NURSING IN AVŞARLAR

**Dr. Öğr. Ü. Gönül GÖKÇAY**

Kafkas Üniversitesi, Sağlık Bilimleri Fakültesi, Halk Sağlığı hemşireliği,

gokcaygonul22@gmail.com,

**Prof. Dr. Ayşe ÇEVİRME**

Sakarya Üniversitesi, Sağlık Bilimleri Fakültesi, Halk Sağlığı hemşireliği,

acevirme@sakarya.edu.tr,

**Uzm. Hemş. Ali UĞURLU,**

Kafkas Üniversitesi Sağlık Araştırma ve Uygulama Merkezi

demongo2017@gmail.com,

**ÖZET**

**GİRİŞ:** Gebelik ve doğum geçmişten günümüze toplumların doğal bir süreç olarak kabul ettiği ve aileler için çok önemli bir hayat deneyimi olarak görülen bir durumdur. Doğumun, geçmişte kadınların yardım almadan veya tıbbi bilgisi olmayan kişilerin yardım ile yaptığı doğal bir olay olduğuna inanılmış ve doğumlar yaşanılan evlerde gerçekleştirilmiştir. Dünyaya gelen her çocuğa Türk toplumunda büyük önem ve değer verilir. Geleneksel toplumlarda, doğumla birlikte kadına duyulan saygı artmakta, kadının aile içerisinde ve özellikle toplumdaki yeri de güçlenmektedir. Avşar köylerinde doğumla ilgili inanç ve uygulamalar günümüzde de devam etmektedir. Yeni kuşaklar bir taraftan örf ve adetlere, gelenek ve göreneklere uymaya çalışırken diğer taraftan da tıbbı yöntemlere de başvurmaktadırlar. Doğumla ilgili inanç ve uygulamalar üç aşamada gelişmektedir. Bu aşamalar doğum öncesi, doğum esnası ve doğumdan sonraki inanç ve uygulamalar olarak karşımıza çıkmaktadır.

**AMAÇ:** Bu derlemenin amacı Avşar kültürüne ait doğumla ilgili inanç ve uygulamaları inceleyerek, güncel literatür bilgileri sunmak ve okuyuculara bu inanç biçimlerinin sosyal hayata ve sağlık alanına etkilerini kültürlerarası hemşirelik bağlamında sunmaktır. **YÖNTEM:** Çalışmanın literatür taraması 26 Haziran-7 Temmuz 2023 tarihleri arasında yapılmıştır. Çalışma sırasında "Avşar Köyleri" VEYA "Avşar Kültürü" VEYA "Avşarlar" VEYA "Avşar Adetleri" VE ''Doğum'' VE ''İnanç'' VE "Hemşirelikte Kültür" anahtar kelimeleri ve bu kelimelerin İngilizce tercümeleri kullanılarak Google Akademik, PubMed, Sience Direct arama motorlarında taramalar yapılmıştır. Tarama 1998-2023 yıllarını kapsayan 93 araştırmaya rastlanmış ve bu araştırmalar incelenerek dahil edilme kriterlerine göre bulgulara yer verilmiştir.

**LİTERATÜR BULGULARI:** Geleneksel ve kültürel davranış ve inançlara insanlık tarihinde ve günümüzde her alanda özellikle sağlık alanında sıkça rastlanmaktadır. Sağlık alanında görülen bu uygulamalar; toplumların algıları, inançları ve kültürlerine göre şekillenmektedir. Dünya Sağlık Örgütü geleneksel tıpı; sağlıklı olmayı sağlama, bu durumu koruma, geliştirme ve tedavi etmeyi amaç edinen her türlü kültürel yaşayış biçimi ve uygulamaların bütünü olarak tanımlamaktadır.

**SONUÇ:** Türk kültür tarihi incelendiğinde, gebelik kavramı ve lohusalık dönemi için çok farklı inançların ve uygulamaların bulunduğu görülmektedir. Bu uygulamalar eski dönemlerden gelen Türk halk inançlarına ve uygulamalarına dayanmaktadır. Bu alanda yapılan hemşirelik gözlemleri, günümüze kadar gelen uygulamaların halk sağlığına etkilerini incelemede önemli veriler sunmaktadır.

**Anahtar Kelimeler:** Avşar Kültürü, Avşar Adetleri, Doğum, İnanç, Kültürlerarası hemşirelik.

**ABSTRACT**

**INTRODUCTION:** Pregnancy and birth is a situation that for societies have accepted as a natural process from past to present and is seen as a very important life experience families. In the past, it was believed that childbirth was a natural event that women did without help or with the help of people who did not have medical knowledge, and births were carried out in homes where they lived. Every child born into the world is given great importance and value in Turkish society. In traditional societies, respect for women increases with birth, and the place of women in the family and especially in society is strengthened. Beliefs and practices related to birth in Avşar villages continue today. The new generations, on the one hand, try to adapt to the customs, traditions and customs, on the other hand, they also apply to medical methods. Beliefs and practices related to birth develop in three stages. These stages appear as beliefs and practices before, during and after birth.

**OBJECTIVE:** The aim of this review is to examine the beliefs and practices of Avşar culture about birth, to present current literature information and to present the effects of these belief styles on social life and health to the readers in the context of intercultural nursing. **METHOD:** The literature review of the study was carried out between 26 June - 7 July 2023. During the study, the keywords “Avşar Villages” OR “Avşar Culture” OR “Avşars” OR “Avşar Customs” AND “Birth” AND “Faith ” AND “Culture in Nursing” and their English translations were used by Google Scholar, PubMed, Searches were made on the Science Direct search engines. A total of 93 studies covering the years 1998 to 2023 were identified and their findings were included based on the inclusion criteria.

**LITERATURE FINDINGS:** Traditional and cultural behaviors and beliefs are frequently encountered in the history of humanity and nowadays in every field, especially in the field of health. These applications in the field of health; It is shaped by the perceptions, beliefs and cultures of societies. World Health Organization traditional medicine; It defines it as the whole of all kinds of cultural life styles and practices that aim to provide health, protect, develop and treat this condition.

**CONCLUSION:** When the Turkish cultural history is examined, it is seen that there are very different beliefs and practices for the concept of pregnancy and puerperium. These practices are based on Turkish folk beliefs and practices from ancient times. Nursing observations made in this area provide important data in examining the effects of practices up to date on public health.

**Keywords:** Avşar Culture, Avşar Customs, Birth, Faith, Intercultural nursing.

## AVŞAR AŞIQ YARADICILIĞI

## AVSHAR LOVE CREATION

**Günel Hümmətova (Pəniyeva)**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**

**Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi, f.ü.f.doktoru**

**Mail:** gunelpeniyeva@mail.ru

**Orcid ID:0000-0002-8916-3484**

**Xülasə**

Türk ədəbiyyatı tarixində avşar xalqının folkloru və ədəbiyyatı xüsusi yer tutur. Şifahi xalq ədəbiyyatınn ən geniş yayılmış növü olan aşıq yaradıcılığı Avşar xalqında da geniş yayılmış və inkişaf etmişdir. Tarixdən də məlum olduğu kimi Avşarlar sülaləsi İran, Türkiyə Və Azərbaycanın bəzi bölgələrində məskunlaşmışdır. Azərbaycanda Qrabağ bölgəsində, Türkiyədə Anadoluda, Uzunyaylada, Çukurovada və s. kimi bölgələrdə məskənləşmişdilər. Məhz Avşar xalqı da zaman ötməsinə baxmayaraq öz ədəbi nümunələrin yaşatmış və həmin bölgələrdə aşıq sənəti ilə məşqul olmuşlar. Həmçinin avşaq xalqının aşıqları Türkiyədə yaşayan digər xalq aşıqlarından fərqli olaraq hər deyimlərində öz xalqlarının adarın xüsusilə vurğulamışdılar ki, bu səbəbdən də Avşar xalq aşıqların bölgələrə uyğun şəkildə qruplaşdırmaq mümkün olur. Azərbaycan ərazisində yaşayıb yaradan aşıqların sənədləri ilə zamanla məhv olduğu üçün Azərbaycan Avşarlarına aid aşıq yaradıcılığı nümunələri haqqında geniş siyahı və məlumat yoxdur. Türk ədəbiyyatına aid olan və Anadolu Avşar aşıqları sıralanması və Anadoludan kənarda yaşayıb yaratmış aşıqların siyahısı başlığı altında təhlil etsək və sıralanma etsək daha doğru olar. Avşar aşıqlarını aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

Anadolu Avşar aşıqların da Uzunyayla və Çukurova Avşar aşıqları olaraq iki istiqamətə ayırmaq olar.

1) Uzunyayla Avşar aşıqları. Bu ərazidə yaşayıb aşıq sənəti ilə məşqul olan Avşar aşıqlarını daxil edərək onların yaradıcılığından gətirilən bəzi nümunələrlə ümumi Avşar aşıq yaradıcılığının mənzərəsin qısa olsa da təsvir edə bilərik. Bu sıra aşıqlara ilk tanınan aşıqların 1865-ci il və ondan əvvəlki illərdə yaşayıb yaratmış aşıqların adların çəkə bilərik. Məsələn XVIII əsrdə yaşayıb-yaratmış Avşarların Çingöz nəslinin nümayəndəsi olan Aşıq İsmayılın adın çəkə bilərik ki, bu aşıq Avşar xalqının bugünə məlum olan ən ilk aşığı sırasındadır.Çünki, bu aşıqdan əvvəl yazıb-yaratmış heç bir aşıq haqqında tarixi və ədəbi məlumat yoxdur.Daha sonra bu siyahıya Qul Əhməd və Qul Mahmudun adların, Aşıq Həmzənin adın əlavə etsək yanılmarıq. Daha sonra bu siyahını 19-cu əsrdə yaşadığını

söylədiyi söyləmələrdən anladığımız Dəli Əzizlə davam etdirə bilərik. Bu aşıqla da bağlı geniş heç bir məlumat yoxdur, sadəcə aşığın öz şeirlərindən onun 1848-ci ildə Yozgata sürgün edilən Avşarların içərisində olduğu məlum olur.

2) Çukurova Avşar aşıqları. Aşıq Feymani,Aşıq Əhməd İmami, Gül Əhməd və s.bu kimi aşıqların adların çəkmək olar.

Nəticə olaraq onu qeyd edə bilərik ki. Avşaq xalqına məxsus aşıq yaradıcılığı Türk ədəbiyyatında xüsusi yer tutur.

**Açar sözlər:** Avşar, xalq, folklor, ədəbiyyat, aşıq yaradıcılığı

**Summary**

In the history of Turkish literature, the folklore and literature of the Avshar people occupy a special place. Ashiq creativity, which is the most widespread type of oral folk literature, is also widespread and developed in the Avshar people. As is known from history, the Avshar dynasty settled in some regions of Iran, Turkey and Azerbaijan. In Azerbaijan, in the Grabagh region, in Anatolia in Turkey, in Uzunyayla, in Çukurova, etc. they settled in such regions. It is the people of Avshar who, despite the passage of time, have kept alive their literary examples and were engaged in the art of ashiq in those regions. Also, unlike other folk ashiks living in Turkey, the Ashiqs of the Avshar people emphasized the Adar of their people in their sayings, which is why it is possible to group the Ashiqs of the Avshar people according to the regions. There is no extensive list and information about examples of ashiq creations belonging to Azerbaijani Avshars, as the documents of ashiqs who lived and created in the territory of Azerbaijan were destroyed over time. It would be more correct if we analyze and rank under the title Anatolian Avshar ashiqs belonging to Turkish literature and the list of ashiqs who lived and created outside of Anatolia. We can summarize Avshar lovers as follows: Anatolian Avshar ashiqs can be divided into two directions as Uzunyayla and Çukurova Avshar ashiqs. 1) Uzunyayla Avshar lovers. Including the Avshar ashiks who lived in this area and engaged in the art of ashik, we can briefly describe the picture of the general Avshar ashik creativity with some examples from their work. In this series, we can mention the names of the first known ashiqs who lived and created in 1865 and before. For example, we can mention the name of Ashiq Ismayil, a representative of the Chingoz generation of Avshars who lived and created in the 18th century. This ashiq is among the earliest ashiqs of the Avshar people known to this day. Because there is no historical and literary information about any ashiq who wrote before this ashiq. Later. We would not be wrong if we add the names of Gul Ahmed and Gul Mahmud and the name of Ashiq Hamza to this list. Later, we can continue this list with Deli Aziz, who we understand from his statements that he lived in the 19th century. There is no extensive information about this lover, only from his own poems it is known that he was among the Avshars who were exiled to Yozgat in 1848. 2) Çukurova Avshar lovers. Ashiq Feymani, Ashiq Ahmad Imami, Gul Ahmed, etc. can be named. As a result, we can note that The works of Ashiq belonging to the Avshag people occupy a special place in Turkish literature. Key words: Avshar, folk, folklore, literature, Ashiq creativity

**Key words:** thinking, period, prose, human faktor, readers

# QƏDIM OĞUZ BOYU-AVŞARLAR VƏ ONUN TARIXI.

## Ancient Oguz Boy-Avshars and its history.

**Həsənova Leyla Ziyafət qızı.**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti.**

**Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi.**

**Email:leylamuzi@gmail.com**

**Xülasə:** Avşarlar Azərbaycanda və bir çox başqa ölkələrdə qurulan dövlətlərin həm ictimai, həm də siyasi həyatında mühüm rol oynamış qədim oğuz boylarından biridir. Onlar öz cəsarəti, hünəri və igidlikləri ilə hər zaman fərqlənmiş, necə deyərlər, meydana gedəndə baş, mətbəxə gedəndə aş gətirən bir el olmuşlar. Düşmənlə vuruşda heç zaman geri çəkilməz, istədiklərini almayana qədər döyüşü dayandırmazdılar. Bir sözlə, avşarların mərdliyi, qorxmazlığı tarixin hər dövründə özünü sübut etmişdir. Avşar adı bəzi yerlərdə müxtəlif cür: avşar, əfşar, ovşar deyə də səslənir. Lakin bu adın Avşar adlı türk-Azərbaycan mənşəli etnonimindən törəməsi heç bir şübhə doğurmur. Türk xalqlarına aid bir çox abidələrdə bu tayfanın adı çəkilir. Bəzi tədqiqatçılar qeyd edirlər ki, türk tayfaları olan avşarlar monqolların istilası zamanı Orta Asiyadan gəliblər. Azərbaycanda bu tayfanın yerləşməsi isə Əmir Teymur və Miranşahla bağlıdır. Əslində isə avşarların Azərbaycanda yerləşməsi çox daha qədimlərə dayanır. Avşarlar Səfəvilərə qədər Azərbaycanda yaşayırdılar, sonra isə demək olar ki, hər tərəfə yayıldılar.

Xüsusi ilə qeyd etmək lazımdır ki, türk boyları arasında hökmdar yetirən 5 boydan biri də avşarlar olmuşdur. Ümumiyyətlə, avşarlar Azərbaycan və Şərq ölkələrində qurulan dövlətlərin ictimai-siyasi həyatında başlıca mövqe tutublar. Hələ Nadir şahın hakimiyyəti dövründə Avşar elinin başçıları müxtəlif əyalətlərə hakim təyin edilmişdilər. Bundan başqa, avşar eli xanlıqlar dövründə Xəmsədə, Urmiyada və başqa yerlərdə öz müstəqilliklərini elan ediblər.

Avşarlar dünyanın bir çox yerlərində yayılıb. Xüsusilə də İranda, İraqda, Türkiyədə, Əfqanıstanda və Azərbaycanda məskunlaşıblar. Əlbəttə ki, bu avşarların köçürülməsi ilə bağlı baş vermişdir. Bu köçlər müxtəlif zamanlarda və istiqamətlərdə olub. Məsələn, Səfəvilər dönəmində avşarların mühüm hissəsi Azərbaycandan, o cümlədən, Qarabağdan köçürülüb, İranın müxtəlif əyalətlərində yerləşdirilib. Bu siyasət Nadir şahın hakimiyyəti dövründə də davam etdirilmişdir.

Bu gün də avşarlar ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Onlar Azərbaycanın çox yerində, kompakt şəkildə isə Ağcabədi rayonunda yaşayırlar. Avşarlar dövlətə sədaqətli olmaq, onu qorumaq kimi tarixi keyfiyyətlərini bu gün də yaşadırlar. Təsadüfi deyil ki, istər 1993-1998-ci il prezident seçkilərində, istərsə də digər illərdəki prezident seçkilərində bütün Azərbaycan xalqı kimi, avşarlar da mütəşəkkillik nümayiş etdirərək dövlətçiliyimizin inkişafına və möhkəmlənməsinə səs veriblər.

**Açar sözlər:** Qədim Oğuzlar, Oğuz boyu, Avşarlar, tarix.

**Summary**: Avshars are one of the ancient Oguz clans that played an important role in the social and political life of the states established in Azerbaijan and many other countries. They have always distinguished themselves with their courage, skills and bravery, as they say, they were a hand that brought a head when they went to the square and a meal when they went to the kitchen. They would never back down in a fight with the enemy, they would not stop fighting until they got what they wanted. In short, the courage and fearlessness of the Avshars have proven themselves in every period of history. In some places, the name Avshar is pronounced differently: avshar, ofshar, ovshar. However, there is no doubt that this name is derived from the ethnonym of Turkish-Azerbaijani origin called Avshar. The name of this tribe is mentioned in many monuments belonging to the Turkic peoples. Some researchers note that the Avshars, a Turkic tribe, came from Central Asia during the Mongol invasion. The location of this tribe in Azerbaijan is related to Amir Teymur and Miranshah. In fact, the location of the Avshars in Azerbaijan is much older. The Avshars lived in Azerbaijan until the Safavids, and then they spread almost everywhere. It should be especially noted that one of the 5 ruling tribes among the Turkic tribes was the Avshars. In general, avshars took a leading position in the social and political life of the states established in Azerbaijan and Eastern countries. Even during the reign of Nadir Shah, the heads of the Avshar clan were appointed judges of various provinces. In addition, the Avshar people declared their independence in Khamsa, Urmia and other places during the Khanate period. Avshars are spread in many parts of the world. In particular, they settled in Iran, Iraq, Turkey, Afghanistan and Azerbaijan. Of course, this happened in connection with the relocation of avshars. These migrations took place at different times and in different directions. For example, during the Safavid period, a significant part of the Avshars were moved from Azerbaijan, including Karabakh, and settled in different provinces of Iran. This policy was continued during the reign of Nadir Shah. Even today, avshars play an important role in the social and political life of our country. They live in many parts of Azerbaijan, and compactly in Agjabedi district. Avshars live their historical qualities of being loyal to the state and protecting it even today. It is no coincidence that, like all the Azerbaijani people, both in the presidential elections of 1993-1998 and in the presidential elections of other years, the Avshars showed their organization and voted for the development and strengthening of our statehood.

**Key words:** Ancient Oghuz, Oghuz tribe, Avshars, history.

# ƏFŞARLARIN DİNİ SİYASƏTİ VƏ SİYASİ İDARƏÇİLİK TARİXİ

**Nailə Şafaddin qızı Hüseynova**

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

Ümumi tarix şöbəsi a.e.i., t.ü.f.d. dos.,

naile-bayramova@rambler.ru

XVIII əsrin əvvəllərində Azərbaycanı idarə edən Səfəvilərin hakimiyyəti zəifləyir və siyasi meydanda Əfşarların fəallığı artır. Azərbaycanda Əfşarların nümayəndəsi Nadir əsas rol oynayır. Bunun bir neçə səbəbi var. XVI əsr boyu baş verən Səfəvi-Osmanlı müharibələri, müharibələr nəticəsində ölkədə başlayan hərc-mərclik,xalq üsyanları Səfəvilərin iqtisai-siyasi gücünü azaldır və ölkədə siyasi böhran yaranır. Yaranmış böhrandan ilk əvvəl əfqanlar istifadə edərək 1722 - ci ildə paytaxt İsfahanı ələ keçirirlər, sonra isə Rusiya və Osmanlı Azərbaycan Səfəvilər dövlətinin ərazilərini öz aralarında bölüşdürürlər. İdarəçilikdə səriştəsizlik göstərən Səfəvi nümayəndəsi II Təhmasib isə dövləti idarə etmək iktidarında olmur. Lakin Təhmasibin yanında 1726- cı ildən hərbi qulluğa başlayan Nadir öz siyasi fəallığı ilə qısa müddətdə xeyli nüfuz qazanır. Nadir tarixdə həm də Təhmasibqulu xan kimi də tanınır. C. Hanveyə görə bu adın Nadirə verilməsinin səbəbi Məşhədin əfqanlardan azad edilməsində onun göstərdiyi xidmətlərə görədir. Tarixdə həm də Təhmasibqulu xan kimi tanınan Nadirin Azərbaycandakı siyasi fəaliyyəti iki dövrə bölünür: xanlıq və şahlıq dövrü.

Xanlıq dövrü 4 il davam edir - 1732-1736 - cı illər ; şahlıq dövrü isə 11 il davam edir - 1736-1747- ci illər;

Xanlıq dövründə Nadir xan əfqanları ölkədən qovub çıxara bilir. Rusiya və Osmanlıları isə Rəşt, Gəncə, Bağdad sülhünü imzalamaqla onların hərbi qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasına nail olur. Sadə həyat yolu və sonra sərkərdə kimi hərbi yol keçən Nadirin hökmdar səviyyəsinə qədər yüksəlməsi onun sırf rassional keyfiyyətindən irəli gəlirdi. 1736 - cı il seçkisi zamanı Nadir şah seçiləndə onun qarşısında şiəlikdən imtina etməsi kimi tələb qoyulması fikri ilə razılaşmaq olmaz. Çünki Nadir şahın Azərbaycan dövlətçilik tarixində şox böyük rolu olmuşdu. Dövlət idarəçiliyində dini siyasəti əsas amillərdən biri kimi dəyərləndirən Nadir şah türk - islam birliyinin formalaşması üçün sünni- və şiəliyi aradn götürməyə çalışmışdı. Hətta Osmanlı sultanına yazdığı məktublarda belə həmin məsələ öz əksini tapır. Osmanlı sultanı Nadir şahın müarciətinin arxasında siyasi məqsəd olduğunu düşünərək onun təklifini qəbul etmir. Nadir şah əslində İranda yaşayan sünni və şiə təriqətlərinə etiqad edənlər arasındakı düşmənçiliyə son qoymağı , eyni zamanda Osmanlı ilə sonrakı danışıqları nizama salmağa çalışırdı. Nadir şah əslində o zaman vahid müsəlman dövləti yaratmaq haqqında düşünürdü və yeni dini təriqət elan etməklə gələcək işğalları üçün ideoliji zəmin hazırlamaq istəyirdi. Digər tərəfdən yaratdığı şəxsi imperiyasında şiə ruhaniləri özünə ciddi rəqib hesab etdiyi üçün Səfəvilər dövründə rəsmi dini təriqət kimi elan edilən şiəlikdən dövlət səviyyəsində imtina edir. Onların iqtisadi qüdrətinə zərbə vurmaq üçün şiə ruhanilərin mülklərini müsadirə edərək dövlət mülkiyyətinə qatdı. Nadir şahın dini

siyasətdə atdığı addımları təhlil etməklə onun dövlət idarəçiliyindəki xarakterik xüsusiyyətlərini təhlil etmək olar.

**Açar sözlər**: İsfahan, dini siyasət, Nadir şah, Bağdad müqaviləsi

**Giriş.** Nadir şah möhtəşəm bir tarixi personajdır. Bu şəxsiyyət öz əzəməti və ziddiyyətləri ilə bərabər daim tədqiqata ehtiyacı olan bir şəxsiyyətdir. Nadir şah şəxsiyyətinə həsr olunan monoqrafiya müəlliflərinin milli kimliyindən asılı olmayaraq onlar bu tarixi şəxsiyyətin özünəməxsus rassional dövlət idarəçiliyinin sırf demokratiya prinsiplərinə əsaslandığı qənaətində olmuşlar. Nadir şahın dövlət idarəçiliyi tarixi Azərbaycan dövlətçilik tarixi üçün son dərəcə zəngin irs mənbəyidir.

**Nadirqulu xanın hərbi uğurları.** XVIII əsrin əvvəllərində Azərbaycanı idarə edən Səfəvilərin hakimiyyəti zəifləyir və siyasi meydanda Əfşarların fəallığı artır. Azərbaycanda Əfşarların nümayəndəsi Nadir (1688- 1747 )əsas rol oynayır. Bunun bir neçə səbəbi var. XVI əsr boyu baş verən Səfəvi-Osmanlı müharibələri, müharibələr nəticəsində ölkədə başlayan hərc-mərclik,xalq üsyanları Səfəvilərin iqtisai-siyasi gücünü azaldır və ölkədə siyasi böhran yaranır. Yaranmış böhrandan ilk əvvəl əfqanlar istifadə edərək 1722- ci ildə paytaxt İsfahanı ələ keçirirlər, sonra isə Rusiya və Osmanlı Azərbaycan Səfəvilər dövlətinin ərazilərini öz aralarında bölüşdürürlər. İdarəçilikdə səriştəsizlik göstərən Səfəvi nümayəndəsi II Təhmasib isə dövləti idarə etmək iqtidarında olmur. Lakin Təhmasibin yanında 1726- cı ildən hərbi qulluğa başlayan Nadir öz siyasi fəallığı ilə qısa müddətdə xeyli nüfuz qazanır. Nadir tarixdə həmçinin Təhmasibqulu xan kimi də tanınır. C. Hanveyə görə bu adın Nadirə verilməsinin səbəbi Məşhədin əfqanlardan azad edilməsində onun göstərdiyi xidmətlərə görədir. Digər bir məlumata görə valideynləri onu Nadirqulu adlandırmışdılar [3,32]. Nadir iki il ərzində bütün Xorasanı özünə tabe edir [8,91]. Nadirin Azərbaycandakı siyasi fəaliyyəti iki dövrə bölünür: xanlıq və şahlıq dövrü.

Xanlıq dövrü 4 il davam edir - 1732-1736- cı illər ; şahlıq dövrü isə 11 il davam edir - 1736-1747- ci illər;

Xanlıq dövründə qeyd etdiyimiz kimi Nadir əfqanları ölkədən qovub çıxara bilir. 1729- cu il sentyabrın 29- da əfqan qoşunları Nadirə məğlub olaraq İsfahana qaçsalar da, noyabr ayında oranı da tərk etmək məcburiyyətində qalırlar. Bununla belə əfqanların İsfahanda 7 illik (1722-1730- cu illər ) hökmləri dövründə kəndlər dağıdılmış, özləri isə əhalinin nifrətini qazanmışdılar. Nadirin isə uğurları yolboyu yerli əhalinin ona kömək göstərməsi ilə nəticələnir [8,91]. Nadir tərəfindən əfqanların ölkədən qovulması ona şöhrət gətirir və bir xilaskar kimi Nadiri şah taxtına bir az da yaxınlaşdırır. Xüsusilə də, Dağıstan yürüşünü uğurla başa çatdırdıqdan və Cənubi Qafqazı tam nəzarət altına aldıqdan sonra Nadir bütün diqqqəti hakimiyyət məsələləri üzərində cəmləşdirir [7,292]. Nadir Rusiya və osmanlıları Rəşt, Gəncə, Bağdad sülhünü imzalamaqla onların hərbi qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasına nail olur. Sadə həyat yolu və sonra sərkərdə kimi hərbi yol keçən Nadirin hökmdar səviyyəsinə qədər yüksəlməsi onun sırf rassional keyfiyyətindən irəli gəlirdi. Səfəvi xanədanında ənənəvi və irsi hökmdar hakimiyyətinə meyl kifayət qədər güclü olduğundan yaranmış vəziyyət Nadirə bir müddət şahlıq taxtını ələ keçirmək üçün şans vermirdi. Lakin bununla belə Nadirin uğurlu hərbi fəaliyyəti,

Səfəvilərin keçmiş ərazilərinin bərpası, ətrafında nüfuzli hərbi elitanın yaranması Nadirin şahlıq taxtına olan iddiasını gücləndirməklə bərabər, həm də bu iddianın həyata keçirilməsinə real zəmin yaradır [7,292]. Nadirin əldə etdiyi hər bir hərbi uğur hakimiyyətə iddialı olan xanədan tərəfdarlarının siyasi gücünü azaldır, Nadirin isə nüfuzunu getdikcə artırır. Nadirin şah elan olunduğu Muğan qurultayındakı hadisələrə olan münasibət müxtəlif mənbələrdə fərqli şəkildə yazılır. Bu da onunla bağlıdır ki, Nadir şah seçilərkən müxtəlif qruplar tərəfindən ona fərqli yanaşmalar olur. Xüsusilə də Nadirin dini reformasiyasına reaksiyalar birmənalı olmamışdır.

**Nadir şahın dövlət idarəçiliyində dini siyasəti.** Muğan qurultayında Nadirin irəli sürdüyü şərtlərdən biri kimi şiəlik ilə sünnülük arasındakı ziddiyəti aradan qaldırmaq üçün edilən təşəbbüsə mollabaşı Mirzə Əbülhəsən öz etirazını bildirir və nəticədə etiraz etdiyinə görə edam edilir [7,301]. Səfəvilərin yeddinci İmam Kazımın nəslindən olmaları və yalnız imam nəslindən olanların hakimiyyətə sahiblənməsi fikri ilə razılaşmayan Nadir şah məzhəbindən asılı olmayaraq o hamını şəriət və Allah qarşısında bərabər hesab edirdi [1,207]. Bununla əslində Nadir şah sadə insanlar arasından çıxan, uğurlu hərbi əməliyyatları həyata keçirən bir sərkərdənin,- niyə də hökmdar olmaq haqqı olmasın kimi iddiasını göstərir və haqlı olaraq demokratik prinsiplərə söykənən seçkilər yolu ilə hökmdar olmağa özünü layiq bilir. Ancaq Nadirin sıradan bir sərkərdə olaraq hökmdar olmasına yalnız şiə ruhanilərmi narazı ola bilərdi, təbii ki, Osmanlı faktoru, Şərqdə müstəmləkəçilik meyllərini gücləndirən Qərb dövlətləri də diqqətdən kənarda qalmamalı idi. Osmanlı dövləti ilə ilk növbədə münasibətləri nizama salmaq üçün Cəfəriliyin islamda beçinci məzhəb kimi qəbul edilməsini təklif edir.

İslam fəlsəfəsində Cəfərilik təriqətinə görə iradə azadlığı qəbul edilmir [6,44]**.** Nadir şah yaratdığı öz dövləti üçün Cəfərilik təriqətini əsas götürəndə də məhz bu xüsusiyyəti də nəzərdə tutur. Əziyyətlər hesabına itirilmiş torpaqları geri qaytaran Nadir şahın sərt hakimiyyəti hamı tərəfindən qəbul edilən olmalı idi. Nadir şah heç kimin günahlarını bağışlamayacaq, cinayətlərə yol verənləri dərhal qətlə yetirəcək bir hökmdar kimi əyanlara çatdırır ki, Cəfərilik şiə təriqətinin bir məzhəbi kimi qəbul edilməlidir.Həm də ölkə daxilində əhali İmam Cəfər məzhəbi ilə tanış olduqları üçün insanların bu məzhəbi qəbul etməsini Nadir şah qurultay iştirakçılarından tələb edir [7,303].

Nadir şahın idarəçilik məsələlərində qətiyyətli mövqeyi dini siyasətdə də özünü göstərirdi. O, Əfqanıstanda , Türküstanda, o cümlədən Osmanlıda ortaq bir məzhəbin qəbul edilməsini təklif edir. Nadir şah müxtəlif dinlərin birləşdirilməsi yollarını da axtarırdı.

Ölkəni parçalamaq istəyən qüvvələrin müqavimətini qıran Nadir şahın dini siyasətində önəmli yerlərdən birini Osmanlı dövləti ilə münasibətlərindəki dini faktor tutur. Dövlət idarəçiliyində dini siyasəti əsas amillərdən biri kimi dəyərləndirən Nadir şah türk - islam birliyinin formalaşması üçün sünni və şiəliyi aradan götürməyə çalışmışdı. Hətta Osmanlı sultanına yazdığı məktublarda belə həmin məsələ öz əksini tapır [5,42,67]. Cəfəriliyin beşinci məzhəb kimi qəbul edilməsi təklifi ilə Osmanlı sultanı I Mahmuda müraciət edir. Nadir şah öz dövlətinin gələcəyi üçün Osmanlı dövləti ilə sülh şəraitində olmasına rəğmən belə bir siyasi təklifi verir və daha yaxın münasibətlər qurmağa çalışır. Osmanlı dövləti ilə münasibətləri qaydaya salmaq üçün Nadir şah Osmanlı sarayına səfir təyin edilən Əbülbaqi xanla beş şərtdən ibarət müqavilə mətnini göndərir. Şərtlərdən ikisi

məhs şiəlikdən imtina edilməsi, Cəfəriliyin qəbul edilməsi və Kəbədə İmam Cəfər üçün beşinci mehrabın yaradılması ilə bağlı idi [7,309].

Osmanlı sultanı Nadir şahın müarciətinin arxasında siyasi məqsəd olduğunu düşünərək onun təklifini qəbul etmir. Nadir şah əslində İranda yaşayan sünni və şiə təriqətlərinə etiqad edənlər arasındakı düşmənçiliyə son qoymağı , eyni zamanda Osmanlı ilə sonrakı danışıqları nizama salmağa çalışırdı. Nadir şah əslində  o zaman vahid müsəlman dövləti yaratmaq haqqında düşünürdü və yeni dini təriqət elan etməklə gələcək işğalları üçün ideoliji zəmin hazırlamaq istəyi də danılmaz fakt kimi dəyərləndirilə bilər. Digər tərəfdən yaratdığı şəxsi imperiyasında şiə ruhaniləri özünə ciddi rəqib hesab etdiyi üçün Səfəvilər dövründə rəsmi dini təriqət kimi elan edilən şiəlikdən dövlət səviyyəsində imtina edir.  Onların  iqtisadi qüdrətinə zərbə vurmaq üçün şiə ruhanilərin mülklərini müsadirə edərək dövlət mülkiyyətinə qatır. Nadir şahın dini siyasətdə atdığı addımları təhlil etməklə onun dövlət idarəçiliyindəki xarakterik xüsusiyyətlərini təhlil etmək olar. Əslində ruhaniləri öz hakimiyyəti üçün ciddi təhlükə hesab etdiyindən Nadir şah onlarla ilk əvvəl yaxınlıq etmək istəyir, lakin münasibətlərin baş tutmayacağı təqdirdə onların əmlakını müsadirə etdirir.

Tarixşünaslıqda Nadir şahın özünü Əmir Teymurun varisi hesab etməsi haqqında məlumatlar da yer alır. Teymurun dövlətçilik siyasətində Turan dövləti yaratmaq kimi istəyində dini motiv əsas rol oynayırdı. Teymurun dövlətçilik siyasətini davam etdirməyi qarşısına məqsəd qoyan Nadir şah Əfşar Osmanlı dövlətində sünni və Səfəvilərdə isə şiə təriqətlərinin islam birliyinə, o cümlədən Turan birliyinə mane olacağını dərk edirdi. Məzhəb ayrılığı Səfəvilərlə-Osmanlı dövlətləri arasında nə qədər ciddi maneə idisə, Nadir şah özünün yaratdığı şəxsi imperiyasında da həmin maneənin labüdlüyünü hiss edirdi. Nadir şahın dövründə müsəlmanlar yaşayan ərazilərin Osmanlı və Nadir şah Əfşar imperiyasına daxil olduğunu nəzərə alsaq Nadir şahın atdığı dini-siyasi addım İslamı vəhdət halına gətirməklə  müsəlmanların birliyinə səbəb ola bilərdi [2,259]. Sual yaranır: Nadir şah nə üçün islami birliyə bu qədər can atırdı? XVIII əsrin əvvəllərində həm Avropanın, həm də Rusiyanın Şərqə olan müstəmləkəçilik siyasəti güclənmişdi [2,259]. Nadir şah türk- müsəlman birliyinə də bu səbəbdən nail olmağa çalışırdı. Nadir şahın dinə münasibəti sırf dünyəvi məqsədlərə bağlı idi. Nadir şah nəinki dini fanat idi, Lokkartın təəbirincə desək, Nadir millətçidən daha çox beynəlmiləlçi idi. Nadir şah özünün şəxsi imperiyasını yaratmağa çalışırdı və bu imperiyada parçalanmış İslam dini deyil, vahid din və xalqların birliyini formalaşdırmaq istəyirdi. Osmanlı dövləti tərəfindən gələcək hər hansı bir təhlükənin qarşısını artıq imzalanan ( Bağdad,və s. sülh müqavilələri) müqavilələrlə aldığını düşünən şah dini baxımdan da Osmanlı dövlətini zərərsizləşdirmək üçün Cəfərilik təriqətini ümumi etiqad kimi Osmanlı sultanı I Mahmud tərəfindən qəbul edilməsi təklifi ilə qeyd etdiyimiz kimi ona müraciət edir. Şiə ruhanilərə ilkin müraciətini isə I Napoleonun Roma papası VII Piylə konkordat imzalaması ilə müqayisə etmək olar. Belə ki, I Napoleon çox böyük mülkə sahib oaln Papa hakimiyyətini yaratdığı imperiya üçün  ciddi təhlükə hesab edirdi. Həmin təhlükəni zərərsizləşdirmək üçün də Papa ilə qarşılıqlı razılaşma sənədini- məlum 1801- ci il konkordatı imzalayır. Nadir şah da onun dini islahatlarına mane olmasınlar deyə şiə ruhanilərlə ilkin danışıqlar aparanda onları öz hakimiyyəti üçün zərərsizləşdirmək məqsədi güdür, lakin kəskin etirazların labüdlüyünü

dərk edən Nadir şah sonda şiə ruhanilərə qarşı qeyd etdiyimiz tədbirlərini həyata keçirməli olur.

Ümumiyyətlə, Nadir şahın dini siyasəti haqqında fikirlər müxtəlifdir. Azərbaycan tarixçilərinin bir hissəsi Nadir şahı özünün ifadə etdiyi kimi"bir müsəlman, bir abid" hesab etdikləri üçün onu müsəlman dünyasının parçalanmasının qarşısını alan, məzhəblərarası ədavətə son qoyan bir hökmdar kimi görürlər [4,61].

Nadir şah yaratdığı imperiyasında mövcud olan müxtəlif dinlərin birləşdirilməsi yollarını da axtarırdı [9,158] ki, bu da onun ümumiyyətlə idarəçilik tarixində olan sırf siyasi məqsədlərini göstərirdi.

**Nəticə.** Nadir şahın həm dini,həm siyasi,həm də iqtisadi tədbirləri yaratdığı imperiyanın uzunömürlülüyünə xidmət etməli idi, lakin onun yaratdığı imperiya 11 ildən artıq davam edə bilmir. Buna baxmayaraq Nadir şahın dövlət idarəçilik siyasətindəki təcrübəsi tarixin sonrakı dövrlərində diqqət mərkəzində olur.

**İstifadə edilən ədəbiyyat:**

1. Ələkbərli F.Turan sivilizasiyasına giriş:Turan məfkurəsi və tanrıçılıq.Bakı.2017. 512 səhifə.
2. Əzimli D. Toplumdan seçilmişə doğru.B.2022.Turxan.884 s.
3. Hüseyn Əfşar Cahangir.Azərbaycan Nadir Əfşar dövləti.Bakı.2014.256 s.
4. Hüseyn Fərəh. Osmanlı imperiyası ilə münasibətlərdə Nadir Şah Əfşarın təsis etdiyi qardaşlıq hüququ. ( Osmanlı mənbələri əsasında. )Sosial elmlər.2021,№1.
5. I Mahmud-Nadir şah mektuplaşmaları. 3Numaralı Name-i Humayun Defteri.İstanbul -2014.
6. Nəbiyev Fikrət. Hüququ təfəkkür : sosial determinatları və dərketmə metodları.Bakı.2015.142 səhifə
7. Süleymanov M. Nadir şah. Tehran 2010. 741 s.

ванов М.С.Очерк истории Ирана.М.1952.468 с.

амедова Р. Политика Надир Шаха в отношении религиозных меньшинств.Bakı Universitetinin xəbərləri.Humanitar Elmlər Seriyası.№4.2011.

# MOLLA HÜMAY AVŞARIN "BİZ AVŞARIQ, YAXŞI TANI" ŞEİRİNDƏ AVŞARLARLA BAĞLI MƏLUMATLARIN ARAŞDIRILMASI

Maykl Aksvörtinin "Nadir şah" kitabında belə yazılmışdır: "Ordunun çevik, düşünülmüş şəkildə və mütəşəkkil hərəkət etməsi üçün güclü idarəçilik qabiliyyətinə malik iradəli komandanın varlığı tələb olunurdu. Hər gün keçirilən üçsaatlıq təlimlər Nadir şahın əsgərlərini sərt nəzarət və güclü intizamın hökm sürdüyü yüksək səviyyəli orduya çevir miş di. Onların məşq keçdikləri nəzəri döyüş meydanı və taktiki düzülüşlər Nadirin oz

ağlının məhsulu idi. Nadir adamlarına öz şəxsi təcrübəsinə əsasən hərəkət etməyi öyrədirdi. Təlimlər, atəş gücünün artırılması, intizam, nəzarət və şəxsi örnək Nadirin müharibə meydanlarındakı uğurlarının açarı idi.”

“Güclü ordu, güclü dövlət”, “Car-Balakənd üsyanı”, “Şəki üsyanı” və s. yarımbaşlıqlarda Nadir şah hakimiyyəti haqqında geniş məlumat verilmişdir.

Dərslikdə Nadir şahla Şah I Abbasın hərbi islahatlarının fərqindəliyinə də şagirdlərin diqqətli araşdırlması tələb edilirdi. Həmin hissənin 70-ci səhifəsində Nadir şahın güclü ordusu hesabına ərazisinin genişləndirməsi xüsusi vurğulanmış və böyük bir imperiyanın qurucusu olduğu qeyd edilmişdir. Eyni zamanda Nadir şahın uzaqgörən siyasətçi olması da diqqətə çatdırılmışdır. Hərbi dəniz donanmasının da çox vacib olduğunu da müəyyən etdiyi yazılmışdır. Dövlətinin şimalda və cənubda dənizdən təhlükəsizliyini təmin etmək lazım idi. Buna görə də o hərbi donanma yaratmaq qərarına gəldi. Buna görə də Nadir şah İngiltərə, Hollandiya, Rusiya ilə də danışıqlar aparmışdır.

Göründüyü kimi, türk tarixində oğuz türkləri olan avşarlar silinməz izlər buraxmışdır. Qorxmazlıqları, döyüşkənlikləri, cəsarətliyi, qoçaqlıqları, ilə ad çıxaran avşarlar hazırda Azərbaycanda, Türkiyədə və başqa yerlərdə əsasən icma şəklində yaşayırlar. Özlərinə xas olan xüsusiyyətlərini bu günə qədər qoruyub saxlaya bilmişdilər. Onlar olduqları məkanda daima ictimai, siyasi aləmdə yaxından fəal iştirak edir, öz haqq səslərini hər zaman ucadan söyləməyi bacaranlardandırlar.

**Ədəbiyyat:**

1. https://aranqazeti.az/2022/05/20/avsar-elinin-tarixi/
2. / https://www.yeniazerbaycan.com/Musahibe_e4123_az.html
3. /https://www.trims.edu.az/noduploads/book/quot-azarbaycan-tarixi-quot-fanni-uzra-8-ci-sinif-ucun-darslik-1660218261-758.pdf

# ƏFŞARLARIN AZƏRBAYCAN TARİXİNDƏ ROLU

# THE ROLE OF THE AFSHARS İN THE HİSTORY OF AZERBAİJAN

**Məmmədova Svetlana Nəsib qızı**

filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi

email: svetlanamammadova72@gmail.com;

Əfşarlar imperiyası, Əddəulət-u Əfşar, Xanədan-i Türkmaniyyə (1736–1796) — Səfəvilər dövləti dağıldıqdan sonra meydana gəlmiş, Nadir şah Əfşarın dövlətin banisi olduğu tarixi Azərbaycan dövlətidir. II Təhmasib Nadir xanın nüfuzunun dövlətdə artdığını görüb öz nüfuzunu artırmaq məqsədi ilə 1731-ci ildə Osmanlılara qarşı yürüşə keçdi, lakin döyüşdə məğlub olduqdan sonra İrəvan Osmanlıların əlinə keçdi. Nadir xan 1732-ci ildə II Təhmasibi hakimiyyətdən uzaqlaşdıraraq onun yerinə oğlu III Abbası hakimiyyətə gətirdi.

Əfşarlar Orta Asiyada, Dədə Qorqud dastanlarında Oğuz eli deyilən Sırdərya bölgəsində yaşamışdılar. Böyük köç ilə Xuzistan, Xorasan yolu ilə Azərbaycana, bir qismi isə İraq, Suriya yolu ilə Anadoluya gəlmişdilər və İrana, İraq Suriyasına, və Əfqanıstana da yayılmışlar. Əfşarlar Oğuzun o biri nəvələri Qınıqlar və Sürüşülər kimi dövlət qurmuş, böyük hökmdarlar və sülalələr yetişdirmişlər.

Bu adın əfşar Azərbaycan-türk mənşəli etnonimdən yaranması şübhə doğurmur. Əfşarlar Azərbaycan xalqı və dilinin formalaşmasında əsas rol oynayan və Azərbaycan ərazisində toponimlərin yaranmasında fəal iştirak edən etnos olmuşlar. Avşar etnonimi İran ərazisində də çox yayılmışdır. Türk xalqlarının abidələrində bu tayfanın adı çəkilir. "Nadir şah haqqında irihəcmli tədqiqat əsərinin müəllifi olan Əbuturab Sərdadvər öz kitabında Əfşar boyunun ilkin olaraq Qafqazda və Azərbaycan məskunlaşdıqlarını təsdiq edir. Və sonra da bu boyun sırf İran boyu olduğunu iddia edir. Müəllif əlavə edir ki, bu boyun yalnız dili Azərbaycan dilidir. Qalan bütün xüsusiyyətləri isə İranla bağlıdır. Başqa bir İran təqdiqatçısı Əlirza Əfşar Cəm də Əfşar boyunu tamamilə İranla bağlayır və onun türklərə ümumiyyətlə heç bir aidliyi olmadığını irəli sürür. Onun iddiasına görə Əfşarlar qədim İranın qədim tayfalarından olmaqla part irqinə mənsubdurlar. Müəllif yazır ki, yalnız monqol hücumları başlayarkən onlar Türküstandan hərəkət edib Qərbi Azərbaycana köç etmişlər.

L. Lokkart da bu fikri təsdiq edir. Onun yazdıqlarına görə, əfşarlar Mərkəzi Asiyadan monqol hücumları nəticəsində sıxışdırılaraq Azərbaycana köçmüş və sonra da buradan İranın bütün ərazisinə yayılmışlar. Lokkartın istinad etdiyi fikrə görə, əfşarların Mərkəzi Asiyadan Azərbaycana doğru hərəkət etməsi XVI əsrdə baş vermişdir.

**Açar sözlər:** əfşarlar, imperiya, Nadir şah, sülalə, hakimiyyət, Səfəvi

The Afshar Empire, Addaulat-u Afshar, Khanadan-i Turkmaniyya (1736-1796) is a historical state of Azerbaijan that was formed after the collapse of the Safavid state and was founded by Nadir Shah Afshar. Seeing that Nadir Khan's influence in the state was growing, Tahmasib II marched against the Ottomans in 1731 in order to increase his

influence, but after losing the battle, Iravan fell into the hands of the Ottomans. Nadir Khan removed Tahmasib II from power in 1732 and replaced him with his son Abbas III.

The Afshars lived in Central Asia, in the Syr Darya region, which is called the Oghuz region in the Dede Gorgud epics. With the great migration, they came to Azerbaijan via Khuzistan and Khorasan, and some of them came to Anatolia via Iraq and Syria, and spread to Iran, Iraq, Syria, and Afghanistan. Afshars, the other grandsons of Oghuz, established a state, raised great rulers and dynasties, like the Kynygs and Syrushis.

There is no doubt that this name originated from an ethnonym of Afshar Azerbaijani-Turkish origin. The Afshars were an ethnic group that played a key role in the formation of the Azerbaijani people and language and actively participated in the creation of toponyms in the territory of Azerbaijan. Avshar ethnonym is also very common in Iran. The name of this tribe is mentioned in the monuments of Turkic peoples. "Abuturab Sardadvar, the author of a large research work on Nadir Shah, confirms in his book that the Afshar tribe initially settled in the Caucasus and Azerbaijan.

And then he claims that this neck is just the length of Iran. The author adds that the only language of this region is Azerbaijani. All other features are related to Iran. Another Iranian scholar, Alirza Afshar Jam, also completely connects Afshar with Iran and suggests that he has nothing to do with Turks at all. According to his claim, the Afshars belong to the Parthian race, being one of the ancient tribes of ancient Iran. The author writes that they moved from Turkestan to Western Azerbaijan only when the Mongol attacks began.

L. Lockart also confirms this idea. According to his writings, the Afshars were displaced from Central Asia as a result of Mongol attacks and moved to Azerbaijan, and then spread to the entire territory of Iran. According to the opinion cited by Lockhart, the movement of the Afshars from Central Asia to Azerbaijan took place in the 16th century.

**Keywords**: Afshars, empire, Nadir Shah, dynasty, power, Safavid

## GİRİŞ

Əfşar" – yəni "ovda çevik olan". Onlar Oğuz xanın oğlu Ulduz xanın övladlarıdır.Əfşar boyu Oğuz Xaqan dastanına görə oğuzların 24 boyundan biri [2] və Mahmud Kaşğariyə görə "Divanü Lüğat-it-Türk"dəki iyirmi iki oğuz bölümündən altıncısıdır. Bu boy Boz oxlardan, Oğuz Xaqanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın(Afşarın) soyundan gəlir.Əfşarlar Orta Asiyada, Dədə Qorqud dastanlarında Oğuzeli deyilən Sırdərya bölgəsində yaşamışdılar. Böyük köç ilə Xuzistan, Xorasan yolu ilə Azərbaycana, bir qismi isə İraq, Suriya yolu ilə Anadoluya gəlmişdilər və İrana, İraq Suriyasına, və Əfqanıstana da yayılmışlar. Əfşarlar Oğuzun o biri nəvələri Qınıqlar və Sürüşülər kimi dövlət qurmuş, böyük hökmdarlar və sülalələr yetişdirmişlər. Türklük şuurları olduqca güçlü bir boydur.Azərbaycanda Əfşarların birinci dalğası 1399–1400-cü ildə Əmir Teymur tərəfindən, Qorgin Bəy Usalu (Qurd Osalu) adında birini bu bölgənin (Urmiyanın) valisi təyin edən zaman yerləşmişdir.

İlk olaraq deyək ki Nadir şah bir ömürlük imperiyanı idarə edib. Fəzlullah Rəşidəddin və Əbülqazi Bahadır xan Xivəliyə görə əfşar adının mənası "işlərini cəld görən və ova həvəslidir". Bəzi müəlliflər isə bu adı əsərlərində "toplayıcı" və ya "əfsər, zabit" kimi açıqlayır. K. Nemət isə əfşar adının "avşı" feilindən yarandığı, "itaətli" mənasını verdiyini yazır. Türkoloq Mahmud Kaşğari "Divani-Lüğət-it-türk" əsərində 22 oğuz tayfalarından birini Əfşarlar qeyd etmişdir. Bu boy Boz oxlardan, Oğuz Xaqanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın soyundan gəlir.

Əfşarların İranda geniş ərazidə yayıldığını V. İ. Savina qeyd edir: "Əfşarlar İranın türk əhalisinin arasında hazırkı dönəmdə böyük qrupları vardır. Səfəvilərə qədər Azərbaycanda (Cağatu çayından şərqdə), sonra demək olar ki, hər tərəfə yayıldılar. İndi onlara Azərbaycanda rast gəlmək mümkündür." Əfşarların 1071-ci il Malazgird döyüşündə Anadolunun türk yurdu halına gəlməsində Qayılar, Qınıqlar kimi ilk sıralarda yer aldıqlarını göstərən mənbələr mövcuddur. Onlar, türk ulusu içərində bir boy olduğuna baxmayaraq türk topluluğu arasında əfşarların adı çox çəkilir. Əfşarlar Oğuzların islamdan öncəki tarixində də əhəmiyyətli rol oynamış boylardan biridir.Tarixi araşdırmalardan birində Əfşar boyunun Şahsevən boyundan yaranması və Kerman vilayətində yerləşməsi qeyd olunur. Məlumdur ki, Şahsevən boyu da türk boyudur və əfşarlar bu boydan yaranması haqqında ciddi faktlar yoxdur. Əfşarların Kerman vilayətində yaşamasını isə tarixi ədəbiyyatda Səfəvi dövrü ilə bağlılığı və əfşarların Kerman ətrafına Şah İsmayıl tərəfindən köçürülməsi təsdiqlənir. O da bildirilir ki, "Kerman ətrafında hazırda da əfşarlar yaşamaqda davam edirlər. Ancaq onların çoxu fars əhalisi ilə assimliyasiya olunmuş və çox az bir hissəsi hazırda ana dilində danışa bilir.

**Əfşar sülaləsinin hakimiyyətə gəlməsi**

Nadirqulu xan Əfşar 1730–1736-cı illərdə Səfəvi İmperiyasının ali baş komandanı, 1732–1736-cı illərdə isə şahın qəyyumu idi. 1732–1736-cı illərdə Səfəvilər dövlətinin itirilmiş bütün ərazilərini geri qaytaran Nadir 1736-cı ilin əvvəllərində özünü şah elan etmək üçün münasib şərait yaratdı. Əvvəlcədən hazırlanmış plana görə III Şah Abbasın qəflətən ölümündən istifadə edərək, 1736-cı ilin martın 21-də Suqovuşan adlanan yer olan Qalaqayında (indiki Sabirabad şəhərində Kürlə Arazın qovuşduğu yer) toplanmış Muğan qurultayında Nadir xan özünü şah elan etdi.Beləliklə, əslində Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu və İranla Azərbaycanda yeni türk-müsəlman sülaləsi olan Əfşarlar sülaləsi hakimiyyətə gəldi.

**Nadir şahın fəthləri**

Nadir şah ömrünün təqribən 37 ilini müxtəlif döyüşlərdə at belində keçirib, xarici işğalçılara qarşı 120-dən artıq irili-xırdalı müharibələr aparmışdır. Onların çox azında məğlub olsa da, bu uğursuzluqların heç biri onu ruhdan salmamış, əksinə o, məğlubiyyətin səbəblərini dərindən öyrənib daha ciddi, daha möhkəm hazırlıqla hücuma keçib, düşmənlərinin məğlub etmişdir. Bu misilsiz sərkərdə öz polad iradəsi, cəsarəti, mətanəti, möhkəm səbri, ağıllı tədbirləri, hədsiz rəşadəti və şücaəti ilə qarşıya çıxan çətinlikləri mərdliklə aradan qaldırıb, daxili və xarici düşmənlərin öhdəsindən layiqincə gəlirdi.

Get-gedə Nadirin əhatəsi və şöhrəti böyüdü. 1719–1720-ci illərdə Nadir Kelata hücum etdi və oranı tutdu. Kelat qalasının hakimini və onun qoşunlarını əsir aldı. Nadir 1727-ci ildə Bağdaddakı əfqanları və qiyamçılarını qılıncdan keçirtdi. Nadir 500 nəfərlə 4 gün içərisində əfqanların içərisinə elə bir vəlvələ saldı ki, əfqanlar Herata doğru geri çəkildilər. O, 1729-cu ildə əfqanları Bəstanda, Mehmandüştanda, Xar dərəsində darmadağın etdi. 1729-cu il 26 oktyabrda isə İsfahan şəhərini əfqanlardan təmizlədi. Tezliklə Nadir Şiraza doğru hücum edib, əfqan ordusunu darmadağın etdi. Əfqan ordusunun başçısı Əşrəf xan Sistanndə öldürüldü Əşrəfin öldürülməsi ilə əfqanlar üzərində 1730-cu ildə qəti qələbə çalındı. 1729-cu ildə Qəndahar şəhərində, Dəludustanda əfqan qüvvələri tamamilə darmadağın edildi. Nadir Qəndəharı tutmaqla Səfəvi ordusunun şərəfini və eyni zamanda Səfəvilərin əldən getmiş torpaqlarını geri qaytardı.[5] Nadir 1730-cu ilin mart ayında 25 min atlı və xeyli sayda qoşunla Həmədana doğru irəlilədi. Nadir qəflətən Nəhavənddə Osmanlı qoşunlarını darmadağın etdi və osmanlı ordusunun baş komandanı Osman paşa Həmədana qaçdı. Nadir irəliləyərək daha sonra 50 minlik Osmanlı ordusuna ağır zərbə vurdu və Osmanlı ordusu məğlub olub Bağdada çəkildi. Çoxlu sayda silah, at və cəbbəxana sursatları Nadirin əlinə keçdi. Nadir tezliklə Həmədanı tutub Kirmanşaha hücum etdi. Osmanlı ordusunun baş komandanı Həsən paşa Kirmanşahı buraxıb, Həmədana qaçdı. Nadir şah Azərbaycanı osmanlılardan təmizləmək üçün Gürcüstandan Azərbaycan ərazisinə keçdi. Bu xəbəri eşidən Osmanlı sultanı 1730-cu ilin 24 iyulunda Səfəvilərə rəsmi müharibə elan etdi. Nadir Miyandaba şəhərində toplaşan Osmanlı qoşunlarına hücum etdi, 100 minlik Nadiri nqoşunu qarşısında Osmanlı ordusu Marağaya doğru qaçdı. Nadir şah onları təqib edib, Marağanı və onun ətrafını osmanlılardan azad etdi. Nadir iki gün Marağada qaldıqdan sonra Təbrizi azad etmək üçün Təbrizə doğru hücuma keçib, Rüstəm paşa və Mustafa paşanın ordularını darmadağın edib, 17 avqust 1730-cu ildə Təbrizi osmanlılardan azad etdi.

Nadirin dalbadal qələbələri osmanlıları narahat etdi. Osmanlılar elə zənn edirdilər ki, ruslar Nadirə kömək edirlər. O dövrün fransız səfiri Şevalye Qerqan 1730-cu ildə İsfahandan Fransaya gedərkən yazır: "Bəsrədən Bağdada, Hələb darvazalarına qədər hamı Nadir xanın adı gələndə tir-tir əsirdi".'[1]II Şah Təhmasib 1731-ci ildə osmanlılarla müharibəyə başladı, lakin II Şah Təhmasibin ordusu Həmədan yaxınlığında Qurcanda osmanlılarla döyüşdə məğlub oldu və yenidən osmanlılar Əli paşanın başçılığı ilə Azərbaycana yürüş edib, Təbrizi, Marağanı tutdu. 11 yanvar 1732-ci ildə Təhmasib şah osmanlılar ilə sülh müqaviləsi (Kirmanşah müqaviləsi) bağlamalı oldu. 1732-ci ildə Nadir Şah Təhmasibi hakimiyyətdən kənarlaşdırıb, 8 aylıq III Şah Abbası Səfəvi şahı elan etdi. Tezliklə Nadir 1732-ci ildə Kirmanşahı osmanlılardan azad etdi. Daha sonra o, Kərkük və Van şəhərlərinə hücum edib, osmanlı ordusundan azad etdi. Bağdada doğru hücuma keçdi, tezliklə o, Kərbəla, Nəcəf və köhnə Bağdad şəhərini tutdu. Osmanlı imperatoru Bağdadın vəziyyətinin çətin olduğunu görüb, görkəmli sərkərdəsi Topal Osman paşanı 100 minlik qoşunla Bağdada göndərdi. Bu döyüşdə Osman paşa öldürüldü. Nadir tezliklə Təbrizi də azad etdi və yenidən 30 minlik ordu ilə Bağdada qayıtdı. Bir neçə gündən sonra Osmanlı ordusuna rəhbərlik edən Əhməd paşa Nadirin yanına adam göndərib, sülh müqaviləsi bağlamasını təklif etdi. Tutduqları bütün Səfəvi torpaqlarını geri qaytaracaqlarını vəd etdi. 1733-cü ilin qışında osmanlılarla sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Səfəvi

əsirləri və işğal olunmuş Səfəvi torpaqları geri qaytarıldı. Bundan sonra Nadirin qoşunları 1734-cü ilin 21 martında Novruz bayramını Şirazda təntənə ilə qeyd etdi və Osmanlı dövlətinə xəbərdarlıq etdi ki, Araz çayının şimalındakı Azərbaycan torpaqlarını geri qaytarsınlar. Tezliklə Nadir anladı ki, Osmanlı dövləti Bağdad sülhünə əsasən Araz çayının şimalında olan Azərbaycan torpaqlarını qaytarmaq istəmir. Nadir rus hökumətinin səfiri Kaluşkindən Xəzərboyu əyalətlərdən əl çəkməyi tələb etdi. Nadir Şamaxıya hücum edib (bu taktiki siyasi addım idi) rus dövlətini qorxuya saldı, həmçinin gürcü çarı VI Vaxtanq Nadirin qorxusundan ruslara itaət etməkdən əl çəkib, Nadirə itaət etdi. 1735-ci il noyabrın 10-da Gəncədə bağlanan müqaviləyə əsasən rus qoşunları zəbt etdikləri Xəzəryanı ərazini Nadirin hücumundan qorxub tamamilə tərk etdilər. 1735-ci ilin yazında Nadir, demək olar ki, Azərbaycanın qərb torpaqlarını – Gəncəni, Borçalını, İrəvanı, həmçinin Gürcüstanı, osmanlılardan azad etdi. 1735-ci ildə Qarsı mühasirəyə aldı, may ayının 15-də Qarsı və onun ətrafını ələ keçirtdi. Nadirin qoşunları Osmanlı ərazisində Ərzurum, Qars, Van əyalətlərini və bir sıra şimal bölgələrini yenidən öz imperiyasının tərkibinə qatdı. Bundan sonra o, qoşununu cənuba – Fars körfəzinin əyalətlərinə çəkib, tezliklə Bəsrəni, Bəhreyni ələ keçirdiyi Fars körfəzində apardığı müharibələrdə dəniz donanmasının da yaranmasına böyük əhəmiyyət verdi. [3] 1741-ci ildə Dərbənddən Osmanlı dövlətinə tərəf geri qayıtdı. Dərbənddə olarkən o, Xəzər dənizində də donanma təşkil etmək və gələcəkdə türklərin əzəli torpağı olan Həştərxan və Volqaboyu əraziləri də ələ keçirtmək niyyətində idi, lakin osmanlılarla gedən müharibə onu bu fikrindən daşındırdı.

Nadir şah Rusiya və Osmanlı dövlətləriylə əlaqələri nizama saldıqdan sonra Hindistana üz tutur. Nadir şahın Hindistana yürüşünün səbəbi bu ölkənin ərazisində sığınacaq tapan qiyamçı əfqanlara qarşı Hindistan sarayının qətiyyətli mövqe tutmaması ilə əlaqələndirilir. İstər şimaldakı əbdali əfqanları, istərsə cənubda gilzayi əfqanları mütəmadi olaraq qiyamçı yürüşlər edib mərkəzi dövlətin möhkəmlənməsinə zərbə vurdular. Hakimiyyətinin möhkəmləndirilməsi üçün ciddi narahatlıq mənbəyi olan əfqan qiyamçılarının əsas qüvvələrinin bir dəfəlik susdurulması Nadir şahın arzularından biri idi, amma əfqanlar Nadir şahın qoşunlarının təqibindən qaçıb Hindistan ərazisində sığınacaq tapa bilirdilər. Nadir şah Hindistan padşahı Məhəmməd şah Gurganinin nəzərinə çatdırdı ki, Qəndəharın gilzayi əfqanlarından təmizlənməsi üçün lazımi tədbirlər həyata keçirəcəkdir. Bu zaman əfqanlar Kabula və oradan da Hindistana geri çəkiləcəklər. Nadir şah buna yol verməmək üçün sərhədlərin bağlanmasını xahiş edirdi. Nadirin göndərdiyi elçinin Məhəmməd şah qayıtmasına izin vermədi. Nadir bundan qəzəblənib, 1738-ci ilin yazında Qəznə və Kabula hərəkətə keçdi. 1738-ci ilin 14 iyununda Nadirin qoşunları Qəznəyə çatdı. Oradan Kabula keçdi. Kabul hakimi Nəsir xan Dehlidən kömək istədi, lakin onlardan heç bir kömək gəlmədi. Tezliklə Kabul təslim oldu və Nadirin qoşunu Hindistanın paytaxtı Dehliyə doğru hücuma başladı. Onu da vurğulayıram ki, Nadir şah Məhəmməd şaha bir neçə dəfə müraciət etsə də, Məhəmməd şah ona cavab verməmişdi. Nadir də bu soyuqqanlılıqdan sonra Məhəmməd şahın üzərinə hücum etmək qərarına gəlimişdi. Tezliklə Pişəvər, Lahor əyalətləri Nadir tərəfindən zəbt olunur. Nadirin ordusu çətin dağ aşırımlarından, çaylardan keçərək, Yəminabadın, Abadı, Kəşmiri, Xornalı və Hindistanın başqa şəhərlərini ələ keçirtdi. Nadir şahın qoşunları Hindistanın qərb hissəsini fəth edib, Dehliyə yaxınlaşdılar. 1739-cu ilin 24 fevralında Məhəmməd şahın qoşunları

Nadirin qoşunları ilə Dehlinin yaxınlığında, Karnal deyilən ərazidə qarşılaşdılar. Mənbələrə görə, hind qoşunlarının sayı 350 min nəfər, Nadir şahın qoşunlarının sayı isə 160 min nəfər idi. Hind qoşunlarının əhatə etdiyi ərazi 50 hektarlıq bir sahə idi. Bu üstünlüklərə baxmayaraq, tezliklə Nadirin ordusu özündən qat-qat güclü olan hind ordusunu darmadağın etdi. Məhəmməd şah sülh müqaviləsi bağlamağa məcbur qaldı. 31-də ordusu ilə birgə Nadirə təslim oldu. Məhəmməd şah da türk-soylu sülalədən olan bir şah idi. Ona görə Nadir şah onun şahlığını əlindən almadı bu mərhəmət müqabilində 150 (75 milyon) kurur tümən müharibə xərci kimi Hindistan tərəfindən ödənildi. Eyni zamanda müqavilədə hansı ərazilərin əfşarlar dövlətinin tərkibinə qatılması da dəqiqləşdirildi. Bu ərazilər aşağıdakılar idi: Ətək çayının və Sind çayının Absind və Nalasəng qalalarından qərbdə olan ərazilər, yəni, Pişavər, Kabul əyaləti, Qəzni, Əfqanıstan, hezarələr yaşayan ərazilər və s. Bir sözlə Ətək çayının qərbindən başlayaraq keçmiş Səfəvi sərhədlərinə qədər olan ərazilər Azərbaycana verilməli idi. Həmin ərazilərin idarə edilməsi Nadir şah sarayının ixtiyarna verilirdi. Hindistan daxilindəki işləri nizama saldıqdan, çoxlu sayda sərvət ələ keçirdikdən və istirahət üçün zəruri olan vaxt başa çatdıqdan sonra Nadir şah geri qayıtmaq qərarına gəldi. "Tarix-e Cahanqoşaye Naderi"nin yazdığına görə, Nadir şah Hindistanda 57 gün qaldı [4].

Hindistandakı işləri qaydaya salandan sonra Nadir şah Türküstana yürüşə hazırlaşır. Türküstana yürüş başlanmasının əsas səbəbi Türküstan xanı İlbars xanın Nadir şaha qarşı saymazyanalığı, dəfələrlə Xorasan vilayətinə basqınlar etməsi, Xorasana növbəti müdaxilələrin qarşısının birdəfəlik alınması istəyi idi. 1740-cı ilin yazında Türküstana doğru yürüşə başladı. Nadirin Türküstana yürüşü yerli xalqlar tərəfindən çox sevinclə qarşılandı. Hətta bəzi qala qapıları yerli insanlar tərəfindən Nadirin qoşunlarının üzünə açılırdı. Tezliklə Nadirin qoşunları 1740-cı il avqustun 20-də Kərki məntəqəsinə daxil oldular. Türküstan xanı Əbülfəz Əmir Teymura məxsus olan qılıncı, Çingiz xana məxsus olan dəbilqə və zirehi və çoxsaylı hədiyyələri, eyni zamanda bütün xəzinəsini Nadir şaha hədiyyə etdi. Nadir də öz növbəsində, Hindis tandan gətirdiyi qiymətli hədiyyələrdən Əbülfəz xanı və digər ona tabe olan əyyanları mükafatlandırdı. Əbülfəz xan ilə barışıq sazişi əldə edildikdən sonra Nadir şah Əbülfəz xanı yenidən Türküstan xanı elan etdi(vassal olaraq). 1740-cı il oktyabr ayın 17-də Türküstanın şahlıq tacını ona qaytardı. 1740-cı il noyabr ayının 14-də İlbars xan məğlub edilərək öldürüldü və tezliklə Buxara, Səmərqənd istiqamətində olan ərazilər də Nadirin hakimiyyətini qəbul etdilər. Nadir şah tezliklə Xivədə, Xarəzmdə öz hakimiyyətini bərqərar etdi.

Nadir şah Hindistanı və Türküstanı fəth etdikdən sonra Məşhədə qayıtdı. Daxili idarəçilik və qoşunların nizamlanması ilə məşğul oldu. Türküstanın fəthindən sonra qardaşı İbrahimin qisasını almaqdan ötrü Dağıstana yürüş etməli idi. Həmçinin bu yürüş İbrahim xanın qisasının alınmasından başqa Dağıstan ərazisini və rus qoşunlarının da Şimali Qafqaza girməsinin qarşısını almaq idi. 1741-ci il mart ayının 14-də Nadir şahın qoşunları Məşhəddən Dağıstana doğru istiqamət götürdülər. 1742-ci ilin mayında Tabasaranda Nadir böyük əməliyyat keçirdib həmin əraziləri itaət altına aldı. Nadir Dağıstanda, Qumuxda, Qaraqayıtda və Tabasaranda çox ciddi müqavimətə rast gəldi. Nadir belə bir qərara gəldi ki, burada hücumlarını dayandırsın. Dağıstanın nüfuzlu əyyanlarından olan Üsmi Əhməd xan Qürreyş qalasında Nadirə ciddi müqavimət göstərdi, lakin Nadirin qoşunları tezliklə

Qürreyş qalasını da ələ keçirtdi. Üsmi Əhmət xan gizlincə qaladan qaçaraq Avara üz tutdu. Nadirin əmri ilə Qürreyş qalası yerlə yeksan edildi. Döyüşlərin son dərəcə ağır getməsinə baxmayaraq, Nadir şahın qoşunları Dağıstanın böyük bir hissəsini nəzarət altına ala bildi. 1742-ci ilin oktyabrında Samurçay ətrafında məskunlaşan və Nadir şaha itaətini bəyan edən dağlılar Nadir şah tərəfindən bahalı hədiyyələrə layiq görüldü.

**Parçalanması və dağılması**

Hicri-qəməri tarixi ilə 1160-cı il Cəmadül-Sani ayının 11-i axşamı (bazar gecəsi) Xəbuşan yaxınlığındakı Fəthabadda qurulan düşərgədə Məhəmməd bəy Qacar İrəvani, Musa bəy Əmirli Əfşar, Qoca bəy Kəndirli Əfşar, Saleh xan Qırxlının, keşikçibaşı Məmmədqulu xan Əfşarın və bir sıra digər həmişəkeşiyin dəstəyi ilə gecə yarı Nadir şahın çadırına daxil oldular, Nadir şahı qətlə yetirdilər.[2] Əliqulu xan Nadir şahın qətli xəbərini alan kimi dərhal Məşhədə yola düşdü və Nadir şahın öldürülməsindən 16 gün sonra özünü Məşhəddə ölkə şahı elan etdi. Əliqulu xanın əmri ilə Kelatda Rzaqulu Mirzə və Nadir şahın övlad və nəvələrindən daha 16 nəfəri qətlə yetirildi.[1] Qətlə yetirilənlər arasında Nadir şahın kiçik yaşlı övladları və nəvələri var idi. Ədalətli şah olacağını qabartmaq üçün Əliqulu xan adını da dəyişdirdi və Adil şah adını öz üzərinə götürdü. Ona bəzən Əli şah kimi də müraciət olunurdu. 1748-ci ilin iyulunda Adil şah qardaşı İbrahim tərəfindən məğlub edilərək öldürüldü. [3] Nadir şahın həyatına qəsd edən Adil şahın şahlığı cəmi bir il çəkdi. İbrahim xan özünü şah elan etdi və adına sikkə zərb etdirdi. 1748-ci ildə İbrahim şah Əfşar ölkədə çox böyük gücə malik olan Əmiraslan xanı Marağa yaxınlığında məğlub edəndən sonra bütün hakimiyyəti öz əlində birləşdirdi. Əmiraslan xan məğlubiyyətə uğradıqdan sonra Azərbaycanda, Gürcüstanda, Luristanda, Xuzistanda, Farsda və Fars körfəzində, habelə Kirmanda olan Nadir şah qoşunlarının qalıqları, habelə əfqan və özbək tayfaları onun tərəfinə keçdilər. Eyni zamanda adları çəkilən vilayətlər də onun nəzarəti altına düşdülər. Mənbələrin verdiyi məlumata görə, İbrahim xanın tabeliyində olan qoşunların ümumi sayı 120 min nəfərə çatdı. İbrahim şah isə Şahrux Mirzə tərəfindən öldürüldü. [4] Şahrux şahın da hakimiyyəti uzun sürmədi. Bir müddətdən sonra Şah Sultan Hüseynin bacısının əri, Seyid Məhəmməd adlı birisi Şahrux şahı sünniliklə bağlı olması bəhanəsi ilə ona qarşı təbliğata başladı və ətrafına xeyli adam toplaya bildi. Onun tərəfdarları o qədər çoxaldı ki, hətta Şahrux şahın üzərinə qoşun da çəkdi. Seyid Məhəmməd öz tərəfdarları ilə birlikdə Şahrux şaha üstün gəldi. Şahrux şah həbs edilib gözləri çıxardıldı. Seyid Məhəmməd özünü Süleyman şah adı ilə şah elan etdi. Bununla da əslində, ölkə daxilində yenidən hərc-mərclik yaranmasına rəvac verildi. Çox keçmədi ki, Şahrux Mirzənin sərkərdələrindən olan Yusifəli adlı birisi Süleyman şahın üstünə qoşun çəkdi. Onu öldürdü və Şahrux şah yenidən şah elan edildi. Qısa müddətdən sonra Xorasanda güclənən çəkişmələr nəticəsində Şahrux Mirzə bir daha taxt tacdan uzaqlaşdırıldı. Əhməd xan Əbdali Dürraninin rəhbərliyi altında olan əfqanlar hücumla Məşhədi tutub Şahrux şahı yenə taxta çıxardılar. Ölkədə qızışan daxili çəkişmələr Şahrux şahın hakimiyyətini yalnız Xorasan vilayəti ilə məhdudlaşdırırdı. Digər vilayətlərin hakimləri isə Şahrux Mirzə hakimiyyətini tanımaq istəmirdilər. 1796-cı ildə Xorasan vilayəti də Ağa Məhəmməd xan Qacarın hücumuna məruz qaldı. Ağa Məhəmməd xan Şahruxu taxtdan saldı və öldürdü. [5] Şahrux şahın oğlu II Nadir şah əfqanların köməyi ilə 1800-cü ildə Xorasanda özünü hakim elan etdi. 1805-ci ildə o, Fətəli şah Qacar tərəfindən

qətlə yetirildi. Bununla, Nadir şahın ölümündən 58 il sonra onun sülaləsinə də son qoyuldu. **İstifadə edilmiş ədəbiyyat:** 1. Bulookbashi, Ali A.; Negahban, F. Afshār. Encyclopaedia Islamica Online. Brill Online. In Madelung, Wilferd; Daftary, Farhad (eds.). 2008 2. James J. Reid. Crisis of the Ottoman Empire: Prelude to Collapse 1839-1878. Franz Steiner Verlag. 2000 3. Kamran S. A. The Afghan Interlude and the Zand and Afshar Dynasties (1722-95) in The Oxford Handbook of Iranian History. Oxford University Press. ed. Touraj Daryaee. 2012 4. Georg S. Afshār. Brill Online. In Fleet, Kate; Krämer, Gudrun; Matringe, Denis; Nawas, John; Rowson, Everett (eds.). 2010. 5. Sadi K. Avşar Türkleri. Kimlik Yayınevi. 2019

## OĞUZ TÜRKLƏRİ OLAN AVŞARLAR TÜRK COĞRAFİYASINDA
**Avshars, Oghuz Turks, in Turkish geography**

Minaxanım Nuriyeva Təkləli
Filologiya elmləri doktoru, professor.
Azərbaycan Dövlət Pedaqoji Universiteti.
e-mail: proftomris@gmail.com
https://orcid/org//0000-0002-4985-8134
Sevda Abbasova
Pedaqoji elmlər doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
e-mail: sevda411@mail.ru
https://orcid.org/0000-0002-6516-2444

**Xülasə**

Mənbələrdə iyirmi dörd ən qədim oğuz tayfa ittifaqına daxil olan böyük türk xalqı kimi göstərilən Avşarlar (Abşarlar, Afşarlar, Ovşarlar, Əfşarlar) — tarix səhnəsində görünmə və özünün inkişaf tarixi, habelə yayılma arealları kimi mühüm mövzuya həsr olunmuş araşdırma yazımızda qarşıya qoyulan məqsədimizi onların yayılma çoğrafiyalarını öyrənməklə həyata keçirmək istədik. Türk coğrafiyasında avşarlar: araşdırmamız bu istiqamətdə irəlilədikcə avşarların tarixi keçmişi, türk xalqları arasında yeri, mövqeyi, rolu, yaşam tərzi, hazırkı yerləşim mənzərəsi haqqında aydın bilgilərə nail olmaq mümkün oldu. Bir türk qövmü olaraq avşarların mənşəyi, ümumən tarixi və adlarının etimologiyası barədə ilk dəfə məlumata rast gəldiyimiz Oğuz dastanı "Oğuznamə"də, Mahmud Kaşqarlı lüğətində, Rəşidəddinin tarixi "Cəmi ət-təvarix"də, Əbdülqazi Bahadır xanın "Şəcəreyi-Türkman"ında verilmiş məlumatlarla da auditoriyamızı tanış etmək fikrindəyik. Afşarlar əsasən köçəri və yarımköçəri, yarıoturaq həyat tərzi keçirmişlərsə də, indi çoxunluqla oturaq həyata keçmişlər. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Oğuz-Türkman 24 Oğuz təşkilati tayfa ittifaqı sayılan Avşarlara (Abşar //Ovşar) Gündüzlü, Bayat, İmirli, Qırıxlı, Ustaclı, İnallı/Aynalı, Alplı, Araşlı, Bekeşli, Kosa Əhmədli və s. tayfalar daxildir. Avşarlar böyük bir xalqa – türk etnosuna mənsub olmaqla, öz mədəniyyətinin, dilinin (dialektinin) xüsusiyyətlərinə görə, Azərbacan türkləri, Türkmənlər, Anadolu türklərinin subetnik qrupu olaraq qəbul edilir. Oğuz-Türkman

tayfası Avşar öz izlərini Türk Dünyası xəritələrində saxlamaqdadır: İranın Azərbaycan torpaqlarındakı, Əfqanıstanda (Kabil altında), Türkmənistanın böyük vilayətlərində, Türkiyədə, Azərbaycanda, tarixi Qərbi Azərbaycanda (Ermənistanda), Qırğızıstanda, Altay ölkəsindəki Avşar və onunla bağlı soy-nəsil adlarını bildirən yaşayış yer adları həmin ərazilərdə avşarların – bu qədim türk boylarının yaşamasının tarixdən silinməyəcək faktlarıdır. Afşarlar öz dillərinin təmizliyini türk dillərinin oğuz qolunun cənub qrupuna ayrıca dil kimi dəyərləndirir bə bu dili "azəri dili" adlandırırlar. Məruzəmizdə bütün bu cəhətlərə ayrıntılı və ciddi fikir veriləcəkdir.

**Açar sözlər**: avşar, türk, oğuz, tayfa, Türkiyə, türkman

**Summary**

The Avshars (Abshars, Afshars, Ovshars, Afshars), who are mentioned in the sources as a large Turkic people included in the twenty-four oldest Oghuz tribal alliances — the appearance on the stage of history and the history of its development, as well as the distribution areas, our goal set in our research article is to describe the geography of their distribution. we wanted to implement by learning. Avshars in Turkish geography: as our research progressed in this direction, it was possible to achieve clear information about the historical past of Avshars, their place, position, role, lifestyle, and current landscape among the Turkic peoples. As a Turkic nation, the origin, general history and etymology of the name of the Avshars were first found in the Oghuz epic "Oguzname", Mahmud Kashgarli's dictionary, Rashiduddin's history "Jami al-tavarikh", Abdulgazi Bahadir khan's "Shajareyi-Turkman". We also intend to introduce our audience. Although the Afshars used to lead a mainly nomadic and semi-nomadic, semi-sedentary lifestyle, they have now mostly become sedentary. The population is mainly engaged in animal husbandry and agriculture. Oghuz-Turkman 24 Oghuz organizational tribal union, Avshars (Abshar //Ovshar) are Gunduzli, Bayat, Imirli, Qirikhli, Ustacli, Inalli/Aynalli, Alplli, Arashli, Bekeshli, Kosa Ahmadli, etc. includes tribes. Avshars belong to a large nation - Turkic ethnos, and according to the characteristics of their culture, language (dialect), they are considered as a sub-ethnic group of Azerbaijani Turks, Turkmens, and Anatolian Turks. The Oghuz-Turkman tribe Avshar keeps its traces on the maps of the Turkic World: The place names of the Avshars in the Azerbaijani lands of Iran, in Afghanistan (under Kabul), in the large provinces of Turkmenistan, in Turkey, in Azerbaijan, in historical Western Azerbaijan (Armenia), in the Kyrgyz Republic, in the Altai country, and the names of the clans and lineages related to it, are the residences of the Avshars - these ancient Turkic clans. are facts that will not be erased from history. The Afshars value the purity of their language as a language separate from the southern group of the Oghuz branch of Turkic languages, and call this language "Azeri language". Detailed and serious consideration will be given to all these aspects in our report.

**Key words:** Avshar, Turk, Oguz, tribe, Turkey, Turkman

Mənbələrdə iyirmi dörd ən qədim oğuz tayfa ittifaqına daxil olan böyük türk xalqı kimi göstərilən Avşarların (Abşarlar, Afşarlar, Ovşarlar, Əfşarlar) — tarix səhnəsində görünmə və özünün inkişaf tarixi, habelə yayılma arealları, o cümlədən Türk coğrafiyasında avşarlar: bax bu istiqamətdə mövzunun nəzərdə tutduğumuz araşdırması avşarların tarixi keçmişi, türk xalqları arasında yeri, mövqeyi, rolu, yaşam tərzi, hazırkı yerləşim mənzərəsi haqqında aydın bilgilərə aparan əlverişli istiqamət, yol olaraq dəyərləndirilməlidir.

Bir türk qövmü olaraq avşarların mənşəyi, ümumən tarixi və adlarının etimologiyası barədə ilk məlumatlara Oğuz dastanı "Oğuznamə"də, Mahmud Kaşqarlı lüğətində, Rəşidəddinin tarixi "Cəmi ət-təvarix"də, Əbdülqazi Bahadır xanın məşhur "Şəcəreyi-Türkman"ında rast gəlinir. Maqaqlıdır ki, afşarların adının lüğəvi mənası da hələ bu ilk araşdırmaçılardan başlayaraq hər bir dövr tədqiqatçılarını düşündürmüşdü. Afşar/Ovşar – bacarıqlı, cəld ovcu deməkdir deyənlər daha çoxdur.(3,33) Anadolu'daki en güçlü Türkmen boyu olduğu ve devlet yönetmiş sayılı boylardan olduğu kayıtlarda yer alan Afşarlar İran Devleti'nin başına Safevilerden sonra geçen ikinci Türk boyudur. Sonuçta bu Türk boyu geniş bir bölgenin tarihinde belirleyici unsur olmuştur.(5, 32). Azərbaycan dövlətçiliyi tarixində də müstəsna yeri olmuşdur, belə ki, "Afşarlar Safevi devletini kuran 7 Türk kabilesinden biridir. " (6, 128). Bu boyun törəmə qolları güclü bəyliklər qura bilmişlər: İraqda – Mosul Atabəyliyi (Zəngilərin qurduğu bəylik), Anadoluda: Karamanoğulları, Gərmiyanoğulları, İnancoğulları, Sarıxanoğulları, Aydınoğulları, Sevindik xan bəyliyi Mərkəzi Osmanlı idarəsi qurulana qədər mövcud olmaqla öz müstəqilliyini saxlamışdılar.

Oğuzların tarixdə rolu və yeri barədə ciddi araşdırmalarıyla məşhur olan professor Faruk Sümər "Afşarlar – İranda hüküm sürmüş Bir Türk Hanedanı"adlı böyük məqaləsində Afşarların şəhrətini, tarixdə qoyduqları izlərə işarə ilə yəni, onların hakimiyyəti haqqında yazırdı: Bu hanedan Türk ilim aleminde Afşarlar olarak tanınıyor. İran kaynaklarında ise Əfşariyye denilmektedir. (4, 125); Afşarlar, Oğuz'un öteki torunları Kınıklar ve Kayılar gibi devlet kurmuş, büyük hükümdarlar ve sülaleler yetiştirmişlerdir.(6, 337) Yəni, bunlarla bərabər "Karamanoğulları, Akkoyunlular, Aksungurlular, Harezmşahlar, Özeroğulları, Sırkıntıoğulları, Karsantıoğulları, Küçük Alioğulları ve Kozanoğulları gibi, Afşarlardan kurulu ya da onların güçlü desteği ile yaşamış sülaleler de bulunmaktadır" (6, 337).1742-1746 Osmanlı-İran savaşı olarak bilinen savaş bir çox hallarda Osmanlı-Afşar Savaşı olaraq da tarixə keşmişdir. Afşarların 1071-ci il Malazgird döyüşündə Anadolunun türk yurdu halına gəlməsində Qayılar, Qınıqlar kimi ilk sıralarda yer aldıqlarını göstərən mənbələr mövcuddur. Onlar, türk ulusu içərində bir boy olduğuna baxmayaraq türk topluluğu arasında afşarların adı çox çəkilir. Afşarlar Oğuzların islamdan öncəki tarixində də əhəmiyyətli rol oynamış boylardan biridir.(3,30)

Afşarlar əsasən köçəri və yarımköçəri, yarıoturaq həyat tərzi keçirmişlərsə də, indi çoxunluqla oturaq həyata keçmişlər. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. 24 Oğuz təşkilati tayfa ittifaqı sayılan Oğuz-Türkmanlardan olan Avşarlara (Avşarlar//Afşarlar) Abşar //Ovşar) Gündüzlü, Bayat, İmirli/Eymurlu, Qırıxlı, Ustaclı, İnallı/Aynalı, Alplı, Araşlı, Bekeşli, Əhmədli, Kosa Əhmədli, Sığırlı, Qaralı, Araşlı, Hacı Samlı, Papağlı, Qaraçorlu, Şayıblı, Balabanlı, Qarabudağlı və s. tayfalar daxildir(5, 46, 74).

Beləliklə Avşarlar böyük bir xalqa – türk etnosuna mənsub olmaqla, öz mədəniyyətinin, dilinin (dialektinin) xüsusiyyətlərinə görə, Azərbacan türkləri, Türkmənlər, Anadolu türklərinin subetnik qrupu olaraq qəbul edilir. Güclü Oğuz-Türkman tayfası Avşarlar öz izlərini Türk Dünyası xəritələrində saxlamaqdadır: İranın Azərbaycan torpaqlarındakı, Əfqanıstanda Türk regionlarında - (daha çox Kabil altında), bir sözlə, Əfqanıstanda Cavanşir, Şahsevən, Bayat, Qaşqay, Köçəri, Kəbəri (Kəbirli), Şirvanlı və başqa Azərbaycan tayfa və tirələr sırasında Avşarlar da vardır.(9, 55, 109) Nəydi bunun səbəbi? XVI əsrdə afşarların əcdadları İranın şimal-qərbindən (Cənubi Azərbaycandan) Səfəvilər tərəfindən özbəklərə qarşı dayanmaq üçün Xorasana, ikinci etapda isə Məşhədə, Miyaba, Kubeğana köçürülüb yerləşdirilmişdilər. Bəzi uruğları Kabilə və Qəndəhara qədər irəliləmiş, burada Afşarlar ayrı-ayrı yaşayış məntəqələrini ələ keçirərək buranı özlərinə vətən qılmışlar. Avşarlardan böyük bir köçü də müasir Türkiyənin Qızıl İrmak çayı boyunda məskunlaşdırıldı, Qayseri diyarında üstünlük təşkil edirlər. Lakin hazırda onlar güclü assimilyasiya nəticəsində orta Anadolu ləhcəsində danışmadadırlar.

18-ci əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda yenə vəziyyət kəskin şəkildə dəyişmişdi. Ölkə ərazisi Osmanlı İmperiyası ilə Səfəvilər arasında qanlı döyüşlər meydanına çevrilmişdi. Ərazinin bir hissəsi əfqanlar, qərb hissəsi isə osmanlılar tərəfindən tutulduqdan sonra Səfəvilərin hakimiyyəti və dövlətin özünün mövcudluğu üçün ciddi təhlükə yaranmışdı. Bu durumda ölkənin daxili qüvvələrini birləşdirmək və daha ciddi tədbirlərə başlatmaq lazım idi. Belə lazımi tədbirlərdən biri, bəlkə də ən önəmlisi ən güclü, qol-budaqlı Qızılbaş topluluqlarından ən seçkin, təşkilati tayfaları ölkə sınırlarına, mübahisəli ərazilərə köçürmək idi. Elə Əfqanıstandakı türk toplumlarının hazırda özlərini qızılbaş sanmaları bununla bağlıdır.

Türkmənistanın böyük vilayətlərində, Türkiyədə, Azərbaycanda, tarixi Qərbi Azərbaycanda (Ermənistanda), Qırğızıstanda, Altay ölkəsindəki Avşar və onunla bağlı soy-nəsil adlarını bildirən yaşayış yer adları həmin ərazilərdə avşarların – bu qədim türk boylarının yaşamasının tarixdən silinməyəcək izləri, faktlarıdır. Cənubi Azərbaycan, eləcə də İranın digər regionlarındakı Afşarlar bəzi istisnalar nəzərə alınmazsa, onların öz dillərinin təmizliyini türk dillərinin oğuz qolunun cənub qrupunda ayrıca dil kimi dəyərləndirir bə bu dili "azəri dili" adlandırırlar. İndiyədək avşarlar haqqında, istərsə də onların əsas məşğuliyyəti, sənəti barədə yetərincə danışılmamışdır. Afşarıar özlərinin xüsusi xalçaçılıq məktəbi ilə öyünməkdə haqlıdır; Avşar xalçaları əsasən Urmiya ətrafında toxunur. İranda Urmiyəyə bir Afşar şəhəri kimi baxıldığı da təsadüfi deyildir. Avşarların iqtisadi yaşamında qoyunçuluq təsərrüfatı ilə bağlı olan toxuculuq sahəsi də təbii ki, önəmli yer tuturdu. Onların toxuculuq məhsullarından kilim, cecim, кeçə, çadır, çuval, məfrəş, xurcun, heybə və sairə el-elat arasında yüksək dəyərləndirilirdi. Avşar elinin binə tutub, yaşam başlatdığı yerlərdə "Avşar" adlı xalça toxunurdu. Avşar xalçaları bütün Şərq köçərilərinin istehsal etdikləri xalçalar arasında ən kefiyyətlisi və zərifi hesab olunurdu. Tehranda çıxan "Bərrəsi-ye sənət-e fərş dər İran" nəşrinin verdiyi bilgiyə görə, Urmiyada istehsal edilən xalça növləri içərisində "Avşar" (daha çox fars dili tələffüzü ilə "Əfşari" adlanır) adlı xalçalar daha gözəl, daha keyfiyyətli idi. "Avşar" xalçalarının alıcısı çox olduğundan sonralar belə xalıların istehsalı Azərbaycanda və İranda yayılmağa

başlanmışdı.(3, 29) Türkiyədə mükəmməl əl sənəti kimi tanınan və "hana" toxuma dəzgâhında Afşar kilimləri qədimi üsullarla: yun və təbii rənglərlə, yəni boyaq kökləri ilə kilim ilə bərabər çul, oturacaq üzlükləri, at yəhəraltlığı, xalı-xalça və s. də toxunurdu. Avşar xalçasının başqa çeşidi də Ağcabədi bölgəsinin Avşar kəndində toxunurdu. Bu növ xalçalar da şan-şöhrət qazanmışdılar. Avşar ulusu həm çöl, həm də el dönəmində tutarlı mədəniyyət örnəkləri yaratmışdır və bu mövzudan müəyyən dərəcədə bəhs olunmuşdusa da məqsədimiz bütün bu cəhətlərə ayrıntılı və ciddi fikir verməkdir.

Oğuz-Türkman tayfası Avşar öz izlərini Türk Dünyası xəritələrində saxlamaqdadır. Xocavənd (Qarabağ) rayonu ərazisində Qaracuq dağı ətəyində tarixi ərazi – Avşar qəbristanlığı var. Düz Qırıxlı Tovuzda kənd, Ucar ray. Alpı kəndi, Əhmədli kəndi(Abşeronda) Ağcabədiyə bağlı Ovşar kəndi, Ermənistanda kənd adı,Türkmənistanda Balkan vilayətinə bağlı kənd, Ləbab vilayətində Ovşarlıq adlanan ərazilər, Qaramanlı – Salyanda kənd adları, Əhmətli Abşeronda, Bayat (Ağcabədi), Uzun Boyat (Şabran) Kemerevsk vilayətində Kuzbasa bağlı kənd), habelə Qırğızıstanda geniş yayılmışdır.

Türkiyədə Avşarların yayılma arealı çox genişdir – Ankara ili Balâ ilçesine bağlı mahalle, Afşar (Aksaray, Antalya, Konya Kütahya Bolu, Kastamonu Bursa, Afyon Karahisar, Muğla, Amasya, Sivas, Aydın, Kahraman Maraş, İsparta Yenişehir, Sarıgöl, Manisə, Dinar ilçesine bağlı köy Balıkesirde Koca Avşar köy adları dediklərimizə sübutdur.

Anadolu coğrafiyasında Avşar tayfa birliyini təşkil edən – Gündüzlü (İnəgölə bağlı köy) , Gündüzlü (Tekirdağ ilinə bağlı köy), Kırıklı (Adana, Osmaniyyə, Gümüşxana, Ankara ),Ustaclı (Samsun, ), Bayat (Konya, Balıkesir, Afyonkarahisar, Kütahya, Çorumda - Bayat Saray,), İnallı (Nevşehir ), Karaman (Bartın, Balıkesir, Amasya), Aynalı (Düzcə, Kars), Alaplı (Zonquldak), Bekişli (Qaziantep, Uşak), Köseahmet (Erzurum) və s. yerləşim adları bu soyun güclü qollarını əks etdirir. Balkanlardaki Afşar tayfa qollarını təşkil edən Dulkadirli, Karamanlı, Danişmedlü və Bozuluslu oymakları da üstünlük təşkil edir. Aydınlıq üçün qeyd edək ki, Balkanlar'dakı türk əhalisi içərisində Afşar boyuna mensup insanlar əksəriyyət təşkil edir. Bu ailələr Karamanoğulları və Dulkadiroğulları bəyliklərinin Osmanlının köç siyasəti üzrə davamlı şəkildə 15-18-ci əsrlər arası köçürmə yoluyla Konya, Karaman, Adana, Mersin, Kahramanmaraş, Qayseri və Sivas torpaqlarından göndərilərək toplu şəkildə yerləşdirilmişlər.

Abşaran/Avşaran yarımadası adı rus tələffüzündə Apşeron şəklinə düşməklə Azərbaycanda böyük bir inzibati ərazini təşkil etməklə bərabər Apşeronskiy polk və Rusiyada bu addan doğan Kazak stanitsası, sonra şəhər adı olaraq da nümunələri vardır. Tarixinə baxıldıqda Rus ordu sistemində hərbi alayların şəhər adlarına bağlanması I Pyotr çağlarından başlayır. 1724-cü ilin noyabr ayında Pyotr alayların daha polk komandiri polkovniklərin adı ilə deyil, onları təmin edən vilayət və şəhərlərin adları ilə adlandarılmasına sərəncam verdi( 2, 47: 7,149). Bu adlar müxtəlif memuar ədəbiyyatlarında, bədii, o cümlədən elmi qaynaqlarda qarşımıza çıxır. Axtırskiy polk, Tenginskiy polk, Balaklavskiy polk, habelə Saratov, İsmayıl, Kremençuk, Temiryük, Kizlyar, Ak kerman, Buqulma, Çembar, Navahi və s. kimi türk şəhər adları ilə yanaşı Azərbaycanla bağlı Karabağskiy polk, Zaqatalskiy, Şirvan polkları ilə bir sırada Apşeronskiy alayı da olmuşdur. Pyotrun 1722-23-cü il

Xəzərboyu işğalçılıq yürüşündə iştirak etmiş və Abşeronda (Abşaran) yerləşmiş kazak polkuna verilən bu ad ilə kazak döyüşçüləri Krasnodar vilayətindəki (əski adı Kara Su) 1863- cü ildə öz yaşayış yerlərinə bu adı vermişlər. (1, 240-241; 7,82 ). Stanitsa böyüyərək 1947-ci ildə şəhər statusu almışdır. Beləliklə əsli türk torpaqları olan Kuban (Kuman) diyarında da bu yolla Avşar adı yaşamaqdadır.

Əldə etdiyimiz bu faktlar Afşarların yayılma çoğrafiyalarını göstərməklə bizim o xəritəni çəkməmizə kömək edir. Biz isə indiyədək araşdırılmamış qalan türk mənşəli Avşar etnonimi adıyla keçən yer adlarının tarix, coğrafiya və dilçilik sintezində ilk dəfə olaraq tədqiq edilməsi işinin vacibliyini çatdırıb yetirmək istəyirik. Avşarların geniş coğrafiyada mövcudluğu faktlarını doğuran tarixi gerçəkliklə, onun siyasi şəraiti və s. ilə bağlı daha geniş məlumatın tamamı ilə yazımızda sizi tanış etməyimiz həmin məqsədlə, istəyimizlə bağlıdır.

Ədəbiyyat

1. Азаренкова А.С., Бондарь И.Ю., Вёртышева Н.С. Основные административно-территориальные преобразования на Кубани (1793-1985 гг.). — Краснодар: Краснодарское книжное издательство, 1986.
2. Александр Пушкин. История Петра I, Издательство: Родина, Москва, 2021
3. Ənvər Çingizoğu, Aydın Avşar. Avşarlar, “Şuşa”, Bakı, 2008
4. Faruk Sümer. Afşarlar – İranda hüküm sürmüş Bir Türk Hanedanı – Türk Dünyası Araştırmaları dergisi, İstanbul, 1986, №41, s.125-133
5. Faruk Sümer. Oğuzlar. Türkmenler. Ankara Üniversitesi Basım Evi, 1972
6. İbrahim Kafesoğlu. Harezmşahlar-Karakoyunlular-Akkoyunlular. “Türk Dünyası El Kitabı” s. 337-350. – Türk Kültürünü Araştırma Enstitüsü. 1992.
7. Minaxanım Təkləli. Rus dilində türk sözləri Nurlar nəşriyyatı, Bakı, 2006
8. Поспелов Е.М. Географические названия Московской области: Топонимический словарь. Профиздат, Москва, 2008
9. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər, Elm nəşriyyatı, Bakı,1995

# ƏFŞARLAR VƏ AZƏRBAYCAN TÜRKCƏSİ

# АФШАРЫ И АЗЕРБАЙДЖАНСКИЙ ТУРЕЦКИЙ

# AFSHARS AND AZERBAİJANİ TURKİSH

**Nəzrin Tahir qızı İsmayılova**

**ADPU, Filologiya fakültəsi, müəllim**

**Email:** nezrinismayilova011@gmail.com

**Orcid İD: 0000-0002-4565-9664**

**Xülasə**

Səfəvi hakimiyyətinin süqutundan sonra yaranmış və əsası Nadir Şah Əfşar tərəfindən qoyulmuş tarixi Azərbaycan dövləti əslən türkməndir və yerləşdiyi yer Orta Asiya düzənliyindədir. Monqolların hücumları zamanı vətənlərindən köçməyə məcbur edildilər və XII əsrin sonu və XIII əsrin əvvəllərində Azərbaycan və İranda məskunlaşdılar.

Şah II Təhmasib ilə əfqan orduları arasında gedən müharibələr zamanı onların nüfuzu artmışdır. Əfşarların başçılarından olan Nadir Quli bəy Əfşar Təhmasibin təkrardan taxta çıxmasında əhəmiyyətli rol oynadı. O, 1736-cı ildə dövlət idarəçiliyini sünnilikdən şiəliyə dəyişdi. O, tarixdə Nadir şah kimi tanındı. 1747-ci ildə sui-qəsd nəticəsində öldürüldü. Onun ölümü sülalənin sərvətinin azalmasından xəbər verdi. Əfşarlar hakimiyyətini 1796-cı ildə Ağa Məhəmməd Xan Qacar tərəfindən kor Şah Şahruxun devrilməsinə qədər xorasanda davam etdirdilər.

Əfşarlar həmçinin möcüzəvi "Türk dialektləri toplusu"nun müəllifi, XI əsrdə yaşamış uyğur salnaməçisi, "Divani-lüğəti-türk" əsərinin banisi Mahmud Kaşqarlının lüğətdə bəhs etdiyi 24 oğuz türk tayfasından biri olmuşdur. Əgər biz son minilliklərdən danışsaq, İranı onilliklər boyu idarə edən Əfşar sülaləsi əslən türkcə (=azəri/azərbaycanlı) danışan və bir vaxtlar daha geniş olan Əfşar qəbiləsinin bir hissəsi idi. Əfşarların rəsmi dövlət dili Azərbaycan türkcəsi olmuşdur.

**Açar sözlər :** ***hakimiyyət, idarəçilik, dövlət, türkmən, dil, sülalə, oğuz tayfaları, Xorasan.***

**Краткое содержание**

Историческое государство Азербайджан, основанное после падения династии Сефевидов и основанное Надир-шахом Афшаром, имеет туркменское происхождение и расположено на Среднеазиатской равнине. Они были вынуждены покинуть свою родину во время монгольских нашествий и осели в Азербайджане и Иране в конце XII и начале XIII веков.

Их влияние возросло во время войн между шахом Тахмасибом II и афганскими армиями. Надир Гули-бей, один из лидеров афшаров, сыграл важную роль в восшествии на престол Афшара Тахмасиба. В 1736 году он изменил

государственное управление с суннитского на шиитское. Он стал известен в истории как Надир-шах. Он был убит в 1747 году. Его смерть ознаменовала упадок состояния династии. Афшары продолжали свое правление в Хорасане до свержения слепого шаха Шахруха Ага Мухаммад-ханом Каджаром в 1796 году.

Афшары также были одним из 24 огузских тюркских племен, упомянутых в словаре Махмуда Кашгарли, автора замечательного «Сборника тюркских диалектов», уйгурского летописца, жившего в XI веке, основателя «Дивани-лугати». -тюрк" работа. Если говорить о последних тысячелетиях, то династия Афшаров, десятилетиями правившая Ираном, изначально входила в состав тюркоязычного (=азербайджанского) и некогда более крупного племени афшар. Официальным государственным языком афшаров был азербайджано-турецкий.

**Ключевые слова:** ***власть, управление, государство, туркмены, язык, династия, огузские племена, Хорасан.***

**Summary**

The historical state of Azerbaijan, which was founded after the fall of the Safavid dynasty and was founded by Nadir Shah Afshar, is Turkmen in origin and is located in the Central Asian plain. They were forced to move from their homeland during the Mongol invasions and settled in Azerbaijan and Iran at the end of the 12th and the beginning of the 13th century.

Their influence increased during the wars between Shah Tahmasib II and the Afghan armies. Nadir Guli Bey, one of the leaders of the Afshars, played an important role in Afshar Tahmasib's accession to the throne. He changed the state administration from Sunni to Shiite in 1736. He became known in history as Nadir Shah. He was assassinated in 1747. His death heralded a decline in the dynasty's fortunes. The Afshars continued their rule in Khorasan until the overthrow of the blind Shah Shahrukh by Agha Muhammad Khan Qajar in 1796.

The Afshars were also one of the 24 Oghuz Turkic tribes mentioned in the dictionary by Mahmud Kashgarli, the author of the wonderful "Collection of Turkish Dialects", the Uyghur chronicler who lived in the 11th century, and the founder of the "Divani-luğati-turk" work. If we talk about the last millennia, the Afshar dynasty that ruled Iran for decades was originally part of the Turkic (=Azeri/Azerbaijani) speaking and once larger Afshar tribe. The official state language of the Afshars was Azerbaijani Turkish.

**Key words:** ***power, administration, state, Turkmen, language, dynasty, Oghuz tribes, Khorasan.***

**Annotasiya:** Məqalədə əslən türk dövləti olmuş, rəsmi dili azərbaycan türkcəsi olmuş Əfşarlar dövləti və dövlətçilik ənənələri bəziistinadlar aparmaqla tədqiq edilmişdir.

**Aktuallıq :** Əfşarlar səltənəti Nadir şah Əfşarın hakimiyyəti ilə başlamış, geniş ərazilər əhatə etmiş, Azərbaycan torpaqlarınını özündə birləşdirən səltənət olmuşdur. Əfşarlar dövlətinin rəsmi dili azərbaycan türkcəsi idi, Nadir Şah Əfşarın məhz

Suqovuşanda tacını başına qoyması Əfşarların türk dövləti olmasından xəbər verirdi, Əfşar dövlətçilik ənənələri sonradan digər türk dövlətlərinə də yüksək təsir göstərmişdir.

**Metod :** Məqalədə tarixi, müqayisəli-tarixi, müqayisəli-tipoloji metoddan istifadə edilmişdir.

**Giriş**. Əfşarların adına ilk dəfə XII əsr türk filoloqu Mahmud əl- Kaşqarinin “Divan Lüğət ət-Türk” (“Türk ləhcələri toplusu”) əsərində rast gəlinmişdir. XIV əsr fars ensiklopedisti Rəşidəddinin “Oğuznamə”də yer almış oğuz rəvayətlərinə istinad edərək “Cami ət-təvarix” tarixi əsərində əfşar adının tayfanın adından gəldiyini göstərir. Bu tayfanın banisi Əfşar xan olmuşdur. Oğuz xanın nəvəsi “Əfşar” adlanırdı, sözünün mənası isə “itaətkar” deməkdir. Rəşidəddinin (1247-1317) “Oğuznamə”nə əsaslanaraq bildirmək olar ki, “avşar” sözünün mənası çevik və ehtiraslı ovçu deməkdir. Xivə xanı və tarixçi Əbu-l-Qazi “Türkmənlərin şəcərəsi” adlanan epik tarixi əsərində əfşar tayfasının adının “işdə çevik ” mənasında olduğunu göstərir.Əfşarlar XIII-XIV əsrlərdə Orta Asiyadan Qərbi Asiyaya köç etmişdilər.

Türkmən tarixçisi O.Gündoğduyevin yazdığı məlumata görə, Avşar tayfasını qədim erməni və gürcü müəllifləri Alano-As adlanan tayfalarının tərkibində “Ovsurlar” adı ilə vurğulamışlar.

Orta əsrlərdə, X əsr ərəb coğrafiyaşünasının müəyyənləşdirdiyi türkmən-avşarlar Auşar kəndi, Əl-Müqəddəsi, Buxara ərazisində yerləşirdi.Əfşar tayfasının türkmənləri XI-XIII əsrlərdə hal hazırdakı Türkmənistanın Balkan vilayətinin Balxan dağlarının cənubunda və şimalında, eləcə də Manqışlak yarımadasında (Qazaxıstan) məskunlaşmışlar.24 oğuz tayfasından biri olan Əfşarlar Ulduz tayfasının Bozok və ya Buzuk (boz ox) qanadına mənsub idilər. Səlcuqlar sülaləsinin başçılığı ilə oğuzların Yaxın Şərqə doğru yürüşləri və fəthlərində iştirak edən əfşar tayfaları bütün bölgədə məskunlaşdılar. XII əsrdə Əfşarlar Xuzistanda Səlcuqlu valiləri kimi tanınmağa başladılar. XIII-XIV əsrlərdə mənbələrdə Əfşar etnonimindən istifadə olunmadığı qeyd edilmişdir, Əfsar etnoniminin istifadə olunmamasının səbəbi yəqin ki, həmin dövrün tarixi əsərlərində konkret etnonimlər əvəzinə, bir qayda olaraq, bütün türk tayfalarına qeyri-müəyyən “türkmən (türkmən)” ifadəsinin işlədilməsidir.

Əfşarlar adına 14-15-ci əsrlərdən yenidən rastlaşmışlar, bu zamana kimi İran dövlətinin böyük bir ərazisində yaşamış və onların başçıları əvvəlcə Qaraqoyunlunun, sonra isə Akqoyunluların dayağı olmuşdur. Səfəvilərin hakimiyyəti dövründə əfşarlar hakim gücün əsas hərbi dayağı qızılbaş və şahsevənlərin tayfaları idi. Bu tayfaların ittifaqı əfşarların hakimiyyət tarixində mühüm rol oynamışdır. Səfəvilər dövlətində bir neçə şah qvardiyası sərkərdələri və əyalətlərdəki çoxsaylı hərbi sərkərdələr və məmurlar da sıralarını tərk etdilər. Xorasanı türkmən tayfalarından müdafiə etmək üçün I Abbas Əfşarları və Qacarları Azərbaycandan köçürdü. Xüsusilə Urmiyadan olan 4500 əfşar ailəsi Əbivard və Dərregezdə məskunlaşdırıldı.

Səfəvilər dövründə dövlətin həyatında mühüm rol oynamasına baxmayaraq, əfşarlar dağılışmaqda davam edirdi. Dövlətin müxtəlif ərazilərindəə vəzifə tutan tayfa rəhbərləri oraya köçərək öz qəbilə üzvlərini qulluqçu və cangüdən kimi özləri ilə bərabər aparırdılar.

1736-cı ildə Səfəvi şahı II Təhmasib və onun körpə oğlu III Abbası devirən Əfşar Nadir Quli Bək (Nadir şah) özünü İran şahı elan edərək, Əfşarların hakim sülaləsini yaratdı. Urmiya ərazisində dolaşan əfşarları öz tərəfinə çəkməyə çalışan Nadir şah tayfa elitasına "onları (tayfa başçılarını) öz həmkəndlisi adlandırıb " rüşvət verir . Nadir şah hələ 1729-1731-ci illərdə Xorasana 12 min əfşar ailəsini köçürdü ki, onlardan 2 mini Kərklülü idi. Ancaq Nadir şahın ölümündən biraz  sonra bu tayfalar yeni əraziləri tərk edərək geri qayıtdılar.

Nadir xan Əfşar 1730–1736-cı illərdə Səfəvi İmperiyasının ali baş komandanı, 1732–1736-cı illərdə isə şahın qəyyumu olmuşdur. 1732–1736-cı illərdə Səfəvilər dövlətinin itirilmiş bütün ərazilərini geri qaytaran Nadir şah Əfşar 1736-cı ilin əvvəllərində özünü şah elan etmək üçün əlverişli şərait yaratdı. Əvvəlcədən hazırlanmış plana görə III Şah Abbasın gözlənilməz ölümündən istifadə edərək, 1736-cı ilin martın 21i tarixində Suqovuşan adlanan yer olan  Qalaqayında (indiki Sabirabad şəhərində Kürlə Arazın qovuşduğu yer) toplanmış Muğan qurultayında Nadir xan özünü şah elan etdi. Bununla belə  əslində Səfəvilər sülaləsinin idarəçiliyinə son qoyuldu və İranla Azərbaycanda yeni türk-müsəlman sülaləsi olan Əfşarlar hakimiyyətə gəldi

İran dövlətinin əsasını Azərbaycan torpaqları təşkil etmişdir. Bu ərazidə Azərbaycan türkləri ilə birlikdə farslar, kürdlər, ermənilər, gürcülər,ərəblər, Qafqaz millətləri və s. yaşamışlar.Ölkədə vahid hakimiyyəti azərbaycan türkləri idarə etmişdir. Azərbaycan ərazisi məkan olmaqla bu bəylərbəylikdə Dağıstan, Gürcüstan, indiki Ermənistan, müasir Türkiyə Respublikasının şərq hissəsi (İqdır, Qars, Ərzurum) və İran İslam Respublikasının bəzi ərazilərini əhatə etmişdir.     Azərbaycanın paytaxtı birinci Ərdəbil, daha sonra Təbriz şəhəri olmuşdur.

Nadir 1736-cı ilin fevral ayında şahlıq tacını da məhz Azərbaycanda-Muğanda, Suqovuşanda başına qoydu. Şübhəsiz ki, bu təsadüfi deyildi və Nadirin milli kökünə olan ehtiramının bir göstəricisi idi.A.Ə.Əbdürrəhmanov öz  əsərində XVIII əsrin birinci yarısında üç qonşu dövlət olan – Rusiya, İran və Osmanlı imperiyasının münasibətlərindən söz açılır.Müəllif qısa da olsa Nadir şah Əfşarın Azərbaycanı özünə tabe etməsindən bəhs edir.Müəllif  hadisələrə doğru yanaşmır. Çünki Nadir, əslində, İranı və onun ətrafını Azərbaycan uğrunda fəth etdi. Azərbaycan dövlətini bərpa etdi.

**Nəticə:** Əfşar dilinin təsnifatı haqqında fikirlər fərqlidir. Bəziləri tədqiqatçılar əfşar dilini ayrıca dil kimi türk dillərinin Oğuz qolunun cənub qrupuna aid etsələr də, Başqalarına görə, əfşar Azərbaycan dilinin ləhcəsi olmuşdur.Əfşarlar öz  dillərinə azəri dili deyirlər. İran və Əfqanıstanda məskunlaşmışlar

Əfqanıstanda yaşayan bəzi əfşarlar monqolca da danışırlar. XX əsrin birinci yarısında Əfqanıstan moğollarının dilini tədqiqat işi ilə məşğul olan macar şərqşünası Lajos Ligeti əfşarların türk tayfası arasında monqol dilində danışanlara rast gəldiyini göstərmişdir. Monqol dilini qoruyub saxlayan bütün əfşar xalqları  ikidillidir. Əfşarların monqol ləhcəsinə fars-tacik ləhcələrinin güclü təsiri göstərmişdir. V. M. Masson və V. A. Romodin tərəfindən bölgədə monqol etnik komponentinin və dilinin yayılması XIII əsrdə monqol yürüşləri ilə bağlı idi.

Lajos Ligeti daha geniş mənada Orta Asiya türkmənləri ilə türkmənlər arasındakı terminoloji qarışıqlığa əsaslanaraq əfşar dilinin Türkmənistanda danışılan türkmən dilinə aid olmadığını göstərir.

Əfşarlar İran Azərbaycanında, İranın şimalında, Türkiyədə, Azərbaycanda daha çox Ağcabədi rayonunda, Əfqanıstanda əsasən Kabil yaxınlığında məskunlaşmışdılar. 1960-cı illərdə əfşarların sayı 350 min nəfəri keçmişdir.Qızılbaşlardan olan əfşarlardan başqa, Türkmənistanın Ərsarı, Göklen, Mürçeli, Esgi və Əlili etnoqrafik qruplarına daxil olan Türkmənistan əfşarları da olmuşdur.

Əfşarlar əsasən sünnilik əvəzinə şiə əqidəsinə əsaslanan İslamı qəbul edirlər. Türkmən əfşarları isə sünni İslamı qəbul edirlər.Əfşarlar Kermanın cənubunda – köçəri və yarı köçəri, yarı oturaq həyat tərzi keçirirlər. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur.

Əfşarların əsas tayfalarının adları belə olmuşdur: Alplu, Araşlu, Bekeşlü, Gündüzlü, İmirlu, Kösə Əhmədlu, Papalu, Kasemlu, Kereklu və Kərklü. Ymirlu tayfası çox güman ki, ilkin oğuz tayfalarından biri olan Ymir tayfası ilə bağlı idi. Aynallu ( əks halda: inanlu, imanlu), usalu ( əks halda: usanlu) və ustaclu cinsinin qollarından olanlara da əfşar deyilir.

**Ədəbiyyat siyahısı:**

1.Cahangir Hüseyn Əfşar“Azərbaycan Nadir Əfsar dövləti” Bakı – 2014

2.Seyid Əli Soltani (fars dilində Nadir şahın tərcümeyi-halı). Ərdəşir mətbəəsi.

3.L. Lokhart. Nadir şah; Əsasən Müasir Mənbələrə Əsaslanan Tənqidi Tədqiqat.

4. Böyük Rus Ensiklopediyası 2004-2017.

5.Əsədov Firidun Nurullabəyli “Nadir Şah Əfşar monoqrafiyası” Bakı 2011

6.Akademik tarix və düşüncə dərgisi “Nadir şah Əfşar”.

## КУЛЬТУРА НАРОДА АВШАР КАК ЭЛЕМЕНТ ОБУЧЕНИЯ АВШАРОВ

**Нуриева Гюлер**

**АГПУ**

**gulernuri871@gmail.com**

ABSTRACT

The culture of the Avshar people plays an important role in the process of education and upbringing of the Avshars. Culture is a key element that helps to transmit and preserve the values, traditions and historical heritage of this people.

Upbringing and education within the Avshar culture are aimed at developing a deep understanding and respect for their roots, traditions and customs among the Avshars. They

are taught how to behave in accordance with these values and principles.

Avshar culture provides unique opportunities for teaching language, literature, music, dance and other arts, which are an integral part of this culture. These items explore and expand the understanding and expression of the cultural identities of the Avshars.

Traditional values and norms of the Avshar culture are transmitted through educational programs and home education. They include respect for elders, family ties, hospitality, solidarity and cooperation. These values help build strong interpersonal relationships and social skills.

The teaching of Avshar culture also contributes to the development of pride and self-identification among the Avshars. They learn to understand and appreciate their unique history, cultural heritage and their contribution to society.

In general, Avshar culture is an important element in the education of Avshars, helping them to strengthen their cultural identity, develop social skills and respect for their roots.

Keywords: avshar, oguz, culture, education, upbringing

**РЕЗЮМЕ**

Культура авшарского народа играет важную роль в процессе образования и воспитания авшаров. Культура является ключевым элементом, который помогает передавать и сохранять ценности, традиции и историческое наследие этого народа.

Воспитание и образование в рамках авшарской культуры направлено на формирование у авшаров глубокого понимания и уважения к своим корням, традициям и обычаям. Их учат, как вести себя в соответствии с этими ценностями и принципами.

Авшарская культура предоставляет уникальные возможности для обучения языку, литературе, музыке, танцам и другим искусствам, которые являются неотъемлемой частью этой культуры. Эти предметы исследуют и расширяют понимание и выражение культурной самобытности авшаров.

Традиционные ценности и нормы авшарской культуры передаются через образовательные программы и домашнее воспитание. К ним относятся уважение к старшим, семейные узы, гостеприимство, солидарность и сотрудничество. Эти ценности помогают построить прочные межличностные отношения и социальные навыки.

Преподавание авшарской культуры также способствует развитию гордости и самоидентификации у авшаров. Они учатся понимать и ценить свою уникальную историю, культурное наследие и свой вклад в развитие общества.

В целом авшарская культура является важным элементом образования авшаров, помогая им укреплять свою культурную самобытность, развивать социальные навыки и уважение к своим корням.

Ключевые слова: авшар, огуз, культура, образование, воспитание.

Авшары играли важную роль в общественно-политической жизни государств, созданных в Азербайджане и странах Востока.

Авшары – это люди в головных уборах и с вооруженными руками, составляющие основу азербайджанского народа. Профессор Фарук Сумер пишет в своей книге «Огузлары»: «Авшары – это великая династия огузов, сыгравшая наиболее продолжительную роль в истории Турции. С этой точки зрения с ним не сравнится ни один огуз. По этой причине он единственный огузский род, чье имя сохранилось до нашего времени».

Авшары распространились по многим странам мира. В частности, они поселились в Турции, Иране, Ираке, Афганистане и Азербайджане.

Род Авшаров выделялся своей культурой среди огузского народа. Это также было связано с их сильным чувством происхождения. Авшары уважали свое происхождение. Они не хвалили других и не ругали себя. Они сделали единство и целостность политикой. Авшары считали свое внутреннее пространство раем, а внешнее — адом. Благодаря их союзу они добились процветания и богатства. Интересно, что авшары были склонны к искусству не из-за бедности, а из-за богатства.

Культура народа авшар несет в себе богатое туркменское культурное наследие и включает в себя множество традиций, ценностей и образа жизни от прошлого до настоящего.

Язык и литература: авшары говорят на авшарском турецком диалекте огузского турецкого языка. Традиции традиционной поэзии очень богаты, и поэты занимают важное место среди жителей Авшара. Произведения устной литературы, такие как жалобы, стихи и эпопеи, распространены.

Музыка и танцы: жители Авшара имеют богатые музыкальные и танцевальные традиции. Среди местных инструментов есть такие инструменты, как баглама, кавал, зурна и барабан. Авшар показывает себя народными танцами, восторженными танцами и красочной одеждой.

Одежда: в традиционной авшарской одежде на первый план выступают красочные и узорчатые одежды. Женщины часто выражают себя причудливыми юбками, рубашками и головными платками. Мужчины, с другой стороны, обычно носят широкие брюки и куртки.

Кочевой образ жизни и отгонное животноводство: Авшары вели кочевой образ жизни на протяжении всей истории. Они занимались скотоводством, коневодством и зарабатывали на жизнь отгонным животноводством. Поэтому плато и кочевая жизнь были важной частью авшарской культуры.

Гостеприимство: жители Авшара славятся своим гостеприимством. Культура гостеприимства очень важна, и к гостям часто относятся с большим уважением. Гостеприимство – одна из основных ценностей социальной ткани Авшара.

Ремесла: жители Авшара также известны своими традиционными ремеслами. Ценятся такие ремесла, как ковроткачество, ковроткачество, ткачество и изготовление украшений. Эти изделия ручной работы используются как в коммерческих целях, так и способствуют сохранению культурного наследия.

Религиозные и культурные праздники: Авшары принадлежат к суннитской секте ислама и придают большое значение религиозным праздникам. Исламские праздники, такие как Курбан-Байрам и Курбан-байрам, укрепляют чувство единства и солидарности общества. Кроме того, свадьбы, традиционные фестивали и другие культурные мероприятия занимают важное место в общественной жизни жителей Авшара.

СПИСОК ЛИТЕРАТУРЫ

ingizoglu Ə., Aydın Avşar, Avşarlar. Bakı. 2009 336 s.
ingizoğlu Ə., Aydın Avşar. Məşhur avşarlar. Tarixi-bioqrafik tədqiqat. Bakı: Mütərcim, əh
əzlullah Rəşidəddin, Oğuznamə, Bakı, 1992
4. Kaya, A. M. Tarihi Gelişim İçinde Avşarlar. Avşar Kültür Cografyası ve Halk Kültürü. Y. Kalafat, A. M. Kaya ve M. Aksoy, Ankara: Berikan Yayınevi,2012
ббасов А. М. Некоторые заметки об афшарах Афганистана // Советская тюркология. — 1975. — № 4. — С. 72
фшары // Большая советская энциклопедия : [в 30 т.] / гл. ред. А. М. Прохоров. — 3-е изд. — М. : Советская энциклопедия, 1969—1978.

UOT 37,02

## THE LAST GREAT CONQUEROR OF ASİA - NADİR SHAH AFSHAR

**Bayramova Nubar Ismayil**

dissertation

Guba branch of ADPU, Deputy dean of the Faculty of Mathematics and Natural Sciences

nubar.bayramova.78@mail.ru

https://orcid.org/0000-0001-6298-9617

**Summary:** History is often written in two forms. The first is the history of nations, and the second is the history of rulers. The history of peoples goes with the flow. However, a single word or decree of the rulers creates significant changes in the flow of time. It either keeps a nation alive or erases it from history. During the tumultuous periods of history, there were many leaders of the Azerbaijani people, one of whom was Nadir Shah, one of the rare talented generals and conquerors produced by the world military history.

But who was Nadir Shah? Sometimes he is also called the last great conqueror of Asia. We would not be wrong if we say that the interest in Nadir Shah is also related to his ability to become the conqueror of the east at a time when military equipment and weapons were not sufficiently developed.

**Key words:** Afshar, Safavid, king, army, conqueror, commander

**Xülasə:** Tarixi çox zaman 2 formada yazırlır. Birinci xalqların tarixi, ikincisi isə hökmdarların tarixi. Xalqların tarixi oz axını ilə gedir. Lakin hökmdarların bircə sözü, fərmanı zamanın axınında əhəmiyyətli dərəcədə dəyişikliklər yaradır. Ya bir xalqı yaşadır, yada onu tarixdən silir. Tarixin keşməkeşli dövrlərində Azərbaycan xalqının bir çox liderləri olmuşdur ki, onlardan biri də dünya hərb tarixinin yetişdirdiyi nadir istedadlı sərkərdələrdən və fatehlərdən ayılan Nadir şah olmuşdur.

*Bəs kim idi Nadir şah?* Bəzən onu Asiyanın sonuncu böyük fatehi də adlandırırlar. Nadir şaha olan maraq həmdə hərbi texnikanın və silahların kifayət qədər inkişaf etmədiyi bir vaxtda şərqin fatehinə çevrilə bilməsi ilə əlaqəlidir desək yanılmarıq.

**Açar sözlər:** Əfşar, səfəvi, şah, ordu, fateh, sərkərdə

Nadir şah Səfəvi dövlətinin ucqar vilayətlərində, sürgündə olan bir əfşar türkünün ailəsində doğulmuşdu. Nadir şah saray zənginliklərindən qəti xəbəri olmayan, günə muzd qazancı ilə dolanan bir ailənin uşağı olduğundan kimsə onun nə vaxtsa ucqar bir kənddən böyük bir imperiyanın şahlığına qədər yol gedəcəyinə inanmazdı. Bəlkə də buna səbəb Nadir şahın hər sərkərdədə olmayan hərb sahəsində olan bacarıqları idi. Çünki Nadir şah nadir sərkərdərə qismət ola biləcək hərbi uğurlar əldə edə bilmişdi. Qeyri-adi təşkilatçılıq bacarığı, ölkənin imkanlarının hərbi yürüşlərin aparılmasına səfərbər edə bilmək qabiliyyəti, ən çətin anlarda ən əlverişli yolların tapılmasına nail olmaq təbii ki, Nadir şahın hərbi uğurlarına yol aça biləcək önəmli faktor olacaqdı.

Nadir şah Azərbaycan türk soyu olan əfşar soyundan idi və onun formalaşmasında türk məişətinin və ənənələrinin təsiri böyük olmuşdur.

Tədqiqatçılar Nadir şahın doğum tarixini 1688-ci ilin oktyabrından [1,14], bəzi mənbələrdə isə 1688-ci ilin noyabr ayının 22-dən götürürlər [2, 25]. A.Bakıxanov isə 1689-cu ildə doğulduğunu qeyd etmişdir.[3, 137] Mənbələrdə Nadir şahın Xorasan vilayətinin şimalında yerləşən Dərgəz məntəqəsinin Dəstgird kəndində dünyaya göz açdığı göstərilmişdir. Atası İmamqulu ona öz atası Nadirqulunun adını vermişdi. Nadir şah uşaqlıqda kifayət qədər sağlam, çevik və daim hərəkətdə olan bir uşaq idi, başqa sözlə, valideynlərinin ona verdiyi nadir tapılan, bənzərsiz bir uşaq, adını doğrultmuşdu.

Nadir şahın Azərbaycan türklərinin Əfşar boyunun Qırxlı oymağından olması Əfşar boyunun Azərbaycan türklərinə aidliyi bu günkü tarixi ədəbiyyatda şübhə doğurmasa da bu məsələ Nadir şah haqqında yazılmış mənbələrin və tarixi araşdırma müəlliflərinin diqqət mərkəzində dayanan aktual məsələlərdən biri olmuşdur. Bəzən tarixi mənbələrdə Əfşar

boyunun Azərbaycan arealından qoparılaraq Xorasan vilayətinin şimalına aid edilməsi halları yaşanmışdır. Fəzlullah Rəşidəddin yazırdı ki, əfşarlar çöllərə səpələnmiş türk tayfalarından olub, boyun yaradıcısı olan Əfşar bir türk başçısı və sərkərdəsi idi. O, əfsanəvi babası olan Oğuzun ordusunun sol cinahında vuruşmuş və qəhrəmanlığı ilə türklər arasında ad çıxarmışdı [4, 42]. Tədqiqatçılara görə, "əfşar" sözü əslində "uçar" sözündən götürülüb və sürətlə uçan mənasını verir. Sonradan bu söz "ovşar", "oşər" və "üçpər" kimi səslənmişdir. Nadir şahın anadan olduğu vaxt artıq əfşar türk boyunun qolları və oymaqları Azərbaycan, Xorasan, Fars, Xuzistan və s. ərazilərdə məskunlaşmışdı. Həmin zamanlarda isə əfşarlar yayıldığı ərazilərdə müxtəlif etniklərin təsirlərinə məruz qalmaıarına baxmayaraq, Azərbaycan türkcələrini və milli-etnik xüsusiyyətlərini də qoruyub saxlaya bilmişdilər. Əfşarlar döyüşgənliyi və mübarizliyi ilə seçilirdilər və onların bu keyfiyyətləri Səfəvi xanədanın əfşarları da öz ətrafına cəlb etmiş və Səfəvilər Ərdəbildə mübarizəyə başlayanda əfşarlar da onlara qoşulmuş və bu dövlətin əsasını təşkil edən yeddi türk boyundan birinə çevrilmişdilər. Nadir şahın salnaməçisi M.M.Astrabadi də məhz əfşarların Xorasan vilayətinə köçürülməsinin Şah İsmayılın zamanına təsadüf elədiyini bildirir.

Nadir şah türk məişəti mühitində böyümüşdü. Nadir şah Azərbaycan türkcəsində təmiz danışırdı, Hətta sonralar hərbi yürüşləri zamanı sərkərdələri ilə Azərbaycan türkcəsində ünsiyyətdə olurdu. Deyilənə görə, Nadir şah hakimiyyətə gələndən sonra ilk öncə bölgədəki türk mühitinin möhkəmləndirilməsi üçün tədbirlər görmüş, təxminən iki min əfşarın Urmiyədən Əbivərdə köçürülməsi üçün göstəriş vermişdi [5, 4-5].

Əfşarların məskunlaşdığı ərazilərdə üzüm və yemiş məşhur idi. Deyilənə görə, Nadir şah bütün ömrü boyu yaxşı atın və yaxşı yemişin vurğunu olmuşdu. Yəqin ki, onda yemişə olan həvəs də məhz əfşarların məskunlaşdığı ərazilərdə yetişdirilən yemişlərin dadı ilə bağlı idi. Uşaq ikən Nadir şah kifayət qədər sağlam və cüssəli idi. Deyilənə görə ona iki dayə tutulmuşdu və onların iksinin südü ilə bəslənirdi. Bir yaşına çatanda o, artıq üç yaşında uşaq kimi görünürdü. On yaşına çatanda o, at çapır, şir və pələng ovuna gedir, öz həmyaşıdları ilə oynadığı oyunlarda özünü padşah adlandırır, uşaqlar arasında isə saray vəzifələrini bölüşdürür, uşaqlar arasında dava aparmağın planlarını qurur və sonra da onun həyata keçirilməsini təşkil edərdi. Uşaqlardan kimsə oyunu udanda Nadir öz papağını və ya hər hansı bir əşyasını mükafat kimi uşaqlara bağışlayırdı. Bəzən əynindəkilərini uşaqlara payladığından evə çılpaq qayıdardı. Valideynlərinin danlağından sonra evdən çıxıb, ailənin mal-qarasının saxlandığı yerlərdə gizlənərdi. O zamanlar ailənin yeganə övladı olduğundan atası onu geri qaytarar və anasına isə Nadirin istəklərinə əməl etməyi tapşırardı. Nadir şahın hakimiyyəti dövründə İrana səfər edən holland taciri Con Hanvey yazırdı ki, Nadir çoban kimi böyüyürdü. 13 yaşında atasını itirəndən sonra ailənin dolandırılmasının məsuliyyəti tamamilə Nadirin boynunda idi. Nadir çöllərdə odun doğrayıb yük heyvanları vasitəsilə bazara daşıyır və orada satırdı. [6, 7-8] Bu onun hələ uşaqlıq yaşlarından zəhmətkeş olduğunu təsdiqləyirdi. Xüsusən də maldarlıqla məşğul olmaq isə Nadirdən çeviklik, çəldlik, at çapmaq bacarığı tələb etdiyindən bu da heç şübhəsiz ki, Nadirin fiziki keyfiyyətlərinin formalaşmasına öz təsirsiz qalmamışdı. Ovçuluğa meyl göstərməsi isə ona ilkin döyüş vərdişlərini aşılamışdı. Nadirin hələ gənc yaşlarında yaxşı süvari olması da tarixdən məlumdur. Onun uşaqlığı bu keyfiyyətə uşaqlıq və yeniyetmə illərində yiyələndiyini təqdiqləyir.

1704-cü ildə özbəklərin bu bölgəyə hücumu zamanı Nadir anası və qardaşı İbrahimlə birlikdə əsir götürülür. 4 il özbək əsirliyində qalır. Anasının qürbətdə vəfatından sonra Nadir qardaşı ilə birlikdə əsirlikdən qaçır. Nadirin Babaəli yanında xidmətə başlaması da bundan sonrakı dövrlərə təsadüf edir. Əbivərd hakimi Babaəli bəy Nadiri qəhrəmanlıqlarını eşitdikdən sonar onu yanına xidmətə dəvət edir. Nadir Babaəlinin xidmətində olduğu vaxt özbək və türkmən tayfaları dəfələrlə Əbivərdə yürüş etmişdilər. Babaəli qoşunların komandanlığını Nadirə tapşıraraq talançı yürüşlərin qarşısının alınmasında ona böyük ümidlər bağlayırdı.  Təbii ki, heç də yanılmırdı. Çünki, Nadir hər dəfə belə yürüşlərin qarşısını məharətlə alır, tabeliyində olan döyüşçüləri bu mübarizəyə bacarıqla səfərbər edir, talançıları geri qayıtmağa məcbur edirdi. Babaəlinin xidmətində olduğu dövr Nadir üçün mühüm əhəmiyyətli idi. O, özünün hərbi bacarıqlarını təkmilləşdirir, döyüş ustalığını artırırdı. Eyni zamanda da Babaəli Əbivərd cavanlarının Nadirin rəhbərliyi altında olan silahlı dəstədə birləşməsinə və düşmənlərə qarşı onlarla birgə mübarizə aparmasına himayəçilik edərək onu dəstəkləyirdi. “Aləm Ara-ye Naderi” əsərində yəmutların 8 minlik dəstəsinin Əbivərdə və Dərgəzə hücumu zamanı Babaəli xan qələbə xəbərini Şah Sultan Hüseynə Nadirin vasitəsilə vermək qərarına gəlir və məktubun şaha çatdırılması gənc Nadirə tapşırılır. Məktubla İsfahana yetişən Nadir ünsiyyət və danışıq tərzi ilə saray əyanlarının ürəklərini ələ alır və onun gəlişi və davranışı şaha məlumat çatdırılır. Saray tərəfindən Nadirə yüz tümən mükafat verilir və gətirdiyi məktuba da cavab yazılır. Bu hadisə daha sonrakar gənc sərkərdə ilə Babaəli xanın münasibətlərinin yaxınlaşmasına səbəb olur. Babaəli xanın ölümündən sonra Əbivərdin hakimliyini yerli əhali onun təmiz və ağıllı bir adam kimi tanıdığı qardaşı Qurbanəli bəyə həvalə edilir. Lakin əslində isə, bütün işlər yenə Nadirin boynuna idi. Çünki Qurbanəli bəy də nə iş görərdisə hər zaman onunla məsləhətləşir, onun döyüşçü keyfiyyətlərindən faydalanırdı. Bir müddət sonra Qurbanəli bəy ciddi xəstəliyə tutuldu və dünyasını dəyişdi. Qurbanəli bəydən sonra Əbivərd hakiminin kimin olması məsələsi ortaya qoyuldu. Baxmayaraq ki, əyalətin bütün işlərini Nadir aparırdı, onun Babaəli və Qurbanəli bəyə qan qohumluğunun olmaması yerli əyanların məktubla Şah Sultan Hüseynə müraciət etməyə məcbur etdi. Səfəvi sarayı Həsənəli bəyi Əbivərdə hakim göndərdi. Lakin Həsənəli bəy isə Əbivərdə hakimlik etməyin çətin olduğunu görüb Mazandarana yollandı. Lakin Məlik Mahmud yanında xidmətdə olan qorçubaşı Məhəmməd Əmin bəyi Əbivərd hakimi təyin edir. İlk əvvəl Nadir ilə münasibətləri yaxşı olsa da bir müddətdən sonar bəzi əyanların təkidi ilə o Nadiri cəzalandırır və Nadir acıq edərək dogma kəndinə qayıdır. Bir müddət orada yaşayır. Az keçmir ki, Məhəmməd Əmin bəy Nadirə hədiyyələr göndərərək onu geriyə öz vəzifəsinə dönməyi xahiş edir. O zamanlar Məlik Mahmud Xorasan vilayəti kimi böyük bir vilayəti nəzarət altında saxlamaq üçün Nadir kimi istedadlı adamların imkanlarından istifadə etməyə istəyirdi ki, elə bu məqsədlə də Nadir haqqında söylənilən iftiralara elə də diqqət verməyərək onu öz dəstəsinə dəvət etdi. Nadir isə bu dəvəti qəbul edərək öz dəstəsi ilə ona qoşuldu. Ancaq bu ittifaq uzun çəkmədi. Bir tərəfdən Nadiri sevməyən əyanların şikayətlərinin səngiməməsi, həmçinin də Nadirin günü-gündən güclənməsi, qoşun daxilindəki nüfuzunun yüksəlməsi Məlik Mahmudu qorxuya salırdı. Digər tərəfdən isə Məlik Mahmudun özünün yarıtmaz hakimiyyəti Nadirdə ona qarşı barışmaz münasibət yaratmışdı. “Tarix-e cahanqoşa-ye Naderi”də göstərilir ki, Nadir Məlik Mahmudun xidmətinə girsə də məqsədi onu öldürmək idi. Nadirlə Məlik Mahmud arasında

münaqişələr zaman getdikcə artmağa başladı, irili xırdalı çoxlu döyüşlər olmuşdu. Deyilənə görə bu döyüşlərdən biri Məlik Mahmudun özünü hakim elan etməsi ərəfəsində baş vermişdi. Məlik Mahmudun özünü qədim padşahlar nəslindən elan etməsi, öz adına sikkə vurması və xütbə oxutdurmağa hazırlaşması və bundan sonra Əbivərd və Dərgəzə gedərək ona tabe olmaq istəməyənlərə dərs verməyə hazırlaşması barədə xəbərlər Nadiri artıq daha kəskin qərarlar verməyə sövq edirdi. Nəzə alsaq ki Nadirin dəstələri günü-gündən sayca da çoxalırdı. Bütün qonşu mahalların igidləri onun ətrafında toplanırdı. Uzun döyüşlədən sonar Nadir Xorasandan Əbivərdə kimi bütün əraziləri öz nəzarətinə götürdü. Onun döyüşlərinin unikal taktikası vardı ki, bu ona döyüşlərdən məglub olma şansını vermirdi. Onun qəhrəmanlığı də diqqətlə izlənilir, hakimlər onunla düşmən olmaq yerinə müttəfiq olmağı daha məqbul sayırdılar. Məhz II Təhmasiblə müttəfiqliyi də belə başlamışdı. Ümumiyyətlə, Nadirin sonrakı həyatı Təhmasib şahla olan ittifaqı ilə əlaqələndirilir. Böyük Səfəvilər xanədanının son şahlarından olan II Təhmasiblə birləşənə qədər Nadir kifayət qədər zəngin və şəhrətli döyüş yolu keçmişdi. Şah Təhmasibi onunla birləşməyə cəlb edən də məhz Nadirin zəngin döyüş təcrübəsinə və şücaətə malik olması idi. Əslində bu heç də təsadüfi deyildi. Daha dəqiq desək bir zərurət idi. Çünki, XVIII əsrin əvvəllərində böyük Səfəvilər dövləti dərin böhran yaşayırdı. Lakin bu böhranın kökü xeyli əvvəl başlamış və Nadir Əfşarın gəncliyi dövründə onun süqutu dönməz xarakter almışdı. Şah Süleymanın dövründə özünü qabarıq şəkildə nümayiş etdirən yarıtmaz idarəçilik üsulu Şah Sultan Hüseynin zamanında olduğu kimi davam edirdi. 47 yaşında səhhətinin ciddi problemləri ilə qarşılaşan Şah Süleyman onu bürüyən mühitdə elə bir qətiyyətsiz şəxsə çevrilmişdi ki, ölüm ərəfəsində olarkən varisinin kim olmasına da qərarsız idi.

“Aləm Ara-ye Naderi”yə görə, Təhmasib Nadirin igidliyi haqqında çox eşitmişdi və öz ətrafında qılınc tutmaqda məharət sahibi olan insanları görməkdə maraqlı idi. Bu səbəbdən Həsənəli bəy adlı əyanını yanında xidmətə dəvət etmək üçün Nadirin yanına göndərdi. Təhmasib ilk növbədə Xorasan vilayətini azad etmək niyyətində düşdü və heç şübhəsiz ki, Nadirin Xorasan hakimi Məlik Mahmudla gərgin münasibətdə olması da Təhmasibə sərfəli idi və o, bu məqamdan yararlanmaq istəyirdi. Nadir təklifi qəbul etdi və Təhmasibin yanında xidmətə başlamağa razı oldu. Təhmasib ona xəbər göndərdi ki, yaxınlarda Xorasana doğru yürüşə başlayacaq və həmin yürüşə Nadirin də qoşulmasını istəyir. Lakin [7, 54] Xorasanın şimalşərqində bəzi tayfaların qıyam qaldırması Nadirin Təhmasiblə birləşməsini bir müddət ləngitdi. Nadir öz dəstəsi ilə 1726-cı il sentyabrın 2-də Şah Təhmasibə qoşuldu. Nadirin dəstəsi ilə birləşməsi Təhmasibin həm gücünü xeyli artırdı. 1726-cı il noyabr ayının 11-də Məşhəddə Məlik Mahmudun hakimiyyətinə son qoyuldu. Təhmasib bu qələbədə Nadiri özünəməxsus şəkildə mükafatlandıraraq və ona öz adını verdi və Nadir şahlıq taxt-tacına sahib olana qədər onu “Təhmasibqulu” adlandırdılar. Lakin sonralar eyni qıza elçi göndərmələri (Xəbuşan hakimi Məhəmməd Hüseyn xanın qızı) üzündən aralarında nifaq yarandı.

Nadirin Əşrəflərə, Osmanlı qoşunlarına qarşı döyüşləri Əbdali əfqanlarına qarşı inanılmaz hərbi manevrlərlə zəngin döyuşləri olmuşdu ki, bu onun hərbi uslalığını, əskərləri arasındakə nüfuzunu artırmaqla yanaşı da onu birbaşa iqtidara aparırdı. Bu elə bi zamana təsadüf edirdi ki. Artıq Səfəvi sülaləsinin nümayəndələri xalq arasında öz nüfuzlarını tamamilə itirmişdilər və ölkəni dağıntıdan xilas etmək iqtidarında deyildilər.

Bu vəziyyət Nadir üçün hakimiyyəti əldə etmək üçün fürsət idi. Bundan ötrü o yenidən qədim türk adətlərinə görə, Muğan düzündə qurultay çağrıldı və bu qurultaya bütün hərbi, mülki və dini əyanları, şəhər və kənd başçılarını yığıldı. Novruz bayramına təsadüf edən günü, 1736-cı ilin 21 martında Nadirqulu xan Suqovuşandakı qurultaya iştirakçılar arasından yeni şah seçmək təklifi verdi. Əsas bəhanəsi isə III Şah Abbasın uşaq olması idi. Şah elan olunması məsələsi ortaya çıxanda, Nadir ilk əvvəl özünü zahirən elə göstərir ki, guya yorulub, doğrudan da şahlığı istəmir, qurultay az qala yalvarıb onun razılığını alır və tacqoyma mərasimi keçirilir. Nadir şah hakimiyyətə gələndən sonra bölgədəki türk mühitinin möhkəmləndirilməsi üçün əvəzolunmaz tədbirlər gördü.

Adı kimi özü də dünyanın nadir sərkərdələrindən biri olan Nadir şah Əfşarın hərbi qüdrəti çox az sayda sərkərdələrlə müqayisə oluna bilər. Onun ən üstün cəhəti də qələbələrinin bu günə qədər heç kim təkrar edilməməsindədir.

Ömrünün 37 ilini xarici işğalçılara və ölkə daxilində mərkəzi hakimiyyətə tabe olmayan yerli əyanlara qarşı mübarizəyə sərf edən Nadir şah, 120-dən artıq müharibə aparmışdır. Bu müharibələrin yalnız birində Bağdad uğrunda Topal Osmana uduzmuşdur. Döyüşdə 105 minlik qoşunundan 5 minini sağ çıxartmış, cəmi 2 ay sonra daha güclü və daha nizamlı 150 minlik qoşunla onu məğlub etmişdi.

Nadir şahın hərb sənayesinin formalaşmasında da əvəzsiz xidmətləri olmuşdur. O, ilk dəfə hərbi məktəblər açmış, hərbi gəmiqayırma zavodlarını tikmiş, top istehsal etmişdir. Hərb tarixində Nadir şah ilk dəfə dəvələr üstünə qoyularaq 360 dərəcə fırlana bilə balaca toplar icad etmişdi. Lakin Nadir şah Əfşar ölkənin iqtisadiyyatını yalnız hərbdə götürdü və bu da onun ən böyük səhvlərindən biri oldu. Nadir şah hakimiyyəti ələ alan kimi mərkəzləşmiş dövlət yaratmağa çalışdı, sərhədləri genişləndirdi, 1737-1739-cu illərdə Əfqanıstana yürüş etdi, Hindistanı tutdu, 1742-ci ildə Buxara və Xarəzmi ələ keçirdi. Bütün bunlarla belə, Nadir şah mərkəzləşmiş idarəetmə sistemi yarada bilmədi. Əsas səbəbi isə onun aylarla döyüşlərdə olması üzündən paytaxtda olmaması idi. Nadir şah barəsində təkcə Avropada 200-dən çox mənbə vardır. Bir çox qərb tarixçiləri Nadir şahı Napoleon Bonapart, Böyük Fridrix, Hannibal, Velinqton, şərq tarixçiləri isə onu Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə ediblər. O, nadir sərkərdələrdən idi ki, bütün döyüşçülərini üzdən və adı ilə tanıyırdı. Nadir şah Əfşar keçmiş inzibati ərazi bölgülər olan Şirvan, Qarabağ, Çuxursəd və Təbriz bəylərbəyiklərini ləğv edərək ilk dəfə olaraq Azərbaycan adı altında vahid inzibati bölgə yaratmışdı.

Ölkənin xristian təbəələrinə çox dözümlə yanaşaraq, onların azad etiqad hüququna hörmət edirdi. Həmçinin, İncil, Tövrat və Quranın müəyyən qisimlərini türk dilinə tərcümə etdirmişdi. Nadir şahın türk dünyası qarşısında ən böyük xidmətlərindən biri də onun iki türk xalqını, Osmanlı və Səfəviləri məzhəb ayrılığna son qoymaq və düşmənçiliyi aradan qaldırmaq üçün birləşdirməyə çalışması idi. Bunun üçün o, hər iki məzhəbin qəbul etdiyi ortaq (Cəfəri Sadiq) məzhəb belə təklif etmişdi.

Nadir şah 1747-ci ilin iyun ayının 20-də Xəbuşan yaxınlığındakı Fəthabadda qurulan düşərgədə gecə vaxtı oz çadırında xaincəsinə öldürülmüşdür.

Müəyyən dövrlərdə yazılan tarixi kitablarda Nadir şahı bir despot, qəddar şah obrazı kimi tanıtmağa çalışıblar. Təbii ki, ölkələri fəth edən bir hökmdar üçün bu, çox normal haldır. Lakin Nadir şah Əfşarın yaratdığı Əfşarlar dövləti də bütövlükdə Şərq, ümumtürk və Azərbaycan tarixində silinməz izlər buraxması heç kim tərəfindən inkar edilə bilməz.

**İstifadə olunmuş ədəbiyyat**

1. Müqtədir Qulam Hüseyn. Hərbha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.14

2. Pənahi Məhəmməd Əhməd. Nader şah. Tehran, 1382, s.7; Локкарт Л. Надир шах. Баку, 2004, с.25

3. Бакиханов А. Гюлистани Ирам. Б., 1991, с.137

4. Şəbani Rza. Tarix-e ectimai-ye İran dər ərse-ye Əfşariyye. Tehran, 1373, c.42

5. Tarix-e Cəhanqoşa-ye Naderi ... s.36 31. Ədibüşşüəra M. ... s.83

6. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1381, s.7-8

7. Mərvi, Məhəmməd Kazım. Aləm Ara-ye Naderi. C.I, Tehran 1358, s.54

## BİR AVŞAR AĞITI, AĞITLARIN OLAY ÖRGÜSÜ VE AĞITTA SARIZ AVŞARLARINA AİT SOSYO KÜLTÜREL UNSURLAR

### An Avşar Elegy, the Plot Structure of Elegies and Socio-cultural Features of Elegies Belonging to Avşars of Sarız

Prof. Dr. Erdoğan ALTINKAYNAK*

**ÖZ**

Avşarlar, Oğuz boyları içinde, Türk tarihinin oluşmasında önemli rol oynamışlardır. Son yıllara kadar yaylak – kışlak arasında geçen bir hayat süren Avşarlar, günümüzde tam yerleşik hayata geçmişlerdir. Bu yaylak – kışlak arasında geçirdikleri ekonomik hayat tarzı onların milli kültür içinde boy kimliklerini muhafaza etmelerini de sağlamıştır.

Kayseri ili Sarız ilçesi Avşarların en yoğun yaşadığı yerleşim alanıdır. Diğer ilçelere nazaran daha az kimlik ve kültürel özellik yitimine uğramasının sebeplerinden birisi de bölgenin nüfus açısından çok farklı özelliklerde toplulukların yaşadığı bir yer olmamasıdır.

Ağıt: Konusu ölüm olan, hecenin 8'li ölçüsüyle ve aaxa / xaxa kafiye şemasıyla, cenaze başında veya yas süresi içinde belirli bir törene bağlı olarak, kadınlar tarafından genellikle acıklı tarzda söylenen şiirlerdir. Bazı durumlarda erkekler de ağıt yakabilmektedir. Ancak, erkeğin ağlaması hoş karşılanmadığından, ağıt töreni içinde kendilerine pek yer verilmez.

Avşarlara ait halk edebiyatı ürünleri açısından akla ilk gelen tür sözlü kültür ürünü "ağıt"tır. Avşarlar ve civar Türkmenler arasında ağıt yakma ve yas tutma geleneği, Anadolu'nun diğer bölgelerine nazaran daha canlıdır. Avşarlar arasında her evde en az bir kadın ağıt yakabilmektedir.

Ağıtlar diğer tören türkülerine nazaran içerisinde en fazla sosyo-kültürel ve sosyo-ekonomik özellikler barındıran bir türdür. Sarız yöresinden derlediğimiz bir ağıt üzerinden hareketle Sarız Avşarlarının sosyo-kültürel yapıları ve bunun ağıtlarda yansımasını ortaya koymaya çalışacağız.

Ağıtlar ilk ortaya çıkışlarında hiçbir estetik gaye gütmeden meydana getirilmiş ürünler olarak bilinir. Ortaya çıktıktan sonra yapılan kayıt ise söyleyicileri tarafından estetik beğenileri veya seçicilikleri üzerine alan tasniflenmiş ağıtlardır.

Ağıtlar trajik bir olayın duygusallıkla yoğrulmuş hikayesidir. Bu hikâyeye geride kalanın duyguları lirizm katar. "Kel ölür, sırma saçlı; kör ölür ela gözlü olur" sözü gereğince lirik ifade beraberinde ölenin cömertlik, yiğitlik, gençlik veya güzellik, hamaratlık gibi vasıflarıyla birleşerek sözün epik yönünü oluşturur. Gülizar'ın ağıtı da böyle bir trajik hikâyenin ifadesidir. Mavış Kara'nın ilk çocuğu kızı Gülizar, on yedi yaşında nişanlanmıştır. Amcasının evine gittiğinde, amcasının oğlunun evdeki tabanca ile oynadığını görmüş. Silahı boşalmış (silah kaza ile ateş almış) mermilerden biri Gülizar'ın kafasına isabet edip Gülizar'ın ölümüne neden olmuş. O zamanın şartlarında ilçeden savcının gelmesi iki günü bulmuş. Başlangıçta Maviş Kara'nın dili tutulmuş (hiç konuşamamış) savcının gelmesiyle birlikte ölen kızı Gülizar için ağıt yakmaya başlamış.

**Anahtar Kelimeler:** Avşarlar, ağıt, ölüm, yas, sosyo-kültürel kimlik.

**ABSTRACT**

Avşars, among Oghuz tribes, have played an important role in the formation of the Turkish history. The Avşar tribes, who led a life of immigration between highlands and winter accomodation until recent years, have become settled people. The economic lifestyle they had during these movements have helped them maintain their tribal features within the national identity.

Sarız district in Kayseri province is the most densely populated residential area of Avşars. One of the reasons why they have been able to keep their identity is that the district is not much mixed with other populations.

Elegy: These are poems on death that are usually sung by women in a pathetic manner, at the beginning of the funeral or during the mourning period, depending on a certain ceremony, with 8 syllable lines and the aaxa / xaxa rhyme scheme. In some cases, men can also lament. However, since a man's weeping in the presence of others is not welcome, they do not play an important role in the lament ceremony.

In terms of folk literature products belonging to Avşars, the first genre that comes to mind is the verbal culture product "lament". The tradition of lamenting and mourning among the Avşars and the surrounding Turkmens is more alive than in other parts of Anatolia. Among the Avşars, at least one woman can lament in every house.

Laments are a genre that contains the most socio-cultural and socio-economic characteristics compared to other ceremonial folk songs. We will try to reveal the socio-cultural features of Sarız Avşars and how they are reflected in elegies, based on an elegy we compiled in the Sarız region.

Elegies are known as products created without any aesthetic purpose in their first composition or recitation. The recording made after the emergence shows the elegies that are classified by the singers according to their aesthetic tastes or selection criteria.

An elegy is the emotional story of a tragic event. The emotions of the surviving relatives or friends add lyricism to this story. As it is expressed in the phrase "The bald dies and becomes silver-haired; the blind dies and becomes hazel-eyed", the lyricism increases as it combines the dead's personality with such personal traits as generosity, bravery, youth or beauty, ingenuity , which forms the epic aspect of the narrative. Gülizar's elegy is the expression of such a tragic story. Maviş Kara's first child, Gülizar, was engaged at the age of seventeen. When he went to his uncle's house, he saw that his uncle's son was playing with the gun in the house. One of the bullets, whose gun was discharged (the gun fired by accident), hit Gülizar's head and caused Gülizar's death. Under the conditions of that time, it took two days for the prosecutor from the district to arrive. At first, Maviş Kara was speechless (she could not speak at all) and with the arrival of the prosecutor, she started to lament for her dead daughter Gülizar.

**Keywords**: Avşars, elegy, death, mourning, socio-cultural identity

**Giriş:**

- **Karaevli boyu** – Alka – Evli boyunda olduğu kimi bu boyda da bəzi

mənbələrdə Kara – Evli, bəzi mənbələrdə isə Kara – Bölük kimi qeyd olunur.

***Haşiyə:*** "Qara" sözü qədim türk dillərində *böyük* mənasını ifadə edir.

Səlcuqlu və Osmanlı dövlətləri dövründə bu boya aid heç bir toponim qeydə alınmayıb. Ancaq Xarəzm türkləri arasında XVI – XVII əsrlərdə Qara – Evli adlı bir oymağa rast gəlmək mümkündür.

- **Y**

**azır boyu** – Yazırların öz adları ilə adlanan yurd və yerləri Nesa[25]

şəhərinin qərbində yerləşirdi. Burada bir qəsəbəyə Yazır adı verilmişdi. Yazır boyu müstəqil şəkildə bir qövm kimi XII yüzillikdən XVII yüzilliyə qədər Xorasanda öz müstəqilliyini mühafizə edərək yaşamışdılar. Prof. Faruk Sümer XVI yüzillikdə bu bölgədə (Anadolu nəzərdə tutulur) 24 Yazır adlı kəndin var olduğunu qeyd edir.

**ər boyu** – Rəşidəddinin "Came ət – təvarix"  əsərində döyər boyunun

Oğuzların islamiyyətdən əvvəlki tarixlərində mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunur. Bununla yanaşı, onların Səlcuqlu istilası dövründə də mühüm əhəmiyyətə malik olduğu vurğulanmaqdadır.  Həmçinin Artuqilər xanədanlığı[26] da bu boyda olmuşlar. Artuq bəy və oğulları isə XI – XII əsrlərdə türkmənlər içində böyük bir nüfuza sahib idilər. Bu boya aid Anadoluda 19 toponim mövcuddur.

– Tarixi mənbələrdə *Dodurğa, Doturxa, Toturğa* kimi rast

gəlinən bu boya aid təkcə Anadoluda 24 yer adı mövcuddur. XIII yüzilliyin ikinci yarısında İtalyan səyyahlarından biri olan Pegalotti[27] Təbrizə gedərkən *Dudriaga* adlanan bir yerə gəlib çıxır. Heç şübhəsiz ki, bu yer Dodurqadır. II Bəyazid dönəmində bizə məlum olan mənbələrə əsasən Dodurqalıların 202 vergi nüfuzundan ibarət olması və 7 qola

---

[25] Türkmənistanda Aşqabad şəhərindən 18 km cənub qərbdə yerləşən Nisa şəhəri nəzərdə tutulur
[26] 1101 və 1409_cu illərdə Anadolunu idarə edən bəylik, xanədanlıq olmuşdur. Adı Artuq bəyin adından götürülmüşdür. Artuq bəyin vəfatından sonra sülalə onun oğulları Sökmən və İlqazi tərəfindən idarə edilmişdir..
[27] 1290_cı ildə Florensiyada anadan olmuşdur. Tacir, səyyah və siyasətçi idi.

ayrılması fikirləri söylənilir. *“Turxal türkləri”* adlanan bu oğuz boyu XVI əsrdə Anadoluda bir çox qışlaqlara sahib idi.

- **Yaparlı boyu** – Yaparlı boyu barədə Kaşğarlı Mahmudun əsrində heç bir

məlumata rast gəlinmir. Rəşidəddinin əsərində isə bu boya *Yaparlı* formasında rast gəlinir. Bu boya aid bir təşəkkülün olmaması səbəbini prof. Faruk Sümer belə izah edir ki, bu boyun adı sonradan dəyişdirilmişdir. O, boyun adının sonradan toponimik mənbələr işığında araşdırmış və məlum olmuşdur ki, bu boyun adı Çakırlı olmuşdur. Anadoluda bu adda 5 ərazi mövcuddur.

- **Əfşar boyu** – Əfşarlar XI yüzillikdən bu yana öz adlarını günümüzə qədər

qoruyub saxlamışlar. Rəşidəddinin əsərində bu boy *hökmdar yetişdirmiş sülalə* olaraq anılır. Fəzlullah Rəşidəddin və Əbülqazi Bahadır xan Xivəliyə görə əfşar adının mənası *“işlərini cəld görən və ova həvəslidir”.* Bəzi müəlliflər isə bu adı əsərlərində “*toplayıcı*” və ya “*əfsər*, *zabit*” kimi açıqlayır. K.Nemət isə əfşar adının “*avşı*” feilindən yarandığı, “*itaətli*” mənasını verdiyini yazır. Həmçinin Oğuzların islamiyyətdən əvvəlki tarixlərində də Əfşarların böyük xidmətləri olduğu qeyd olunmaqdadır. Belə ki, 1736 – 1747_ci illərdə Səfəvilərdən sonra hakimiyyətini bərqərar etmiş Əfşar dövlətinin başçısı Nadir şah da bu boydan gəlmişdir. Həmçinin bu etnos azərbaycanlıların subetnosu hesab edilir.

- **Qızıq boyu** – Tarixi mənbələrdə bu tayfanın adı çəkilməsə də,

siyahıyaalma kitablarında və digər arxiv sənədlərində Qızıq boyunun adı çəkilir. Tarix dəftərlərində Qızıqlara aid 28 yer adı görünür ki, bunların bir çoxu indi də mövcuddur. Bu Qızıq yer adlarından beşinin Ankaranın Çubuk və Ayaş səmtlərində görülməsi bu bölgədə Qızıq qəbiləsinə aid çox əhəmiyyətli bir qrupun məskunlaşdığını göstərir.

**əydili boyu** – Bu boy Rəşidəddinin *“Oğuznamə”*sində *hökmdar*

*yetişdirən 5 boydan biri* olaraq anılır. Eyni zamanda Xarəzmşahlıq xanədanlığının da bu boydan olduğu fərz olunur. Lakin qəbul olunmur. Orta əsrlərdə digər türkdilli tayfalarla birgə Orta Asiyadan Azərbaycana gəlmişlər.Səfəvilər dövlətinin ictimsai-siyasi həyatında mühüm rol oynamışlar.I Şah Abbasın dövründə Bəydililərin bir hissəsi Kirman və Şiraza köçürülüb.

Hazırda Güney Azərbaycanda yaşamaqdadırlar.Azərbaycan respublikasının Yevlax və Salyan rayonlarında Bəydili adlı kənd var.

- **Qarğın boyu** - yaranma vaxtı skif-massaget zamanına qədəm qoyan qədim

oğuz tayfasıdır. Tanınmış orta əsr yazılı mənbələrindən Qarğın boyuna aid ilk qeydi Fəzlullah Rəşidəddinin Cəmi ət-Təvarix adlı əsərində tapmaq olar. Burada qeyd edir ki, Qarğın boyu Oğuzların qəhrəman əcdadı Oğuz Xanın 24 nəvəsinin birindən törəyəcək:

"Oğuzun üçü Buzuq və üçü Uçuq adlandırılan övladlarının və özləri üçün təyin olunan damğalar, heyvanlar və ət parçaları... Üçüncü oğlu olan Ulduz xanın 4 nəfər... Dördüncü oğlu Qarğın,yəni, **daşqın**

***Üçoklar***

- **Bayandur boyu** – Məlum olduğu kimi, Dədə-Qorqud dastanlarında

Oğuzların əvvəlində Kamqanın oğlu Bayındır Xan dururdu. Bunun ozanlar tərəfindən Ağqoyunlu dövlətinin yüksəltmək məqsədilə dastana salınan bir parça olduğunu deyə bilərik. Bu adda 52 kənd mövcud olmuşdur. Bunlar da digərləri kimi Anadolunun orta və qərb hissəsində yerləşir. Bu yer adlarından başqa Adananın Haruniyyə qəsəbəsinin qərbində yerləşən bir bölgə Bayındır adını daşıyır.

Həmçinin Ağqoyunlu dövlətinin yaradıcısı Uzun Həsən ( əslində Həsən paşa Bayandur) oğuzların Bayandur boyundan idi. Həmçinin anası Saray Xatun tarixdə ilk diplomat qadın kimi tanınmaqdadır.

- Kaşqarlı türk peçeneq tayfasını və Oğuz peçeneq tayfasını

eyni şəkildə xatırladır. Bu ad eyniliyi yalnız iki şəkildə izah edilə bilər:

1. Hər iki varlığın eyni ada sahib olması sadəcə bir təsadüfdür.
2. Oğuz peçeneq tayfası türk peçeneq tayfasının bir hissəsidir.

Oğuzların tabeliyinə keçmiş və zamanla oğuzların tayfasına çevrilmişdir. Amma nə Kaşqarlda, nə də Rəşidəddinin xatirələrində bu ikili ehtimala dair heç bir dəlil yoxdur və bu Oğuz xanın dördüncü oğlu Göy xana, Bayandar, Cepni və Çavuldurlar kimi bağlıdır. Peçenek tayfasının tarixi sənədlərində cəmi 4 kənd adı görmək mümkün olub və onlardan dördü digər tayfalara aid bir çox yer adları kimi Ankara sancağındadır. Bununla əlaqədar olaraq bir daha diqqətə çatdıraq ki, Səlcuqluların işğalından sonra Ankara bölgəsində çox sıx türkmən dəstəsi yaşayır. 19-cu əsrdə Ankara türkmənlərinin şöhrəti Xorasana qədər gedib çıxır.

- Bu boynun adı 19-cu əsrdə Anadoluda ümumiyyətlə

Çavundur olaraq deyilir. Bundan başqa, sözün köhnə formasında (yəni Çavdur) çoxlu kəndlər, həmçinin Çavdur formasında olan kəndlər də az deyil. Adı çəkilən əsrdə Anadoluda bu adlar altında 21 yer adı görmək olar.

Halbuki Çavuldurlar bizim Oğuz boylarına aid olan yer adları siyahısında 18-ci sıradadırlar və Anadoluda da onlara məxsus izdihamlı tayfalar yoxdur. Bu məsələ həm də bu tayfaya aid mühüm qolun qərbə köçməməsi və Manqışlak yarımadasında qalması ilə izah edilə bilər.

**əpni boyu** – Əfşar boyu kimi adını zəmanəmizə qədər gətirib çatdıran bir

boy olmuşdur. Əbdülbaqi Gölpınarlının "*Vilayətnamə"* əsərində Suluca Qara-Hüyük kəndinə gələn Hacı Bektaş Vəlinin ilk müridləri Çepnidən idi. Bu məqam həm də bu qəbilənin əhəmiyyətli bir hissəsinin niyə Qırmızı Başa çevrildiyini izah edə bilər. 1240-cı

ildə Baba İshaq türkmənlərinin üsyanında çepnilərin əhəmiyyətli bir hissəsi yəqin ki, iştirak etmişdir.

Onların mühüm bir qrupunun 1277-ci ildə Sinop bölgəsində yaşadığı görülür. Həmin il Çepni türkləri dənizdən Sinop şəhərinə hücum edən Yunan Trabzon imperatorunu məğlub edərək şəhərin onun əlinə keçməsinin qarşısını alırlar. Çepnililərin bu tarixdən sonra Samsunun şərqindən Giresun bölgəsinə qədər uzanan Canit (Canik) adlı sıx meşəlik əraziyə girərək tədricən fəth etdiyi aydın olur. 19-cu əsrin ortalarında indiki Ordu vilayətində Bayram oğlu Hacı-Əmir adlı türk bəyinin hakim olduğunu görürük. Hacı-Əmir 1358-ci ildə böyük bir əsgər ordusu ilə Trabzonun qərbindəki Maçkaya gəldi və bu bölgədəki talan və dağıntılardan sonra bol qənimətlə (məmnuniyyətlə) ölkəsinə qayıtdı. Ordunun mərkəzi kəndlərindən biri olan Bayramlı keçmişdə rayon mərkəzi olub və bu ad həm də bütün rayonu ifadə edirdi. Bayramlı adı Hacı Əmir bəyin atası Bayramdan gəlir.

***ağ xan***

- Oğuzların tarixində mühüm rol oynamış tayfalardan biri də salurlardır.

Rəşidəddinə görə, adı monqol dövrünə qədər *salqur* kimi yazılmış bu tayfa. Oğuz hökmdarlarından olan Dib-Yavkunun böyük başçılarından olan Ulaş və onun oğlu Elat, İnal-Xanın vəziri və naibi də bu tayfadan idi. Orada da yazılır ki, İnal-Xanın oğlu İnal-Soyram Yavkunun vəziri də Salurdandır.

Dədə-Qorqud dastanlarına gəlincə, bu dastanlarda oğuzların əlində ən şərəfli yeri salurlar tuturdu. Doğrudan da, bu Oğuz elinin qüdrətli hökmdarı Qazan bəyin salurlardan olduğunu bilirik. Aşağıda qeyd olunacağı kimi, salurlar Xəzər-Örəsi türkmənləri arasında çox idi. Bu məqam boynun əhəmiyyətli hissəsinin qərbə köç etmədiyini göstərir. Transxəzər türkləri dedilər ki, onların arasında ən nəcib təşkilat salurlardır. Ancaq salurların Səlcuqlu istilasında iştirak etdiklərini, Farsda amilan dövləti qurduqlarını, Anadoluda məskunlaşmada böyük rol oynadıqlarını və Kadı Bürhanəddin kimi böyük şəxsiyyətlər yetişdirdiklərini bəlkə də bilmirdilər. Rut göstərir ki, Salurların Oğuz eli Kınık, Kayı və Avşar kimi ən böyük boylardan biri olmuşdur.

- **Ayrım boyu -** 19-cu əsrdə bu boya aid adlar Anadoluda 71 yerdə tapılıb..

Yer adlarının çoxuna Sivas-Toqat bölgəsində rast gəlinir. Eyni əsrdə Anadolunun müxtəlif yerlərində Eymir adlı tayfalarına rast gəlinir. Bu tayfanın adı Anadoluda daha çox Eymir (bəzən hətta İmir), İran və Xarəzm türkmənləri arasında isə Eymür adlanır.

- **Alayuntlu boyu** – Bu boya aid XVI yüzillikdə 44 yer adı tapılmışdır.

Bunlardan başqa, eyni əsrdə xüsusilə Orta və Qərbi Anadoluda Ala-Yunt tayfalarına rast gəlmək mümkündür. Bu boya aid çox da məlumat yoxdur.

- **Yüreğir boyu** - Bu tayfanın adı kadastr qeydlərində Yüreğir və Uregir  kimi yazılır.

Yürəgirlərə məxsus eyni dəftərlərdə 44 yer adı var. İndi Türkiyənin hər yerində Yüregir və Üregir yer adları Yüregil və Üregil kimi tələffüz olunur. Bu yer adlarına daxil olmayan Adananın cənubunda Seyhan-Ceyhan çayları arasındakı məhsuldar bölgə də Yürəgir adlanır və bura aşağıda qeyd olunacağı kimi Yürəgir tayfasının qışlaq yeri idi. Bu

gün bu yer həm də Yüreğil adlanır. İndi Türkiyədə bu bölgənin adından başqa 10 yer adı var. Bunların hamısı Uregil və Yuregil kimi tələffüz olunur.

Yuxarıdakı 44 yer adından dördü Ankara sancağında yerləşir. İndi Ankaranın bir rayonu olan Yüregil bunlara daxil deyil. XVI. Yürəgirin 19-cu əsrdəki yer adlarından biri də Trabzonun cənubundakı Kurtun mahalına bağlı bir bölgəyə aiddir. Bu Üregir (S) rayonunda Buğalu, Qara-Kaya, Mürted-Çukuru, Qara-Keşiş, Ak-Elma, Boynu Yoğun, İman-Asarı və başqa kəndlər var.

*əniz xan*

- **İğdır boyu** - Tarixi-coğrafi qaynaqlarda adı çəkilməyən tayfalardan biri də

Iğdırlardır. Yer adlarına gəlincə, XVI. 16-cı əsrdə bu boyaya aid 43 kənd və əkin görmək mümkün idi. Bunlardan başqa, eyni əsrdə, müxtəlif bölgələrdə bəzi İğdır boyları da var.

- **Büğdüz boyu** - Rəşid ud-dindəki bölmədə bu tayfadan olan Kuzucu adlı

bəyin adı çəkilir. Buğdüz tayfasının oğuzların islamdan əvvəlki tarixində və onların İslam dinini qəbul etdikləri ilk dövrlərdə dastanlarda əks-səda doğuracaq rol oynadığını göstərmək olar. göstərmək Anadoluda Buğdüzlərə aid 22 yer adı müəyyən edilmişdir. Lakin bu yer adları Anadolunun fəthi və məskunlaşmasında digər qardaş tayfalarla yanaşı Büğdüzlərin də çox mühüm rol oynadığını göstərir. Lakin XVI. əsrdə yalnız kiçik bir Buğdüz tayfası var. Hələb türkmənləri arasında görünən bu Buğdüz tayfası 65-ə qədər vergi evidir. Dəftərdə yazılır ki, bu Büğdüzlər Həma yaxınlığında yaşayırdılar.

- **Yıva boyu** - Səlcuqlular dövründə adı tez-tez xatırlanan tayfalardan biri də

Yıvalarıdır. Kaşqarlı bu tayfanın adının beş tələffüzünü fua, Yawa, Yıva, Yava və Awa olaraq təyin etmişdi. XII. əsrdə onlara əl-İváiyye və ya lva deyilir. Mənbələrdə İta və Yuva yazılışlarına rast gəlinir. Bu boya aid o qədər də geniş məlumat yoxdur.

**nıq boyu -** Qınıqlar məlum olduğu kimi, Səlcuqlu sülaləsini meydana

çıxaran tayfadır. Lakin bu tayfa İslamdan əvvəl Oğuz tayfalarının siyasi və ictimai mövqelərinə görə düzülən Rəşidəddinin siyahısında sonuncu yerdədir.Yer adları siyahımızda 81 kəndlə Qınıqlar Qayı və Avşardan sonra üçüncü yeri tutub. Şübhəsiz ki, bu yer adlarının çox mühüm bir hissəsi Anadolunun fəthində iştirak etmiş Kimklərə aiddir. Amma bu tayfanın tarixi Səlcuqlu xanədanını aradan götürməklə və Anadolunun fəthində böyük rol oynamaqla bitməmişdir. XIII. 19-cu əsrdə Suriyadakı izdihamlı türkmən dəstəsi arasında bu tayfanın əhəmiyyətli bir qolu olduğu görünür. Əslində bu türkmən salxımının Üç-Ox qolu əsasən Yürəgir, Kınık, Bayındır və Salurlardan ibarət idi. Bu Üç Oxlar, əvvəllər deyildiyi kimi, Çukur-Ovanın fəthində Məmlük ordusu ilə yanaşı iştirak etmiş və orada məskunlaşmışlar. Belə ki, Çukur-Ovada ən qədim türk xalqının mənşəyi məhz bu Uç-Oklu boylarından formalaşmışdır. Kimklər də Yürəgirlər kimi Çukur-Ovada geniş bir ərazidə məskunlaşdılar. Bu, qərbdə Ceyhan çayından şərqdə Gavur dağlarına qədərdir. uzada bilmirdi. Yəni Kınıkların vətəni indiki Ceyhan mahalı və Osmaniye mahalının bəzi torpaqlarını əhatə edirdi. Yü regirləri kimi, Kımklar da Üç-Oxların və Çukur-Ova bölgəsinin ən güclü tərbiyələrindən biri idi. Lakin bu günə kimi onların başında duran ailə

ilə bağlı heç bir məlumat əldə edilməyib. 1375-ci ildə Sisdə erməni padşahını mühasirəyə alan türkmən başçılarından Əbu Bəkr böyük ehtimalla Qınıqların başçısı idi.

**fşar adının etimologiyası və Əfşar etnonimi.**

Bütün Oğuz boyları Oğuz xanın 6 oğlu və 24 nəvəsindən meydana gəlmişlər. Əfşarlar da Ulduz xanın böyük oğlu və Boz Oğuzlara mənsub olmuşdur.

Bu boyun adı Kaşğarlı Mahmud[28] və Fəxrəddin Mübarək Şahın əsərlərində *Əfşar*, Rəşidəddinin[29] və ona istinadən yazan Yazıcıoğlu və Əbülqazi Bahadır Xan əsərlərində *Avşar* şəklində izlənilir. Monqol istilasından öncə yazılan əsərlərdə də Əfşar adına rast gəlinir. Kaşğarlı Mahmud öz lüğətində altıncı sırada digər oğuz boyları ilə birlikdə Əfşarı tayfa adı kimi qeyd etməklə, damğasını göstərir. Rəşidəddinin[30] yazdığına görə Əfşar "hökmdar bəxş etmiş" beş tayfadan biridir, mənası "çevik və vəhşi heyvanları ovlamağa həvəsli"dir, damğası isə dovşanabənzərdir. Yazıcıoğlu[31] Əli isə Əfşar etnonimini belə təsvir edir ki, "ova, heyvana və quşa həvəsli" mənasını verir. Əbülqazi Bahadır Xan[32] da "işi tez görən" mənasını verir və Əfsarlarin damğasının ağ şahin olduğunu bildirir.

Wamberi də Əfşar adının mənasını "toplayıcı", "zabit", "əfsər" kimi təhlil edirdi. K. Nemət Əfşar adının "avş" kökündən gəldiyini iddia edir və bunun da Krım və Kazan türkcəsində "itaət etmək " mənasına gəldiyini və dolayı yolla Əfşar adının "itaətli" mənasını verdiyini irəli sürür.

Əhməd Zəki Vəlidi Toğan Əfşar adının "ovçu+ər" kökündən gəldiyini iddia edir, burada ovçu-ov ovlaya, ər isə- qədim turkçədə igid mənasına gəlir. Ahmet Özdemir Əfşar adının təhlil edərkən bunun islamiyyətdən öncə tələffüz şəklinə diqqəti yönəldərək Əfşar sözünün "Alpşar" şəklində tələffüz edildiyini iddia edir, və burada alp sözünü qəhraman, igid; şar sözünü isə kükrəyən mənasinda təhlil edərək dolayı yolla Əfşar sözünün də "kükrəyən igid" mənasına gəldiyini yazırdı.

Orta Asiya xalqlarının və dolayısı ilə türklərin bəzi heyvanları və quşları simvol olaraq seçmələri həmişə bir totem rəmzi daşıyır. Oğuz boylarının özlərinə xas damğaları mövcud olmuşdur. Onlar bu damğalara heyvanların üzərinə xalça naxışlarına evlərinin divarlarına abidələr, məzar daşları və geyimlər üzərində təsvir edirdilər. Bu damğalar ondan ötrü idi ki, əşyalar hansı Oğuz boyu tərəfindən hazırlanmışdır. Əfşar boyunun da damğası aşağıdakı kimidir:

---

[28] Kaşğarlı Mahmud, Divani-lüğət -it-türk, Bakı elm və təhsil, 2014.
[29] Rəşidəddin, Oğuznamə, Azərbaycan Milli Ensiklopediyası NPD, Bakı 2003
[30] Yenə orada.
[31] Yazıcıoğlu Ali, Tarih-i al-i Selçuk, Topkapı sarayı Revan köşkü ktb. nr
[32] Ebulgazi Bahadır Han, Şecere-i Terakime.( Muharrem Ergin) İst

| |
|---|
| aşğarlı Mahmuda görə Əfşar damğası<br>əşidəddinə görə Əfşar damğası<br>azıcıoğluya əsasən Əfşar damğası<br>bülqazi Bahadır Xana əsasən Əfşar damğası |



Qədim zamanlarda Əfşar adına X əsrdən əvvəl heçbir qaynaqdan rast gəlinmir. Digər Oğuz boyları kimi Əfsarlar da Seyhun çayının yuxarı axarlarında yaşayırdılar. İslamiyyətdən öncəki dönəmlərdə hökmdar sülaləsi yetişdirmiş 5 boydan biri də Əfşarlardır. [33] X əsr səyyahlarından Əl- Maqsudi türk sərhədlərində Əfşar adlı bir kənddən bəhs edir. Kaşğarlı Mahmud da özünün yazmış olduğu əsərində qeyd edir ki, “ Sırdərya bölgəsində və bu bölgənin şimalında yaşayan, əkinçilik və tacirliklə məşğul olan yatuk (təmbəl) adı verilən Oğuzlardan bir qismi Əfşarlardandır”. Əfşarlar qədim zamanlardan Azərbaycanda da öz varlığlarını sürdürmüş və Qarabağ bölgəsində məskunlaşmışdır. İslamiyyətden öncə və islamdan sonrakı dövrlərdə Anadolu və İran coğrafiyasında xüsusən də Azərbaycanda eləcə də Orta Asiya coğrafiyasında bir sıra dövlətlər quran Əfşarlar soy və kök cəhətdən türk olmuş, eləcə də yuxarıda saydığımız bu coğrafiyalara türk və islam möhürünü vuraraq öz vətənləri halına gətirib çıxarmışdır. Əfşarların qurmuş olduğu dövlətlərə qısaca nəzər yetirək.

ə Hələb atabəylikləri- Zəngilər.
ə şumla oğulları
araman oğulları
ərmiyan oğulları
nanc oğulları
adir şah və Əfşar imperatorluğu
arabağ xanlığı

**ərbaycan Əfşarları və onların soyu**

Azərbaycan Əfşarları dedikdə ağıla ilk gələn Nadir şah və Əfşar imperatorluğudur. Təsadüfi nad deyildir ki, Əfşar imperatorluğuna tək Nadir şahın bu dövlətə hökmdar olması səbəbi ilə ona “bir ömrə bərabər imperiya “ deyilir. Əfşarların qırx oymağından olan Nadir şah hələ Səfəvilər dövlətində şah II Təhmasibin zamanında orduda

[33]Digər boylar isə Qayı boyu, Eymür boyu, Yazır boyu və Bəydili boyudur

xidmət etmiş Səfəvi Osmanlı və Səfəvi Rus müharibələrində iştirak edərək şahın etimadını qazanmışdır. Şah Təhmasibin hakimiyyətinin son dönəmlərində Nadir şahın fəallığı artmış azyaşlı oğlunu II Abbas adı ilə şah elan etmişdir. 1736-cı ildə Nadir xan əyalət hakimlərini toplayaraq onlara xidmət dövrünu bitirdiyini və Xorasana qayıtmağ istədiyini bildirdi. Əyalət hakimləri isə onun qalıb şah olmasını və yeni bir xanədanlığ qurmasını istədilər. Nadir xanın mənsub olduğu türk boyları sünni təriqətinə mənsub olmuşlar. Səfəvi dövr əyanları isə şiyə əqidəsinə mənsub idilər. Nadir xan onların şiyə əqidəsini tərk etməsi şərti ilə şahlığı qəbul edəcəyini bildirdi və beləcə artıq 1736-cı ildə Nadir xanın şahlığı dönəmi başladı. 1736-cı ildə Muğan qurultayında Nadir xan şah elan edildi və Azərbaycan Əfşarlarına mənsub bir xanədanlıq Əfşarlar xanədanlığı yarandı. Nadir şah hakimiyyətə gələn kimi Gəncə bəylərbəyliyini idarə edən Ziyadoğullar və Qarabağın otuzikilər Kəbrli və Cavanşir tayfalarının başçıları onlara qarşı çıxdı. O isə, tayfa başçılarını ailələri ilə birlikdə Xorasana sürgün etdi.

Mirzə Adıgözəl bəy özünün Qarabağnamə əsərində yazırdı ki, “ Qarabağ bəylərbəylikləri Muğan qurultayında gizlin və aşkar şəkildə son dərəcə çalışırdılar ki, Səfəvilərdən başqa bir kimsə padşah olmasın və özgə bir şəxs səltənət balışına soykənməsin”.

Əfşar dövləti Səfəvi dövlətindən fərqli olaraq dini- teokratik yox, dünyəvi dövlət idi. Hətta Nadir şah əmr etmişdir ki ruhanilərin var dövləti dövlət xəzinəsi üçün müsadirə edilsin. Və eyni zamanda Nadir şah Quranı, İncili və Tövratın türk dilinə tərcümə edilməsi barədə göstəriş verib.

Mehman Süleymanov özünün yazmış olduğu “ Nadir şah “ əsərində qeyd edir ki, “ Nadir şah qoşunlarının xarakterik xüsusiyyətlərindən biri Azərbaycan türk elementinin güclülüyü idi. Nadir şah Azərbaycan türkcəsini təmiz bilirdi və ünsiyyətini daha çox bu dildə qurmağa çalışırdı. Saray həyatında Azərbaycan türkcəsi çox geniş yayılmış, hətta əyanların Nadir şah dövründə öz fikirlərini Azərbaycan türkcəsində ifadə etmələri kübarlıq əlaməti kimi qəbul olmuşdur. Qoşun daxilində də ünsiyyət türkcə qurulurdu və Nadir şahın fərmanları qoşunlara daha çox türk dilində çatdırılırdı.

Nadir şahın türk dünyasını birləşdirmək cəhdini yüksək qiymətləndirən görkəmli Azərbaycan mütəfəkkiri Əhməd bəy Ağaoğlu “İran inqilabı” əsərində belə yazırdı: “Nadir bu işdə (türk birliyinin yaradılmasında) daha da irəli getdi, Hindistanı, Türküstanı, Buxaranı və Xivəni aldı və Osmanlılarla birləşmək istədi. Sünni – şiə ixtilaflarını aradan qaldıraraq vahid bir millət və vahid bir ümmət sevdasına düşdü. Fəqət bu sevdaya da İstanbulun inadı mane oldu.”

Bu gün müstəqil Azərbaycanın bəzi rusbaşlı tarixçiləri Nadir Şahin türkcə çıxışını rəsmi baxışlarda elə təqdim edir ki, ondan heç bir nəticə çıxarmaq mümkün deyil. Onlar 18-ci əsrdə yaşamış erməni tarixçisi Abram Kretasi əsasında bu qeyri-ortodoks “tarix” üslubunu təqdim edirlər. Yəni bütün bunlar Əfşar dövlətinin əsas dilinin türk dili olduğunu göstərir. Lakin bu gün müstəqil Azərbaycanın bəzi rus başlı tarixçiləri bir tərəfdən Nadir Şahı işğalçı kimi qələmə verir, digər tərəfdən onun rəsmi ziyafətlərdə “azərbaycanca” danışdığını, mənşəyinə görə “azərbaycanlı” adlandırdığını yazırlar. Müsəlman tayfası olan Əfşar tayfasının nümayəndəsi Nadir Qulu xan İran dövlətini təmsil etsə də, Azərbaycan dilində danışırdı. Bizcə, ancaq bu cür “tarixçilik”lə qul nəsli

yetişdirmək olar. Hər halda heç bir oxucu, xüsusən də yeni nəsil Nadir şahın elə “tarix”lə təzadını qavraya bilməz ki, o, həm “İran dövlətini təmsil edən işğalçı”, həm də mənşəcə “azərbaycanlıdır”. Əslində burada qeyd olunan faktiki tarix belədir: Azərbaycanda məskunlaşan türk-oğuz millətinin Əfşar tayfasından olan Nadir şah Əfşarlar dövlətinin hökmdarı kimi rəsmi ziyafətlərdə türkcə (Azərbaycan türkcəsi) danışırdı.

Nadir şah Əfşar Səfəvi türk dövlətinin taxtının hərşeydən əvvəl İran hökmdarı kimi deyil, türk müdriklərinin razılığı və xalqın istəyi ilə Oğuz türkmən övladı kimi sahiblənmişdi. Əfşarlar dövlətibdə önəmli vəzifə daşımış Mirzə Mehdi xan da Nadir şaha həsr etdiyi əsərində yazır ki, onun taxta çıxması bilavasitə xalqın istəyi ilə olmuşdur. Təəsüflər olsun ki, sovetlər dönəmi tarixcilik ənənələrindən yapışıb qalmış “ Azərbaycan tarixçiləri” Nadir şahı işğalçı kimi qələmə verir, onu istilaçı adlandırırlar.

Təkcə Nadir şah Əfşar deyil, eyni zamanda Əfşarlardan sonra yaranmış Azərbaycan xanlıqlarından biri – Qarabağ xanlığı da Əfşar soyundan olmuşdur.Qarabağ Azərbaycanda Kür və Araz çayları ilə Gökçe gölü arasında yerləşən Arran adlı bölgənin türkcə adıdır. Bu bölgə tarixi boyu türk toplumlarının gəlib yerləşdiyi, məskunlaşdığı bir yerdir. Burada Qarabağ xanlığını Azərbaycanda və xüsusilə Qarabağ bölgəsində sıx məskunlaşan əfşarlar qurdular. Ebulqazi Bahadır Xana görə; Qarabağ, Oğuz xanın üçüncü böyük oğlu Ulduzun üçüncü böyük oğlu Əfşarın nəvələrindən biri olan Cavanşir tayfasının Sarıcalı nəslindəndir. Bu türk nəslinin Qarabağdakı köklərinin İslamdan əvvələ gedib çıxdığı da məlumdur. Arran (Qarabağ) və Gürcüstan hakimi olan Cavanşirlər Hülaku xanın Anadoluya gətirdiyi və Azərbaycanda məskunlaşdığı, Teymurun isə Anadoludan Qarabağa köçürdüyü əfşarlarla birləşərək Otuz İki Cavanşir adını aldılar. Bu birlikdə başqa tayfalardan olan türklər də var idi. Bunlardan 8 tayfa qıpçaqlara mənsub idi. III. Muratın dövründə (1574-95) Səfəvilərin Osmanlı hakimiyyətinə keçən Qarabağ 1735-ci ildə Nadir şah dövründə Osmanlılardan geri alındı. Lakin Qarabağdakı Cavanşir Əfşar türkmənlərinin başçısı Sarıcalı Əli bəy Nadir şaha boyun əymədiyi üçün Xorasana sürgün edildi. Daha sonra buradan qaçan Əli bəy Qarabağ dağlarına gələrək Nadirə qarşı müharibəni davam etdirir və Qarabağ xanlığının yaranması da bu dövrlərə təsadüf edir. Mərkəzi Suşa olan xanlıq şimalda Kür və Gəncə xanlığı,cənubda Araz, qərbdə Naxçıvan, şərqdə isə Kür və Araz çayları arasında yerləşirdi.

**Ədəbiyyat**

1. Adalı, Bilgin Sənədli Kino, İstanbul 1986
2. Altınay, A. Refik Anadoluda Türk Boyları, İst. 1989
3. Altıntaş Faruk, Tomarza Folkloru, Van 1990
4. Dini Elementlərin Sosiologiyası və Sariz Avşarların Adətləri, Çalışqan, Zəkəriyyə 1992
5. Ebulgazi Bahadır Han Seçere-i Terakime (Haz. Məhərrəm Ergin) Tərcümə 1001 Əsas Əsər
6. Elçin, Şükrü, Türkcə ağılar, Ankara 1990 Anadolu Köyü Orta Oyunları, Ankara 1977
7. Faruk Sumer, Oğuzlar, tarihleri, boy teşkilatları-destanları, Ankara Üniversitesi Basımevi, 1972.
8. Özdemir A. Ziya, Avşarlar ve dalaloğlu, Ankara 1985
9. Öztuna Yılmaz, Devletler ve hanedanlar, Ankara 1989
10. Paşabeyoğlu Mehmet, Avşar ilimiz ve Dadaloğlu, Kayseri 1969

11. Rəşidəddin, Came-ət-təvarix, Istanbul 1972
12. Rəşidəddin, Oğuznamə, Azərbaycan Milli Ensiklopediyası NPD, Bakı 2003
13. Kaşğarlı Mahmud, Divani-lüğət -it-türk, Bakı elm və təhsil, 2014.
14. Yazıcıoğlu Ali, Tarih-i al-i Selçuk, Topkapı sarayı Revan köşkü ktb.nr
15. Alptekin, Coşkun "Aksungur", Diyanet Islam Ans. II, Istanbul 1989
16. Aptekin, Coşkun "Zengi", Islam Ans. C. XII. Istanbul 1977
17. Cevanşir Ahmet Bey Karabağ Hanlığının Tarihi", (Haz. Yusuf Gedikli), Türk Dünyası Ar. Dergisi s. 69 Aralık 1990
18. Gülensoy, Tuncer. "Kütahya Bölgesinin Etnik Yapısı", Türk Dünyası Tarih Dergisi s. 14 Şubat 1988
19. Kalkan, "Afşarlar", Türk Dünyası Araştırmaları Dergisi, s. 19 Ağustos 1982
20. Kamil, Erkan "Türk Halk Edebiyatı ve Geleneğinde Ağıt", Erciyes Dergisi, s. 24-22, Mart 1980

## AVŞARLARIN ÖZÜNƏ MƏXSUS MİLLİ ADƏT VƏ ƏNƏLƏRİ

**Sabir Rüstəm oğlu Məmmədov, p.ü.f.d.,dosent**

**ADPU-nun Ağcabədi filialı,**

**vilayetmemmedov1980@mail.ru**

**Fazil Tatarxan oğlu Cəfərov,k.t.ü.f.d.,dos.v.i.e.**

**ADPU-nun Ağcabədi filialı,**

**faziljafarov@yahoo.com**

**Xülasə:**

Məqalədə Avşarların qədim tarixə malik bir tayfa olduqları, onların Azərbaycan ərazisinə gəlişi tarixi çox uzaq keçmiş olduğu göstərilirilir. Avşarlar Oğuz Türkləridir və Turk tarixində xüsusi iz qoymuş tayfadır. Qorxmaz, cəzur və döyüşkən olan Avşarlar Azərbaycanda , İranda, Türkiyədə, Əfqanstanda kompaqt şəkilində yaşayırlar. Harada yaşamalarına baxmayaraq öz nilli adət və ənələrini qoruyub saxlamışlar. Tarix böyu böyük şəxsiyyətlər yetişdirərək xalqlarının adını ədəbiyaşarlar siyahısına salmışlar. Bu da Avşarların ən keyfiyyətli cəhətləridir.

**Acar sözlər:** Oğuzlar, Türk xalqları, Avşarlar, Xalqların Milli adət və ənənələr, Avşar tayfas

**Summary:**

The article shows that the Avshars are a tribe with an ancient history, and the date of their arrival on the territory of Azerbaijan is long past. The Avshars are Oghuz Turks and a tribe that has left a special mark on Turkish history. The Avshars, who are fearless, brave and warlike, live in a compact form in Azerbaijan, Iran, Turkey, and Afghanistan. Regardless of where they live, they have preserved their traditional customs and traditions.

Throughout history, they have raised great personalities and put the name of their people in the list of literary heroes. This is the best quality of Avshars.

Bütün xalqları tanıdan və fərqləndirən biri də onların özünə məxsus adət və ənələrinin olmasıdır. Bu adət və ənələlər min illər böyu formalaşmış və inkişaf edərək xalqları gələcəyə doğru inamla aparmışdır. Xalq da öz adət və ənələrini ulularından gələn yadigar kimi daimi yaşadır və qoruyaraq gələcək nəsillərə ötürür. Bu da Azərbaycan xalqının, o cümlədən Avşarların yüksək mənəvi dəyərlərin olduğunun bariz göstəricisi kimi özünü təsdiqləyir.

Ulu Öndər Heydər Əliyev milli adət və ənələrin hər biri xalqın həyatında oynadıgı müstəsna rolundan danışarkən demişdir: "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir". Bəli Avşarlar da Ulu Öndərin dediyi yolu mübariz şəkildə davam etdirən bir millətdir.

Tarixi dönəmlərə nəzər saldıqda Avşar tayfalarının adları ta qədim mənbələrdə geniş şəkildə yad edilmişdir.

Böyük alimlər Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Əli bəy Yazıçıoğlu, Əbülqazi Bahadır xan Xivəli və başqaları Avşar tayfasının adlarını əsərlərində dönə-dönə xatırlatmışlar. Tarixçilər Avşar tayfasının Azərbaycana gəlişini Orta Asiyadan olduğunu söyləyirlər. Bəziləri isə Avşarların Əmir Teymur və Miranşah Mirzə tərəfindən Azərbaycana köçürüldüyü deyilir.Ancaq əsilində Avşarların Azərbaycana taqədim dövürlərdən gəldiyi tarixçilər tərəfindən təsdiqlənmişdir. Məlumdur ki, Nadir Şah Avşar (1736-1747) İran dövlətinin böyük hökmüdarlarından biri olmuşdur.

Avşar elinin görkəmli çəxsiyyətlərindən olan Aşıq Dadaloğlu özündən sonar gələcək nəsillərə Avşar tayfasının milli adət-ənələlər və folklorla bağlı olduqca zəngin bir irs qoyub getmişdir. Aşıq Dadaloğlu Avşarlar haqqında demişdir:

Qalxdı, köç eylədi Avşar elləri,

Ağır-ağır gedən ellər bizimdir.

Ərəb atı yaxın edər iraqı,

Uca dağlar, aşan yollar bizimdir

Avşar döyüşə gedəndə baş, mətbəxə gedəndə aş gətirən bir tayfadır. Oğuzlar içərisində adlarına görə mənzil başına tez çatdıqları üçün atları ilə seçiliblər.

Avşar tayfasının özünə məxsus xüsusiyyətləri və müdrik deyinləri vardır. Məsələn:

- " Avşarın içi cənnətdir, mölü cəhənnəm", "dostluğunmin yolu var, onun ən yaxşısı yaxşılıq və mülayimlikdir" və s.
- Avşar oğlu çay çevirib, dağ devirərdi. Hirsi tutanda sözündən dönməz, dediyini etməyincə sönməzdi.
- Yoldan gələnə çörək, eldən gələnə kömək, beldən gələnə dəstək verərdilər.
- Qol ucuyla, qılınc gücüylə özlərinə ad, süfrələrinə dad qazanardılar.

- Vurduğunu yıxar, verdiyini doyurardılar. Sultana vermədiyini mehmana verərdi afşarlar.

- Qılıncı əlində, atının belində ömür sürərdi. Yatağa yan, yağıya can verməzdi. Gecə başının altına nəzir qoyardı ki, sabah dava olsun. Hücumuna səngər, həmləsinə sipər dayanmazdı.

- Avşar ataları qızlarını otaqlıya yox, papaqlıya veriblər. Biliblər ki, ərdirsə kol dibində arvad saxlayacaq.

- Çomağını daşa yavaş, başa bərk vurardı avşar oğlu. Qonşusuna bəlgəmi basma, başın yarılmasın, qolun qırılmasın – deyərdi.

- Avşar oğlu heç zaman dayıya arxalanmayıb. Güvənci göydə Tanrı, yerdə özü olub. Kürəyini elinə söykəyib, biləyinə, diləyinə güvənib.

Hər bir xalqda olduğu kimi Avşarlar da müxtəlif ərazilərə səpələnməsinə baxmayaraq, öz milli adət və ənələlərini yaşadırlar. Avşarlar əsasən Respubilkamızın bir çox ərazisinə, Bakıda, Şuşada, Xocavəndə, Ağcabədi və s. qəsəbə və kəndlərində və eləcədə, Türkiyə, İran, İraq, Əfqanstan, Hindistan, Orta Asiya və s. respubilkanın ərazilərində məskunlaşmışlar. Hətta Əfqanstan Respubilkasında Afşar-Tapa adlı şəhərdə vardır.

Azərbaycan respubilkasının Ağcabədi rayonunda Avşar adlı kəndlərdə vardır. Bu kəndlər öz vüsunkarlığı ilə və əhalisi isə xüsusi bacarığı ilə seçilirlər. Avşar tayfası harada məskulaşmasından asılı olmayaraq öz milli adət-ənələrini qoruyub saxlayırlar. Bu baxımdan qloballaşan dünyada milliadət-ənənələr onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemini, hər bir millətі, o cümlədən Avşarlarıda mənəvi, mədəni simasını əks etdirir. Onlar öz həyat və yaşayiş tərzləri ilə tayfasının xarakterik cəhətlərini ənənəvi şəkildə keçmişə söykənərək, onlardan bəhrələnərək yaşadırlar.

**Ədəbiyyat**

1. Adil MİSİRLİ-https://aranqazeti.az/2022/05/20/avsar-elinin-tarixi/ 20 May 2022
2. Ədalət QARABAĞLI =Respublika.- 2021.- 13 mart.- S.5.
3. Əziz Mustafa-Zaman.-2014.-2 iyul.-S.7.
4. Ənvər Cingizoğlu, Aydin Avşar. Məhşur avşarlar. (Tarixi bioqrafik tədqiqatlar)-Bakı:Müntərcim,2014-324 səh
5. https://medeniyyet.az/- “Qalxdı, köç eylədi Avşar elləri”.15-10-2014

# AZƏRBAYCAN ƏFŞARLAR IMPERIYASININ MÜASIR İRAN TARIXŞÜNASLIĞINDA ARAŞDIRILMASI

**Sübhan Ələkbər oğlu Talıblı,**

**AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi,**

**t.ü.f.d., dos.**

subhantalibli@gmail.com

In modern historiography, the investigation of the Afsharid Empire of Azerbaijan and the life and activities of Nader Shah Afshar (Dastgird, 1688-Fathabad, 1747) has attracted special interest whether in Azerbaijani, Iranian or foreign historiography. Mirza Mehdi Astarabadi's "Tarikh-i Jahangusha-i Naderi" (Tehran, 1368) and Muhammad Kazim Marvi's "Alam Ara-i Naderi" (Tehran, 1384) are the main sources about Nadir Shah Afshar.

In addition, information about the Afsharid Empire of Azerbaijan and Nadir Shah Afshar is given in many works of Iranian scientists. For example, Godusi Muhammad Hussain "Nadername", Khorasan, 1339, Adibushshuara Mirza Rashid "Tarikh-e ectemai-ye Afshar", Tehran, 1346, Tehrani Mohammad Shafa "Tarikh-e Nader Shah. Nadername", Tehran, 1349, M.R. Arunova, K.Z. Afsharyan "Doulat-e Nader Shah", Tehran, 1352, Muhammad Kazim Marvi "Alam Ara-i Naderi", Volume I-II-III, Mohammad Amin Riahi, Tehran, Enteshare-te Zavar, 1364, Shamim Alasgar "Az Nader ta kudeta-ye Reza Khan Mirpanj", Tehran, 1368, Semnani Panahi "Nader Shah. Baztab-e hamase va fajee-ye melli", Tehran, 1375, Hadith-e Nader Shah, Tehran, 1376, Alirza Afshar Jam "Shir-i ba shamshir", Tehran, 1378, Shabani Reza "Mukhtasar tarikh-e Iran der dourha-ye Afshariyya and Zandiyye", Tehran, 1378, Sardadvar Abuturab "Tarikh-e nezami va siyasi-ye dourane Nader Shah Afshar", Volume I, Tehran, 1378, Shabani Reza "Tarikh-e tahavvolat-e siyasi va ectemai-ye Iran der dourha-ye Afshariyya and Zandiyye", Tehran, 1378, Panahi Mohammad Ahmad "Nader Shah", Tehran, 1382, Najmi Naser "Nader Shah. Oqab-e Kelat", Tehran, 1382, Muqtadir Ghulam Hussain "Harbhaye bozerg-e Iran Nader Shah" Tehran, 1383, Larudi Nurulla "Nader Shah pesere Shamshir", Tehran, 1383, Gozide-ye menshaat-e Mirza Muhammad Mehdi Khan Astarabadi, monshi-ye mamalek-e Nader Shah Afshar, Tehran, 1383 and so on.

At the same time, Afsharid Empire of Azerbaijan and the activities of Nader Shah were investigated in books and research works of foreign authors translated into Persian in Iran. For example, L.Kokart "Nader Shah", Tehran, 1331, Padri Baze "Namehayi Tabib-e Nader Shah", translated by: Ali Asghar Hariri, Tehran, Anjuman-i Asar-i Milli, 1340, 93 p.; Fraser James "Tarikh-e Nader Shah Afshar va mokhtasari az tarikh-e salatin-e mogol dar hend", Tehran, 1363, Jean Otter "Sefername-i Jean Otter, Asr-e Nader Shah", translated by: Ali Eqbali, Tehran, Entesharate Javidan, 1363, 360 p., Flor William "Hokumat-e Nader Shah", Tehran, 1386, Percy Sykes "Tarikh-e Iran", V.II, Tehran, 1381, J. Hanvey "Zendegiye Nader Shah", Tehran, 1381 and so on should be especially mentioned.

In Turkey, this subject has been extensively researched in a number of sources and scientific literature: Arunova, K.Z. Afsharyan "Nader Shah-i Afshar", Selenge Publications, June 2015, 275 p.; Jahangir Hossein Afshar "Nader Afshar State of Azerbaijan", Bilgeoghuz Publications, 2015, 400 p.; Sirri Efendi "Risaletut-Tarikh-i Nader Shah (Makale-i Vakia-i Muhasara-i Kars)", ed. Mehmet Yashar Ertash, Istanbul, Kitabevi Publications, 2012, 88 p.; Arutin Efendi Tanburi "Tevarih of Tahmas Kulu Han

(Seyahatnâme of Tanburi Arutin)", ed. Esat Uras, Ankara, Turkish Historical Society Publications, 1942, 47 p.; Shemdani Zade Findiklili Suleyman Efendi Tarikhi, Murit Tevarih, ed. M. Munir Aktepe, İstanbul, Istanbul University Literature Faculty Publications, 1976. And in English literature we can mention Jonas Hanway. An Historical Account of the British Trade Over the Caspian Sea: With a Journal of Travels from London Through Russia Into Persia; and Back Again Through Russia, Germany and Holland. To which are Added, the Revolutions of Persia During the Present Century, with the Particular History of the Great Usurper Nadir Kouli. İn four Volumes vol. I-IV by Jonas Hanway, London, 1753.

Whether in Persian-language, Turkish-language, or foreign-language scientific literature, historical sources and studies, Nadir Shah is mentioned in history with the names of Nadergulu Bey and Tahmasibgulu Khan, and due to his military achievements, some historians call Nader Shah Afshar, the founder of the Afsharid Empire of Azerbaijan, the Napoleon of the East and or the Second Alexander of Macedon.

In the above-mentioned works, Nader Shah's childhood and youth, Nader Shah during the Safavid period, Iranian and foreign historians' opinions about Nader Shah, Nader Shah's ancestry, Nader Shah's dynasty, the Mughan convention and Nader's declaration as king, Nader's military campaigns to the Caucasus, India, Turkestan, Dagestan and etc., his army and navy, killing of Nader Shah, internal and external policy of the Afsharid Empire, etc. issues have been investigated.

Müasir tarixşünaslıqda Azərbaycan Əfşarlar imperiyası və Nadir şah Əfşarın (Dəstgird, 1688-Fəthabad,1747) həyat və fəaliyyətinin araşdırılması istər Azərbaycan, istər İran, istərsə də xarici tarixşünaslıqda xüsusi maraq kəsb etmişdir. Nadir şahın fəaliyyəti ilə bağlı Mirzə Mehdi Astarabadinin "Tarix-e Cahanqoşa-ye Naderi" (Tehran, 1368) və Məhəmməd Kazım Mərvinin "Aləm Ara-ye Naderi" (Tehran, 1384) əsərləri Nadir şah Əfşarın haqqında əsas mənbələrdir.

Bundan başqa, Azərbaycan Əfşarlar imperiyası və Nadir şah Əfşarla bağlı İran alimlərinin Qodusi Məhəmməd Hüseynin "Nadername", Xorasan, 1339, Ədibüşşüara Mirzə Rəşidin "Tarix-e ectemai-ye Əfşar", Tehran, 1346, Tehrani Məhəmməd Şəfanın "Tarix-e Nadir şah. Nadername", Tehran, 1349, M.R. Arunova, K.Z. Əfşaryanını "Doulət-e Nader Şah", Tehran, 1352, Mühəmməd Kazım Mərvinin "Aləm ara-i Nadiri". C. I-II-III, Mühəmməd Əmin Riyah-i, Tehran, Enteşare-te Zəvar, 1364, Şəmim Ələsgərin "Əz Nader ta kudəta-ye Rza xan Mirpənc", Tehran, 1368, Semnani Pənahinin "Nader Şah. Baztab-e həmase və facee-ye melli", Tehran, 1375, Hədis-e Nader şah, Tehran 1376, Əlirza Əfşar Cemin "Şir-i ba şəmşir", Tehran, 1378, Şəbani Rzanın "Müxtəsər tarix-e İran dər dourha-ye Əfşariyyə və Zəndiyye". Tehran, 1378, Sərdadvər Abuturabın "Tarix-e nezami və siyasi-ye dourane Nader şah Əfşar". I cild, Tehran, 1378, Şəbani Rzanın "Tarix-e təhəvvolat-e siyasi və ectemai-ye İran dər dourha-ye Əfşariyye və Zendiyye", Tehran, 1378, Pənahi Məhəmməd Əhmədin "Nader şah", Tehran, 1382, Nəcmi Naserin "Nader şah. Oqab-e Kelat", Tehran, 1382, Müqtədir Qulam Hüseynin "Hərbhaye bozerg-e İran Nadir şah" Tehran, 1383, Larudi Nurullanın "Nader şah pesəre şəmşir", Tehran, 1383, Qozide-ye mənşəat-e Mirzə Məhəmməd Mehdi xan Astarabadi, monşi-ye məmalek-e Nader şah Əfşar, Tehran, 1383 və s. əsərlərində məlumatlar verilmişdir.

Eyni zamanda İranda xarici müəlliflərin də farscaya tərcümə edilmiş kitab və tədqiqat əsərlərində Azərbaycan Əfşarlar imperiyası və Nadir şahın fəaliyyəti araşdırılmışdır. Həmin əsərlərdən L.Kokartın "Nader şah", Tehran, 1331, Padri Bazenin "Namehayi Təbib-e Nader Şah", motərcem: Əli Əsğər Həriri. Tehran, Əncümən-i Asar-i Milli, 1340, 93 s.; Frezer Ceymzin "Tarix-e Nader Şah Əfşar və moxtəsəri əz tarix-e səlatin-e moğol dər hend", Tehran, 1363, Jean Otterin "Sefername-i Jean Otter, Əsr-e Nader Şah", Motərcem: Əli Eqbali, Tehran, Enteşarate Cavidan, 1363, 360 s., Flor Ulyamın "Hokumət-e Nader şah", Tehran, 1386, Persi Sayksın "Tarix-e İran", C.II, Tehran, 1381, C. Hanveyin "Zendegiye Nader şah", Tehran, 1381 və s. xüsusilə qeyd etmək lazımdır.

Türkiyədə isə M. R. Arunova, K. Z. Eşrefyanın "Nadir Şah-ı Avşar", Selenge Yayınları, Haziran 2015, 275 s.; Cahangir Hüseyn Afşarın "Azerbaycan Nadir Afşar Devleti" Bilgeoğuz Yayınları, 2015, 400 s.; Sırrı Efendinin "Risaletüt-Tarih-i Nadir Şah (Makale-i Vakia-i Muhasara-i Kars)", haz. Mehmet Yaşar Ertaş, İstanbul, Kitabevi Yayınları, 2012, 88 s.; Arutin Efendi Tanburinin "Tahmas Kulu Hanın Tevarihi (Tanburi Arutinin Seyahetnamesi)", haz. Esat Uras, Ankara, Türk Tarih Kurumu Yayınları, 1942, 47 s.; Şemdani Zade Fındıklılı Süleyman Efendi Tarihi, Mürit Tevarih, haz. M. Münir Aktepe, İstanbul, İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları, 1976.; İngillis dilli ədəbiyyatda isə Jonas Hanway. An Historical Account of the British Trade Over the Caspian Sea: With a Journal of Travels from London Through Russia Into Persia; and Back Again Through Russia, Germany and Holland. To which are Added, the Revolutions of Persia During the Present Century, with the Particular History of the Great Usurper Nadir Kouli. İn four Volumes vol. I-IV by Jonas Hanway, London, 1753 və s. mənbə və elmi ədəbiyyatda geniş şəkildə araşdırlmışdır.

İstər fars dilli, istər türk dilli, istərsə də xarici dilli elmi ədəbiyat, tarixi mənbə və tədqiqatlarda Nadir şahı tarixdə Nadirqulu bəy və Təhmasibqulu xan adları ilə də qeyd olunmuş, hərbi nailiyyətlərinə görə isə bəzi tarixçilər Azərbaycan Əfşarlar imperiyasının qurucusu olan Nadir şah Əfşarı Şərqin Napoleonu və ya ikinci Makedoniyalı İsgəndər kimi ləqəblərlə adlandırmışlar.

Yuxarıda qeyd olunan əsərlərdə Nadir şahın uşaqlıq və gənclik illəri, Nadir şah Səfəvilər dövründə, İran və xarici tarixçilərin Nadir şahla bağlı fikirləri, Nadir şahın soykökü, Nadir şahın xanədanı, Muğan qurultayı və Nadirin şah elan edilməsi, Nadirin Qafqaza, Hindistana, Türküstana, Dağıstana və s. hərbi yürüşləri, ordusu və donanması, Nadir şahın öldürlüməsi Əfşarlar imperiyasının daxili və xarici siyasəti və s. məsələlər araşdırlmışdır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Astarabadi M. Tarix-e Cahanqoşa-ye Naderi. Tehran, 1368

2. Mərvi M.K. Aləm Ara-ye Naderi. Tehran, 1384

# AVŞARLAR SÜLALƏSİNİN DÖVLƏTÇİLİK TARİXİ

**Kərimova Vüsalə Həmzə qızı**
**ADPU Quba filialı, baş müəllim**
**vferzeliyeva@gmail.com**

Avşar tayfası Türkiyə türklərinin əcdadları olan Oğuz boyunun ən tanınmış və tanınan tayfalarından biridir. Əfşar tayfası kimi də tanınır. Bu tayfanın adı Qaşqarlı Mahmud (XI əsr) və Fəxrəddin Mübarək şahın (XIII əsrin əvvəlləri) əsərlərində "Afşar", Rəşidüddin (XIV əsrin əvvəli), Yazıcıoğlu (XV əsr) və Ebülqazi (XVII əsr) əsərlərində isə "Avşar" tayfası kimi qeyd olunur. Ona görə də, hər iki addan istifadə olunur. Amma ən çox tanınanı Avşar tayfasıdır.

Oğuz kağan dastanının məlumatına görə, oğuzların 24 tayfasından biri, özünəməxsus tamqa ilə təyin olunan Divan-ı Lüqati't-Türkdəki 22 oğuz bölgüsündən altıncısıdır. Bozoklar qolundan (sağ qolundan) məlum olur ki, bu boyun Oğuz Kağan oğlu Yıldız xanın 4 oğlunun ən böyüyü Əfşar nəslindəndir.

Avşar tayfası Orta Asiyada olarkən, Dədə Qorqud dastanlarda Oğuzeli kimi keçən Sir-Dərya bölgəsində yaşamışdır. Böyük bir köç olanda bir qrup Suriya, İraq və Xuzistan üzərindən indiki Ermənistan yolu ilə Anadoluya gəlmişdir. Həmin tayfalar həmçinin İraq, İran, Suriya, Əfqanıstan və Azərbaycana da yayılıblar. Oğuzların başqa nəslindən olan Qayılar və Kınıklar kimi Avşarlar da dövlət qurmuş, böyük hökmdarlar və sülalələr yetişdirmişlər. Karamanoğulları, Ağqoyunlular, Aksunqrlular, Xarəzmşahlar, Özəroğulları, Sırkıntıoğulları, Karsantioğulları, Küçük Əlioğulları və Kozanoğulları kimi Avşarların qurduğu və ya onların güclü dəstəyini alan sülalələr var.

Qəznəvi Mahmudun dövründə oğuzlar türkmən adlandırılmağa başladı. Anadolu torpaqlarının ən güclü türkmən tayfası olduğu və dövləti idarə edən azsaylı tayfalardan biri olduğu qeyd edilir. Bundan əlavə Avşar tayfası Səfəvilərdən sonra hakimiyyətə gələn ikinci türk tayfasıdır. Nəticədə bu türk tayfası bir müddət böyük bir bölgənin tarixində ən həlledici faktora çevrildi.

Avşarlar türk tarixinin bir çox müxtəlif mərhələlərindən ad çıxarıblar. Bu mərhələləri aşağıdakı kimi ümumiləşdirə bilərik: Mosul Atabəyləri (digər adı Zəngilər) Hələb və Mosul bölgəsində suverenlik qurdular. İranın Xuzistan hissəsində Şumlaoğulları hökmranlığını davam etdirirdi. Karamanoğulları Bəyliyi Avşar tayfasının Karamanlı qolundandır. Alaiye bəyliyi Karamanoğulları sülaləsinin ağaları tərəfindən qurulmuşdur. Germiyanoğulları Bəyliyi (Alişiroğulları olaraq da bilinir) Malatyadan gələrək Kütahyada məskunlaşdı. İnançoğulları Dənizli bölgəsində qurulub. Aydınoğulları bəyliyinin Avşar ola biləcəyi düşünülür. Saruhanoğulları Bəyliyi Avşar tayfasının Saruhanlı qolundandır. Ərzurum Qars bölgəsində Sevindik Xan Bəyliyi quruldu.

Balkanlarda Avşar tayfasından olanlar da var. Buradakı ailələr 15, 16, 17 və 18-ci əsrlərdə Dulkadiroğulları və Karamanoğulları bəyliklərinin köç siyasətləri səbəbindən Fırka-i İslahiye hadisələri nəticəsində sürgün edilmiş, Konya, Karaman, Adana, Mersin, Kahramanmaraş, Kayseri və Sivasda toplu məskunlaşmışdır. Onlar Kayseridə intensiv

yaşayırlar. Bolqarıstanın Kırcali-Hasköy, Yunanıstanın Komotini bölgəsində, Makedoniya və Kosovonun Deliorman bölgəsində, yenidən Bolqarıstanda səpələnmişlər. Bolqarıstanın Kırcali vilayətində Durallar, Karalılar, Sindelli, Kösələr və Balabanlı, Eskicuma, Tırnovtsa, Pirliköy Sıratça kimi kəndləri misal göstərmək olar. Balkanlarda Avşar qrupunun tərkibində Dulkadirli, Qaramanlı, Danişmədlü və Bozuluslu tayfaları çoxluq təşkil edir.

Qarabağ xanlığını Cavanşir Avşarlar qurmuşdur. Urmiya xanlığının mərkəzi olan Urmiya hələ də İranda "Avşarlar şəhəri" kimi tanınır. Ərdəbil xanlığı Knyazlığın qurucuları avşarlardır. Xarəzmşahların banisi Əlaəddin Məhəmməd Avşarlar nəslindəndir.

**Ədəbiyyat siyahısı**

1. Çingizoğlu Ə., Avşar A. Avşarlar. Bakı:Şuşa nəşriyyatı, 2008
2. Azərbaycan tarixi 7 cilddə. 3-cü cild. Bakı: Elm, 2008
3. Qarabağnamələr, 1-ci kitab. Bakı: Yazıçı, 1989
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı

## ZƏNGİ -AVŞAR DÖVLƏTİNİN TÜRK – İSLAM DÜNYASINDA ROLU (1127-1222-Cİ İLLƏR)

**Yaqub Abbasqulu oğlu Səmədov.t.ü.f.d., dosent,**
yaqub.semedov63@mail.ru

**Sahibə Nəsirova İsmayıl qızı,**

**sahibanasirova1963@mail.ru,**

**ADPU-nun Ağcabədi filialı**

**Xülasə:** Yuxarıda verilən məlumatlardan aydın olur ki, əfşarlar tərəfindən yaradılan Zəngi-Avşar dövləti türk-islam dünyasının siyasi həyatında çox mühüm rol oynamışdı. Məhz, bu dövlətin sayəsində türk-islam dünyası Qərbi Avropa xaçlılarının dağıdıcı işğalından xilas olmuşdu. Türk-islam dünyasının siyasi həyatında mühüm rol oynayan və onu Avropa xaçlılarının dağıdıcı işğalında xilas edən bu dövlətin tarixinin daha dərindən araşdırılmasına, tədqiqinə və təbliğinə zəruri ehtiyac var.

**Açar sözlər:** Oğuz xan, Ulduz xan, Əfşar, Zəngi -Avşar dövləti, xaçlılar.

**Summary:** From the information given above, it is clear that the Zangi-Avshar state created by the Afshars played a very important role in the political life of the Turko-Islamic world. Thanks to this state, the Turkish-Islamic world was saved from the destructive invasion of the Western European crusaders. The history of this state, which played an important role in the political life of the Turko-Islamic world and saved it from the destructive invasion of the European crusaders, needs to be explored, researched and propagated more deeply.

**Key words:** Oguz Khan, Ulduz Khan, Afshar, Zangi-Avshar state, crusaders.

**Avşarlar haqqında ümumi məlumat.** "Əfşar" – yəni "ovda çevik olan". Onlar Oğuz xanın oğlu Ulduz xanın övladlarıdır. Əfşar boyu Oğuz Xaqan dastanında oğuzların 24 boyundan biri və Mahmud Kaşğarlının "Divanü Lüğat-i-Türk" əsərində isə iyirmi iki oğuz bölümündən altıncısı kimi qeyd olunur. Bu boy Boz oxlardan, Oğuz Xaqanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın (Afşarın) soyundan gəlir [1]. Fəzlullah Rəşiddədin görə isə oğuz boyları Boz-ok və Üç-ok olmaqla iki qrupa ayrılır. Avşar boyu Boz-ok qrupuna mənsub olub Ulduz xanın oğlu kimi təsvir olunmuşdur. O, yazır: "Avşar, çevik və vəhşi heyvan ovuna həvəsli" [2,s.65]. M. Kaşğaridən, F. Mübarəkşahdan (əfşar) fərqli olaraq Fəzlullah Rəşidəddin və Əbulqazi xan Xivəli tərəfindən isə bu söz "avşar" formasında işlənmişdir. Avşar adının ovşar, əfşar kimi deyiliş və yazılış formaları mövcud olsa da, lakin bu elin ilkin və dəqiq adı Avşardır [3]. Türk xalqlarının abidələrində bu tayfanın adı dönə-dönə çəkilir. Bəzi tarixçilər qeyd edirlər ki, türk tayfaları olan qacar və avşarlar monqol istilaçıları ilə birlikdə Orta Asiyadan gəlmişlər. Azərbaycanda bu tayfanın yerləşməsi isə Əmir Teymur və Miranşah mirzənin gəlişi ilə bağlıdır. Əslində avşarların Azərbaycanda yerləşməsi çox-çox əvvəllərə gedib çıxır [3]. Avşarlar ─ Azərbaycan xalqının soykökündə iştirak edən başı papaqlı, əli yaraqlı ellərdən biridir. Avşarlar dünyanın bir çox ölkələrində ─ xüsusilə də İranda, Tükiyədə, İraqda, Əfqanıstanda və Azərbaycanda daha çox məskunlaşmışlar [4].

**Zəngi -Avşar dövlətinin türk─ islam dünyasına töhfəsi.** XI əsrin sonu, XII əsrin əvvəllərinə doğru xaçlılara müqavimət göstərən yeganə qüvvə Anadolu Səlcuq Sultanlığı idi. Lakin bu dövlət uzunmüddət xaçlılara müqavimət göstərə bilmədi. Xaçlı yürüşləri nəticəsində İslam-türk dünyasının ayrılmaz tərkib hissəsi olan Tiflis Əmirliyi 1122-ci ildə IV Davidin ordusu tərəfindən işğal edilir [5,s.22]. Cənub istiqamətində hərəkət edən xaçlılar isə bir müddət əvvəl Qüdsü ələ keçirərək Qüds Krallığını yaratdılar (1099-1291). Bunun ardınca xaçlılar tərəfindən işğal edilən keçmiş Səlcuq imperatorluğunun ərazisində yeni xaçlı dövlətlər meydana çıxdı. Qüds krallığına tabe olan bu xaçlı dövlətlər müsəlman əhaliyə qarşı kütləvi qırğınların törədilməsində və yerli əhalinin öz doğma torpaqlarından didərgin salınmasında "xüsusi" rol oynadı.

Məhz belə bir vaxtda əfşarlar Türk-islam dünyasının xilaskarına çevrildi. 1127-ci ildən - 1222-ci ilə qədər mövcud olan və əfşarlar tətəfindən əsası qoyulan Zəngi-Avşar dövləti faktiki olaraq, xaçlı yürüşlərinin qarşısının alınmasında mühüm rol oynadı. Təəssüflər olsun ki, tarix kitablarında və dərsliklərdə əfşarlar tərəfindən yaradılan və xaçlı yürüşlərinin qarşısının alınmasında mühüm rol oynayan Zəngilər dövləti haqqında heç bir məlumat verilmir. Məlumdur ki, bu dövlətin qurucusu Mosul atabəyi İmadəddin Zəngi olmuşdu (1085–1146-cı illər). Səlcuq İmperatorluğu ərazisində, məsələn, Azərbaycanda Eldənizlər (1136–1225-ci illər), Yaxın və Orta Şərqdə, indiki Suriya və İraq ərazilərində də Zəngilər dövləti yaranmışdı. Zəngilər mənşəcə, əfşar soyundan idilər. Əvvəlcə Zəngi atabəyliyinin mərkəzi Mosul idi. İmadəddin Zəngi öldükdən sonra biri Mosulda, digəri Şam ərazisində oturan iki qardaş - Seyfəddin və Nurəddin Zəngi birləşərək, ard-arda əvvəlcə Antakyada, sonra isə Qüds ərazisində yaradılmış xaçlı dövlətlərini süquta

uğratdılar. Nurəddin Zəngi xaçlıları əzəndən sonra Anadolu Səlcuq Sultanlığı ilə Mosul, Kərkük və Şam Sultanlığı arasında birbaşa sərhəd yarandı. Nurəddin Zəngi Anadolu Səlcuq Sultanı II Ruknəddinin qızı ilə evləndi. Bu onun gücünü daha da artırdı. Digər tərəfdən Nurəddin Mahmud Zəngi (1146–1174) öz əmiri Səlahəddin Əyyubi ilə birgə Misiri tutaraq Fatimilərə son qoydu və səlib yürüşlərinin qarşısını aldı. Nurəddin Zənginin ölümündən (1174) sonra Səlahəddin Əyyubi hakimiyyəti ələ alaraq Əyyubilər sülaləsinin Misirdə təqribən 75 illik hakimiyyətinin əsasını qoydu [6].

Çox zaman tarixdə xaç yürüşlərinin qarşısının alınmasında Səlahəddin Əyyubinin rolundan bəhs edilsə də, lakin faktiki olaraq o, Nurəddin Zəngi tərəfindən Misirə canişin təyin etdildikdən sonra xaçlılara qarşı uğurlu hərbi əməliyyatlar aparmışdı. Nədənsə, bizim tarixşünaslığımızda canişinin fəaliyyəti hökmdarın fəaliyyətindən daha çox üstün tutulur. Halbuki, Qüdsü xaçlılardan xilas edən Nurəddin Zəngi idi. O, öldükdən sonra bu dövlət get-gedə zəifləməyə başladı və nəhayət 1222-ci ildə süqut etdi [7].

**Nəticə.** Yuxarıda deyilənləri belə yekunlaşdırmaq olar ki, avşarlar tərəfindən əsası qoyulan Zəngi-Avşar dövlətinin türk–islam dünyasında rolu böyük olsa da lakin onun tədqiqi tədqiqatçıların diqqətindən kənarda qalmış və onun bu istiqamətdə daha dərindən araşdırılmasına zəruri ehtiyac vardı.

### Ədəbiyyat:

1.Əfşar imperiyası. Vikipediya, azad ensiklopediya. Link: https:// az. wikipedia. org/wiki/Əfşar_imperiyası.

2.Rəşidəddin F.,Oğuznamə. Bakı, 1987.

3.Çingizoğlu Ə.Avşaralar.II fəsil (Avşar elin in tarixi). Ens.az.ensklopediya. 10.12.2018.Link: https://www.ens.az/az/ enver-cingizoglu- avsarlariii- fesil- avsar -elinin-tarixi.

4.Qədim türk tayfası olan avşarlara həsr olunmuş kitab çapdan çıxmışdı. AzərTac.31.03.2009. Link: https://azertag.az/xeber/ Qadım turk tayfası olan avşarlara hasır edilmiş kıtab chapdan chıxmışdır-437044.

5.Mustafa R. Tiflis əmirliyi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı.Bakı-2015.

6.Əyyubilər dövləti. Vikipediya, azad ensiklopediya. Link: https://az.wikipedia.org/wiki /Əyyubilər dövləti.

7.Dövləti qurmağı baçarmış beş türk tayfasından biri- Əfşarların tarixi. Əfşarlar yurdu. “Əfşəran” (Abşeron). Baş məqalə. Teref.az.info. 19-05-16, 12:19.Link: http:// teref.az/ kose/25898-dovlet-qurmagi-bacarmish-besh-turk-tayfasindan-biri-efsharlarn-tarx.html.

# ÇUKUROVA YÖRESİNDE KONAR GÖÇER BİR HAYATTAN YERLEŞİK HAYATA GEÇİŞTE AVŞARLARIN İSKAN SORUNU

THE SETTLEMENT PROBLEM OF AVSARS IN THE TRANSITION FROM A NOMINATE LIFE TO A RESIDENTIAL LIFE IN THE ÇUKUROVA REGION

**Yunus EKİCİ**

Doç. Dr. Osmaniye Korkut Ata Üniversitesi, Kadirli Sosyal ve Beşerî Bilimler Fakültesi, Osmaniye, Türkiye, yunusekici23@hotmail.com, Orcid No: 0000000163006555,

## ÖZET

Avşarlar, Oğuz Türkmenlerinin yirmi dört boyundan birisi olarak bilinmektedir. İslam dininin kabul edilmesiyle beraber bilhassa Gazneli Mahmut döneminde Oğuzlara Türkmen denilmekteydi. Türkmen, İslamiyet'i kabul eden göçebe Oğuzların diğer adıdır. Avşarlar da bu Türkmen boylarından biridir. Konar göçerlikte en büyük problem hayvanlara yeterli otlak bulunmamasıdır. Konar göçer topluluklar, ilkbaharın gelişi itibariyle yaylalara, sonbaharın gelmesi ile de güneydeki kışlaklara göçerlerdi. Avşarlar kışın Çukurova yöresinde konaklarlar, ilkbahar döneminde de Binboğa'ya, Uzun Yayla'ya ve Toroslar'a doğru yaylaya çıkarlardı. Konar göçerlerin düşünce yapısı, yaşayışı, inancı, gelenek ve görenekleri, kısaca kültürü üzerinde birinci derecede doğa ve iklim koşulları baskın olmuştur. Şüphesiz konar göçerlerin kendine has bir dünya görüşü vardır. Aksi halde konar göçerlik dediğimiz göçebelik başıboş, hiçbir şeyden habersiz dolaşmak demek değildir. Aslında konar göçer toplulukların yerleşik hayatta yaşayanlara oranla daha da zor durumda yaşadıkları fikri günümüzde yapılan araştırmalar neticesinde tamamıyla geçerliliğini yitirmiştir. Dolayısıyla konar göçerliğin büyük ve geniş bozkırlarda maksatsız bir serüven olduğu sanılmamalıdır. Konar göçer topluluklar belirli bir mekâna bağlı kalmadan mevsimine göre yurt değiştirmektedirler. Konar göçer topluluklarda fazla sayıda hayvan sürüleri olduğu için insanlar tamamıyla bu hayvan sürülerinin bakımını üstlendiklerinden dolayı çoban olarak nitelendirilirlerdi. Konar göçerlikte hayvan, otlak ve avlak üçlüsü olmadan hayat sürdürülemezdi. Hayvanlarına otlak yerler bulmak için mevsimine göre yaylaklara ve kışlaklara göçerlerdi. Devam eden bu yaşam tarzı Orta Asya'dan itibaren konar göçer Türkmen topluluklarının tümünde mevcuttu. Avşarlar ve onların bağlı oldukları Kozanoğulları başlarına emir, kendi hallerinde diledikleri şekilde yaşamlarını sürdürmüşlerdir. Osmanlılara itaatleri de çoğu zaman görüntüde kalmıştır. Nerede otlak, ormanlık alan, soğuk pınarlı yaylaklar mevcut ise Avşarlar çadırlarını o bölgeye kuruyorlardı. Kimseden emir almayıp, kendi başlarına hür bir şekilde hayatlarını sürdürürlerdi. Osmanlılara vergi vermeyip bazı zamanlarda civardaki kasaba, köy ve posta arabalarına gerçekleştirdikleri akınlardan elde ettikleri soygunları kendi aralarında paylaşıyorlardı. Diğer Türkmen topluluklarının ve o civardaki köylerin sürülerini çoğu zaman baskınlar düzenleyerek kaçırıyorlardı. Aslında maddi anlamda sorunları yoktu ancak bu şekilde hüküm sürmek onlar için rahat bir yaşam tarzıydı. O kadar ki 19. yüzyıla

girildiğinde bu tür baskınlar devam ederek son bulmamıştır. Hal böyle olunca devletin iskân politikası sistemini yürürlüğe koyma zorunluluğu doğmuştur. Tebliğimizde Çukurova yöresinde konar göçer bir hayat sürdüren Avşarların yerleşik hayata geçiş aşamalarında iskân sorunları ve karşı karşıya kaldıkları diğer sorunlar üzerinde durulmuştur.

**Anahtar Kelimeler:** Avşarlar, İskân, Konar göçer, Topluluk.

**ABSTRACT**

Avşars are known as one of the twenty-four tribes of the Oghuz Turkmens. With the acceptance of Islam, especially in the period of Mahmud of Ghazni, the Oghuzs were called Turkmen. Turkmen is another name for the nomadic Oghuz people who accepted Islam. Avşarlar is one of these Turkmen tribes. The biggest problem in Konar nomadism is that there is not enough pasture for animals. Nomadic communities migrated to the highlands with the arrival of spring, and to the winter quarters in the south with the arrival of autumn. The Avşars used to stay in the Çukurova region in winter, and in the spring they would go to the highland towards Binboğa, Uzun Yayla and Taurus Mountains. The mindset, lifestyle, belief, customs and traditions of the Konar nomads, in short, were dominated by natural and climatic conditions in the first degree. Undoubtedly, nomads have a unique worldview. Otherwise, nomadism, which we call nomadism, does not mean wandering around unaware of anything. In fact, the idea that nomadic communities live in a more difficult situation than those living in sedentary life has completely lost its validity as a result of today's researches. Therefore, it should not be thought that nomadism is a purposeless adventure in large and wide steppes. Nomadic communities change their homeland according to the season without being tied to a specific place. Since there were many herds of animals in the nomadic communities, people were considered as shepherds because they took care of these herds completely. In Konar nomadism, life could not be sustained without the trio of animals, pasture and hunting grounds. They migrated to summer pastures and winter quarters according to the season to find grazing places for their animals. This continuing lifestyle was present in all nomadic Turkmen communities from Central Asia. The Avşars and the Kozanoğulları, to whom they were attached, led their lives as they wished. Their obedience to the Ottomans also remained in the image for the most part. Where there were grasslands, forested areas, and springs with cold springs, the Avşars set up their tents in that area. They did not take orders from anyone and lived their lives independently. They did not pay taxes to the Ottomans and sometimes shared among themselves the robberies they had obtained from the raids on the towns, villages and mail cars in the vicinity. They often abducted the herds of other Turkmen communities and nearby villages by raiding. In fact, they did not have financial problems, but ruling in this way was a comfortable lifestyle for them. So much so that when the 19th century entered, such raids did not come to an end. As such, it became necessary for the state to put into effect the settlement policy system. In our paper, the settlement problems and other problems faced by the Avşars, who lead a nomadic life in Çukurova region, during the transition to settled life are emphasized.

**Keywords:** Avsars, Settlement, nomad, Community.

# DÜNYA ÖLKƏLƏRİNDƏ TƏHSİLİN İDARƏ OLUNMASI TƏCRÜBƏSİ

## Education management experience in countries around the world

**Guliyeva Kamala**

**Baku, ADPU**

**kamala.328@inbox.ru**

**Özet**

Elmi məqalədə dünya təcrübəsində mövcud olmuş klassk məktəblər və ona yanaşmalar, Amerika Birləşmiş ştatlarında və Böyük Britaniyada təhsilin idarə olunması xüsusiyyətlərindəki fərqlər burada öz əksini tapmışdır. Bu məqsədlə ilkin olaraq Böyük Britaniyada İcbari və özəl təhsil arasındakı fərqlər, bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərən iki təhsil sistemi,onların vahid sistemdə birləşdirməyin çətinlikləri göstərilmişdir. 1209-cu ildə əsası qoyulmuş Kembric Universiteti və burada mövcud olan vitse-kansler (prorektor), Universitet Şurası və universitetin idarəetmə orqanı və seçki qurumunun fəaliyyət mexanizləri göstərilmişdir. Burada eyni zamanda onun idarə olunması prinsipləri göstərilmişdir. Daha sonra ABŞ, burada yerləşən Çikaqo Universiteti, Massaçusets Texnologiya İnstitutu və onların yaranma tarixi və idarəetmə sistemi göstərilmişdir. Araşdırma nəticəsində o da məlum olmuşdur ki, xarici dövlətlərdə ayrı-ayrı universitetlərin idarə olunmasındakı fərqli xüsusiyyətlər universitetlərin tipindən, dövlət və ya özəl olmasından, tarixindən, yerləşdiyi regionun sosial-iqtisadi xüsusiyyətlərindən, maliyyə mənbələrindən irəli gəlir. Lakin idarəetmədə dəyişməz prinsiplər də az deyil. Həmin prinsiplərə görə tələbəyə dövlətin, cəmiyyətin gələcəyi kimi baxılır. Tam müstəqillik, demokratik dəyərlərə sadiqlik, universitetin şərəfinin həm ölkə daxilində, həm də xaricdə uca tutulması, aşkarlıq bu prinsiplərə daxildir. Burada eyni zamanda ABŞ-da yerləşən Milli Elm Fondu (MEF) və onun federal hökumət tərkibində fəaliyyət dairəsi elm və texnikanın inkişafındakı uğurları göstərilmişdir. Bundan əlavə, ölkədə bir sıra elmi-tədqiqat institutları, bu institutlar arasında 1916-cı ildə yaradılmış Dövlət Tədqiqatları İnstitutu (Institute for Government Research) və 1927-ci ildən fəaliyyət göstərən Brukinqs İnstitutu (Brookings Institution) və onların fəaliyyət dairələri göstərilmişdir. Nobel laureatları, Nobel sülh mükafatçıları və onların amerikalı vətəndaşlar arasında sayı və uğurlarının səbəbləri göstərilmişdir.

Daha sonra İngiltərədə idarəetmədə iştirak edən ən əsas təşkilatlardan biri olan "İngiltərə üçün təhsili maliyyələdirmə şurası" (FRFG) və onun orta təhsildən sonrakı təhsil pilləsində idarəetmənin xüsusi funksiyalarından biri olan nəzarətin artırılması, nəticəetibarilə işə nəzarətin nəticələrinə uyğun üstün maliyyələşdirmə və onun həyata keçirmək vəzifələri göstərilmişdir. Böyük Britaniyada təhsilin idarə olunması qurumlarından biri olan nüfuzlu təşkilat-"Böyük Britaniyanın Təhsil Standartları Ofisi" ( OFSTED) və onun

yerinə yetirdiyi təhsil vəzifələri göstərilmişdir. Eyni zamanda məktəblərdə inspektor nəzarəti sistemi: nəzarətin məqsəd və vəzifələri müəyyən olunmuşdur.

**Açar sözlər:** xüsusiyyətlər, fərqli, maliyyələşdirmə, idarəetmə, təhsil, fəaliyyət

**Abstract**

In the scientific article, the classical schools and their approaches in the world experience, the differences in the characteristics of education management in the United States of America and Great Britain are reflected here. For this purpose, initially, the differences between compulsory and private education in Great Britain, the two educational systems operating in relation to each other, and the difficulties of combining them into a single system were shown. Cambridge University, which was founded in 1209, and the working mechanisms of the vice-chancellor (pro-rector), the University Council, the governing body of the university, and the electoral body are shown here. At the same time, the principles of its management are shown here. Then the United States, the University of Chicago, the Massachusetts Institute of Technology located here, and their history and management system are shown. As a result of the research, it was also revealed that the different characteristics of the management of individual universities in foreign countries come from the type of universities, whether they are public or private, their history, the socio-economic characteristics of the region where they are located, and their financial sources. However, there are not a few unchanging principles in management. According to those principles, the student is considered as the future of the state and society. These principles include complete independence, commitment to democratic values, upholding the honor of the university both at home and abroad, and transparency. Here, at the same time, the National Science Foundation (MEF) located in the United States and its sphere of activity within the federal government have shown the successes in the development of science and technology. In addition, a number of scientific research institutes in the country, among these institutes, the Institute for Government Research, established in 1916, and the Brookings Institution, which has been operating since 1927, and their spheres of activity are indicated. Nobel laureates, Nobel peace laureates and their numbers and reasons for their success among American citizens are shown.

Then, one of the main organizations involved in governance in England, the Education Funding Council for England (FRFG) and its role in post-secondary education, one of the specific functions of governance, is to increase oversight, and ultimately to provide superior funding in accordance with the results of oversight and its responsibilities. . In Great Britain, one of the educational management institutions, the prestigious organization "Office for Educational Standards of Great Britain" (OFSTED) and the educational tasks performed by it are indicated. At the same time, the system of inspector supervision in schools: the goals and tasks of supervision have been determined.

**Keywords:** characteristics, different, funding, management, education, activity

Hazirkı dövrdə dünyanın bir çox ölkələrində gənc nəslin təhsili və tərbiyəsi çox önəmlidir. Həmçinin, ABŞ, Qərbi Avropa, Yaponiya, Rusiya və digər nüfuzlu ölkələrin

təhsil idarəçiliyi təcrübəsinə qazandırılan qazanclar və töhfələr bütün dünya ölkələrinə təsir göstərmişdir.

Dünyada təhsilin idarə olunmasına dair elmi məlumatlar da Azərbaycan təhsil sistemində geniş müzakirə mövzularından biri olmuşdur. Bu cəhətdən əksər ölkələrin Avropa təhsil sahəsinə inteqrasiyası ilə əsas çıxış yolu hər bir ölkənin təhsilini özünəməxsus xüsusiyyətlərinə uyğun müəyyənləşdirmək idi.

Mahmudov yazır: “İnkişaf etmiş ölkələrin təhsilin idarə edilməsi təcrübəsini öyrənməklə bu tərəqqinin, bu tərəqqinin mahiyyətini anlamaq olar. Elm və texnikanın sürətli inkişafı bu gün dünyanın bütün ölkələrində təhsil sahəsində müvafiq islahatların aparılması, “innovasiya”, “yeniləşmə”, “modernləşmə” terminləri altında nəzəriyyə və praktikanın zənginləşdirilməsi üçün münbit zəmin yaratmışdır" [2,s.6].

Dünyanın inkişaf etmiş ölkələrində təhsilin idarə edilməsi təcrübəsinin öyrənilməsi təhsil sisteminin bu günü və gələcəyini daha dərindən dərk etməyə imkan verir.

Bir elm kimi idarəetmə isə XX əsrin əvvəllərində yaranmışdır və bu tarix 1911-ci ildə sahibkar alim olan Fayol “Elmi idarəetmənin prinsipləri” adlı kitabının nəşrindən başlanır.

Əvvəllər istehsal meneceri, sonralar isə məsləhətçi işləyən Fayol qazandığı təcrübəyə əsaslanaraq təklif etdiyi prinsipləri “Maqazin idarəedilməsi” (1903) və digər yuxarıda adını çəkdiyimiz kitabda işdə səmərəliliyin artırılması üçün 4 prinsipi irəli sürmüşdür:

1.Əməkdaşların öz işlərini necə yerinə yetirdiklərini öyrənmək, onların malik olduqları bilikləri müəyyənləşdirmək, işin yerinə yetirilmə yollarını inkişaf etdirməklə tətbiq etmək;

2.Yerinə yetirilən işin yeni üsullarını dəqiqləşdirmək və standart əməliyyatları kodlaşdırmaq;

3.İşçilərin malik olduqları bilik və bacarıqlarını işin yerinə yetirilməsi ilə bağlı tələblərə uyğunluğunu müəyyənləşdirmək və tələb olunan qaydalar üzrə işin yerinə yetirilməsi üçün müvafiq təlimat vermək;

4.İş üçün kifayət və məqbul hesab olunan səviyyəni müəyyən etmək və işin daha da təkmilləşdirilməsi üçün əmək haqqı sistemini müəyyənləşdirmək.

Fayolun verdiyi bu idarəçilik anlayışında icra olunacaq vəzifənin planlaşdırılması onun performası işindən ayrılmasının lazım olduğu vurğulanmışdır. O, burada nəzarət işinə də böyük əhəmiyyət vermişdir.

Əslən fransız olan Amerikalı sahibkar və tədqiqatçı alim Anri Fayol idarəetmə barədə ilk dəfə sistemli şəkildə nəzəriyyə irəli sürmüşdür. Məhz bu səbəbdən, onu “menecmentin atası” adlandırırlar.

Fayolun idarəetmə nəzəriyyəsinə əsas töhfəsi ondan ibarətdir ki, o, idarəetmə prinsiplərini sistemləşdirdi və bir neçə qarşılıqlı əlaqəli funksiyaları menecmentin universal funksiyaları kimi təqdim etməklə onların tətbiqinə tam proses kimi baxdı. Fayol

idarəetməni bir-birini izləyən mərhələlərdən ibarət olan bir proses kimi işləmiş, bu prosesin mərhələlərini idarəetmə funksiyaları kimi aşağıdakı 5 qrupda vermişdir:

-Planlaşdırma

-Təşkiletmə

-Aparıcılıq

-Koordinasiya

-Nəzarət

Fayolun apardığı tədqiqatlar göstərir ki, o, planlaşdırmaya və təşkiletməyə daha çox üstünlük verir, qalan üç funksiyanı isə ikinci dərəcəli hesab etmişdir. Hətta, dolayı yolla olsa da hiss olunur ki, o, nəzarətə kifayət qədər əhəmiyyət verməmişdir. Əlbəttə, bu, təhsil sahəsində aparılan islahatların, Təhsil Qanunu və yeni idarəetmə mexanizmin tələblərinə uyğundur.

İ. Hüseynov, A. İsayev, Z. Aquinin, Z. Əhmədov və Ə. Əliyev idarəetmə elminin öz inkişafına görə aşağıdakı təkamül mərhələlərini göstərmişlər:

I-Elmi idarəetmə məktəbi (1885-1920);

II-Klassik və ya inzibati idarəetmə məktəbi (1920-1950);

III-İnsani münasibətlər sistemi ( 1930-1950);

IV-Müasir idarəetmə (kəmiyyət) məktəbi (1950-indiyədək) [1, s.191] .

Elmi idarəetmə F. U. Teylor, Frank və Liliya Qilbertlər və Henri Hanttın işləri ilə daha çox bağlıdır və təqribən 1885-1920-ci illəri əhatə edir.

Hal-hazırda, idarəetmə məktəblərinin hazırlayıb bizə miras qoyduqları bütün klassik idarəçilik qaydaları daha da təkmilləşdirilir və inkişaf etdirilir. Belə ki, keçən əsrin əvvəllərində mövcud olmayan və bu gün real olaraq həyata keçirilən kosmosa uçuşun təşkili və idarə olunması, kompüter informasiya texnologiyalarının tətbiqi, yeni idarəetmə sistemlərinin bariz nümunəsi hesab edilə bilər.

Müasir kompüter texnologiyaları və idarəetmə sistemləri, ən mürəkkəb və ən çətin texnoloji proseslərin və dünyanın bir çox ölkələrində bölmələri olan transmilli şirkətlərin idarə olunmasına imkan və şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın (23 oktyabr 2013-cü il) və bu Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının təsdiqi (19 yanvar 2015-ci il) təhsilimizin inkişafında mühüm addım olaraq tarixə düşdü. Hər iki dövlət sənədində əsas məqsədlərdən biri kimi təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması nəzərdə tutulur. Bu da təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

Strategiyada inkişaf etmiş ölkələrin təcrübəsi nümunə götürülərək təhsildə idarəetmənin ictimailəşməsi prosesinin sürətlənməsi önə çəklib. Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir.

Amerika Birləşmiş Ştatlarında təhsil inkişaf etmiş ali təhsil müəssisələrinə ölkələrin təhsilinin ən yaxşı cəhətlərini özündə əks etdirən bir sistemdir. Ölkədəki hər bir təhsil müəssisəsində həm ölkə daxilindəki təcrübə, həm də dünya təhsilindəki uğurlar nəzərə alınır. Bu xüsusiyyət ali təhsil müəssisələrinə də aiddir. Hər bir ali məktəbin səciyyəvi xüsusiyyətləri, özünəməxsusluğu olsa da, fərqli cəhətlər də az deyil.

Dünya təhsil sistemi ilə müqayisə etdikdə görürük ki, ABŞ da təhsilin tarixi qədim deyil. Lakin təhsil sahəsində qazanılmış uğurlara nəzər saldıqda, öyrənilməli çox məsələ olduğuna şübhə etmirsən. Çikaqo Universiteti bu cəhətdən diqqəti daha çox cəlb edir. Universitet 1890-cı ildən fəaliyyət göstərir. Əsası Con Rokfellər tərəfindən qoyulub. Özəl universitetdir.

2008-ci ilin məlumatına görə, 2168 işçisi, 5000 tələbəsi, 9000 aspirantı var. Universitetin fəaliyyəti İdarə Heyəti tərəfindən koordinasiya olunur. Universitetin prezidenti tərkibi 50 nəfərdən ibarət olan idarə heyəti tərəfindən seçilir. Bu müəssisəsinin məzunlarından 85-ci Nobel mükafatçısıdır. Yeri gəlmişkən, qeyd edək ki, ABŞ prezidenti Barak Obama 1991-2004- cü illərdə burada işləmişdir. İdarəetmədə bütün nüfuzlu universitetlər üçün əsas olan demokratiklik, təhsil müəssisəsinin şöhrətinin artırılması, maliyyə sabitliyinin və inkişafının təmin olunması, tələbələrdə müstəqil, lakin məhsuldar düşüncə tərzinin formalaşdırılması əsas götürülür.

Massaçusets Texnologiya İnstitutu ABŞ təhsilində önəmli yeri olan tədris müəssisəsidir. Əsası 1861- ci ildə qoyulub. Özəldir. İdarəetmənin səmərəliliyi daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, institutda İdarəçilik Məktəbi bölməsi fəaliyyət göstərir. İnstitutun 75 məzunu Nobel mükafatına layiq görülüb.

Dünya şöhrətli azərbaycanlı alim Lütfi Rəhim oğlu Ələsgərzadə bu institutun magistraturasını bitirib. ABŞ universitetləri, bu ölkənin təhsil sistemi, onun idarə olunması ilə bağlı zəruri informasiyalara malik olmaq vacibdir. Bu, ABŞ-la hərtərəfli əlaqələrin qurulmasında qurulmasında və inkişaf etdirilməsində ali təhsilli məzunların fəaliyyətinin yaxşılaşdırılmasına kömək edə bilər.

ABŞ universitetlərində azərbaycanlı tələbələrin təhsil almaları, 662 balla Neft Akademiyasına ( indi Neft və Sənaye Universiteti) qəbul olunmuş, Amerikada keçirilən müsabiqədəki uğurlarına görə ABŞ prezidenti Barak Obama tərəfindən mükafatlandırılan Səbinə Hüseynzadənin nailiyyətlərini, Nebraska Ştatındakı Linkoln Universitetinin "Beynəlxalq Əlaqələr"adlı elmi-publisistik jurnalında azərbaycanlı alim Fəridə Hüseynzadənin məqaləsinin dərc olunmasını və s. deyilənlərə nümunə kimi göstərmək olar.

Amerika Birləşmiş Ştatlarında məktəb təhsili, cinsi, sosial, milli, dini və ya vətəndaşlıqdan asılı olmayaraq əyalətdə yaşayan bütün uşaqlar üçün açıqdır. Bundan əlavə, ABŞ-da vahid dövlət təhsil standartı yoxdur. Bunun səbəbi, müxtəlif ştatlardakı məktəblərin tez-tez ayrı-ayrı hüquqi çərçivələrə tabe olmasıdır. Təhsil prosesinin müddəti də vəziyyətdən asılı olaraq fərqlənir və 10-12 ildir. Uşaqlar 5-8-də məktəbə girir, 18-19-da məzun olurlar. Tədris ili bir neçə rüb və ya dörddə birdən ibarətdir. Tələbə müvəffəqiyyətinin qiymətləndirilməsi sistemi əlifbadır.

Ş.Qəribov, İ.Əsədova, T.İsmayılova, M. Kazımov, F.Həsənoğlu göstərir ki, “ ABŞ-da tədris prosesində təlim keyfiyyətinin düzgün idarə olunmasını həyata keçirmək məqsədilə tədris planlarını hazırlayan xüsusi mərkəzlər fəaliyyət göstərir. Tədris planları hazırlayan mərkəzlər bu sahə üzrə olan mütəxəssisləri dəvət edir. Onların iştirakını təmin edir, həmin mütəxəssislərin rəy və təklifləri nəzərə alınır. Bu tədris planlarında və proqramlarında regionun təhsil standartlarının bölmələrində mütəxəssis hazırlığı ilə məşğul olan təhsil müəssisələri qarşısında qoyduğu tələblər öz əksini tapır və bu tələblər də təhsil müəssisələrində təhsilin keyfiyyətinin idarəedilməsi prosesində dövlət tələblərinə uyğun qurulması əsas götürülür. “[4, s.156]

Təhsil məsələləri ABŞ-da üç səviyyədə tənzimlənir: federal, əyalət və yerli. Artıq qeyd edildiyi kimi, Amerikadakı təhsil sisteminin əlamətdar xüsusiyyəti, təhsil müəssisələrinin rəhbərliyinin mərkəzləşdirilməməsidir.

Buna baxmayaraq, ABŞ Təhsil Departamenti məktəblərin qəbul etdiyi proqramların icrasına nəzarət edir. Bundan əlavə, hərbi akademiyalar yerləşdikləri ştatdan asılı olmayaraq birbaşa federal hökumətə hesabat verirlər.

ABŞ-da bu cür səkkiz federal qurum var. Bəzi əyalətlərdə məktəb lövhələri praktik olaraq bütün təhsil məsələlərindən məsuldur. Ancaq belə olur ki, əyalət hökuməti səviyyəsində maliyyə, məktəb proqramlarının təsdiqlənməsi və dərsliklərin alınması məsələləri həll olunur. Tələbələrin bilik səviyyəsi daimi nəzarətə tabedir. Nəticədə, tələbələr tez-tez ayrı-ayrı, mürəkkəb və ya sadələşdirilmiş proqramlara uyğun olaraq tədris olunduqları müxtəlif səviyyəli akademik performans siniflərinə bölünürlər.

ABŞ-da məktəblilərin müvəffəqiyyətini yaxşılaşdırmaq üçün proqramların həyata keçirilməsi üçün ayrılmış federal qrant sistemi geniş yayılmışdır. Çox vaxt bir məktəbin maliyyələşdirilməsinə ayrılan pul miqdarı şagirdlərin son test balları ilə birbaşa mütənasibdir. Eyni zamanda, ABŞ-da təhsil standartlarını birləşdirmək üçün işlər aparılır.

Maraqlıdır ki, ABŞ Təhsil Nazirliyinin özü 1980-ci ildən bəri mövcuddur. Bu, ştatdakı ən kiçik nazirliklərdən biridir, təxminən 5000 işçisi var. Amerikalı uşaqlar, İdarə Heyətinə ilçe kirayə sertifikatları və pullu kommunal xərclərin nüsxələrini təqdim edərək cəmiyyətdəki məktəbdə oxuyurlar. Məktəb tələb edənlərin sayından asılı olaraq hər bölgəyə bir və ya daha çox məktəb əlavə olunur.

Dövlət məktəbləri, məktəb bölgə nümayəndələri tərəfindən seçilən məktəb lövhələri tərəfindən idarə olunur. Və onların maliyyələşdirilməsi yerli büdcədən ayrılan pul hesabına həyata keçirilir.

İngiltərədə “ İngiltərə üçün təhsili maliyyələdirmə şurası” (FRFG) idarəetmədə iştirak edən ən əsas təşkilatlardan biridir. Bu təşkilat əsas etibarilə kolleclərdə (16 yaşından yuxarı pillə), yəni əsas orta təhsildən sonrakı təhsil pilləsində idarəetmənin xüsusi funksiyalarından biri olan nəzarətin artırılmasını, nəticə etibarilə işə nəzarətin nəticələrinə uyğun üstün maliyyələşdirməni həyata keçirir. Əhalisinin sayı 45 milyon nəfər olan İngiltərənin bu tipli 450 kolleci vardır. Yəni, hər 100 min adama 1 kollec düşür ki, FEFG təşkilatının əsas əhatə obyektləri həmin tip tədris müəssisələridir. Təşkilatın illik büdcəsi 3 milyard funt sterlinqdir. İngiltərədə kolleclərin ən böyüyünün 25 min, ən kiçiyinin isə 10 min tələbə kontingenti vardır. Ən az maliyyələşən kolleclərə dövlət tərəfindən ayrılan illik vəsait 7 milyon funt sterlinqdir. Ən çox maliyyələşən kolleclərə isə 30 milyon funt sterllinqə yaxın pul vəsaiti ayrılır.

İngiltərədə 3 tip kollecmövcuddur:

I tip ( 70 faiz kongtingent)-18 yaşdan yuxarıların təhsil almaları üçün;

II tip ( 15 faz kontingent)-16 yaşından sonra təhsil alanlar üçün;

III tip (15 faiz kontingent)-yaşından asılı olmayaraq incəsənət, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üçün kadr hazırlayan sırf profilli kolleclər.

Ümumiyyətlə, Böyük Britaniya təhsil sistemi 5 mərhələyə bölünür:

I-4 yaşa qədərki dövr;

II-4-7 yaş dövrü;

III-7-11 yaş dövrü;

IV -11-16 yaş dövrü;

V-16 yaşından sonrakı dövr.

Universitet təhsili 18-24 yaş dövrünü, diplomdan sonrakı təhsil isə 24 yaşdan sonrakı dövrü əhatə edir. 21 yaş birinci diplom alan yaş dövrüdür.

M.Mərdanov, R. Ağamalıyev, A. Mehrabov, T. Qardaşov göstərirlər ki, “FEFG təşkilatı kollec pilləsinin dövlət maliyyələşməsini həyata keçirmək üçün dövlət nəzarətini təmin edir. Böyük Britaniyada dövlət nəzarəti vahid metodla-təlim-tərbiyə müəssisəsinin tam şəkildə attestasiyası formasında aparılır “[3,s.250].

Müəssisənin attestasiyası fəaliyyətin tam əhatə olunması şərtilə əvvəlcədən təsdiq olunmuş plan-qrafik ( baş sxem) əsasında həyata keçirilir. Təhsilin keyfiyyətini və tədris prosesinin səviyyəsini müəyyənləşdirən həmin proses təlim-tərbiyə müəssisəsinin maliyyələşdirilməsinin əsası olur. FEFG təşkilatı 1993-cüildə yaradılmışdır. Bu təşkilat tərəfindən 1994-cüildə 78, 1995-ciildə isə 138 təhsil müəssisəsi yoxlanılmışdır. Ümumiyyətlə, pis nəticələr(5 bal) göstərən tədris müəssisəsi bir ildən sonra yenidən attestasiya prosesinə məruz qalır.

Statistik məlumatlara görə 1994-cü ildə 78 tədris müəssisəsindən 14-ü, 1995-ci ildə isə 138-dən 33-ü ən aşağı balla qiymətləndirilmiş, ikinci, təkrar yoxlamada onların çatışmazlıqları aradan qaldırıldığı müəyyənləşdirilmişdir.

Təcrübə göstərmişdir ki, tədris müəssisələrinin təqribən 66 faizi 2 balla, 9 faizi 4-5balla, 20 faizi 1 balla qiymətləndirilir ki, bu da öz növbəsində onların həmin kriteriyalara uyğun maliyyələşdirilməsi ilə nəticələnir.

FEFG təşkilatı və onun inspektorlarıtəqdim edir, öz fəaliyyətlərində tam müstəqildirlər. Təşkilat illik hesabatını öz şurasına təqdim edir, şura isə öz növbəsində həmin materialları yaxın təşkilata göndərir. Mütləq qeyd olunmalıdır ki, İngiltərədə xüsusi Dövlət Komitəsi mövcuddur ki, həmin komitə keyfiyyətinqiymətləndirilməsi işi ilə məşğuldur. Komitə mütəmadi şəkildə maliyyələşməsinin dövlət mənafeyinə uyğunluğunu dəqiqləşdirir.

Böyük Britaniyada təhsilin idarə olunması qurumlarının siyahısına daha bir nüfuzlu təşkilat-“Böyük Britaniyanın Təhsil Standartları Ofisi”( OFSTED) də daxildir.

OFSTED təşkilatının əsas vəzifəsi dövlət standartlarının hazırlanması, onlara yerlərdə əməl olunmasına nəzarət, son nəticədə isə bu və ya digər müəssisənin lazımınca müəyyənləşdirilməsindən ibarətdir. Dövlət tərəfindən tədris müəssisəsinə verilmiş səlahiyyətlərin bilavasitə yerində necə həyata keçirilməsinə, keyfiyyət kriteriyalarının daim yüksəldilməsinə demokratik nəzarət sisteminin qurulması və onun lazımi səviyyədə tətbiqi həmin təşkilatın əsl məramıdır.

OFSTED təşkilatı FEFG təşkilatından fərqli olaraq orta ümumi təhsil müəssisələrini əhatə edir.

Böyük Britaniyada 24.000 ümumtəhsil məktəbi vardır. Həmin məktəblərin quruluşu 3 hissədən ibarətdir (7-11, 11-16, 16-18 yaşları əhatə edən pillələr).

Proses faktiki olaraq FEFG təşkilatındakı mexanizmə uyğun aparılır ki, bu da öz növbəsində ABŞ modelinə çox yaxındır.

Nəzarət ( attestasiya) edənlər qrupunun rəhbəri adətən (OFSTED) –in ştatlı inspektorlarından biri olur. Bütün ekspertlər xüsusi təhlil üçün “yazı dəftəri” açırlar. Attestasiya keçirilməzdən əvvəl valideynlərlə xüsusi görüşlər təşkil edilir, məqsəd və vəzifələr tam şəkildə açıqlanır, bu işin aparılmasında xüsusən valideynlərin-sifarişçilərin marağı ön plana çəkilir. Attestasiyada valideynlərin nümayəndələri aktiv iştirak edir, nəzarətin tam demokratik şəraitdə aparılması təmin olunur. Məktəb attestasiyasının əsl məqsədini mövcud standartların daha da təkmilləşdirilməsi üçün ekspertlər tərəfindən konkret təkliflərin verilməsi, bu və ya digər fənnin tədrisindəki çatışmazlıqların aşkar edilib dərhal aradan qaldırılması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi, gələcək fəaliyyət proqramının hazırlanması, maliyyələşmə və idarəetmənin daha da yaxşılaşdırılması, tədrisin keyfiyyətinin yüksəldilməsi, məktəbin gələcək fəaliyyətinin proqnozlaşdırılması kimi istiqamətləri təşkil edir.

Attestasiya nəticəsində ən aşağı bal (5 bal) alan məktəbdə 6 aydan sonra təkrar attestasiya aparılır. Faktiki olaraq mövcud çatışmazlıqların aradan qaldırılmasında, keyfiyyətin yüksəldilməsində məktəbin marağı daha böyükdür. Çünki, attestasiyanın nəticələri bütün valideynlərə çatdırılır, yaxşı nəticə olduğu halda şagird kontingenti artır, valideyn köməyi, eləcə də dövlət maliyyələşməsi artır.

**Ədəbiyyat siyahısı**

1.Müasir məktəb idarəetməsi və Təhsil Menecmentliyi / İ.Hüseynov, A. İsayev A. Zəhra[və b.]-Bakı: Peşəkar İnkişaf Mərkəzi, -2017, -234 s.

2.Mahmudov, M. Dünyada təhsil sistemləri / M.Mahmudov.-Bakı: Mütərcim,-2016.- 480 s.

3.Təhsil sistemində monitorinq və qiymətləndirmə /M.Mərdanov, R. Ağamalıyev, A. Mehrabov [və b.]- Bakı: Çaşığolu, -2003, -416 s.

4.Təhsilin idarə edilməsinin aktual problemləri. / Ş.Qəribov, İ.Əsədova, T.İsmayılova [və b.]- Bakı: Şahin-MB, -2016.-192 s.